AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTU

TƏRBİZ N. ƏLİYEV
BƏXTİYAR V. İSMAYILOV

# ARAN İQTİSADİ RAYONUNDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN TƏŞKİLİ:

**realllıqlar və innovativ inkişaf**

**Bakı – 2018**

**Elmi redaktor:** **A.Ş.Şəkərəliyev**
İqtisad elmləri doktoru,
professor, Əməkdar elm xadimi

**Rəyçilər:** **İ.H.Alıyev**
İqtisad elmləri doktoru,
professor

**R.P.Sultanova**
İqtisad elmləri doktoru,
professor

AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi Şurasının 27 aprel 2018-ci il (04 saylı protokol) qərarı ilə çapa tövsiyə olunmuşdur.

**Tərbiz N.Əliyev, Bəxtiyar V. İsmayılov**
"Aran iqtisadi rayonunda sahibkarlıq fəaliyyətinin təşkili: reallıqlar və innovativ inkişaf. Monoqrafiya."Elm və Bilik", Bakı, 2018 – 224 s.

*Monoqrafiyada sahibkarlıq fəaliyyətinin regional innovativ inkişafının nəzəri-təşkilati aspektlərinin qısa şərhi, Aran iqtisadi rayonunun coğrafi-iqtisadi xarakteristikası, orada sahibkarlıq subyektlərinin tərkibi və quruluşunda baş verən dəyişikliklər, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə yönəldilən investisiyaların sosial-iqtisadi nəticələri, iqtisadi rayonda yaradılan yeni iş yerləri və onların işsizliyin səviyyəsinə təsiri və sinerji effekti göstərilmiş, eləcədə innovasiya sahibkarlığının təşkilinin mövcud vəziyyəti iqtisadi fəaliyyət sahələri üzrə təhlil edilib qiymətləndirilmiş, müvafiq ehtiyat imkanları aşkara çıxarılmış, onlardan səmərəli istifadə üzrə tövsiyələr formalaşdırılmış, iqtisadi rayonda sahibkarlığın innovativ inkişafının başlıca istiqamətləri öz əksini tapmışdır.*

*Monoqrafiya regional innovasiya sahibkarlığı ilə məşğul olan rəhbər işçi və mütəxəssislər, elmi-tədqiqat institutlarının əməkdaşları, layihə menecerləri, doktorantlar üçün nəzərdə tutulmuşdur.*

**İSBN 978-9952-8342-9-1**

Kitabın istifadəsi ilə bağlı bütün
müstəsna hüquqlar müəlliflərə məxsusdur.

© *T.N.Əliyev ; B.V.İsmayılov,2018.*

# M Ü N D Ə R İ C A T


Giriş........................................................................................ 4
1. Sahibkarlıq fəaliyyətinin regional innovativ inkişafının nəzəri-təşkilati aspektləri ........................................................ 8
2. İqtisadi rayonunun coğrafi-iqtisadi xarakteristikası ............ 28
3. İqtisadi rayonda sahibkarlıq subyektlərinin tərkibi və quruluşunda baş verən dəyişikliklər ...................................... 34
4. İqtisadi rayonda sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə yönəldilən investisiyaların sosial-iqtisadi nəticələri ....... 48
5. İqtisadi rayonda yaradılan yeni iş yerləri və onların işsizliyin səviyyəsinə təsiri ..................................................... 72
6. İqtisadi rayonda innovasiya sahibkarlığının təşkilinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi ........... 79
6.1. İqtisadi rayonun sənaye sahələri ...................................... 79
6.2. Aqrar-sənaye sferası ........................................................... 94
6.3. Tikinti sferası ...................................................................... 127
6.4. Nəqliyyat sferası ................................................................. 138
6.5. Rabitə və İKT sferası ......................................................... 147
6.6. Səhiyyə, təhsil və pullu xidmətlər sferası ........................ 162
7. İqtisadi rayonda sahibkarlığın innovativ inkişafının başlıca istiqamətləri ............................................................... 182
7.1. Mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi və inkişaf konsepsiyasının formalaşdırılması ............................. 184
7.2. Sahibkarlığın regional məqsədli innovasiya proqramı əsasında inkişafı ................................................................... 189
7.3. İqtisadi rayonda innovasiya infrastrukturlarının genişləndirilməsi .................................................................. 193
İstifadə edilmiş ədəbiyyatlar .................................................. 216

# GİRİŞ

Sahibkarlığın inkişafı, əlverişli biznes mühitin yaradılması məqsədilə son 15 ildə həyata keçirilən islahatlar nəticəsində respublikamız keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş, qeyri-neft sektoru və regionların sosial-iqtisadi inkişafında yeni uğurlar əldə edilmişdir. Bu dövrdə respublikamızda sahibkarlığın səmərəli təşkili, idarə edilməsi və regionlarda inkişafına dair 140-dan çox normativ-hüquqi aktlar, müxtəlif təyinatlı dövlət proqramları, fərmanlar, sərəncamlar, qərarlar və s. qəbul edilmiş və icrası təmin olunmuşdur. Sahibkarlığa dövlət dəstəyi strateji xəttinin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Onların içərisində sahibkarlara maliyyə köməyi mexanizmi, kiçik və orta sahibkarların maliyyə vəsaitinə olan tələbatın ödənilməsi diqqəti cəlb edir. Sahibkarlığın innovasiya infrastrukturunun yaradılması sahəsində respublikada ilk sənaye şəhərciyinin, məhəllələrinin, texnoparkların, biznes inkubatorların, biznes mərkəzləri şəbəkəsinin yaradılması üzrə tədbirlər həyata keçirilməkdədir.

Eyni zamanda dövlət-sahibkar münasibətləri inkişaf etdirilmiş, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Sahibkarların hüquqlarının müdafiəsinin işlək müxanizmləri yaradılmış, onların tətbiqi nəticəsində müdaxilə halları azaldılmışdır.

Sahibkarlıq fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilini, Dövlət sərhəd-buraxılış məntəqələrində keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasının həmin prinsip üzrə aparılmasını, biznesə başlama müddətinin minimuma endirilməsini,

lisenziyalaşdırılan fəaliyyət növlərinin 4 dəfədən çox azaldılması və lisenziyanın müddətinin 2 ildən 5 ilə qədər uzadılmasını qeyd etmək yerinə düşərdi.

Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarının həyata keçirilməsi nəticəsində 2004-2017-ci illərdə təsərrüfat subyektlərinin sayı 2,6 dəfə o cümlədən Aran iqtisadi rayonunda (AİR) 2,4 dəfə artmışdır. Həmin dövrdə regional ümumi daxili məhsulun həcmi 4,4 dəfə AİR-də isə 4,2 dəfə çoxalmışdır. Bütünlükdə, adı çəkilən proqramların 2018-ci ilədək icrası dövründə 1,3 mlyn daimi olmaqla 1,77 mlyn yeni iş yerin yaradılmış, sahibkarlığa kömək Milli Fondunun vəsaiti hesabına ölkə üzrə bütünlükdə 31,2 min sahibkarlıq subyektinə 2,5 mlrd.man güzəştli kredit verilmişdir. Həyata keçirilən bu və ya digər tədbirlər sahibkarlıq fəaliyyətində azad rəqabətin inkişafına, istehsal olunan məhsulun (işin, xidmətin) həcminin artmasına, keyfiyyətinin yüksəldilməsinə təminat yaratmışdır.

Əldə edilən uğurları yüksək qiymətləndiməklə yanaşı, onu da qeyd etmək lazımdır ki, qloballaşan dünyada Azərbaycan iqtisadiyyatının hələ ki xammala istiqamətlənməsi, regionlarda istehsal və innovasiya infrastrukturların lazımi səviyyəsinin innovasiyalı iqtisadiyyatından geri qalması, rəqabət qbiliyyətli məhsulların az sayda istehsalı, həmin səbəbdən ölkəyə gətirilən məhsulların sayının ixrac edilənlərin sayından bir neçə dəfə çox olması, elmlə istehsalat arasında əlaqələrin lazımi səviyyədə təşkil edilməməsi, ETTK işlərinə yönəldilən xərclərin azlığı və s. kimi problemlərin həlli üçün Azərbaycan regionlarının elmə və biliyə əsaslanan, rəqabətədavamlı, innovasiya meyilli iqtisadiyyatın təşkilinə ehtiyac duyulur.

Tədqiq edilən aran iqtisadi rayonda kiçik və orta sahibkarlıq subyektlərinin innovasiya aktivliyi, maliyyə təminatı aşağı olması

onların böyük əksəriyyətinin zərərlə işləməsinə səbəb olmuşdur. İqtisadi rayonda innovasiya infrastrukturunun sayı və əhatə dairəsi qənaətbəxş deyil. Orada fərdi sahibkarların fəaliyyəti lazımi səviyyədə koordinasiya edilmir, kiçik müəssisələrin fəaliyyət dairəsi məhdud, xarici və müştərək müəssisələr isə az sayda təşkil edilmiş və əsasən sosial xidmət sferalarını əhatə edir. Yerlərdə işgüzar sahibkar sinifi lazımi səviyyədə formalaşdırılmamış, sahibkarlar üçün informasiya məsləhət mərkəzlərinin olmaması onların innovasiya fəaliyyətinə mənfi təsir göstərir. İqtisadi rayonda hazır kənd təsərrüfatı məhsulları tədarükünün səmərəsiz təşkili, bu sahədə təkmil mexanizmin olmaması fermerləri istehsal prosesindən kənarlaşmağa sövq edir. Sahibkarların istehsal etdikləri məhsulların əsas hissəsi daxili bazara istiqamətlənmiş, onların xarici bazarlara sərbəst çıxışı lazımi səviyyədə təşkil edilməmişdir. Sahibkarlıq subyektlərinin yüksək ixtisaslı kadrlara olan tələbatı ödənilməmişdir.

Bütün bu boşluqların aradan qaldırılması innovasiya sahibkarlığının səmərəli təşkili və idarə edilməsi, bölgələrdə qabaqcıl innovasiya infrastrukturlarının yaradılması və inkişafı üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyyələrin işlənib hazırlanmasını şərtləndirmişdir. Bu monoqrafiyanin məqsəd və vəzifələri də məhz həmin məsələlərin həllinə yönəldilmişdir.

Monoqrafiya son illər ərzində Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının; Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı; Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramlarının; Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli strategiya; Azərbaycan Respublikasında təhsilin inkiafı

üzrə Dövlət Strategiyası; Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında; Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritələrinin; Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında və digər normativ-hüquqi və tənzimləyici sənədlərin müddəalarının tələblərinə uyğun yazılmış, innovasiya yönümlü milli iqtisadiyyatının dayanıqlı inkişafının əsas amili olmaqla, regional iqtisadiyyatın dinamik inkişafı üçün dövlət innovasiya siyasətinin icrasına yönəldilmişdir.

## 1. Sahibkarlıq fəaliyyətinin regional innovativ inkişafının nəzəri-təşkilati aspektləri

Bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın formalaşdırılması bilavasitə sahibkarlığın inkişafı ilə əlaqədardır. Sahibkarlıq fəaliyyətinin nəzəri əsasları hələ XVIII əsrdə qoyulmuş və sonrakı dövrlərdə onun mahiyyəti və məzmunu haqqında nisbətən fərqli, lakin bir-birini tamamlayan fikirlər formalaşmışdır. Sahibkarlıq anlayışını ilk dəfə iqtisadiyyatda işlətmiş Riçard Kantilyonun fikrincə, sahibkarlıq xüsusi növ iqtisadi funksiya olub, müxtəlif növ əmtəələr bazarında tələblə təklif arasında uyğunluq yaratmağa xidmət edir. Kantiluyon istehsal olunan məhsulların alqı-satqısı ilə məşğul olan şəxsləri sahibkar adlandırır. O, məhsul istehsalçılarını sahibkar qrupuna daxil etməmişdir. A.Smit özünün iqtisadi nəzəriyyəsində sahibkarlıq nəzəriyyəsinə toxunaraq qeyd edir ki, sahibkar öz istehsalını planlaşdıran və təşkil edən, onun nəticələri üzərində müstəqil sərəncam verən, mənfəət əldə etmək məqsədilə kommersiya xarakterli hər hansı ideyanı reallaşdırmaq üçün risk edən mülkiyyətçidir.

Məşhur fransız iqtisadçısı J.B.Sey özünün "Siyasi iqtisadın traktları" adlı əsərində sahibkarlıq fəaliyyətini, istehsalın üç amili – torpaq, kapital və əməyin birləşdirilməsi ilə xaraktarizə edirdi. O, öz əsərində həm də ingilis sahibkarlarının istedadını və İngiltərədə sənayenin uğurlu inkişafını da əsas amillərdən biri kimi qeyd edir. Əsərdə əsas tezis kimi sahibkarlığın məhsul istehsalında fəal rolu göstərilir. J.Seyin mülahizələrinə görə, sahibkarın gəliri onun əməyinə, təşkilatçılıq qabiliyyətinə görə əldə etdiyi qazancdır. Onun fikrincə, sahibkar – bu və ya digər məhsulu istehsal etmək üçün öz kapitalı və təşəbbüskarlıq qabiliyyətilə riskə gedən şəxsdir.

D.Rikardo sahibkarlıq fəaliyyətinin təsərrüfatçılığın səmərəliliyinin məcburi elementi hesab edirdi.

K.Marksın iqtisadi nəzəriyyəsinin əsasını isə tamamilə alternativ baxış təşkil edir. Belə ki, o, sahibkarlıq fəaliyyətinə kapitalizmdən doğan istismarçı alət kimi baxırdı.

XIX-XX əsrlərdə dünya iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin rolu və əhəmiyyəti getdikcə daha dərindən dərk edilməyə başlandı. Fransız iqtisadçısı Andre Marşall ilk dəfə olaraq istehsalın üç klassik amilinə (torpaq, kapital, əmək) dördüncü amili kimi təşkilatçılıq qabiliyyətini də əlavə etdi.

Məşhur Amerika iqtisadçısı İozef Şumpeter "İqtisadi inkişafın nəzəriyyəsi" adlı kitabında sahibkarlıq fəaliyyətini kapitalist iqtisadiyyatında iqtisadi atrımın təmin edilməsinin başlıca hərəkətverici qüvvəsi hesab etmişdir. Onun fikrincə, sahinkarlıq – istehsalatda yeni texnologiya əldə edən novatordur.

Bu problemə ingilis iqtisadçısı, 1974-cü ildə iqtisadiyyat üzrə Nobel mükafatı almış F.Xayek yenidən qayıtmış və onun fikrincə, sahibkarlığın mahiyyəti heç də bu qeyd edilənlərlə məhdudlaşmır. O, sahibkarlığı heç də bu və ya digər fəaliyyət növü kimi deyil, əksinə, iqtisadi imkanların axtarılması və öyrənilməsi kimi xarakterizə edirdi. Bunlarla yanaşı digər iqtisadçılar "Sahibkarlıq fəaliyyəti" və "Sahibkar" məvhumunu müxtəlif aspektlərdən şərh etmişdir. Belə ki, Bodonun fikrincə sahibkar müəssisədə istehsalı təşkil edən, onu planlaşdıran və bunun üçün məsuliyyət daşıyan şəxsdir; Frensis Uoker sahibkar dedikdə öz təşkilatçılıq qabiliyyəti ilə mənfəət və faiz əldə edən şəxs nəzərdə tuturdu; Devid Makleland sahibkarı hər bir risk şəraitində fəaliyyət göstərən enerjili insan hesab edirdi; Piter Druker sahibkarı maksimum mənfəəft əldə etmək üçün bütün imkanlardan istifadə edən insan kimi xarakterizə edirdi; Albert Şapiroya görə sahibkar sosial-iqtisadi mexa-

nizmin təşkilatçısı və təşəbbüskarı olub baş verə biləcək uğursuzluğa görə də tam məsuliyyət daşıyan insandır; C.Keyns isə sahibkarları təsərrüfatçılığın yeni sosial-psixoloji tipi adlandırmışdır.

Lakin həmin fikirlər tarixin sonrakı dövrlərində dəyişmiş və daha da təkmilləşmişdir. Bu baxımdan "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununda sahibkarlıq fəaliyyətinə verilmiş tərifi daha təkmil hesab edirik. Qanunda göstərilir ki, "Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keşirilən müstəqil təşəbbüskarlıq fəaliyyətidir".

Həqiqətən də bu tərif sahibkarlıq fəaliyyətinin məzmununu dövrün tələbinə uyğun əks etdirir.

İqtisadiyyatın dinamik inkişafı ölkədə azad rəqabətə əsaslanan güclü sahibkarlar təbəqəsinin formalaşması və inkişafından asılıdır. Ona görə də son illərdə ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı ilə əlaqədar dövlət səviyyəsində həyata keçirilən tədbirlərin xarakteri dəyişmişdir. Belə ki, regionların sosial-iqtisadi inkişafını təmin etmək üçün 2003-cü ildən başlayaraq ölkə Prezidenti tərəfindən çoxsaylı Fərman və Sərəncamlar imzalanmış, iki Dövlət Proqramının müddəaları icra edilmiş, üçüncü Dövlət Proqramında nəzərdə tutulan tədbirlər uğurla həyata keçirilir. Həmin sənədlərdə sahibkarlığın dövlət səviyyəsində dəstəklənməsinin konkret tədbirlərdə öz müsbət həllini tapması, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqini təmin etmək üçün ixtisaslı kadrların hazirlanması, sahibkarların səmərəli fəaliyyəti üçün əlverişli şərait yaradılması dövlətin sosial-iqtisadi siyasətinin əsas istiqamətlərini təşkil edir.

Digər tərəfdən, sahibkarlıq fəaliyyətinə sistemli dəstək vermək üçün Sahibkarlığa Kömək Milli Fondu (SKMF) yaradılmışdır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq, Azərrbaycanda sahibkarlığın stimullaşdırılması və inkişafı üçün özəl bölməyə xüsusi diqqət göstərilir, müxtəlif istiqamətlər üzrə dövlət dəstəyi tədbirləri həyata keşirilir. Dövlət başçısının təşəbbüsü ilə sahibkarlıq subyektlərində aparılan yoxlamaların dayandırılmasına dair Qanunun qəbul olunması, gümrük və lisenziyalaşdırma sahələrində inzibati prosedurların sadələşdirilməsinə dair imzalanmış fərmanlar sahibkarlıq sahəsində çox mühüm addımlar olmaqla özəl bölmənin inkişafına böyük təkan vermişdir. Artıq lisenziyalar İqtisadiyyat Nazirliyi vasitəsi ilə verilir ki, bu da sahibkarlıq fəaliyyətinin səmərəli təşkilində, şəffaflığın təmin olunmasında, mümkün korrupsiya hallarına yol verilməməsi baxımdan önəmlidir. Azərbaycan öz müstəqilliyini bərpa etməzdən əvvəl, yəni keçən əsrin 80-ci illərində respublikamızda sahibkarlıq fzaliyyəti ilə məşğul olan subyektlər formaşlamağa başlamışdır. "Əmək kollektivləri haqqında" SSRİ Qanununun qəbul edilməsi ilk növbədə fiziki cəhətdən qüsurla lakin əmək qabiliyyətli insanların ev şəraitində fərdi sahibkarlıqla məşğul olmalarına zəmin yaratmışdır. Həmin illərdə "Korrupsiya haqqında", "Müəssisə haqqında" SSRİ Qanunlarının Azərbaycan ərazisində də tətbiqi kooperativlərin, icarə müəssisələrinin, assosiasiyaların, kiçik müəssisələrin, konsernlərin yaradılmasına və inkişafına təkan vermişdir. Azərbaycan öz müstəqilliyini yenidən bərqəqar etdikdən sonra "Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Qanunun qəbul edilməsi, ona müvafiq iki dövlət Proqramının işlənilməsi və icrası yeni sahibkarlıq subyektlərinin sayının və əhatə dairəsinin genişləndirilməsinə imkan yaratmışdır. Keçən əsrin 90-

cı illərində bir-birinin ardınca qəbul edilən “İnvestisiya fəaliyyəti haqqında”, “Xarici investisiyaların qorunması haqqında” qəbul edilən Azərbaycan Respublikasının Qanunları, eləcə də qiymətlərin və xarici iqtisadi fəaliyyətin liberallaşdırılması haqqında qəbul edilmiş hökumət qərarları yeni sahibkarlıq subyektlərinin (xarici və müştərək müəssisələr, səhmdar cəmiyyətləri və s.) yaradılmasına əsaslı təkan vermişdir. Məhz həmin sahibkarlıq subyektləri bütün ölkə ərazisində qabaqcıl texnika və texnologiya ilə təmin eilən istehsal və xidmət sahələrinin inkişafına təkan vermiş, regionların innovasiya aktivliyini nisbətən yüksəlmişdir.

Ölkə ərazisində həyata keçirilən struktur islahatları nəticəsində sahibkarlıq subyekti kimi birliklər, müxtəlif təsərrüfat assosiasiyaları, icarə kollektivləri, açıq və qapalı tipli səhmdar, müxtəlif yoldaşlıq cəmiyyətləri, müştərək müəssisələr, holdinqlər, maliyyə-sənaye qrupları, kiçik müəssisələr, kooperativlər, fermer təsərrüfatları, innovasiya infrastrukturları, texnoparklar, texnopolislər, sənaye və xidmət məhəllələri, səhmdar kommersiya bankları, birjalar, azad iqtisadi zonalar və s. geniş şəbəkələr yaranmağa və inkişaf etməyə başlamış, sahibkarlığın prinsiplərinin, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və vəzifələrinin, onun dövlət tərəfindən müdafiə üsulları, sahibkarın dövlət orqanları ilə qarşılıqlı münasibətləri dərinləşmişdir.

Bu konteksdə sahibkarlıq fəaliyyətinin motivlərinin əsas əlamətlərini, innovativ fəaliyyət obyektlərini və innovativ prosesin mərhələlərini sxem şəklində aşağıdakı kimi təsnifləşdirmək olar (şəkil 1.1).




**Şəkil 1.1.** Sahibkarlıq fəaliyyətinin əsas motivləri, əlamətləri, obyektləri və innovasiya prosesinin mərhələləri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına görə, 2017-ci ilin əvvəlində ölkə üzrə bütün sahibkarlıq subyektlərinin 13,5%-i, yəni yaradılmış müəssisə və təşkilatların 6,3%-i, ləğv edilən eyni adlı subyektlərin 0,5%-i, kiçik müəssisələrin 13,0%-i, fərdi sahibkarların təxminən 20,5%-i Aran iqtisadi rayonunda cəmləşmişdir [25]. Son illər həmin rayonda yaradılan çoxsaylı sənaye və aqrar-emal sahələrinin, müalicə-diaqnostik mərkəzlərin yaradılmasına baxmayaraq, orada innovativ sahibkarlığın inkişafının zəruriliyi aşağıdakı amillərlə şərtləşir:

- İnnovasiya infrastrukturunun qeyri-qənaətbəxş formalaşması və yerləşdirilməsi;
- İnnovasiya məhsulunun bütün iqtisadi fəaliyyət sahələrində beynəlxalq təcrübədə nəzərdə tutulan astana həddindən kəskin fərqlənməsi;
- Qeyri-neft sektorunun ixrac potensialının aşağı olması;
- Elmi-tədqiqat işlərinin sahibkarlıq subyektlərində ləng tətbiq edilməsi;
- Sahibkarlıq subyektlərinin mütləq sayının və xüsusi çəkisinin kiçik müəssisələrlə xarakterizə olunması;
- Menecerlər İnstitutunun lazımi səviyyədə formalaşdırılmaması;
- Sahibkarların xarici bazara çıxış imkanlarının məhdudluğu;
- Sahibkar firmalarda davam edən "investisiya aclığı";
- Əksər sahibkar firmalarda bazarın tədqiqinin ikinci palana olması və onların fəaliyyətinin cari tələbata hədəflənməsi;
- Yeni məhsulların mənimsənilməsi üçün yeni texnika və texnologiyanın sürətli tətbiqinin obyektiv zəruriliyi;
- İdxalı əvəz edən məhsulların çeşidin artırılması ücün emal müəssisələrində intensiv amillərə üstünlük verilməsi;
- Yeni texnikanın yaradılması, işlənilməsi və mənimsənilməsi müddətlərinin əhəmiyyətli dərəcədə azaldılması, istehsalın

texniki səviyyəsinin yüksəldilməsinin vacibliyi, ixtiraçıların və səmərələşdiricilərin kütləvi yaradıcılığının inkişaf etdirilməsinin zərruriliyi;

- İnnovasiya sahibkarlığı prosesinin mərhələləri və pillələri arasında uyğunsuzluğun davam etməsi;
- İnnovasiya sisteminin inkişafı üzrə regional investisiya-innovasiya proqramlarının və texnologiyaların transferti mərkəzlərinin yaradılmasının zəruriliyi;

Bütün bunlar nəzərə alınmaqla onu da qeyd etmək vacibdir ki, hazırda iqtisadi cəhətdən inkişaf etmış ölkələrdə ÜDM-in artımının 70%-i innovasiya texnologiyaları əsasında istehsal edilən məhsulların payına düşür.

Deməli iqtisadi rayonda yerli xüsusiyyətləri nəzərə almaqla müvafiq innovasiya konsepsiyası əsasında sahibkarlığın innovativ inkişafına təminat yaradan, sistemli yanaşmaya əsaslanan, kompleks tədbirlərin işlənilməsi və həyata keçirilməsinə zəruri ehtiyac duyulur. Onların icrası isə regional innovasiya fəaliyyətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsini eləcədə məqsədli innovasiya proqramının işlənilməsi və həyata keçirilməsini tələb edir.

Məlumdur ki, hər bir iqtisadi rayon – təbii, istehsal, demoqrafik, sosial, mənəvi, idarəetmə və maliyyə potensialına malikdirlər. Onların təsnifatı və tərkibini aşağıdakı kimi foramalaşdırmaq olar (şəkil 1.2).




**Şəkil 1.2.** Regionun iqtisadi potensiallarının təsnifatı və tərkibi

Bütün kiçik müəssisələrin 11%-i aqrar sferada, 31,0%-i ticarət və nəqliyyat vasitələrinin təmiri sferasında, 11,8%-i tikintidə; 6,3%-i çoxsferalı emal sənayesində, 39.9 %-i isə digər iqtisadi fəaliyyət sahələrində cəmləşmişdir [25, s.114-116]. Azərbaycan reallığında, xüsusilə iqtisadi regionlarda işçilərin orta siyahı sayı 7-8 nəfər olan kiçik müəssisələrdə innovsiya fəaliyyətini genişləndirmək əksər hallarda mümkün olmur. Ona görə də ölkəmizdə fəaliyyət göstərən kiçik, orta və iri sahibkarlıq subyektlərində əsaslı təşkilatı dəyişikliklərə ehtiyac duyulur.

Beynəlxalq təcrübəyə əsaslanaraq müasir sahibkar firmaların əsas cəhətlərini aşağıdakı kimi təsnifləşdirmək olar (şəkil 1.3).




**Şəkil 1.3.** Müasir sahibkar firmaların fəaliyyətini əks etdirən cəhətlərin təsnifatı

Ümüd etmək olar ki, mövcud və yeni yaradılan sahibkarlıq subyektlərində şəkildə göstərilən əsas cəhətlər nəzərə alınacaqdır. Bizim fikrimizcə, həmin cəhətlər yalnız müvafiq təşkilati dəyişiklik kontekstində mümkündür. Belə dəyişiklik öz əksini: mövcud

təşkilati strukturlarda, idarəetmə metodlarında və mədəniyyətində, rəhbərlik üslubunda, mövcud texnologiyada və ən vacibi isə əməyin motivləşdirilməsi sistemində tapmalıdır. Bu səpkidə aparılan dəyişiklikdə başlıca məqsəd innovasiya fəaliyyətinin genişləndirilməsi üzrə təşkilati-iqtisadi tədbirlərin real şəraitdə həyata keçirilməsi və xərclərin səmərəli idarə edilməsidir (şəkil 1.4.)




**Şəkil 1.4.** Sahibkar firmalarda təşkilati dəyişikliyin məqsədi və istiqamətləri

Bazar münasibətləri şəraitində iqtisadi mühit mütəmadi olaraq dəyişdiyindən müəssisənin səmərəliliyini təmin etmək üçün yeni metodlardan, üsullardan və texnologiyalardan istifadə etməyə böyük ehtiyac duyulur. Bu məqsədlə sənaye müəssisələrində innovasiya sahibkarlığının sistemli şəkildə və fasiləsiz inkişafı onun rəqabət mühitində dayanıqlığına təminat yarada bilər.

Müəssisənin inkişaf strategiyası çərçivəsində rəqabət qabilliyinin əsas amili kimi, mövcud olan resurslarda daha səmərəli istifadə etmək vacib şərti kimi çıxış edir.

İstənilən təşkilati sistemin səmərəliliyinin yüksəldilməsi vasitəsini aşağıdakı üç qrupa ayırmaq olar:

1. İşçilərin marağının yüksəldilməsi və onların işə münasibətlərinin yaxşılaşdırılması hesabına müəssisənin daxili ehtiyatlarının aşkar edilərək səfərbəliyə alınması yolu ilə səmərəliliyinin yüksəldilməsi;

2. Səmərəsi aşağı olan texnologiyaların ləğvi və rentabelliyi az olan məhsullar üzrə struktur dəyişikliyi aparmaqla istehsalın səmərəliliyinin yüksəldilməsi;

3. Müəssisədə innovasiya prosesinin dinamikliyinin təmin edilməsi hesabına yerli məhsul, xidmət və yeni texnologiyaların yaradılması, onların istehsalata tətbiq edilməsi yolu ilə istehsalın səmərəliliyinin yüksəldilməsi;

Yuxarıda qeyd edilənlərdən bu nəticəyə gəlmək olar ki, müasir dövrdə müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsi yolunda həyata keşiriləcək ən vacib şərt müəssisədə innovasiyanın sürətləndirilməsidir. Bütünlükdə innovasiya prosesi müxtəlif yollarla həyata keçirilə bilər. Konkret hallarda ən səmərəli yolların seçilməsi texnologiyanın xüsusiyətlərindən; son məhsulun bazarından; firmanın iqtisadi potensialından; təbii iqlim şəraitindən; rəhbərliyin səriştəlilik səviyyəsindən asılıdır. Tanınmış mütəxəssis P.Druker daha dərinə gedərək innovasiya ideyasının yaranmasının əsas səbəbi olan yeddi təhlil sahəsini qeyd etmişdir: 1. firma üçün gözlənilməz hadisə (onun uğuru yaxud uğursuzluğu) və ya xarici mühitdə gözlənilməz hadisənin baş verməsi; 2. iqtisadi reallıqla o sahədə olan təsəvvürün düz gəlməməsi; 3. daxili proseslərin (təşkilati, texnoloji və s.) təkmilləşdirilməsi tələbatı. 4. bazarın yaxud sahənin strukturunda gedən dəyişikliklər; 5. demoqrafik dəyişikliklər; 6. də-

yərlilik meyarından və ya dərketmədə gedən dəyişikliklər; 7. elmi və ya təcrübi yolla müəyyən edilən yeni elm.

Ölkəmizdə bazar münasibətlərinin dərinləşdiyi şəraitdə ən vacib məsələlərdən biri bütün iqtisadi regionların təsərrüfat subyektlərində və emal sənayesinin alt sahələrində innovasiya prosesinin sürətləndirilməsidir. Bu zaman elm-texniki nailiyyətlərdən maksimum istifadə etməklə, təkamül yolu ilə sosial-iqtisadi inkişafa, biznes prosesin yaxşılaşdırılmasına, yeni biznes modellərin yaradılmasına üstünlük verilməlidir (şəkil 1.5).




**Şəkil 1.5.** Regional sahibkarlıq mühitində radikal inkişafın və məhsuldarlığın yüksəldilməsinin prinsipial sxemi

Qeyd edilən dəyişiklik innovasiya sahibkarlığının yenidən təşkili məsələsini ön plana çəkir ki, onu da aşağıdakılar şərtləndirəcəkdir:

1. Bazarın qloballaşması;
2. Rəqabətin kəskinləşməsi;
3. Xarici mühitdə gedən sürətli dəyişikliklər;
4. İstehsalın səmərəliliyinin yüksəldilməsi və müəssisənin son məqsədinə nail olunmasında innovasiyanın həlledici rolu;
5. Müxtəlif təbiətli qrupları özündə birləşdirən çox mərhələli proseslərin yaradılması və tətbiqi;
6. Elmi-texniki tərəqqinin və istehsal prosesinin özünəməxsus xüsusiyyətləri;
7. Kollektivdə subyektiv amillərin və psixoloji mühitin rolunun yüksək olması;
8. Eyni məhsul istehsalı üzrə xərclərinin artması hesabına iqtisadi göstəricilərin müvəqqəti pisləşməsi;
9. Texnika və texnologiyanın mənəvi cəhətdən sürətlə aşınması;
10. İnnovasiya prosesinin dinamikliyinin və fasiləsizliyinin təmin olunmaması;
11. İşləmələrə çəkilən xərclərlə onun tətbiqi nəticəsində alınan iqtisadi səmərə arasında uzun müdətin olması.

Qeyd edilən nəzəri-metodoloji müddəaları nəzərə alaraq, ölkəmizin sənaye müəssisələrinin perspektiv inkişafı biznes-fəaliyyətinin dayanıqlı strategiyasına əsaslanmalıdır. Bu zaman balanslaşan biznes sisteminin yaradılması, diversifikasiya və rəqabət strategiyasının işlənilməsi və həyata keçirilməsi, eləcə də sahədə mövcud idarəetmə sisteminin əsaslı şəkildə təkmilləşdirilməsi təmin edilməlidir (şəkil 1.6).




**Şəkil 1.6.** Biznes fəaliyyətin dayanıqlı inkişaf strategiyasının prinsipial sxemi

İqtisadi regionlarda rəqabət qabiliyyətli sahibkar müəssisələr yaratmaq və onların innovasiya fəaliyyətini genişləndirmək üçün investisiya təminatı əsaslı şəkildə yaxşılaşdırılmalıdır.

İnnovasiya proseslərinin təşkili və tənzimlənməsində dövlətin rolunun artması elmi-texniki və ya innovasiya siyasətinin işlənib hazırlanmasını və ardıcıl həyata keçirilməsini zəruri etmişdir. Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi belə nəticəyə gəlməyə əsas verir ki, innovasiya siyasəti dövlətin sosial-iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasət regional innovasiya proqramlarının və layihələrinin dövlət tərəfindən dəstəklənməsi mexanizmlərini müəyyənləşdirir. Dövlət regional innovasiya siyasəti yerli məhsulların rəqabətqabiliyyətliliyinin artırılması, sabit iqtisadi artımın təmin edilməsi, əhalinin həyat səviyyəsinin və keyfiyyətinin yüksəl-

dilməsi, ölkənin müdafiə, texnoloji və ekoloji təhlükəsizliyinin təmin edilməsi üçün innovasiya fəaliyyətinin prioritetliyinin qəbul edilməsi əsasında formalaşmalı və reallaşmalıdır.

İri və orta sahibkar firmalarda innovasiya yönümlü təşkilati dəyişikliyin zəruri şərtləri özündə maddi, sosial-psixoloji, təşkilati, informasiya və insan resurslarından səmərəli istifadə aspektlərini cəmləşdirməlidir. Onların tərkib hissəsi 1.7 saylı şəkildə əks etdirilmişdir.




**Şəkil 1.7.** İri və orta sahibkar firmalarda təşkilati dəyişikliklərin zəruri şərtləri

Regionlarda fəaliyyət göstərən iri və orta sahibkar firmalarda təşkilati dıyişikliklərin həyata keçirilməsi zamanı texnokritik, strateji və bazar modeli yanaşmalarından istifadə qarşıya qoyulan hədəflərin əldə olunmasına təminat yaradacaq (şəkil 1.8).




**Şəkil 1.8.** Sahibkar firmalarda təşkilati dəyişikliyin həyata keçirilməsində tətbiq edilə bilən yanaşmaların təsnifatı və məzmunu

Sahibkarlıq subyektlərində təşkilati dəyişikliklərin həyata keçirilməsi ilk növbədə dövlətin regional innovasiya siyasətinə söykənməlidir. Həmin siyasətin dəstəklənməsinin əsas istiqamətlərinə aşağıdakılar aid edilməlidir:

- Qabaqcıl innovasiya texnologiyalarının regiona transfert edilməsi və tətbiqi işinin intensivləşdirilməsi, milli innovasiya

sahibkarlığının formalaşdırılması kontekstində onların maraqlarının qorunması;

- Müasir texnoloji üsula (uklada) əsaslanan innovasiyaların tətbiqinin dəstəklənməsi;
- İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsi ilə bazarın innovasiya mexanizmi və əqli mülkiyyətin qorunması arasında mütənasıbliyin saxlanılması.

Adı çəkilən siyasətin qeyd edilən kontekstdə icrasını təmin etmək üçün iqtisadi rayonun innovasiya potensialının qorunması və inkişafına dair müvafiq strategiyanın aşağıdakı istiqamətlər üzrə işlənilməsi zəruridir:

- İnnovasiya fəaliyyətinin genişləndirilməsi üçün bank kreditlərinin cəlb edilməsi sisteminin mövcud mexanizminin təkmilləşdirilməsi;
- Neft-qaz, neft məhsulları və mineral xammalların ixracından əldə edilən mənfəətin bir hissəsinin innovasiya fonduna yönəldilməsi;
- İcrası vacib olan innovasiya layihələrinin maliyyələşdirilməsinin qısa zamanda təmin edilməsi;
- Vergi Məcəlləsində regionun emal sənayesində innovasiya aktivliyinin yüksəldilməsinin təmin edilməsinə yönəldilən dəyişikliyin aparılması;
- İnnovasiya prosesinin və innovasiya fəaliyyətinin maliyyələşdirilməsi üçün amortizasiya fondunun vəsaitindən məqsədli istifadə sisteminin formalaşdırılması;
- İnnovasiya fəaliyyətinin subyektləri üçün lizinqdən səmərəli istifadə sisteminin işlənilməsi və həyata keçirilməsi.

Beynəlxalq təcrübədə innovasiya fəaliyyətinin stimullaşdırılması üçün aşağıdakı növ vergi güzəştləri tətbiq edilir:

- Tədqiqat və investisiya xarakterli vergi kreditlərinin ayrılması;

- İnnovasiyanın tətbiqindən alınan mənfəətdən vergi ödənişinə (xərclərin bir hissəsinə) möhlət verilməsi;
- İnnovasiya xərclərinin artan hissəsi və vergilərin azaldıılması;
- İnnovasiya layihələrinin həyata keçirilməsindən əldə edilən mənfəətdən ödənişə bir neçə il ərzində "vergi tətili"nin şamil edilməsi;
- İnnovasiya təşkilatlarının sərəncamında olan səhmlər üzrə fiziki və hüquqi şəxslərin dividentlərinə vergi güzəştlərinin tətbiqi;
- Sifarişlə və birgə yerinə yetirilən ETLKİ-dən əldə edilən mənfəət üzrə vergi dərəcələrinin aşağı salınması;
- Prioritet sahələrdə icra edilən innovasiya layihələrinə güzəştlərin şamil edilməsi;
- Əqli mülkiyyətin tərkibinə daxil edilən sahələrdə patentlərdən, lisenziyalardan, nou-hau və digər qeyri-maddi aktivlərdən istifadə nəticəsində əldə edilən mənfəətə vergi güzəşti;
- Ali məktəblərə, elmi-tədqiqat təşkilatlarına və digər innovasiya təşkilatlarına ayrılan cihaz və avadanlıqların dəyərinə vergi yükünün azaldılması;
- Vergiyə cəlb edilən mənfəətdən innovasiya fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə ayrılan xeyriyyə fondlarının vəsaitinin çıxılması.

Fikrimizcə, sadalanan güzəştlərin Azərbaycanın Vergi Məcəlləsində nəzərə alınması, regionlarda innovasiya fəaliyyətinin genişləndirilməsinə imkan verə bilər.

İnnovasiya fəaliyyətinə dövlət dəstəyinin büdcədənkənar formalarını aşağıdakı kimi təsnifləşdirmək olar:

- yenilikcilərin (novatorların), xüsusilə kiçik sahibkarların hüquqi cəhətdən qorunması;
- yenilikçilərə vergi, kredit, gömrük, icarə və amortizasiya ödənişləri üzrə güzəştlərin şamil edilməsi;

- dövlətin innovasiya-investisiya təyinatlı kompleks proqramlarına büdcədənkənar vəsait hesabına maliyyələşən innovasiya layihələrinin daxil edilməsi;
- innovasiya fəaliyyətinin informasiya təminatı;
- yenilikçilərin xarici-iqtisadi fəaliyyətində himayəçilik siyasətinin aparılması;
- yenilikçilərə sertifikatlaşdırılmanın, marketinq tədqiqatlarının aparılmasında, reklam fəaliyyətində və yeni məhsulun (xidmətin) satışında dövlət dəstəyi;
- daxili və beynəlxalq kooperasiya, eləcə də mürəkkəb texnikaların təmirinin həyata keşirilməsində yenilikçilərə dövlət dəstəyi;
- büdcədən kənar fondların, ittifaqların, assosiasiyaların yaradılmasında innovasiya fəaliyyətinin dəstəklənməsi;
- büdcədənkənar fondların vəsaitlərinin istifadəsi üzərində nəzarət və uçotun təşkili.

Dövlət himayəçiliyi innovasiya strategiyasının ən vacib alətlərindən biri hesab edilir və bazar prinsipləri əsasında mövcud büdcə və maliyyə-kredit sisteminin təkmilləşdirilməsini tələb edir. Azərbaycan reallığı şəraitində dövlət büdcəsinin aşağıdakı üç altbölməyə – sosial, iqtisadi və innovativ inkişafa ayrılması və icrası ölkədə innovasiya potensiallarından səmərəli istifadəyə zəmin yaratmış olacaqdır.

Hesab edirik ki, şöbələri regionlarda yaradılmaqla, dövlət innovasiya fondunun təşkili innovasiya layihələrinin stimullaşdırılması və həyata keçirilməsi üçün cəmləşdirilən maliyyə resurslarından səmərəli istifadə olunmasına imkan verəcəkdir. Digər tərəfdən, ƏDV-nin 5%-ə qədərinin regional innovasiya layihələrinin icrasına sərf edilməsi regionun innovasiya aktivliyini əsaslı şəkildə artırmış olacaqdır.

## 2. İqtisadi rayonun coğrafi-iqtisadi xarakteristikası

Aran iqtisadi rayonu olduqca əlverişli coğrafi mövqeyə malikdir. O, şimalda Böyük Qafqaz, cənub-qərbdə Kiçik Qafqaz, cənubda Lənkəran iqtisadi regionu, şərqdə isə Xəzər dənizi ilə həmsərhəddir.

AİR-in ümumi sahəsi 21,4 min kv km.olmaqla, ölkə ərazisinin 24,7%-ni təşkil edir və onun ərazisinin yarıdan çoxu dəniz səviyyəsindən aşağıda yerləşən düzənliklərdən ibarət olub, quru subtropik iqlimə malikdir.

Respublikamızın əkinçilik regionu olan Aran iqtisadi regionunun torpaq örtüyü əsas etibarilə boz və açıq şabalıdı torpaqların müxtəlif növlərindən ibarətdir.

AİR-in yaşayış üçün əlverişli təbii şəraiti və iqtisadi-coğrafi mövqeyi əhalinin məskunlaşmasında mühüm rol oynamışdır. Orada əhalinin orta sıxlığı hər kv.km-ə 94 nəfər təşkil edir. Ayrı-ayrı rayonlarda əhalinin orta sıxlığı 46 nəfərlə 162 nəfər arasına dəyişir. Əhalinin aşağı sıxlığı Neftçala, Zərdab, İmişli, Hacıqabul, Kürdəmir, Saatlı rayonlarında, nisbətən yüksək sıxlığı Göyçay, Bərdə, Ağdaş, Ucar, Sabirabad rayonları üçün xarakterikdir. Mingəçevir şəhərində həmin göstərici 737 nəfər, Şirvan şəhərində isə 1214 nəfər təşkil edir (cədvəl 2.1).

AİR-in əsas yeraltı sərvətləri: neft, təbii qaz, yodlu və bromlu mədən sularından, müxtəlif tikinti materiallarından ibarətdir. Bu ehtiyatlar əsasən rayonun mərkəz və cənub-şərq hissəsində cəmlənmişdir. Bol günəş enerjisi, Kür və Araz çaylarının su ehtiyatları, əkinə yararlı geniş torpaq fondu rayonun başlıca təbii sərvətlərindəndir. İqtisadi rayonun sənayesi əsasən, onun cənub-qərbində (Şirvan, Salyan, Neftçala) və şimal-qərbində (Mingəçevir və Yevlax şəhərlərində) cəmlənmişdir. Elektoenergetika rayonun inkişaf etmiş və ixtisaslaşmış sahələrindən biridir. Mingəçevir şəhərinin iki

elektrik stansiyasının istehsal etdiyi enerji ölkədə istehsal edilən bütün enerjinin təxminən 60 faizini təşkil edir.

**2017-ci ilin əvvəlinə iqtisadi rayonun ərazisi, əhalisinin sayı və sıxlığı**

*Cədvəl 2.1.*

| Rayonların adları | Ərazisi min kv.km | Əhalinin sayı min nəfər | Əhalinin sıxlığı (1 kv.km.,nəfər) |
|---|---|---|---|
| Aran iqtisadi rayonu cəmi | 21,15 | 1985,2 | 94 |
| o cümlədən | | | |
| Göyçay | 0,74 | 118,3 | 160 |
| Beyləqan | 1,13 | 96,4 | 85 |
| Ağcəbədi | 1,76 | 133,3 | 76 |
| Bərdə | 0,95 | 154,2 | 162 |
| Neftçala | 1,45 | 86,5 | 60 |
| Biləsuvar | 1,36 | 100,9 | 74 |
| Salyan | 1,60 | 135,6 | 85 |
| Yevlax | 1,47 | 126,7 | 86 |
| Mingəçevir şəhəri | 0,14 | 103,2 | 737 |
| Ağdaş | 1,02 | 107,9 | 106 |
| Ucar | 0,83 | 86,6 | 104 |
| Zərdab | 0,86 | 57,7 | 67 |
| Kürdəmir | 1,63 | 114,4 | 70 |
| İmişli | 1,89 | 127,1 | 67 |
| Saatlı | 1,18 | 105,1 | 89 |
| Sabirabad | 1,47 | 172,7 | 117 |
| Hacıqabul | 1,60 | 73,6 | 46 |
| Şirvan şəhəri | 0,07 | 85,0 | 1214 |
| **) Cədvəl ARDSK-nın “Azərbaycanın regionları” statistik məcmuəsinin məlumatları əsasında tərtib edilmişdir [23].* | | | |

Kimya, maşınqayırma, yüngül, yeyinti, tikinti materialları istehsalı iqtisadi rayonun sanayesinin əsasını təşkil edir. Kimya

sənayesi müəssisələri Mingəçevir, Neftçala şəhərlərində fəaliyyət göstərir. Salyanda plastik kütlə zavodu, Neftçalada yod-brom zavodu mövcuddur. Mingəçevir, Şirvan və Salyan iqtisadi rayonun maşınqayırmasının əsas mərkəzləridir. İqtisadi rayon ərazisindəki bütün rayonların mərkəzlərində yeyinti sənayesi müəssisələri mövcuddur. Qeyd edilən sahələrlə yanaşı pambığın ilkin emalı zavodları məhsul istehsalına görə yüksək xüsusi çəkiyə malikdir. İqtisadi rayonda pambıq parça toxuculıuğu (Mingəçevir), yunun ilkin emalı (Yevlax), süni gön-dəri istehsalı (Şirvan), xalçaçılıq (Hacıqabul) yüngül sənayenin mühüm sahələridir. Rayonun yeyinti sənayesi meyvə-tərəvəz (Sabirabad), balıq konservləri (Bankə), ət-süd və heyvandarlıq məhsularının emalına əsaslanır. AİR-da inkişaf etmiş sənaye ilə yanaşı kənd təsərrüfatının bir çox sahələri ildən-ilə genişlənmişdir. Onun kənd təsərrüfatı suvarma əkinçiliyinə əsaslanır. Burada pambıqçılıq, üzümçuluk, quru subtropik meyvəçilik, bostançılıq kənd təsərrüfatının ixtisaslaşdırılmış sahələrindəndir. Azərbaycanda istehsal olunan pambığın 90 faizindən çoxu bu rayonun payına düşür. Orada biyan, çiyid, bitki yağların meyvə-tərəvəz konservləri, balıq, balıq unu, balıq konservləri, körpə balıqların artırılması ilə məşğul olan müəssisələr fəaliyyət göstərir.

Aran iqtisadi rayonu ölkə əhəmiyyətli magistral nəqliyyat xəttləri (dəmir, şose yolları) üzərində yerləşir. Bakı şəhərini ölkənin əsas iqtisadi rayonları, həmçinin Gürcüstan, İran və Türkiyə respublikalarını birləşdirən nəqliyyat yolları bu regionun ərazisindən keçir. Eyni zamanda Avropa və Asiyadan çarpaz şəkildə keçən marşrutlar şəbəkəsini əks etdirən və 33 ölkədən keçən məşhur İpək Yolu, "Bakı-Tibilisi-Ceyhan" əsas neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum Qaz kəməri, eləcə də Bakı-Supsa neft kəməri, Bakı-Tbilisi-Qars dəmir yolunun bu rayonun ərazisindən keçməklə, iqti-

sadi rayonda sənaye sahələrinin inkişafına müsbət təsir göstərərək, onun əhəmiyyətini artırmışdır.

Kür çayının hidroenerji ehtiyatının mənimsənilməsi rayonda sənaye sahələrinin və suvarma əkinçiliyinin inkişafına geniş imkan yaratmışdır.

Aran iqtisadi rayonunun ölkə iqtisadiyyatında rolu və mövqeyi ildən-ilə genişlənməkdədir.

**Aran iqtisadi rayonunun ölkə iqtisadiyyatında rolu və mövqeyi**

*Cədvəl 2.2.*

| № | Göstəricilər | AİR-in payı %-lə |
|---|---|---|
| 1 | Ölkə ərazisinin | 24,4 |
| 2 | Ölkə əhalisinin | 20,2 |
| 3 | Sahibkarlıq subyektlərinin | 19,6 |
| 4 | Əsas sahələr üzrə regionlarda ümumi məhsul buraxılışının | 7,3 |
| 5 | Iqtisadiyyatda muzdla işləyənlərin | 14,0 |
| 6 | Əhalinin gəlirlərinin | 12,9 |
| 7 | Sənaye məhsulunun | 0,3 |
| 8 | Kənd təsərrüfatı məhsulunun<br>O cümlədən:<br>Bitkiçilik məhsullarının<br>Heyvandarlıq məhsullarının | 30,9<br><br>27,4<br>33,9 |
| 9 | Pərakəndə ticarət dövriyyəsinin | 13,6 |
| 10 | Əsas kapitala yönəldilmiş investisiyaların | 5,1 |
| 11 | Açılmış yeni iş yerlərinin (2016-cı ildə)<br>O cümlədən:<br>Daimi iş yerlərinin | 29,1<br><br>22,7 |
| 12 | Yeni yaradılmış müəssisə və təşkilatların (2016-cı il) | 6,3 |
| 13 | Ləğv edilmiş müəssisə və təşkilatların (2016-cı il) | 0,5 |
| 14 | Kişik müəssisə və təşkilatların (2016-cı il) | 13,0 |
| 15 | Fərdi sahibkarların (2016) | 20,5 |
| 16 | Torpaq payı almış ailə təsərrütlarının (2016-cı il) | 27,3 |

**) Cədvəl ARDSK-nin "Azərbaycanın regionları" və "Sosial iqtisadi inkişaf" aylıq məcmuəsinin məlumatları əsasında tərtib edilib hesablanmışdır*

Araşdırmalar göstərir ki, 2016-cı ildə əsas sahələr üzrə ölkənin bütün iqtisadi rayonlarında ümumi məhsul buraxılışının 7,3%-i, iqtisadiyyatda muzdla işləyənlərin 14,0%-i, kənd təsərrüfatı məhsullarının 30,9%-i, pərakəndə ticarət dövriyyəsinin 13,6%-i, açılmış daimi iş yerlərinin 22,7%-i, yeni yaradılan müəssisə və təşkilatların 6,3%-i həmin iqtisadi regionda cəmləşmişdir. (cədvəl 2.2.)

Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının icrası nəticəsində iqtisadi rayonda bir sıra innovasiya infrastrukturları – müasir texnika və texnologiya ilə təchiz edilən yeni sənaye müəssisələri, yüksək ödənişli iş yerləri, müasir suvarma sistemləri, Yaradıcılıq evi, Gənclər Mərkəzi, xarici və birgə müəssisələr və s. yaradılmışdır. Sabirabad və Bərdə rayonlarında "ASAN xidmət" mərkəzinin regional filialının, Neftçala rayonunda "Sənaye Məhəlləsinin", Mingəçevir şəhərində "Sənaye Parkının" yaradılması Mingəçevir və Yevlax şəhərlərinin Tibbi sığorta üzrə Dövlət Agentliyinin icbari tibbi sığortalanma üzrə pilot ərazilərin seçilməsi və müvafiq məqsədli layihələrin icrası, rayon ərazisində aqroparkların təşkilinə start verilməsi innovasiya strukturunun tədriclə formalaşdığını göstərir.

Rəsmi statistik məlumatlara görə 2017-ci ilin əvvəlinə Aran İqtisadi Rayonunda mütərəqqi texnologiya əsasında, çoxçeşidli məhsul istehsal edən (Ağcabədi, Biləsuvar, Salyan) süd məhsulları zavodu, konserv zavodu (Biləsuvar, Kürdəmir) fəaliyyətlərini davam etdirmiş, Şirvan şəhəri və Bərdə rayonunda ən yeni tibbi avadanlıqlarla təchiz edilmiş müalicə-diaqnostika mərkəzləri, Ağdaş, Bərdə, Biləsuvar, Göycay, İmişli, Kürdəmir, Sabirabad, Salyan, Saatlı rayonlarında və Şirvan şəhərində beynəlxalq standartlara cavab verən Olimpiya İdman Kompleksləri tikilib istifadəyə verilmişdir. 2016-cı ildə iqtisadi rayonun ərazisində 92 xəstəxana, 373 məktə-

bəqədər təhsil müəssisəsi, 930 əyani ümumi təhsil ocağı, 729 kütləvi kitabxana, 46 muzey, 428 poçt şöbələri əhaliyə xidmət göstərir.

Təkcə 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Mingəçevir, Ağdaş, Beyləqan, Bərdə, Göyçay, Kürdəmir, Neftçala, Sabirabad, Ucar rayonlarında müxtəlif təyinatlı 80-dan çox emal müəssisələrinin, nəqliyyat yol qovşağının və digər sosial infrastruktur obyektlərinin açılışında və yaxud təməlqoyma mərasimində iştirak etmişdir.

Bütün bunlar iqtisadi rayonda innovasiya sahibkarlığının mərhələli inkişafına və onun nəticəsində əhalinin sosial rifah halının yaxşılaşmasına, ərzaq və enerji təhlükəsizliyinin təmin edilməsinə hədəflənmişdir.

## 3. İqtisadi rayonda sahibkarlıq subyektlərinin tərkibi və quruluşunda baş verən dəyişikliklər

Aran iqtisadi rayonu (AİR) özünün ərazisi, orada mövcud olan təsərrüfat subyektlərinin sayına, kənd təsərrüfatı məhsullarının həcminə görə digər iqtisadi rayonlardan böyük və istehsal sahələrinin quruluşuna görə fərqlidir. Azəraycan Respublikası Dövlət Statistka Komitəsinin (ARDSK) məlumatlarına görə 2010-2016-cı illər ərzində AİR-də statistik vahidlərin Dövlət reyestrində qeydə alınan müəssisə və təşkilatların sayı 124% artaraq 14,5 min vahidə çatmışdır. Həmin dövrdə iqtisadi rayonda 2,8 mindən çox yeni müəssisə yaradılmış və eyni zamanda müxtəlif obyektiv və subyektiv səbəblərdən onların 422 vahidi fəaliyyətlərinə xitam vermişlər. Əgər 2010-cu ildə AİR-da 9,3 min vahid kiçik müəssisə fəaliyyət göstərmişdirsə, 2016-cı ildə onların sayı 120,4% artaraq 11,2 min vahidə çatmışdır. Onu da qeyd etmək vacibdir ki, təhlilin əhatə etdiyi dövrdə kiçik müəssisələrin bütün sahibkarlıq subyektlərinin tərkibindəki xüsusi çəkisi 0,6 punkt azalaraq 2016-cı ilin yekunlarına görə 10,5% təşkil etmişdir. Təəssüflə qeyd edilməlidir ki, ölkəmizin ən iri iqtisadi rayonunda cəmi 20 vahid xarici və müştərək müəssisə fəaliyyət göstərir ki, onların da mütləq əksəriyyəti kənd təsərrüfatı və xidmət təyinatlıdır. Qeyd edilən illər ərzində AİR-də torpaq payı almış ailə təsərrüfatlarının sayı dəyişməyərək 232,2 min vahid təşkil etmişdir, lakin fərdi sahibkarların sayı 2 dəfə artaraq 140,6 min nəfərə çatmışdır (cədvəl 3.1).

**Aran iqtisadi rayonunda sahibkarlıq subyektlərinin tərkibində baş verən institusional dəyişikliklər *)**

*Cədvəl 3.1.*

| Göstəricilər | i l l ə r | | | |
|---|---|---|---|---|
| | 2010 | 2014 | 2015 | 2016 |
| Statistik vahidlərin Dövlət reyestirində qeydə alınan müəssisə və təşkilatların sayı, vahid | 10720 | 13116 | 13816 | 14530 |
| İl ərzində yeni yaradılan müəssisə və təşkilatların sayı, vahid | 477 | 1117 | 744 | 917 |
| Onların yekuna görə xüsusi çəkisi, faizlə | 4,1 | 8,5 | 5,4 | 6,3 |
| İl ərzində ləğv edilən müəssisə və təşkilatların sayı, vahid | 207 | 30 | 33 | 78 |
| Onların yekuna görə xüsusi çəkisi, faizlə | 1,8 | 0,2 | 0,2 | 0,5 |
| Kiçik müəssisə və təşkilatların sayı, min vahid | 9,3 | 9,9 | 10,4 | 11,2 |
| Onların yekuna görə xüsusi çəkisi, faizlə | 86,5 | 75,7 | 75,4 | 77,2 |
| Xarici və müştərək müəssisələrin sayı, vahid | 19 | 20 | 20 | 20 |
| Onların yekuna görə xüsusi çəkisi, faizlə | 0,18 | 0,15 | 0,15 | 0,16 |
| Fərdi sahibkarların sayı, min nəfər | 57,2 | 102,3 | 114,1 | 140,6 |
| Onlardan: kişilər | 49,9 | 86,2 | 95,4 | 115,9 |
| Qadınlar | 7,3 | 16,1 | 18,7 | 24,7 |
| Torpaq payı almış ailə təsərrüfatlarının sayı, min vahid | 232,2 | 232,2 | 232,2 | 232,2 |

**) Cədvəl ARDSK-in 2010-2016-cı illər üzrə "Sosial iqtisadi inkişaf" aylıq məcmuələrinin məlumatları əsasında tərtib edilib hesablanmışdır [25].*

İqtisadi rayon üzrə sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların sayı 3.2 saylı cədvəldə verilmiıdir. Cədvəldən göründüyü kimi təkcə 2005-2016-cı illərdə AİR-da calışan fərdi sahibkarların sayı 1404 nəfər və yaxud 3,2 dəfə artmışdır. Fərdi sahibkarların Bərdə, Beyləqan, Biləsuvar, Salyan, Yevlax, İmişli rayonlarında və Mingəçevir şəhərində sayı və xüsusi çəkisi daha yüksəkdir.

**Aran iqtisadi rayonunda sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların sayı (nəfər) *)**

*Cədvəl 3.2.*

| Rayonlar | İ l l ə r | | | | | |
|---|---|---|---|---|---|---|
| | **2005** | **2010** | **2012** | **2013** | **2014** | **2016** |
| Aran iqtisadi rayonu üzrə cəmi o cümlədən: | 640 | 927 | 1335 | 1540 | 1782 | 2044 |
| Göyçay | 36 | 82 | 104 | 118 | 123 | 142 |
| Beyləqan | 35 | 52 | 72 | 91 | 110 | 130 |
| Ağcabədi | 19 | 44 | 55 | 60 | 65 | 91 |
| Bərdə | 76 | 124 | 168 | 198 | 239 | 249 |
| Neftçala | 35 | 36 | 61 | 60 | 68 | 68 |
| Biləsuvar | 19 | 48 | 72 | 83 | 106 | 120 |
| Salyan | 60 | 76 | 101 | 102 | 107 | 102 |
| Yevlax | 35 | 56 | 86 | 109 | 131 | 161 |
| Mingəçevir şəhəri | 95 | 133 | 172 | 217 | 297 | 350 |
| Ağdaş | 12 | 30 | 49 | 55 | 46 | 53 |
| Ucar | 25 | 20 | 32 | 36 | 40 | 53 |
| Zərdab | 6 | 14 | 23 | 27 | 36 | 38 |
| Kürdəmir | 11 | 15 | 31 | 33 | 37 | 46 |
| İmişli | 35 | 45 | 82 | 107 | 123 | 138 |
| Saatlı | 20 | 29 | 45 | 46 | 51 | 56 |
| Sabirabad | 39 | 42 | 59 | 69 | 74 | 82 |
| Hacıqabul | 8 | 21 | 30 | 32 | 32 | 33 |
| Şirvan şəhəri | 58 | 60 | 93 | 98 | 97 | 92 |
| **) Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, “DSK", 2014, s. 238-276; 2017 - s. 241-280* | | | | | | |

Aran iqtisadi rayonunda 2016-cı ildə 329 sənaye müəssisəsi və 2044 nəfər sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlar tərəfindən 1146 milyon manatlıq məhsul istehsal edilmiş və xidmət göstərilmişdir. Onun 14,6%-i mədənçıxarma, 49,8%-i emal sənayesi, 34,1%-i elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,5%-i isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sferalarının payına düşmüşdür.

İqtisadi rayon üzrə 2016-cı ildə əsas sahələr üzrə regional məhsul buraxılışının həcmi 5031,5 mlyn. man təşkil etmişdir ki, onun da 22,8%-i sənaye, 34,6%-i kənd təsərrüfatı məhsulu, 42,6%-i isə digər iqtisadi fəaliyyət sahələrinin məhsulları (işləri, xidmətləri) olmuşdur.

AİR-də mövcud təsərrüfat subyektlərinin (14,5 min vahid) 9,3%-i hüquqi, 90,7%-i isə fiziki şəxslərdən ibarətdir. İqtisadi rayonda fəaliyyətdə olan 48 min vahid kiçik sahibkarlıq subyekti tərəfindən 2016-cı ildə 746 mlyn.man. məhsul istehsal edilmişdir. İqtisadi rayonda hər 1000 nəfərə 28 vahid kiçik sahibkarlıq subyekti düşür. İl ərzində kiçik sahibkarlıq subyektləri tərəfindən əsas kapitala 29,8 mlyn.man. investisiya yönəldilmişdir ki, onun da 43%-i İmişli, 33,2%-i Ağdaş, 19,5%-i Şirvan sahibkarlarının payına düşmüşdür. AİR-də məhsul istehsal edən və xidmət göstərən kiçik müəssisələrin 29,8%-i kənd təsərrüfatı, 10,1%-i sənaye, 7,3%-i tikinti, 39%-i ticarət və nəqliyyat vasitələrinin təmiri, 1,3%-i nəqliyyat və anbar təsərrüfatı, 12,5%-i isə digər iqtisadi fəaliyyət sahələri üçün xarakterikdir.

Ölkə üzrə kiçik müəssisələr tərəfindən buraxilan məhsulun yalnız 6,0%-i Aran iqtisadi rayonundakı kiçik müəssisələrin payına düşür. Araşdırmalar göstərir ki, 2016-cı ildə AİR-da iqtisadiyyatın bütün sahələri üzrə kiçik sahibkarlıq subyektləri tərəfindən istehsal

edilən məhsulun 72%-i fiziki şəxslərin – fərdi sahibkarların payına düşmüşdür. Buraxılan bütün məhsulun, yerinə yetirilən işin (xidmətin) 52,1%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 15,1%-i nəqliyyat və anbar təsərrüfatı, 22,4%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə sferaları üçün xarakterik olmuşdur.

AİR-də fərdi sahibkarlar tərəfindən istehsal edilən məhsulun (işin, xidmətin) rayonlar üzrə xüsusi çəkisi şəkil 3.1-də əks etdirilmişdir.

Aran iqtisadi rayonunda Dövlət registirində qeydə alınan müəssisə və təşkilatların 24,6%-i orta və iri müəssisələrdir. Onlar menecmentin mütərəqqi forması hesab edilən səhmdar cəmiyyəti kimi fəaliyyətini davam etdirirlər. Yeri gəlmişkən qeyd etmək vacibdir ki, Dövlət mülkiyyətinin özəlləşdirilməsinin müvafiq Dövlət Proqramlarına uyğun 1996-2015-ci illər ərzində ölkə ərazisində 1604 səhmdar cəmiyyətləri yaradılmışdır. Onların 434 vahidi və yaxud 27,1%-i aqrar; 345 vahidi (21,5%) sənaye; 266 vahidi (16,6%) tikinti; 241 vahidi (15%) xidmət; 198 vahidi (12,3%) nəqliyyat; 100 vahidi (6,2%) ticarət; 20 vahidi (1,2%) isə səhiyyə sferaları üçün xarakterik olmuşdur (cədvəl 3.3). İnformasiya çatışmazlığı səbəbindən Aran iqtisadi rayonunda səhmdar cəmiyyətlərinin dəqiq sayını burada göstərmək imkan xaricindədir. Lakin iri və orta müəssisələrin xüsusi çəkisi faktını dövlət müəssisələri bazasında yaradılmış səhmdar cəmiyyətlərinin ümumi sayına şamil etsək, onda AİR-də (1604×24,6%) 401 vahid müxtəlif təyinatlı səhmdar cəmiyyətlərnin (SC) olduğunu güman etmək olar.




**Şəkil 3.1.** Fiziki şəxslər-fərdi sahibkarların məhsul buraxılışının AİR-in bölgələri üzrə xüsusi çəkisi (faizlə)

**Azərbaycanda dövlət müəssisələri bazasında yaradılmış səhmdar cəmiyyətlərinin illər və sahələr üzrə bölgüsü *)**

*Cədvəl 3.3.*

| İllər | S a h ə l ə r | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | aqrar | sənaye | xidmət | tikinti | ticarət | nəqliyyat | səhiyyə | cəmi |
| **1996** | - | 2 | - | - | - | - | - | 2 |
| **1997** | 211 | 72 | 94 | 19 | 34 | 26 | 0 | 456 |
| **1998** | 103 | 68 | 69 | 94 | 47 | 112 | 114 | 507 |
| **1999** | 34 | 15 | 3 | 18 | 5 | 13 | 3 | 91 |
| **2000** | 8 | 27 | 7 | 34 | 6 | 16 | - | 98 |
| **2001** | 36 | 101 | 28 | 33 | 5 | 3 | - | 206 |
| **2002** | 19 | 21 | 16 | 12 | - | 17 | 1 | 86 |
| **2003** | 5 | 12 | 5 | 8 | - | 6 | - | 36 |
| **2004** | - | 9 | - | 1 | - | - | - | 10 |
| **2005** | 3 | 2 | 1 | 1 | - | 1 | - | 8 |
| **2006** | 2 | 5 | 3 | 1 | - | 1 | - | 12 |
| **2007** | 7 | 4 | 7 | 20 | 2 | 1 | 2 | 43 |
| **2008** | 2 | 1 | 1 | 5 | - | 1 | - | 10 |
| **2009** | - | 1 | - | 4 | - | - | - | 5 |
| **2010** | 2 | 2 | 1 | 2 | - | - | - | 7 |
| **2011** | - | 3 | 3 | 4 | - | - | - | 10 |
| **2012** | - | - | 1 | 6 | - | - | - | 7 |
| **2013** | - | - | 1 | 3 | - | 1 | - | 5 |
| **2014** | 2 | - | 1 | - | 1 | - | - | 4 |
| **2015** | - | - | - | 1 | - | - | - | 1 |
| **1996-2015 cəmi** | 434 | 345 | 241 | 266 | 100 | 198 | 20 | 1604 |

**) Cədvəl Azərbaycan Respublikası Əmlak məsələləri üzrə Dövlət Komitəsinin rəsmi saytının məlumatları əsasında tərtib edilmişdr.*

Onların içərisində: Hacıqabul kərpic zavodu SC; Keramik plitələr istehsalı zavodu; Göyçay süd zavodu ASC; “Göyçay-1” SES; İmişli Şəkər Zavodu; Mingəçevir şəhərində kompüter istehsalı müəssisəsi; Şirvan şəhərində yağ emalı zavodu; Salyanda süd məhsulları emalı zavodu; Kürdəmirdə konserv zavodu, Sabirabadda sement istehsalı zavodu, Bərdədə asfalt-beton istehsalı zavodu, Biləsuvarda konserv zavodu, Ağcabədidə süd emalı zavodu və “Atena” süd məhsulları emalı kombinatı, İmişlidə “Green Land” qarışıq yem fabriki, “Araz” damazlıq quşçuluq fabriki, Bərdədə çörək zavodu, “Qarabağ” aqrar sənaye kompleksi, Ağdaşda meyvə emalı və yem zavodları fəaliyyətini uğurla davam etdirirlər. Həmin ASC-lərdə yüksək keyfiyyətli tikinti materialları, bitki yağları, kərə yağı, pendir və kəsmik, un, üzüm şərabı, səməni pivəsi, mineral və qazlı sular, alkoqolsuz içkilər, pambıq lifi, hazır pambıq parçalar, pambıq yataq ağları, bərk polietilen borular, şlanqlar, plastik qapı və pəncərə blokları, sement, əhəng, bitum qarışıqları, mebel, elektrik və istilik enerjisi və s. istehsal edilmiş və onların həcmi son beş ildə artıb-azalan xəttlə dəyişmişdir.

Aran İqtisadi Rayonunda sahibkarlığın innovativ inkişafında, müvafiq infrastrukturun yaradılmasında, investisiya və innovasiya layihələrinin həyata keçirilməsində İqtisadiyyat Nazirliyinin Sahibkarlığa kömək Milli Fondunun (SKMF) fəaliyyəti danılmazdır. Bu vaxtadək AİR-da sahibkarlara 543 mlyn.man. güzəştli kredit verilmişdir. Təkcə 2004-2016-cı illər ərzində həmin Fond tərəfindən Ağcabədi rayonunda 392 sahibkara 24,1 mlyn.man. güzəştli kredit verilmişdir. Bərdə rayonunda regionların sosial-iqtisadi inkişafı üzrə III Dövlət Proqramının keçən dövr ərzində SKMF tərəfindən 2858 sahibkara 71,5 mlyn.man. güzəştli kredit verilmiş və nəticədə

5153 yeni iş yeri yaradılmışdır. Bu kimi tədbirlər iqtisadi rayonun digər bölgələrində də həyata keçirilmişdir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının prioritetlərinə və "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın müddəalarına uyğun sahibkarlığın innovativ inkişafının təmin edilməsi, qabaqcıl texnologiyalara əsaslanan rəqabət qabiliyyətli və innovativ sənaye sahələrinin yaradılması, eləcə də istehsal sahələrində əhalinin məşğulluğunun artırılması məqsədilə son illər beynəlxalq təcrübədə geniş tətbiq edilən və yüksək sosial-iqtisadi səmərəyə imkan verən Sənaye Parklarının və Sənaye Məhəllələrinin yaradılması təcrübəsi respublikada geniş tətbiq edilir. Bu baxımdan ölkə Prezidentinin müvafiq sərəncamları ilə Neftçala və Sabirabad rayonlarında yaradılan sənaye məhəlləsi və Mingəçevirdə inşasına başlanılan Mingəçevir Sənaye Parkı AİR-də sahibkarlığın innovativ inkişafına əsaslı təkan vermiş olacaqdır. İlk növbədə onu qeyd etmək vacibdir ki, Neftçala Sənaye Məhəlləsi 10 ha ərazidə yerləşir və orada hər biri 2 moduldan ibarət olan və ümumi sahəsi 15 min kv.m. yaxın olan 8 istehsal bloku, inzibati bina və bütün zəruri infrastruktur yaradılaraq sahibkarların istifadəsinə veriləcəkdir. Əldə edilən ilkin məlumata görə Neftçala Sənaye Məhəlləsində investisiya layihələrinin həyata keçirilməsi üçün güzəştli kreditlər ayrılmışdır. Ümumilikdə, dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, son illər 132 müasir sənaye müəssisəsinin maliyyələşdirilməsinə 409 milyon manatdan çox güzəştli kredit verilib. Güzəştli qaydada maliyyələşdirilmiş müəssisələrdə istehsal olunan məhsullar idxalı əvəz etməklə yanaşı, ölkənin sənaye potensialının reallaşdırılmasında mühüm rol oynayacaqdır. Neftçala Sənaye Məhəlləsində İran İslam Respublikası ilə birgə avtomobil zavodunun tikintisi nəzərdə tutulur. Bununla yanaşı

orada neft-qazçıxarma avadanlığı, avtoqoşqu, nasos, balıq yemi, balıq konservi, qayıq və balıqçılıq ləvazimatları, suvarma sistemləri avadanlıqları, metal-konstruksiya, plastik qapı-pəncərə istehsalı müəssisələrinin yaradılması nəzərdə tutulur.

Yuxarıda adı çəkilən Konsepsiya və Dövlət Proqramının icrasına uyğun Mingəçevir şəhərində yaradılan Sənaye parkı öz iqtisadi əhəmiyyəti və əhatə dairəsinə görə diqqəti cəlb edir. Onun sahəsi 120 min kv metrdir, inşaat işlərinə 60 mlyn. manat, avadanlıq və dəzgahların alınmasına 150 mlyn. dollar investisiya qoyulması nəzərdə tutulmuşdur. Parkda ilkin mərhələdə 2000, sonra isə 6000-ə yaxın yeni iş yerləri yaradılacaqdır. Mingəçevir Sənaye Parkında bir sıra istehsal və emal müəssisələrinin təşkili nəzərdə tutulmuşdur (şəkil 3.2).

Mingəçevir Sənaye Parkının (MSP) nəzdində müxtəlif təyinatlı 9 müəssisə inşa ediləcək. Pambıq ipliyi istehsalı müəssisəsində likin mərhələdə ildə 10 min ton, növbəti mərhələdə isə 20 min ton iplik istehsalı nəzərdə tutulub. Azərbaycanda böyük tələbat olan akril ipliyi istehsalı müəssisəsində ilkin mərhələdə il ərzində 3 min ton məhsul hazırlanacaq. Bu, idxaldan asılılığı qismən aradan qaldıracaq. Yun ipliyi istehsalı müəssisəsində ildə 3 min ton məhsul istehsal ediləcək.




**Şəkil 3.2.** Mingəçevir Sənaye Parkında fəaliyyət göstərəcək istehsal və emal müəssisələrinin təsnifatı

MSP-nin corab istehsalı müəssisəsinin tikintisi ilə ilkin mərhələdə Azərbaycanın corab məhsullarına tələbatının 50% ödənilməsi, illik 35 milyon, növbəti mərhələdə isə 70 milyon cüt corabın istehsalı nəzərdə tutulub. Ayaqqabı istehsalı müəssisəsində illik 1,5 milyon cüt dəri ayaqqabı istehsal ediləcək.Qabaqcıl texnologiyaların tətbiq olunacağı bu müəssisələrdən başqa Sənaye Parkında tibbi kosmetika məhsulları istehsalı müəssisəsinin yaradılması da planlaşdırılıb. Müəssisədə pambıq mahlıcı və ipliyinin tullantılarının təkrar emalı da nəzərdə tutulub. Tullantılardan sterilləşdirilmiş pambıq, tibbi sarğı bezləri və bandajları, qulaqtəmizləyən çöplər və makiyaj bezləri istehsal olunacaq.

Azərbaycanda növbəti illərdə pambıq istehsalının əsaslı şəkildə genişləndirilməsi MSP-nin nəzdində pambıq ipliyi və parçasının istehsal müəssisəsinn yaradılması əhəmiyyətini artırmışdır. İllik istehsal gücü 15 milyon metr təşkil edəcək müəssisə müasir avadanlıqla təchiz olunacaq. Bununla yanaşı, hazırlanacaq xam parçanın boyanması üçün parkın nəzdində illik gücü 15 milyon metr olan boyama müəssisəsi inşa ediləcək. Ölkədə hazır geyim məhsullarına olan tələbatı ödəmək və idxaldan asılılığı azaltmaq məqsədilə Azərbaycanın və bütövlükdə Qafqazın ən nəhəng tikiş müəssisəsi də Mingəçevir Sənaye Parkında inşa ediləcək. Müəssisədə iki minə yaxın yeni iş yeri açılacaqdır.

MSP-də yerinə yetiriləcək işlərə təqribən 150-200 mlyn. dollar investisiya yönəldiləcəkdir. Fəaliyyət göstərən müəssisələr ixrac yönümlü olmaqla ölkədə qeyri-neft potensialını artırmış olacaqdır. Nəzərdə tutulan müəssisələrin tikintisi nəticəsində Mingəçevir Cənubi Qafqazın yüngül sənaye mərkəzlərindən birinə çevriləcəkdir. MSP-də fəaliyyət göstərəcək müəssisələrin əksəriyyətində yerli xammaldan istifadə ediləcəkdir. Orada istehsal olunacaq pambıq,

yun və akril ipliyinin, dəri məmulatlarının ixracı ölkəmizə böyük həcmdə xarici valyuta gətirəcəkdir. MSP-də görüləcək işlər kənd təsərrüfatı ilə sənaye istehsalı sahələrini birləşdirərək qeyri-neft sektorunun inkişafına əsaslı təkan verəcəkdir. Əminliklə qeyd edilməlidir ki, yeni yaradılan Mingəçevir Sənaye Parkı Azərbaycanın yüngül sənayesinin inkişafında əvəzolunmaz rol oynayacaq və ölkəmizi dünya bazarında qabaqcıl texnologiyalarla istehsal ediləcək məhsulları ilə təmsil edəcək.

Aran İqtsadi Rayonunda sahibkarlığın innovativ inkişafına təkan verə biləcək mütərəqqi idarəetmə formalarından biri də - Aqroparkların yaradılmasıdır. Onlar kənd təsərrüfatı məhsullarının intensiv istehsal olunmasına, daşınmasına, saxlanılmasına və onun satışının səmərəli təşkil edilməsində mühüm rol oynayır. Aqropark kənd təsərrüfatı ilə sənaye müəssisələrinin birgə, itkisiz və səmərəli fəaliyyətinə təminat yaradır. Başqa sözlə, aqropark – aqrar və sənaye sahələrinin sıx əməkdaşlığının təmin edildiyi və özündə marketinq imkanlarını cəmləşdirən birgə fəaliyyət növüdür.

Müasir dövrdə aqroparklar ərzaq təhlükəsizliyini, kənd təsərrüfatı istehsalında milli brendlərin yaradılmasını, sahənin, həmçinin aqrar elm, təhsil və istehsalın innovativ inkişafını təmin etməklə, aqrar sektorda istehsal potensialının inkişafında mühüm rol oynayır.

Aqroparkın təşkilati-iqtisadi və sosial üstünlükləri aşağıdakılardan ibarətdir:

- Vahid məkanda istehsal-emal-logistika-marketinq prinsipinə üstünlük verilməsi;
- Müasir texnika, texnologiya və İKT-nin tətbiqi üçün əlverişli şərait yaranır;
- İstehsal, nəqliyyat və enerji xərcləri minimuma endirilir;

- Ortaq problemlər və ümumi maraqların birləşməsi rəqabətə davamlılıq qabiliyyətini artırır;
- Ehtimal olunan hər hansı bir xəstəliyin yayılması məhdudlaşır;
- Könüllülük əsasında əmlakdan müştərək istifadə edilir;
- Məqsədli innovasiya layihələri birgə həyata keçirilir;
- Tədarük, istehsal və emal prosesində qənaətçillik prinsipinə üstünlük verilir;
- Maliyyə imkanları genişlənir və ixrac potensialı artır;
- İnnovasiya menecmentinin mütərəqqi forma və metodları geniş tətbiq edilir;
- Aqrotexniki, sanitar və fitosanitar xidmətlərin vahid məkanda və ərazidə kombinasiyası təmin edilir;
- İstehsal, emal və satışın son nəticəsinə uyğun əməyin stimullaşdırılması təmin olunur;
- Aqroparklarda istehsalçıdan-istehlakçıya prinsipi daha geniş tətbiq edilir;
- Daxil olan qurumlar özünüidarəetmə və özünəcavabdehlik prinsipi ilə fəaliyyət göstərir;
- Ərazi daxilində fəaliyyət göstərən sahibkar və ya fermerlər müəyyən güzəştlər əldə edir;
- İnnovasiya və elmi yanaşmanın tətbiqi mühüm amil hesab edilir.

Hesab edirik ki, aqroparkların qeyd edilən üstünlüklərini və əhəmiyyətini nəzərə alaraq onların Aran İqtisadi Rayonunun hər bir bölgəsində ixtisaslaşdırılmış və qarışıq tiplərinin yaradılması yeni innovasiya şəbəkəsinin genişləndrilməsi ilə yanaşı sahibkarlığın innovativ inkişafına da təkan vermiş olacaqdır.

## 4. İqtisadi rayonda sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə yönəldilən investisiyaların sosial-iqtisadi nəticələri

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Həmin strategiyaya uyğun icra edilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirməsinə, ölkənin sosial iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Ölkə prezidentinin "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı ardıcıl tədbirlər həyata keçirmişdir. Bu baxımdan qanunvericilik bazasının təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, vergi yükünün azaldılması, sağlam rəqabətin təmin edilməsi, 400-dən çox xidmətin elektron qaydada göstərilməsi, "bir pəncərə" prinsipinin tətbiqi, 10 il ərzində regionlarda 100 mindən çox sahibkarın iştirakı ilə 1200-dək maarifləndirmə, biznes forumların, konfransların keçirilməsi və digər tədbirlər nəticəsində regionlarda güclü özəl sektor formalaşmışdır. Təkcə, regionların sosial-iqtisadi inkişafı üzrə I və II Dövlət Proqramlarının icrasına bütün mənbələr hesabına 50,7 mlrd., o cümlədəm I proqramın icrasına 16 mlrd, II Proqramın icrasına isə - 34.7 mlrd.man vəsait yönəldilmişdir. Həmin dövrdə regionlarda 500-dən çox sənaye müəssisəsi yaradılmış, güzəştli kreditlər hesabına ümumi dəyəri 730 mlyn. man olan 104 sənaye layihəsi maliyyələşdirilmiş və icrası təmin edilmişdir. Regionların sosial-iqtisadi inkişafı üzrə ölkə Prezidenti tərəfindən 240 Sərəncam imzalanmış və əlavə olaraq 734,4 mlyn. man vəsait ayrılmışdır. Adı şəkilən

proqramlar çərçivəsində SKMF-un vəsaiti hesabına 19 mindən şox sahibkarın ümumim dəyəri 2 mlrd.man olan layihələri maliyyələşdirilmişdir.

Regionların sosial-iqtisadi inkişafının III Dövlət Proqramı çərçivəsində sahibkarlığın inkişafı və onun investisiya təminatı istiqamətində daha təsirli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu baxımdan sahibkarlığın inkişafı üzrə tədbirlər içərisində aşağıdakıları qeyd etmək olar:

- Sahibkarlıq fəaliyyətinin normativ-hüquqi bazanın daha da təkmilləşdirilməsi işinin davam etdirilməsi;
- Dövlət-sahibkar münasibətlərinin digər institusional mexanizmlərinin daha da təkmilləşdirilməsi;
- Regionlarda sahibkarların maliyyə təminatının daha da yaxşılaşdırılması;
- Sahibkarlığın, istehsal, bazar və sosial infrastrur təminatının yaxşılaşdırılması, o cümlədən, müasir bazar infrastrukturu mexanizmlərinin (maliyyə, bank və sığorta sisteminin, fond bazarının, audit, ipoteka, lizinq, françayzinq kimi xidmətlərin) inkişafının sürətləndirilməsi;
- Regionlarda kiçik, orta və iri müəssisələr arasında qarşılıqlı səmərəli əməkdaşlığın, o cümlədən istehsal kooperasiya əlaqələrinin genişləndirilməsi və gücləndirilməsi üzrə səylərin dəstəklənməsi və s.

Onların investisiya təminatının formalaşdırmaq üçün aşağıdakı prioritetlərə üstünlük veriləcəkdir:

- İnvestisiyaların qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsi;
- Regional investisiya siyasətinin müasir inkişaf meyllərinə uyğun olaraq prioritetləşdirilməsi;

- Ölkədə investisiya fəaliyyətinin sosial-istiqamətinin daha da gücləndirilməsi, insan kapitalına, infrastruktura qoyulan investisiyaların priotitetliyinin təmin edilməsi;
- Nanotexnologiyalar və azkarbonlu istehsal sahəsilə dövlət investisiyalarının qoyuluşunun prioritetləşdirilməsi;
- Yaradılmaqda olan sənaye parklarına yerli və xarici investisiyaların cəlb edilməsi.

Regionlarda elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalat və sosial sahəyə tətbiq etmək üçün investisiya fəaliyyətinin iqtisadi inkişafının katalizatoru kimi, innovasiya mühitinin formalaşması müasir dövrün tələblərindən irəli gəlir. Regionların inkişafının müasir durumunda innovasiya fəaliyyətinə aşağıdakılar aid edilməlidir:

- hər bir iqtisadi rayon üzrə uzunmüddətli innovasiya proqramlarının işlənilməsi və həyata keçirilməsi;
- iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi məqsədi ilə məhsuldar qüvvələrin vəziyyətində keyfiyyət dəyişikliyi etmək üçün fundamental tədqiqatların maliyyələşdirilməsi;
- texnika və texnologiyanın prinsipcə yeni, qənaətçil növlərinin işlənib hazırlanması, buraxılması, yayılması və tətbiqi.

Dövlət maliyyə terminləri lüğətində, investisiya və "investisiya fəaliyyəti", məvhumları aşağıdakı məzmunda göstərilmişdir.

İnvestisiya (ing. İnvestment) – gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir. Bunlara pul vəsaiti, məqsədli bank əməliyyatları, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar və s aiddir. İnvestisiya fəaliyyəti investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərinin məcmusudur. Maliyyə aktivlərinə investisiya qoyuluşu qiymətli kağızlar

və digər maliyyə aktivlərinə (ssudalar, digər müəssisələrin nizamnamə fondlarına və s.) qoyuluşları əks etdirilir. Onlar ölkə və xarici maliyyə aktivlərinə investisiyalar yönəldirlər.

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan respublikasının Qanununda adı çəkilən vəsait və sərvətlərə aşağıdakılar aiddir:

- pul vəasiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar;
- daşınan və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər);
- müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər;
- bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq patentləşdirilməmiş texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu (Nou-hau);
- torpaq, su və digər ehtiyatlardan, həmçinnin binalar, qurğular, avadanlıqlardan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn başqa əmlak hüquqları;
- başqa sərvətlər;

Tədqiq edilən Aran iqtisadi rayonunda sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə yönəldilən investisiyaların sosial-iqtisadi nəticələrini açıqlamazdan öncə sahibkarların müxtəlif ixtisasa malik olduqlarını, menecer institutu səviyyəsində formalaşmadıqlarının, eləcə də özlərinin idarəetmə fəaliyyətində investisiyalardan səmərəli istifadə edilməsi təcrübəsində mövcud boşluqları nəzərə alaraq və bu sahədə onlara metodiki köməklik güstərmək, onları maarifləndirmək məqsədilə investisiyaların sahibkarlıq subyektlərinin maliyyə və istehsal-təsərrüfat nəticələrinə təsiri mexanizminin açıqlanmasını məqsədəuyğun hesab edirik. Bu sahədə qabaqcıl təcrübənin və

mövcud normativ-metodiki sənədlərin ümumiləşdirilməsi əsasında qeyd etmək olar ki, sahibkar firmalar öz fəaliyyətində real və portfel investisiyalarından istifadə edirlər. Onların maliyyə fəaliyyətinə təsiri mexanizmini sxem şəkildə aşağıdakı kimi təsvir etmək olar (şəkil 4.1).

Qeyri-material aktivlərinə yönəldilən investisiyalar – patentlərin, lisenziyaların, "nou-hou"-ların proqram təminatlarının alınmasına sərf edilir. Əgər sahibkar firmada dövriyyə vəsaiti çatışmazlığı müşahidə edirsə, bu zaman onların bərpası üçün real investisiyadan istifadə etmək olar. Bunlarla yanaşı real investisiyalar, qeyri istehsal fəaliyyətinin inkişafına: mənzil tikinisinə, idman və sağlamlıq obyektlərinin qurulmasına, əmək şəraitinin yaxşılaşdırılmasına, texniki təhlükəsizliyin təmin edilməsinə yönəldilə bilər.

Fəaliyyətdə olan sahibkar firmalarda əsas kapitala yönəldilən investisiyalar istehsalın texniki cəhətdən silahlandırılması və yenidən qurulmasına, yeni texnika və texnologiyanın alınmasına, fəaliyyət sferasının genişləndirilməsinə, yeni tikintiyə, texnoloji innovasiyalara və digər bu kimim məqsədlərin həyata keçirilməsinə, istehsalın texniki səviyyəsinin və məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına, bütün istehsal amillərindən səmərəli istifadə olunmasına, müəssisənin istehsal gücünün artırılması hesabına istehsal proqramında kəmiyyət və keyfiyyət dəyişikliklərinin aparılmasına yönəldilir (şəkil 4.2).

Əsas kapitala və qeyri-material aktivlərinə yönəldilən investisiyalar ETT-nin sürətlənməsinin və fəaliyyətdə olan sahibkarlıq subyektlərinin innovativ inkişaf yoluna keçməsinin əsasını təşkil edir. Belə bir inkişaf zamanı sahibkar firmalarda: texniki, resurs, iqtisadi, sosial, ekoloji və informasiyalardan istifadə üzrə səmərənin hesablanmasına imkan yaranır. Onların məcmusunun hesablanması

isə istehsalın səmərəliliyinin yüksəldilməsi və firmanın maliyyə vəziyyətinin yaxşılaşdırılması haqqında təsəvvür yaradır və əlavə tədbirlərin işlənib həyata keçirilməsinə imkan verir (şəkil 4.3).




**Şəkil 4.1.** Sahibkarlıq subyektlərinin maliyyə-fəaliyyətinin nəticələrinə real və potfel investisiyaların təsiri mexanizminin prinsipial sxemi




**Şəkil 4.2.** Sahibkar firmalarda əsas kapitala yönəldilən investisiyaların iqtisadi göstəricilərə təsiri mexanizminin prinsipial sxemi

Sahibkarlıq təcrübəsində investisiyalar onların xərclənən obyektləri üzrə də təsnifləşdirilir. Belə ki, real investisiya uzunmüddətli dövr üçün istehsala yönəldilən vəsaitdir və real aktivlərin alınması ilə əlaqədardır. Portfel (nominal) investisiyalar adətən qiymətli kağızların alınmasına, xüsusi vəsait hesabına kredit verilməsinə yönəldilir. İntellektual investisiyalar kadrların hazırlığı və yenidən hazırlığı, onların ixtisaslarının artırılması, elmi-tədqiqat işlərinə, reklama, eləcə də, sosial tədbirlərin həyata keçirilməsinə sərf edilir.




**Şəkil 4.3.** Sahibkar firmaların innovativ inkişafının onun maliyyə vəziyyətinə təsiri mexanizminin prinsipial sxemi

Təkrara istehsal prosesilə əlaqədar: investisiyalar aşağıdakı üç qrupa bölünür:

- netto-investisiya ilkin investisya olub, firmanın əmlakının alınmasına və yaxud formalaşmasına, eləcə də istehsal potensialının genişlənməsinə yönəldilir;
- reinvestisiya aşınan və balansdan çıxarılan vəsaitlərin bərpasını özündə əks etdirir;
- brutto-investisiya netto-investisiya və reinvestisiyaların məcmusundan ibarətdir.

Maliyyələşmə mənbələri üzrə investisiyalar: xüsusi, cəlb edilən, lizinq formasında maliyyələşən, xarici və beynəlxalq növlərə bölünür.

İnvestisiya proseslərinin təşkili və idarə edilməsi nöqteyi-nəzərindən lokal və qlobal investisiyalar fəqləndirilir.

İnvestisiya fəaliyyətinin subyektlərindən asılı olaraq, investisiyaları aşağıdakı kimi təsnifləşdirmək olar: vətəndaşların və kommersiya təşkilatlarının investisiyaları; dövlət investisiyaları; xarici investisiyalar müştərək investisiyalar.

Real aktivlərə istiqamətləndirilən bütün növ investisiyaları aşağıdakı əsas qruplar üzrə fərqləndirmək olar:

- əsas istehsal fondlarının təkrar istehsalına yönəldilən investisiyalar;
- səmərəliliyin yüksəldilməsi üçün ayrılan investisiyalar;
- istehsalın genişləndirilməsi üçün nəzərdə tutulan investisiyalar;
- iqtisadi standartların və yaxud ekoloji təmiz məhsulların hazırlanmasına, menecment sisteminin təkmilləşdirilməsinə hədəflənən investisiyalar;

Azərbaycanda innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması kontekstində yeniliyin və investisiyanın planlaşdırılmasına strateji planlaşdırmanın üzvü tərkib hissəsi kimi yanaşmaq lazımdır.

Bu zamam uzunmüddətli investisiyanın planlaşdırılması aşağıdakı amillərlə şərtləşir:

- investisiyaların çoxsaylı növləri və investisiya layihələrinin dəyəri;
- investisiya layihələrinin çoxsaylı alternativ variantları;
- resursların çatışmazlığı (onlara qənaət edilməsinin vacibliyi);
- investisiya qərarlarının qəbul edilməsi ilə əlaqədar böyük risklərin mövcudluğu;
- qısa müddət ərzində investisiya qoyuluşundan gəlir əldə etmək zəruriliyi və s.

Ölkəmizdə sahibkarlıq subyektlərinin maliyyə təminatında mövcud olan boşluqları nəzərə alaraq orada investisiyanın planlaşdırılması zamanı veriləcək qərarların aşağıdakı mərhələlər üzrə qəbulu məqsədəuyğun hesab edilir:

- uzunmüddətli dövr üçün istehsalın səmərəliliyinin yüksəldilməsinə istiqamətlənən strategiyanın işlənilməsi;
- seçilmiş strategiyanın qiymətləndirilməsi və ehtiyatların aşkar edilməsi. Aşkara çıxarılan ehtiyatlardan səmərəli istifadə üzrə tədbirlər sisteminin işlənilməsi;
- investisiya fəaliyyəti üzrə biznes-planını tərtib edilməsi;
- əsas istehsal fondlarının təkrar istehsalı üçün zəruri xərclərin maliyyə mənbələri üzrə qərarların qəbulu.

Qeyd edilən amillər və mərhələləri nəzərə almaqla sahibkar firmalarda kapital yaradan investisiyaların planlaşdırılması prosesini sxem şəkildə aşağıdakı kimi təsvir etmək olar (şəkil 4.4).

Azərbaycanda və onun tədqiqi edilən Aran iqtisadi rayonunda sahibkar (təsərrüfat subyektlərinin) 85-90%-nin fiziki şəxslərə və yaxud fərdi sahibkarlar olduğunu nəzərə alaraq, həmin subyektlərdə mövcud avadanlıqların və texnologiyaların modernləşdirilməsi üzrə investisiya layihələri haqqında qərarların qəbul edilməsi mühüm və mürəkkəb məsələlərdən biridir.




**Şəkil 4.4.** Sahibkar firmalarda kapital yaradan (formalaşdıran) investisiyaların planlaşdırılması prosesi

Bu zaman həm sahibkarlıq subyektinin və həm də investorun maliyyə maraqları nəzərə alınmalıdır. Bu isə öz növbəsində real investisiyaların axtarışı üzrə kompleks tədbirlərin işlənilməsi zəruriliyini ön plana çəkir.

Ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin mövcud vəziyyətini və təşkilati-idarəetmə imkanlarını nəzərə alaraq adı çəkilən tədbirləri sxem şəklində aşağıdakı kimi təsvir etmək olar (şəkil 4.5).




**Şəkil 4.5.** Sahibkar firmaların texnoloji yeniləşməsi və modernləşdirilməsi üzrə investisiya layihələrinin səmərəli istiqamətlərinin axtarılmasına yönəldilən tədbirlərin təsnifatı

Beləliklə şərh edilən təşkilati-metodiki yanaşmalardan istifadə Aran iqtisadi rayoyunda sahibkarlığın səmərəli təşkilinə və innovasiya fəaliyyətinin genişləndirilməsinə müsbət təsir göstərə bilər.

Araşdırmalar göstərir ki, təkcə 2005-2016-cı illər ərzində Azərbaycan Respublikası üzrə əsas kapitala 142,5 mlrd. man investisiya qoyulmuşdur ki, onun da 9,1 mlrd. manatı və yaxud 6,4%-i Aran iqtisadi rayonunu payına düşür. Adı çəkilən iqtisadi rayonda 2016-cı ildə əsas kapitala yönəldilən investisiyalar 2005-ci illə müqayisədə 6,8 dəfə, 2010-cu illə müqayisədə 1,4 dəfə artmış, lakin 2015-ci illə müqayisədə 27,0% azalmışdır. Yüksək artım tempi iqtisadi rayona daxil olan bütün bölgələrdə təmin edilmişdir. Hesablamar göstərir ki, 2014-cü ildə AİR üzrə əasa kapitala yönəldilən 1150,5 mlyn.man investisiyanın 13,2%-i Mingəçevir şəhəri; 12%-zi Ağdaş; 9,8%-i Yevlax; 8,1%-i Kürdəmir; 6,4%-i İmişli; 6%-i Beyləqan; 5.1%-i Bərdə; 4,9%-i Hacıqabul; 4,5%-i sabirabad; 4,4%-i Salyan; 7,4%-i Ucar; hər biri 2,6% olmaqla Ağcabədi və Biləsuvar rayonlarının payına düşmüşdür. İl ərzində ən az investisiya Zərdab rayonu üçün xarakterik olmuşdur, lakin 2011-2013-cü illərdə həmin vəsaitin məbləği rayon üzrə 34,1-36,6 mlyn.manat arasında dəyişmişdir. Oxşar vəziyyəti Şirvan şəhərində də müşahidə etmək olar (cədvəl 4.1).

Son 15 ildə AİR-də yüzlərlə sosial infrastruktur obyektləri, istehsal və emal müəssisələri tikilib istifadəyə verilmişdir. Həmin dövrdə sahibkarlığa kömək Milli Fondu vasitəsilə Aran İqtisadi rayonu üzrə 13200 sahibkara 543 milyon manat güzəştli kredit verilmiş və onun nəticəsində yeni texnologiyalara əsaslanan 10 loqistik mərkəz və 9 taxıl anbarı, 8 iri fermer təsərrüfatı, 15 quşçuluq təsərrüfatı, 10 cins heyvandarlıq kompleksi, 4 üzümçülük, 4 intensiv bağçılıq təsərrüfatı, 6 meyvə-tərəvəz, 5 süd və 2 ət emalı zavodu, 1 spirtli içkilər, 5 tikinti materialları və 4 digər istehsal və emal

sahələri olmaqla 95 müəssisə yaradılmışdır. “Ucar-Aqro” MMC-nin kəsim və broyler fabriklərinin birinci mərhələsinin dəyəri 20,4 milyon manat, ikinci mərhələsinin dəyəri isə 10 milyon manat olmaqla, güzəştli kreditlər hesabına inşa edilmişdir.

**Aran iqtisadi rayonu üzrə əsas kapitala yönəldilmiş investisiyalar (mlyn. manat)***

*Cədvəl 4.1.*

| Rayonlar | İ l l ə r | | | | | |
|---|---|---|---|---|---|---|
| Aran iqtisadi rayonu üzrə cəmi | **2005** | **2010** | **2013** | **2014** | **2015** | **2016** |
| O cümlədən: | **118.2** | **577.4** | **1498.2** | **1150.5** | **1106,5** | **808,5** |
| Göycay | 2.5 | 24.9 | 23.2 | 47.6 | 60,6 | 29,2 |
| Beyləqan | 4.1 | 8.3 | 42.2 | 69.5 | 57,8 | 60,6 |
| Ağcabədi | 3.5 | 23.9 | 62.9 | 30.7 | 22,3 | 45,5 |
| Bərdə | 5.3 | 24.1 | 117.1 | 59.0 | 59,3 | 39,8 |
| Neftçal | 3.1 | 11.6 | 26.4 | 33.6 | 17,6 | 83,7 |
| Biləsuvar | 2.9 | 32.4 | 77.7 | 30.5 | 20,8 | 40,5 |
| Salyan | 2.9 | 26.2 | 76.1 | 50.3 | 92,7 | 73,3 |
| Yevlax | 5.1 | 89.4 | 110.1 | 113.1 | 39,8 | 35,4 |
| Mingəçevir şəhəri | 14.7 | 32.6 | 62.0 | 151.6 | 127,3 | 54,0 |
| Ağdaş | 4.3 | 39.2 | 114.1 | 137.6 | 121,3 | 51,1 |
| Ucar | 0.85 | 3.3 | 154.0 | 85.4 | 101,5 | 27,5 |
| Zərdab | 0.45 | 8.0 | 34.1 | 8.8 | 11,2 | 24,1 |
| Kürdəmir | 5.3 | 37.7 | 145.5 | 92.7 | 61,0 | 32,7 |
| İmişli | 4.2 | 75.6 | 106.5 | 73.6 | 68,2 | 57,7 |
| Saatlı | 6.4 | 32.7 | 57.9 | 41.6 | 38,7 | 33,0 |
| Sabirabad | 2.1 | 37.3 | 106.0 | 52.0 | 131,1 | 73,9 |
| Hacıqabul | 6.3 | 47.3 | 105.0 | 56.1 | 25,5 | 20,2 |
| Şirvan şəhəri | 44.4 | 23.0 | 77.6 | 17.0 | 49,3 | 26,1 |
| *) *Azərbaycan tikintisi. Statistik məcmuə. Bakı, “DSK”, 2007, s. 137, 2017-s. 313;316* | | | | | | |

AİR-da iqtisadi fəaliyyət sahələrində əsas kapitala yönəldilən investisiyaların 86-90%-i kiçik, iri və orta müəssisələrin payına düşür. Təhlil güstərir ki, 2005-2014-cü illərdə iqtisadi rayonda fəaliyyət göstərən kiçik müəssisələr tərəfindən əsas kapitala 248,1 mlyn man, iri və orta müəssisələr tərəfindən isə 6474 mlyn.manat investisiya yönəldilmişdir. Əlbəttə, həmin investisiyaların mütləq həcmini amortizasiya ayrımları təşkil edir. Təhlilin əhatə etdiyi dövrdə kiçik müəssisələr tərəfindən AİR üzrə asas kapitala yönəldilən investisiyanın tərkibindəki xüsusi çəkisi 1,6%-lə 15,3%, iri və orta müəssisələr üzrə isə 84,6%-lə 94,3% arasında dəyişmişdir (cədvəl 4.2).

**Aran iqtisadi rayonunda kiçik, iri və orta müəssisələr tərəfindən əsas kapitala yönəldilmiş investisiyalar (mlyn. manat)**

*Cədvəl 4.2.*

| İllər | Əsas kapitala yönəldilən bütün investi-siyalar, mlyn. man. | İri və orta müəssisələr tərəfindən | | Kiçik müəssisələr tərəfindən | |
|---|---|---|---|---|---|
| | | | | | |
| 2005 | 118,2 | 100,1 | 84,6 | 5,2 | 4,4 |
| 2006 | 174,5 | 151,8 | 87,0 | 8,5 | 4,9 |
| 2007 | 368,0 | 337,9 | 91,8 | 8,5 | 2.3 |
| 2008 | 582,2 | 508,6 | 87,4 | 42,6 | 7.3 |
| 2009 | 434,1 | 341,0 | 78,6 | 66,3 | 15,3 |
| 2010 | 577,4 | 523,9 | 90,7 | 21,6 | 3,7 |
| 2011 | 1090,0 | 1016.8 | 93,3 | 21,7 | 2,0 |
| 2012 | 1219,6 | 1150,0 | 94,3 | 23,4 | 1,9 |
| 2013 | 1498,2 | 1320,0 | 88,1 | 24,2 | 1,6 |
| 2014 | 1150,5 | 1023,9 | 89,0 | 26,1 | 2.3 |

*"Azərbaycanda tikinti" Statistik məcmuələrinin əsasında tərtib edilib hazırlanmışdır. Baki, "DSK", 2011, s. 296, 298, 300, 302; 2015. S.341-344.*

Tədqiqat göstərir ki, AİR-da kiçik müəssisələr tərəfindən əsas kapitala yönəldilən investisiyaların ən yüksək məbləği 2009-cu ildə mümkün olmuşdur. İl ərzində 66,3 mlyn, man. investisiya əsasən Salyan, Ağdaş, Yevlax, İmişli, Kürdəmir rayonları, Mingəçevir və Şirvan şəhərlərində fəaliyyət göstərən kiçik müəssisələr üçün xarakterikdir. Ümumiyyətlə 2006-ildə 7; 2007-ci ildə 8; 2010-cu ildə 10; 2011-2013-cü ildə 12 rayon və şəhər üzrə kiçik müəssisələr tərəfindən əsas kapitala heç bir investisiya qoyulmamışdır. İqtisadi rayon üzrə 2005-2013 illərdə kiçik müəssisələr tərəfindən əsas kapitala yönəldilən 221,9 mlyn. manat investisiyanın 52,5%-i Ağdaş; 18,0%-i İmişli, 7,4%-i Yevlax; 5.6%-i Kürdəmir rayonlarının; 5,0%-i Şirvan şəhəri; 3,8%-i Bərdə; 2,5%-i BİIləsuvar; 2,1%-i Beyləqan; 0,8%-i Ucar; 0,7%-i Mingəçevir şəhərindəki kiçik müəssisələrin payına düşmüşdür (cədvəl 4.3).

Aran iqtisadi rayonunda kapitala yönəldilən investisiyalar orada əsas fondların istifadəyə verilməsi prosesini intensivləşdirmişdir. Belə ki, 2005-ci ildə iqtisadi rayonda əsas kapitala yönəldilən 118,2 mlyn.man. investisiya 73,5 mlyn. man. əsas fondların istifadəyə verilməsini gerçəkləşdirmişdir. Sonrakı illər ərzində həmin nisbət davam etmiş və 2010-cu ildə 577,4 mlyn.man investisiya 294,3 mlyn.man. əsas fondun, 2014-cü ildə 1150,5 mlyn.manat investisiya isə 600,6 mlyn.man. əsas fondun 2015-ci ildə 1106,5 mlyn.man. investisiya 736,9 mlyn.man. əsas fondun, 2016-cı ildə isə - 808,5 mlyn.man. investisiya, 648,0 mlyn.man əsas istehsal fondunun yeniləşməsinə təminat yaratmışdır.

## Aran iqtisadi rayonunda kiçik müəssisələr tərəfindən əsas kapitala yönəldilən investisiyalar (min.manat)*

*Cədvəl 4.3.*

| Rayonların adları | İllər | | | | | | | | | 2005-2013-cü illərdə | Xüsusi çəkisi (%-lə) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | | |
| Aran iqtisadi rayonu - cəmi | 5177,7 | 8474,7 | 8515,3 | 42552,9 | 66309,7 | 21558,3 | 21711.2 | 23383.9 | 24192.0 | 221875,7 | 100,0 |
| o cümlədən | | | | | | | | | | | |
| Göyçay | 178,8 | - | - | 50,0 | - | - | - | - | - | 228,8 | 0,1 |
| Beyləqan | 256,7 | - | - | - | - | - | 3350,0 | 50,0 | 1085 | 4742,2 | 2,1 |
| Ağcabədi | 959,4 | - | - | - | 3,2 | - | - | - | - | 962,5 | 0,4 |
| Bərdə | 442,9 | - | - | - | - | - | 7680 | 300 | - | 8422,9 | 3,8 |
| Neftçala | 0,8 | 2,6 | 2,1 | - | 6,5 | - | - | - | - | 12,0 | 0,0 |
| Biləsuvar | 295,2 | 240,0 | 366.7 | 4634,5 | - | - | - | - | - | 5536,4 | 2,5 |
| Salyan | - | 266,4 | 3.7 | 17.5 | 427.8 | 425,2 | 21,9 | 81,3 | 47.5 | 1291,3 | 0,6 |
| Yevlax | 1537 | 640,0 | 36,6 | - | 1500 | 12735 | - | - | - | 16448,6 | 7,4 |
| Mingəçevir şəhəri | 191,3 | 221,9 | 54,6 | 378,2 | 400 | 375,6 | - | - | - | 1621,4 | 0,7 |
| Ağdaş | 38,4 | 2418,1 | 3784,1 | 23365,7 | 60948,2 | 4293,9 | - | 14270 | 7320 | 116384,4 | 52,5 |
| Ucar | 141,9 | 472,0 | 143,0 | 400 | 200 | 70 | - | - | 240 | 1666,9 | 0.8 |
| Zərdab | - | 400,0 | - | - | - | - | - | - | - | 400 | 0,2 |
| Kürdəmir | 560,1 | 52,8 | - | 9889,4 | 616.6 | - | 1200 | - | - | 12318,9 | 5,6 |
| İmişli | 191,8 | 3633,1 | 3903,3 | 3228,1 | 1600,1 | 1219,7 | 7484 | 8155,4 | 10430 | 39845,5 | 18,0 |
| Saatlı | 189,4 | 127,8 | 140,0 | - | - | - | - | - | - | 457,2 | 0,2 |

Təhlil göstərir ki, əgər 2010-cu ildə iqtisadi rayonunda istifadəyə verilən əsas fondların 13.2%-i Salyan; 11,7%-i İmişli; 14,9%-i Yevlax; 8,6%-i Sabirabad; 6,9%-i Kürdəmir; 7,2%-i Saatlı rayonları üçün xarakterik olmuşdursa, sonrakı illərdə həmin nisbət digər rayonların xeyrinə dəyişmiş və 2016-cı ildə istifadəyə verilən 684 mlyn.man. əsas fondların 3,6%-i Ağdaş; 5,5%-i Beyləqan; 14,4%-i Sabirabad; 13,5%-i İmişli; 14,6%-i Hacıqabul; 1,4%-i Yevlax; 6,3%-i Mingəçevir şəhəri; 7,01%-i Neftçala rayonlarında müşahidə edilir (cədvəl 4.4).

AİR-da kapitala yönəldilən investisiyaların istehsal və qeyri istehsal sahələri üzrə bölgüsünü araşdırarkən aydın olur ki, əgər 2010-cu ildə bütün investisiyaların 41%-i isthsal təyinatlı obyektlərin, 59%-i isə xidmət sahələri üzrə obyektlərin tikintisinə sərf edilmişdirsə, 2011-ci ildə həmin nisbət uyğun olaraq: 38% və 62%; 2012-ci ildə - 24,1% və 75,9%; 2016-cı ildə ildə 38,1% və 61,9% təşkil etmişdir (cədvəl 4.5).

Göründüyü kimi, iqtisadi rayonda xidmət sahələri üzrə obyektlərin tikintisinə yənəldilən investisiyalar istehsal obyektlərinə yönəldilən investisiyalara nisbətən yüksəkdir. Beynəlxalq təcrübə baxımından bu yanaşma müsbət qəbul edilir. Lakin onu da qeyd etmək vacibdir ki, tədqiq edilən iqtisadi rayonda yerli xammallar hesabına istehsal təyinatlı, xüsusilə aqrar-emal sferasında, yüngül, maşınqayırma, eliktrotexnika sahələrində, mövcud müəssisələrin texniki-texnoloji səviyyəsinin yüksəldilməsinə, onların innovasiya aktivliyinin artırılmasına, eləcə də yeni emal müəssisələrinin, alternativ və barpa olunan enerji istehsalı obyektlərinin tikintisinə də investisiya yönəldilməsi vacib şərtlərdən hesab edilməlidir.

**Aran iqtisadi rayonu üzrə əsas fondların istifadəyə verilməsi (mlyn.manat)**

*Cədvəl 4.4.*

| **Rayonlar** | **İ l l ə r** | | | | | |
|---|---|---|---|---|---|---|
| Aran iqtisadi rayonu üzrə cəmi | **2005** | **2010** | **2013** | **2014** | **2015** | **2016** |
| O cümlədən: | **73.5** | **294.3** | **767.1** | **600.6** | **736.9** | **684.0** |
| Göycay | 2.1 | 16.5 | 6.4 | 13.9 | 41.9 | 15.1 |
| Beyləqan | 1.97 | 6.1 | 36.1 | 48.5 | 38.4 | 37.5 |
| Ağcabədi | 3.2 | 9.9 | 76.5 | 25.0 | 20.7 | 16.8 |
| Bərdə | 3.8 | 10.3 | 109.8 | 25.2 | 99.8 | 32.3 |
| Neftçala | 1.6 | 3.2 | 8.2 | 2.9 | 29.7 | 48.4 |
| Biləsuvar | 3.5 | 14.4 | 21.3 | 31.2 | 18.2 | 14.3 |
| Salyan | 1.9 | 38.7 | 26.2 | 29.0 | 15.2 | 19.7 |
| Yevlax | 2.8 | 43.9 | 55.0 | 41.5 | 14.2 | 9.6 |
| Mingəçevir şəhəri | 4.5 | 3.5 | 194.5 | 15.4 | 139.6 | 43.0 |
| Ağdaş | 3.9 | 19.4 | 24.3 | 130.2 | 56.8 | 24.8 |
| Ucar | 0.60 | 1.2 | 5.6 | 12.3 | 20.3 | 12.3 |
| Zərdab | 0.51 | 4.8 | 10.3 | 5.6 | 8.4 | 27.5 |
| Kürdəmir | 1.4 | 20.2 | 23.7 | 25.6 | 23.0 | 39.1 |
| İmişli | 2.6 | 34.3 | 50.0 | 42.6 | 77.7 | 92.4 |
| Saatlı | 1.1 | 21.3 | 18.1 | 27.4 | 24.3 | 21.8 |
| Sabirabad | 1.5 | 25.4 | 34.8 | 45.4 | 48.0 | 98.8 |
| Hacıqabul | 27.9 | 9.7 | 45.8 | 41.7 | 15.2 | 100.2 |
| Şirvan şəhəri | 8.7 | 11.6 | 20.1 | 37.3 | 45.4 | 27.2 |
| **) Azərbaycan tikintisi. Statistik məcmuə. Bakı, "DSK", 2007, s. 137, 2015-s. 292-309; 2017, s. 314;316;317* | | | | | | |

Aran iqtisadi rayonunda istehsal və xidmət sahələrində əsas kapitala yönəldilmiş investisiyaların quruluşu 4.6 saylı şəkildə əks etdirilmişdir.

**Aqrar iqtisadi rayonunda istehsal və xidmət sahələri üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi və xüsusi çəkisi***

*Cədvəl 4.5.*

| Obyektlərin təyinatı | İllər | | | | |
|---|---|---|---|---|---|
| | **2010** | **2013** | **2014** | **2015** | **2016** |
| Əsas kapitala yönəldilmiş investisiyaların cəmi, mlyn.man. | 577,4 | 1498,2 | 1150,5 | 1106,5 | 808,5 |
| onlardan: məhsul istehsalı obyektlərinin tikintisinə | 236,7 | 361,4 | 453,4 | 331,3 | 307,8 |
| Onların xüsusi çəkisi, faizlə | 41,0 | 24,1 | 39,4 | 30,0 | 38,1 |
| Xidmət sahələri üzrə obyektlərin və yaşayış evlərinin tikintisinə | 340,7 | 1136,8 | 697,1 | 775,2 | 500,7 |
| Onların xüsusi şəkisi | 59,0 | 74,9 | 60,6 | 70,0 | 61,9 |

**Cədvəl "Azərbaycanda tikinti" statistik məcmuələrinin məlumatları əsasında tərtib edilib hesablanmışdır. Bakı "DSK", 2014, s. 332-335; 2015, s. 310-321; 2017, s. 322-325*




**Şəkil 4.6.** Aran iqtisadi rayonunda istehsal və xidmət sahələri üzrə əsas kapitala yönəldilən investisiyaların quruluşu (yekuna gorə %-lə)

Aran iqtisadi rayonunun ayrı-ayrı bölgələrində yerinə yetirilən işlər içərisində Ucar rayonu öz xüsusiyyətiylə fərqlənmişdir. Belə ki, rayonların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının icrasına uyğun rayonun Qızılqumlaq kəndi ərazisində hər biri 35 min baş quş tutumuna malik 25 ferma tikilmiş, Alpout kəndi ərazində sutkada 6 min quş kəsimi gücünə malik müasir tipli quş emalı fabriki tikilib istifadəyə verilmişdir. Fabrikdə əsas istehsal prosesi 5 sahədə – kəsim, şoklama, soyutma, bölünmə və qablaşdırma sahələrində aparılır. Burada 65 çeşiddə istehsal olunan quş əti məhsulları mərcan brendi ilə istehlakçılara çatdırılır. Gələcəkdə istehsal gücü sutkada 20 ton olan yem zavodunun, illik istehsal gücü 10 milyon ədəd damazlıq yumurta olan fabrikin və 4 min hektar ərazidə müasir tipli nəhəng taxılçılıq təsərrüfatının yaradılması nəzərdə tutulur.

Ərazi 2 min kvadrat metr olan Ucar Gənclər Mərkəzi respublikamızda ən böyük mərkəzindən biri hesab olunur. Burada qurulan 7D formatlı kinozal orjinallığı ilə cəlb fərqlənir. Elektron kitabxana və tamaşaçı zalı müasir avadanlıqlarla təchiz olunub. Mərkəzdə hərbi hazırlıq keçmək üçün interaktiv və pnevmatik silahlardan atəş açma bacarıqlarına yiyələnirlər. Mərkəzdə xarici dil, sənət və peşə kursları, eyni zamanda, Aşıq məclisi və poeziya dərnəyi fəaliyyət göstərir.

"Ucar şəhərinin su və kanalizasiya sisteminin qurulması" layihəsi 2035-ci il perspektivi nəzərə alınmaqla 22 min əhalinin içməli su və kanalizasiya sisteminin yaxşılaşdırılmasını nəzərdə tutur. Layihə çərçivəsində, eyni zamanda, 37 min əhalinin yaşadığı 15 kənddə də içməli suyun verilməsi planlaşdırılır. Bütünlükdə həmin layihədən 59 min adam faydalanacaq. Artıq Ucar Su Kanal İdarəsi üçün inzibati bina, eyni zamanda, Ucar şəhərini təmin etmək üçün hər birinin tutumu 3756 kub.metr olan 2 su anbarı tikilib. Ucar

şəhərində 120 kub metr içməli su şəbəkəsinin inşası tam yekunlaşıb. 4891 ünvana birləşmə verilib, smart sayğaclar birləşdirilib. Şəhər üzrə layihələndirilən 88 kilometr kanalizasiya xəttinin 25 kilometr hissəsi hazırdır. Gələcəkdə 10 min kub metr istehsal gücünə malik olan su təmizləyici qurğunun tikintisi nəzərdə tutulur.

Göyçay rayonunda son illər tikilib istifadəyə verilən istehsal və xidmət təyinatlı obyektlərin texniki-texnoloji səviyyəsi də yüksəkdir və bu obyektlər öz müasirliyi ilə seçilirlər. Ölkə ərazisində alternativ və bərpa olunan enerji növlərindən istifadə üzrə müvafiq dövlət proqramına uyğun olaraq, Göyçayda gücü 3.1 meqavat olan "Göyçay" elektrik stansiyası istismara verilmişdir. Şirvan kanalının Göyçay rayonunun Bığır kəndi ərazisindən keçən hissəsində tikilən stansiya Göyçay rayonu əhalisinin elektrik enerjisi tələbatının 25 faizini ödəycək. Stansiya 5 hektar ərazidə tikilib. Burada geniş miqyaslı yaşıllaşdırma və abadlıq-quruculuq işləri aparılmışdır.

İndi hər bir bölgədə tikilib istifadəyə verilən Gənclər Mərkəzləri gənclərimizin fiziki və intellektual inkişafında müstəsna rola malikdir. Göyçay Gənclər Mərkəzi də bu qəbildəndir. Tikinti sahəsi 3400 kvadrat metr olan iki mərtəbəli yaraşıqlı binanın inşası Göyçayın memarlıq ansamblına yeni çalarlar əlavə etdi. Gənclərin istirahəti və asudə vaxtlarını səmərəli keçirmək üçün hər cür şəraiti olan, zövq oxşayan bu mərkəz gələcəkdə neçə-neçə gəncin ömür yoluna işıq salacaqdır.

Burada intellektual oyun otaqları, kafe, rəqs studiyası, xarici dil kursları, rəsm, xalçaçılıq, poliqrafiya, heykəltəraşlıq dərnəkləri və s. fəaliyyət güstərir. Mərkəzdə həmçinin 60 yerlik iclas zalı və 15 yerlik konfrans zalı vardır.

AİR-in Biləsuvar bölgəsində illik istehsal gücü 60 min ton olan "Azərsun Holding"in konserv zavodu, illik istehsal gücü 15 min ton

olan "Biləsuvar AQRO" MMC-nin süd zavodu və 2 pambıq emalı zavodu fəaliyyət göstərir.

AİR-in digər bölgələrində də geniş tikinti-quruculuq, abadlaşdırma işləri uğurla həyata keçirilir, yol, su, kanalizasiya sistemləri yenidən qurulur, yaşayış məntəqələrinin qazlaşdırılması isə əsasən başa çatmışdır.

Regionlarin sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının icrasına uyğun AİR-də yaşayış evlərinin və sosial-mədəni obyektlərinin istifadəyə verilməsi istiqamətində fəaliyyət ildən-ilə genişlənməkdədir. Təkcə 2010-2016-cı illərdə AİR-də 2824,9 min kv.metr yaşayış evləri, 45,1 min şagird yeri olan ümumtəhsil, 1876 yerlik məktəbəqədər təhsil müəssisələri, 685 çarpayılıq xəstəxana, növbədə 415 qəbula malik ambulatoriya – poliklinika müəssisəsi tikilib rayon əhalisinin istifadəsinə verilmişdir (cədvəl 4.6).

**Aran iqtisadi rayonunda yaşayış evlərinin və sosial-mədəni obyektlərin istifadəyə verilməsi *)**

*Cədvəl 4.6.*

| Sosial obyektlər | 2010-2013 | İ l l ə r | | | 2010-2016 |
|---|---|---|---|---|---|
| | | 2014 | 2015 | 2016 | |
| Yaşayış evlərinin istifadəyə verilməsi (min kv.m.) | 1733 | 401,5 | 387,8 | 302,6 | 2824,9 |
| Ümumtəhsil məktəbləri (min şagird yeri) | 33,4 | 5,0 | 4,3 | 2,4 | 45,1 |
| Məktəbəqədər təhsil müəssisələri (yer) | 855 | 385 | 750 | 886 | 1876 |
| Xəstəxanalar (çarpayı) | 435 | 150 | - | 100 | 685 |
| Ambulatoriya-poliklinika müəssisələri (növbədə qəbul) | 235 | 45 | 135 | - | 415 |

***)** *Azərbaycanda tikinti. Statistik məcmuə. Bakı, "DSK", 2015. s.242-245; 260-276; 2017, s. 285;287*

**Aran iqtisadi rayonunun əsas sosial-iqtisadi göstəriciləri (mlyn.man.)**

*Cədvəl 4.7.*

| Göstəricilər | İLLƏR | | 2010-2016-cı illərdə artım tempi faizlə |
|---|---|---|---|
| | 2010 | 2016 | |
| Regional ümumi məhsulun həcmi | 2947,1 | 5031,5 | 170,7 |
| O cümlədən: sənaye məhsulunun həcmi | 629,3 | 1146 | 182,1 |
| Kənd təsərrüfatı məhsuunun həcmi | 1124,4 | 1742,2 | 154,9 |
| Emal sənayesində | 227,8 | 571,3 | 2,5 dəfə |
| Sənayedə əsas fondların dəyəri | 1699 | 3856 | 2,3 dəfə |
| Sənayedə yüklənmiş malların həcmi | 629,3 | 1114 | 177,0 |
| Sənayedə hazır məhsul qalığı | 14,5 | 55,7 | 3,8 dəfə |
| Xam neft və təbii qaz hasilatı | 161,3 | 149,6 | 92,7 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı | 195,1 | 390,4 | 2 dəfə |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 8,9 | 16,8 | 188,8 |
| Sənayedə işçilərin faktiki sayı min nəfər | 22,6 | 23,0 | 101,8 |
| Sənayedə işdən çıxma üzrə dövr əmsalının səviyyəsi,%-lə | 40,2 | 16,5 | - 23,7 |
| Yeni yaşayış binalarının istifadəyə verilməsi (min kv. m.) | 360,8 | 302,6 | 83,9 |
| Ümumtəhsil məktəbləri (min şagird yeri) | 929 | 930 | 100,1 |
| Məktəbəqədər təhsil müəssisələri, yer | 92 | 91 | 98,9 |
| Xəstəxana çarpayılarının sayı | 6279 | 5619 | 89,5 |
| Ambulatoriya-Poliklinika müəssisələri (növbədə qəbul) | 19421 | 18527 | 95,4 |
| Pərakəndə ticarət dövriyyəsinin məbləği | 1999,3 | 4102 | 2,1 dəfə |
| İaşə dövriyyəsinin məbləği | 56,3 | 114,0 | 2 dəfə |
| Pullu xidmətin həcmi | 439,6 | 759,5 | 172,8 |
| İqtisadi rayon üzrə işsiz statusu almış işçilərin sayı, nəfər | 11058 | 7671 | 69,4 |

**) Cədvəl müəlliflər tərəfindən ARDSK-nin 2010-2017-ci illər üzrə "Azərbaycanın regionları" və "Azərbaycanın sənayesi" statistik məcmuələrinin məlumatları əsasında tərtib edilib hesablanmışdır*

## 5. İqtisadi rayonda yaradılan yeni iş yerləri və onların işsizliyin səviyyəsinə təsiri

Son on dörd ildə Azərbaycanda qeyri-neft sektorunun və sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması istiqamətində həyata keçirilən sistemli tədbirlər əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə, eləcə də ölkənin məşğulluq strategiyasının səmərəli nəticələr verməsinə imkan yaratmışdır.

Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına təkan vermişdir. Dövlət proqramlarının icra olunduğu illərdə makroiqtisadi göstəricilərin səviyyəsi əsaslı şəkildə yüksəlmişdir. Nəticədə 2004-2017-ci illər ərzində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində respublikada 1,4 mlyn. daimi olmaqla 1,9 mlyn yeni iş yeri, 65 mindən çox müəssisə yaradılmış; işsizliyin səviyyəsi 5,0%-zə yoxsulluğun səviyyəsi isə 5,4%-zə enmişdir. Həmin müddətdə yeni açılmış iş yerlərinin 80%-dən çoxu regionların payına düşmüşdür.

Qeyd etmək vacibdir ki, ölkədə və onun bölgələrində əhalinin məşğulluğunun artmasında icrası başa çatan Dövlət proqramlarının rolu danılmazdır. Belə ki, regionların sosial-iqtisadi inkişafı üzrə qəbul edilmiş üç Dövlət proqramı ilə yanaşı əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə “Azərbaycan Respublikasının Məşğulluq Startegiyası (2006-2015-ci illər)”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət proqramı”, “2008-2015-ci illərdə Azərbaycan

Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və digər vacib sənədlər imzalanaraq həyata keçirilir. Vətəndaşların əmək hüquqlarının qorunması, sosial müdafiə sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi, işçilərin maddi, sosial, mənəvi və digər həyati tələbatlarının ödənilməsi istiqamətində daha bir vacib addım 2011-ci il 15 noyabr tarixində "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı"nın təsdiqlənməsidir. Bu sənəd bir sıra strateji məqsədləri özündə ehtiva edir. Makroiqtisadi sabitliyin və qeyri-neft sektorunun tarazlı inkişafının təmin edilməsi, əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırlması tədbirlərinin davam etdirilməsi, təhsil və səhiyyə sahəsində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, sosial infrasturkturun inkişaf etdirilməsi məsələləri Dövlət proqramında öz əksini tapmış və müəyyən nailiyyətlər əldə edilmişdir. Baxılan dövr ərzində regionlarda tikilib istifadəyə verilən müəssisələrdə müasir texnologiyalar tətbiq edilmiş, mövcud müəssisələrin bir hissəsi modernizə edilərək istehsal potensialı artırılmışdır. Bütün bunlarla yanaşı respublikamızda minimum əmək haqqının yaşayış minimumuna çatdırılması siyasəti davam etdirilmiş, əmək siyasəti və əməyin ödənilməsi sahəsində həyata keçirilən islahatlar nəticəsində işləyənlərin orta aylıq əmək haqqının ilbəil artması əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin etmişdir. Son 14 ildə ölkədə minimum əmək haqqının məbləği 13,4 dəfə artmış, orta əmək haqqı 2016-cı ilin sonunda 500 manata, qeyri-neft sektorunda 459 man, özəl müəssisələrdə 670 man. təşkil etmişdir.

Qeyd edildiyi kimi, Aran iqtisadi rayonu respublikada əhatə dairəsinə görə ən iri sənaye və kənd təsərrüfatı regionudur. ARDSK-nın məlumatlarına görə həmin iqtisadi rayonda iş yerlərinin sayı artıb azalan xəttlə dəyişmişdir. İqtisadi rayonda yaradılan bütün iş yerlərinin 65-70%-ni daimi iş yerləri təşkil edir. Onların ayrı-ayrı bölgələr üzrə sayını xarakterizə edən məlumatlar 5.1 saylı cədvəl verilmişdir.

**Aran iqtisadi rayonu üzrə yeni açılmış daimi iş yerlərinin sayı (vahid)**

*Cədvəl 5.1.*

| Rayonlar | İLLƏR | | | | |
|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 |
| Arar iqtisadi rayonu üzrə o cümlədən: | 25274 | 9933 | 17212 | 14647 | 35224 |
| Göyçay | 944 | 588 | 810 | 633 | 1221 |
| Beyləqan | 1225 | 399 | 763 | 745 | 2056 |
| Ağcabədi | 474 | 1034 | 1415 | 1418 | 1494 |
| Bərdə | 1549 | 980 | 1981 | 1620 | 3924 |
| Neftçala | 378 | 315 | 555 | 729 | 950 |
| Biləsuvar | 1914 | 758 | 1375 | 1052 | 4874 |
| Salyan | 1674 | 927 | 752 | 579 | 2381 |
| Yevlax | 2500 | 469 | 1265 | 947 | 1207 |
| Mingəçevir şəhəri | 1061 | 634 | 1738 | 996 | 1917 |
| Ağdaş | 1941 | 740 | 635 | 886 | 829 |
| Ucar | 846 | 272 | 680 | 359 | 1946 |
| Zərdab | 697 | 316 | 305 | 317 | 602 |
| Kürdəmir | 1325 | 277 | 957 | 564 | 1706 |
| imişli | 1557 | 315 | 831 | 717 | 671 |
| Saatlı | 4292 | 576 | 556 | 475 | 2751 |
| Sabirabad | 1146 | 478 | 924 | 1021 | 2967 |
| Hacıqabul | 445 | 220 | 472 | 474 | 2237 |
| Şirvan şəhəri | 1279 | 635 | 1198 | 1115 | 1491 |
| **) Azərbaycanın statistik göstəriciləri Bakı, "Səda", 2007, s. 636, 2010-s. 179, 720 2017-s. 679, 680 2015-s. 685, 686* | | | | | |

Cədvəlin məlumatlarından göründüyü kimi, 2005-ci ildə AİR-də 25,3 min daimi iş yeri yaradılmışdır. Təbii haldır ki, onların sayı növbəti illərdə məşğulluq səviyyəsindən asılı olaraq artıb-azala bilər. Lakin 2010-2014-cü illər ərzində AİR-a daxil olan 18 rayon və şəhərdən yalnız Salyan, Ağdaş, Zərdab və Saatlı rayonlarında daimi iş yerlərinin sayı azalmış, digər rayonlarda isə yüksək artım təmin edilmişdir.

Təhlil göstərir ki, 2016-cı ildə AİR-da 35,2 mini daimi olmaqla 57,1 min yeni iş yeri yaradılmışdır. Onların 50,9% fərdi sahibkarlıq subyektlərində, 38,4% digər tədbirlər (beynəlxalq və yerli layihələr, abadlıq işləri və s.), 8,1% mövcud, 2,4% yeni yaradılmış, yalnız 0,2%-zin fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda yaradılmışdır. AİR-da daimi yaradılan iş yerləri sayca Biləsuvar, Bərdə, Beyləqan, Saatlı, Sabirabad, Salyan rayonlarında üstünlük təşkil etmişdir [24].

Hesab edirik ki, əmlak məsələləri üzrə Dövlət Komitəsi AİR-də özəlləşdirmə nəticəsində yaradılan səhmdar cəmiyyətlərinin fəaliyyətini bərpa etmək istiqamətində səylərini artırmalı, yeni iş yerlərinin yaradılmasına daha geniş yol açmalıdır. Bununla yanaşı AİR ərazisində fəaliyyət göstərən süd məhsulları emalı, çörək, un məmulatları istehsalı və konserv zavodlarının potensiallarından səmərəli istifadə etməklə də yeni iş yerləri yaratmaq mümkündür. AİR-dən tikilib istifadəyə verilən müalicə-diaqnostika mərkəzlərində də boş iş yerlərinə mütəxəsislərin cəlb edilməsi məşğulluğun səviyyəsini artıra bilər.

Aran iqtisadi rayonu üzrə 2014-cü ildə açılmış daimi iş yerlərinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsünə nəzər yetirərkən aydın olur ki, ölkədə yaradılan bütün iş yerlərinin 16,4%-i AİR üçün xarakterikdir. Maraqlı haldır ki, 2014-cü ildə ölkənin dövlət idarə-

etməsi və müdafiə, eləcə də sosial təminat sferasında yaradılan bütün daimi iş yerlərinin 47,9%-i, kənd təsərrüfatında 32,3%-i, təhsil sferasında 22,6%-i, mədənçıxarma sənayesində 22,1%-i, maliyyə və sığorta fəaliyyəti üzrə 19,8%-i, nəqliyyat və anbar təsərrüfatında 10,8%-i, incəsənət, əyləncə və istirahət sahələrində fəaliyyət üzrə 9,6%-i məhz Aran iqtisadi rayonu üçün xarakterik olmuşdur. Qeyd edilən fəaliyyət növləri üzrə AİR-də yaradılan daimi iş yerlərinin sayı və xüsusi çəkisi də yüksəkdir (cədvəl 5.2).

Təhlil göstərir ki, 2016-cı ildə AİR-də yaradılan daimi iş yerlərinin sayı 2014-cü ilə nisbətən 2,4 dəfə artmış və onlar əsasən tikinti, su təchizatı, elektrik enerjisi, qaz-buxar istehsalı, emal sənayesi, kənd təsərrüfatı və sosial təminat sahələri üçün xarakterik olmuşdur [24].

## 2014-cü ildə Aan iqtisadi rayonu üzrə açılmış daimi iş yerlərinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü

*Cədvəl 5.2.*

| | Respublika üzrə-cəmi | Aran iqtisadi rayonu üzrə | Aran iqtisadi rayonunun xüsusi çəkisi faizlə |
|---|---|---|---|
| Respublika üzrə-cəmi | 105120 | 17212 | 16,4 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 993 | 321 | 32,3 |
| Mədənçıxarma sənayesi | 149 | 33 | 22,1 |
| Emal sənayesi | 3029 | 68 | 2,2 |
| Elektrik enerjisi, qaz, buxar istehsal, bölüşdürülməsi və təchizatı | 712 | 30 | 4,2 |
| Su təchizatı., tullantıların təmizlənməsi və emalı | 180 | 3 | 1,7 |
| Tikinti | 5556 | 552 | 9,4 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 3274 | 230 | 7,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1043 | 113 | 10,8 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 302 | 20 | 6,6 |
| İnformasiya və rabitə | 431 | 3 | 0,7 |
| Maliyyə və sığorta fəaliyyəti | 687 | 136 | 19,8 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 207 | 3 | 1,5 |
| Peşə, elmi və texniki fəaliyyət | 937 | 6 | 0,6 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 672 | 9 | 1,3 |
| Dövlət idarəetməsi, müdafiə və sosial təminat | 1296 | 621 | 47,9 |
| Təhsil | 809 | 183 | 22,6 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1727 | 8 | 0,5 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 699 | 67 | 9,6 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 2139 | 376 | 17,6 |
| Fiziki şəxslərdə | 80278 | 14430 | 18,0 |
| *Cədvəl ARDSK-nın "Azərbaycanın regionları" statistik məcmuəsinin məlumatları əsasında tərtib edilib hesablanmışdır. Bakı, "DSK", 2015-s.58,59* | | | |

ARDSK-nın məlumatlarına görə Aran iqtisadi rayonunda rəsmi status almış işsizlərin sayı 2005-2010-cu illərdə 20,9%, 2010-2016-cı illərdə isə 30,7% azaldılmışdır. Belə ki, əgər 2005-ci ildə həmin kateqoriyadan olan işsizlərin sayı 13984 nəfər, 2010-cu ildə 11058 nəfər olmuşdursa, 2016-cı ildə onların sayı kəskin azalaraq 7671 nəfər təşkil etmişdir. Nəticədə, iqtisadi rayonda yeni və daimi yaradılan iş yerlərilə status almış işsizlərin sayı arasında formalaşan sinerji effektini aşağıdakı kimi təsvir etmək olar (şəkil 5.1).




**Şəkil 5.1.** Aran iqtisadi regionunda yeni yaradilan iş yerləri

Şəkildə göründüyü kimi yeni iş yerlərinin sayının yüksələn xətlə artması yaradılan iş yerlərilə işsizliyin səviyyəsi arasında üzvü əlaqənin formalaşdığını bir daha təsdiq edir. Deməli, qarşıdakı dövrlərdə yeni və yüksək ödənişli iş yerlərinin tədqiq edilən iqtisadi rayonun bütün bölgələrində təşkil edilməsi işsizlərin sayının azaldılması istiqamətində başlıca məqsədə çevrilməlidir. Bu isə nəticə etibarı ilə regional ümumi məhsulun artmasına, iqtisadi potensialdan səmərəli istifadəyə, əhalinin sosial rifah halının yaxşılaşdırılmasına imkan vermiş olacaqdır.

# 6. İqtisadi rayonda innovasiya sahibkarlığının təşkilinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi

## *6.1. İqtisadi rayonun sənaye sahələri*

Azərbaycanın bölgələrində inkişafın yeni keyfiyyət mərhələsinə keçirilməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən siyasət ölkənin makroiqtisadi göstəricilərinin əsaslı şəkildə yaxşılaşmasına səbəb olmuşdur. İqtisadi rayonlarda sənayenin maşınqayırma, kimya, yeyinti, yüngül və digər sahələrində əsaslı dəyişiklik baş vermiş, qeyri-neft sektorunda inkişafa nail olunmuşdur. Məhz regionlarda qeyru-neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq istiqamətində Mingəçevir şəhərində Texnologiyalar Parkının, Neftçalada və Sabirabadda Sənaye Məhəlləsinin, digər bölgələrdə müştərək müəssisələrin yaradılması, investisiya layihələrinin həyata keçirilməsi və s. mühüm əhəmiyyət kəsb edir. Regionların sosial-iqtisadi inkişafı üzrə III Dövlət Proqramının başlıca məqsədi qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası və regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsidir.

Ölkədə formalaşan sənayeləşmə siyasətinə uyğun olaraq, regionlarda yerli xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin keyfiyyətcə müasir səviyyədə qurulması və yeni müəssisələrin, sənaye məhəllələrinin yaradılması istiqamətində tədbirlər həyata keçiriləcək, innovasiya yönümlü texnologiyaların tətbiqi

stimullaşdırılacaq, ixtisaslaşmış və ümumi təyinatlı sənaye parklarının yaradılması istiqamətində işlər davam etdiriləcəkdir. Sənaye parklarının və məhəllələrinin yaradılması ölkə iqtisadiyyatının inkişafına, modernləşdirilməsinə, yüksək texnologiyalı, rəqabətqabiliyyətli sənaye istehsalının və ölkənin ixrac qabiliyyətinin daha da genişlənməsinə, eləcə də məşğulluq səviyyəsinin yüksəlməsinə əhəmiyyətli təsir göstərəcəkdir.

Sənayeləşmə siyasəti çərçivəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- Ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli və ixracyönümlü sənaye məhsulları istehsalı sahələrinin yaradılmasının təşviqi;
- Qeyri-neft sənayesinin ənənəvi istehsal sahələrinin inkişaf etdirilməsi;
- İstehsal sahibkarlığının dəstəklənməsi üzrə dünya təcrübəsində uğurla tətbiq edilən təşkilati modellərin, o cümlədən sənaye parkları və biznes-inkubatorların yaradılması işlərinin davam etdirilməsi;
- Mövcud sənaye müəssisələrində istehsalın texnoloji cəhətdən yenidən qurulması və ixtisaslı kadrlarla təminat mexanizminin hazırlanması;
- Özəlləşdirmə əsasında yaradılan səhmdar cəmiyyətlərinin fəaliyyətinin əsaslı şəkildə yaxşılaşdırılması [12, s. 22].

Əlbəttə, bütün bunlar yaxın gələcəyə hədəflənən, həlli mümkün olan çox önəmli məsələlərdir. Bunun üçün mövcud potensialı qiymətləndirmək, ehtiyatları aşkara çıxarmaq və onlardan səmərəli istifadə yollarını göstərmək tədqiqatçıları və sahibkarları daha yaradıcı işləməyə sövq edir.

Ölkə iqtisadiyyatında uğur qazanmağın bazasını bütün sahibkarlıq subyektlərində istehsal və kommersiya sahibkarlığını

daha az maddi, əmək və maliyyə resursları sərf etməklə inkişaf etdirməkdir. Gizli deyildir ki, hələlik Azərbaycanın regionalrında məhsuldar qüvvələr qeyri-bərabər yerləşdirilmiş, əsas ağırlıq yükü Abşeron yarmadasında yerləşən sahələrin üzərində qalmaqdadır. Lakin ölkədə aparılan iqtisadi siyasət həmin ağırlıq yükünün xeyli hissəsinin regionlara keçirilməsinə hədəfləmişdir.

Araşdırmalar göstərir ki, son illər ölkədə istehsal edilən sənaye məhsullarının yalnız 12-13% -i regionların payına düşür. Təhlil göstərir ki, 2016-cı ildə ölkəmizin regionlarında 4868 mlyn man. sənaye məhsulu istehsal edilmişdir. Onun yalnız 1145,6 mlyn man. və yaxud 23,5%-i Aran iqtisadi rayonunun payına düşmüşdür. Ölkədə fəaliyyət göstərən 2564 sənaye müəssisələrinin 329 vahidi və yaxud 12,8%-i, ölkə sənayesində çalışanların 12,4%-i, mövcud əsas istehsal fondlarının isə (ƏİF) 4,6%-i həmin iqtisadi rayonda təmərküzləşmişdir.

Bütün bunları nəzərə alaraq innovasiya sahibkarlığının təşkilinin mövcud vəziyyətini AİR-də nəzərdən keçirək. Əvvəla onu qeyd etmək lazımdır ki, 2005-2016-cı illərdə AİR-da sənaye müəssisələrinin sayı 3 vahid və yaxud 0,9% artmışdır. Lakin təhlil edilən iqtisadi rayonun Biləsuvar, Salyan, İmişli, Hacıqabul, Göyçay və Ağcabədi rayonlarında sənaye müəssisələrinin sayının artmasında əsaslı dönüş müşahidə edilir. Hesablamalar göstərir ki, 2016-cı ildə AİR-də fəaliyyət göstərən bütün sənaye müəssisələrinin 23,1%-i Mingəçevir və Şirvan şəhərlərində, 10,9%-i İmişli, 8,2% Salyan, 8,8% Göyçay, 5,8%-i Bərdə, 4,9%-i Saatlı, 4,6% Neftçala, 4,3% Hacıqabul, 3.3% Ağdaş, Kürdəmir və Ucar, 3,0% Sabirabad rayonlarında fəaliyyətini davam etdirmişlər (cədvəl 6.1).

**Aran iqtisadi rayonu üzrə fəaliyyət göstərən sənaye nüəssisələrinin sayı**

*Cədvəl 6.1.*

| Rayonlar | İ L L Ə R | | | | |
|---|---|---|---|---|---|
| | **2005** | **2010** | **2014** | **2015** | **2016** |
| Arar iqtisadi rayonu üzrə o cümlədən: | 326 | 367 | 321 | 329 | 329 |
| Göyçay | 22 | 28 | 23 | 28 | 29 |
| Beyləqan | 8 | 9 | 7 | 8 | 8 |
| Ağcabədi | 10 | 8 | 12 | 12 | 12 |
| Bərdə | 24 | 25 | 17 | 18 | 19 |
| Neftçala | 18 | 22 | 13 | 15 | 15 |
| Biləsuvar | 6 | 12 | 12 | 13 | 13 |
| Salyan | 13 | 22 | 23 | 27 | 27 |
| Yevlax | 24 | 19 | 14 | 15 | 15 |
| Mingəçevir şəhəri | 51 | 60 | 52 | 45 | 44 |
| Ağdaş | 12 | 13 | 11 | 11 | 11 |
| Ucar | 10 | 12 | 9 | 11 | 11 |
| Zərdab | 10 | 7 | 5 | 5 | 6 |
| Kürdəmir | 12 | 14 | 11 | 11 | 11 |
| İmişli | 24 | 30 | 32 | 35 | 36 |
| Saatlı | 19 | 20 | 14 | 14 | 16 |
| Sabirabad | 15 | 12 | 9 | 10 | 10 |
| Hacıqabul | 9 | 10 | 13 | 14 | 14 |
| Şirvan şəhəri | 39 | 44 | 44 | 37 | 32 |
| **) Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, "DSK", 2017, s. 238-276, 2015 – 241-280* | | | | | |

Aran iqtisadi rayonunun maşınqayırma sənayesini Mingəçevirdə kənd təsərrüfatı, maşınqayırma, "Şüşə lifi", "Azərkabel zavodları", Rezin texniki məmulatlar, Şirvanda məişət cihazlarının avtomat idarə vasitələri istehsalı, polimer avadanlığı zavodu,

Bərdədə dənəvər yumşaq və konsentrant yem hazırlamaq üçün avadanlıq zavodu, İmişlidə şəkər zavodu və digər müəssisələr təmin edir. Orada maşınqayırma sənayesi müharibədən sonrakı illərdə inkişaf etmişdir. Hazırda bu sahədə maşınqayırma zavodlarında dəyişən cərəyanda işləyən elektrik mühərrikləri, aşağı və yüksək gərginlikli cihazlar, güc transformatorları, elektrik qaynaq avadanlığı və bu avadanlıqların ehtiyat hissələri istehsal edilir. Aran iqtisadi rayonunda avtomobil təmiri müəssisələri geniş yayılmışdır. Orada maşınqayırma kompleksinə daxil olan sahələrdən biri də yol və kommunal maşınqayırma müəssisələridir. Əsasən yol tikintisində və meliorativ işlərdə istifadə edilən kiçik mexanizmlərdir. Bunlar Mingəçevirdə təcrübə eksperimental "Yoltexnika" zavodu və "Mingəçeviryolmaş" zavodlarıdır.

Kimya və neft-kimya iqtisadi rayonun perspektiv sənaye sahələrindəndir. Rayonun kimya və neft-kimya sənayesi Neftçala və Xıllı yod-brom yataqları əsasında işləyən Neftçala yod-brom zavodu və Abşeron iqtisadi rayonundan gətirilən xammal əsasında fəaliyyət göstərən Salyan plastik kütlə emalı zavodları ilə təmsil olunmuşdur. İqtisadi rayonda yod-brom istehsalı ilə yanaşı, əhalinin təsərrüfat-məişət ehtiyacları üçün də müxtəlif məhsullar istehsal edilir. Rayonun yod-brom ehtiyatı Neftçala yod-brom zavodunda texniki yod və brom istehsalının xeyli artırılmasına imkan verir. Neftçala rayonunda yeni yaradılan sənaye məhəlləsi öz əhatə dairəsi və müasirliyi ilə seçilən kompleksdir. Salyan Plastik kütlə emalı zavodu isə hələ keçən əsrin 60-70-ci illərində tikilib istifadəyə verilmiş, Qafqaz regionunda polietilen örtük, polietilen borular və plastik kütlə məmulatları istehsalı üzrə yeganə müəssisə olmuşdur ki, bunda da məqsəd keçmiş Sovetlər İttifaqının cənub regionlarının, yəni bütövlükdə Qafqazın, Rusiya Federasiyasının cənub böl-

gələrinin və eləcə də orta Asiya Respublikalarının kənd təsərrüfatı müəssisələrinin həmin məhsullara olan tələbatını ödəməkdən ibarət olmuşdur.

Dövlət mülkiyyətinin özəlləşdirilməsinin II Dövlət proqramına uyğun həmin zavod 2002-ci ildə ASC-yə çevrilmişdir. Orada tətbiq edilən mütərəqqi texnika və texnologiya yüksək keyfiyyətli, beynəlxalq sertifikatlar almış, çoxçeşidli, idxalı əvəz edən ixracyönümlü məhsul istehsal etməyə imkan vermişdir. “Salyan plastik kütlə emalı” ASC-nin istehsal infrasturukturları aşağıdakılardır.

**1. İllik istehsal gücü 14900 ton olan polietilen örtük məhsulları istehsalı sexi;** Ümumi sahəsi 2592 kvm. olan bu sexdə qalınlığı 0.02 mm-dən 0.25 mm-qədər, eni isə 500 mm-dən 6000 mm-ə qədər müxtəlif ölçüdə polietilen örtük məhsulları istehsal olunur. Polietilen örtük məhsullarından kənd təsərrüfatı məhsulları yetişdirilməsində (istixanalar salınması məqsədi ilə) sənayedə və məişətdə malların qablaşdırlması və s. məqsədlər üçün istifadə edilir.

**2. İllik istehsal gücü 5 min ton olan polietilen boru məhsulları istehsalı sexi.** Ümumi sahəsi 2592 kvm. olan bu sexdə diametri 16 mm-dən 630 mm-ə qədər təzyiqə davamlı (2,0 MPA) polietilen borular (SDR 26-SDR 9) istehsal olunur. Aşağı təzyiqli polietilendən (HDPE) istehsal olunan borulardan su nəqli üçün, o cümlədən təsərrüfatda içməli su, maye və qazın ötürülməsində geniş istifadə olunur, kimyəvi və atmasfer təsirlərinə davamlı olmaqla istismar müddəti 70-100 ildir.

**3. İllik istehsal gücü 600 ton olan polietilen paket məhsuları istehsalı sexi.** Ümumi sahəsi 1296 kvm. olan bu sexdə müxtəlif ölçüdə çoxçeşidli polietilen kisələr, paketlər və s. istehsal olunur.

**4. İllik istehsal gücü 2400 ton olan bərk PVC profil məhsullar istehsalı sexi.** Ümumi sahəsi 1296 kvm. olan bu sexdə qapı və

pəncərə hazırlamaq üçün bərk PVC profil məhsulları istehsal olunur. Həmin sexlərdə istehsal edilən məhsullara həm daxili həm də xarici bazarlarda tələbat ildən ilə artır.

**5. İllik istehsal gücü 800 ton olan plastik kütlə məmulatları istehsalı sexi.** Ümumi sahəsi 1296 kvm. olan bu sexdə məişətdə çox işlənən mallar (vedrələr, tazlar, ləyənlər, balon və banka qapaqları və s.) və müxtəlif plastik kütlə məmulatları istehsal olunur ki, onlara da daxili bazarlarda böyük tələbat vardır [50].

Tədqiq edilən iqtisadi rayonda sənayenin fəaliyyətini xarakterizə edən əsas göstəricilərin təhlili nəticəsində məlum olur ki, 2005-2016-cı illərdə orada fəaliyyət göstərən müəssisələrin sayı 3 vahid, sənaye məhsulunun (işin, xidmətin) həcmi 3,1 dəfə artmış, onların qeyri-dövlət sektorundakı xüsusi çəkisi 27,3% çoxalmışdır. Lakin təəssüflə qeyd edilməlidir ki, istehsal edilmiş hazır məhsulun ilin axırına qalığı 2016-cı ildə 2005-ci ilə nisbətən 5,4 dəfə, 2010-cu ilə nisbətən isə 3,9 dəfə artaraq -55,7 mlyn. manata çatmışdır. Qeyd edilən illər ərzində iqtisadi rayonun sənaye sektorunda çalışan işçilərinin faktiki sayı 100,4%, onların orta əmək haqqı 3,1 dəfə artmasına baxmayaraq işçilərin işdənçıxarma üzrə dövr əmsalı beynəlxalq təcrübədə nəzərdə tutulan buraxıla bilən həddən 2-3 dəfə yüksəkdir. Həmin dövrdə AİR-də sənaye istehsal fondlarının balans dəyəri də 3,9 dəfə artaraq 2016-cı ildə 3,9 mlrd. man. dəyərində olmuşdur (cədvəl 6.2).

**Aran iqtisadi rayonunun sənayenin fəaliyyətini xarakterizə edən əsas göstəricilər**

*Cədvəl 6.2.*

| Göstəricilər | İ l l ə r | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 | 2005-2016-cı illərdə artım tempi %-lə |
| Fəaliyyət göstərən müəssisələrin sayı cəmi, vahid | 326 | 367 | 321 | 329 | 329 | 100,9 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi (müvafiq ilin qüvvədə olan faktiki qiymətləri ilə), mln. manat | 373.6 | 629,3 | 963,0 | 881,9 | 1146 | 3,1 dəfə |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, əvvəlki ilə nisbətən, faizlə (müqayisəli qiymətlərlə) | 106.0 | 91,2 | 107,7 | 87,7 | 106,2 | x |
| Sənaye məhsulunun həcmində qeyri- dövlət sektorunun xüsusi çəkisi, faizlə | 31.1 | 64,1 | 55,5 | 45,7 | 58,4 | +27,3 |
| İstehsal edilmiş hazır məhsulun ilin axırına qalıg min manat | 10364 | 14437 | 30009 | 29850 | 55660 | 5,4 dəfə |
| Qalıq məhsulun bütün məhsulun tərkibindəki xüsusi çəkisi, faizlə | 2.75 | 2,3 | 3 | 3,4 | 4,7 | +1,95 |
| İşçilərin orta siyahı sayı - cəmi, nəfər | 22919 | 22561 | 2233922 | 21315 | 23008 | 100,4 |
| İşə qəbul edilmişlər (nəfər) | 4232 | 8413 | 3034 | 5010 | 5936 | 140,3 |
| İşə qəbul üzrə dövr əmsalı, faizlə | 18.5 | 37,3 | 12,7 | 23,5 | 25,8 | +7,3 |
| İşdən çıxarılmışdır (nəfər) | 3945 | 9102 | 4077 | 6837 | 3836 | 97,2 |
| İşdən çıxma üzrə dövr əmsalı, faizlə | 17.2 | 40,3 | 14,0 | 32,1 | 16,7 | -0,5 |
| İşçilərin orta aylıq əmək haqqı, manat | 147.5 | 320,1 | 465,0 | 466,8 | 452,1 | 3,1 |
| Sənaye-istehsal əsas fondlarının mövcudluğu (ilin axırına; balans qiymətləri ilə), mlyn. manat | 979.0 | 1699 | 3275 | 3106 | 3856 | 3,9 dəfə |

**) Azərbaycanın regionları. Statistik məcmuə Bakı, "DSK", 2014 - s.136; 2017 - s. 241*

İqtisadi rayonda bölgələr üzrə istehsal edilən sənaye məhsulunun həcmi bütün rayon və şəhərlərdə yüksələn templə artmışdır. Hesablamalar göstərir ki, 2016-cı ildə AİR-də istehsal olunan bütün sənaye məhsulunun 18,7%-i Mingəçevir; 24,3%-i Şirvan şəhərləri; 29,5%-i İmişli; 5,8%-i Salyan; 2,3%-i Neftçala; 0,9%-i Yevlax; 0,1%-i Kürdəmir; 1,2%-i Bərdə; hər biri 1,1% digər rayonların payına düşüşdür. Müqayisə edilən dövrdə Şirvan şəhərində sənaye məhsulunun həcmi 2,37 dəfə; Mingəçevir şəhərində 134%; Kürdəmirdə 5,7 dəfə; Salyanda 3,3 dəfə; İmişlidə 38 dəfə; Yevlaxda 3,6 dəfə; Biləsuvarda 22,7 dəfə; Bərdədə 4,1 dəfə; Ağcabədidə 12,1 dəfə; Göyçayda 6,5 dəfə; Beyləqanda 3,7 dəfə çoxalmışdır (cədvəl 6.3).

Aran iqtisadi rayonunda bütün sənaye məhsullarının 49,8%-i emal müəsisələrinin payına düşür. Rəsmi statistik məlumata görə təkcə 2010-2016-cı illər ərzində emal məhsullarının həcmi 2,5 dəfə artmışdır. İqtisadi rayonda elektrik enerjisi, qaz, su təchizatı sferalarında da yüksək artım tempi təmin edilmişdir (cədvəl 6.4). Qeyd edildiyi kimi, tədqiq edilən iqtisadi rayonda sənye məhsulunun yüksək həcmi və xüsusi çəkisi Mingəçevir və Şirvan şəhərlərinin, İmişli, Göyçay və Salyan rayonlarının payına düşür. Odur ki, həmin bölgələrdə sənaye məhsulunun natural ifadədə istehsalında baş verən dəyişikliyi nəzərdən keçirmək innovasiya sahibkarlığı baxımından yerinə düşərdi.

ARDSK-nın məlumatlarına görə 2010-2016-cı illərdə Mingəçevir şəhəri üzrə rezin lövhələr, təbəqələr və zolaqların istehsalı - 199,1%; monitorlar 2,9 dəfə; məlumatların saxlanması üçün mərkəz 179,2%; telefon aparatları 178,7%; elektrik enerjisi 105,5%; istilik enerjisi 147% artmış, eyni zamanda bərk plastik borular, şlanqlar və qolların istehsalı 12,2 dəfə; plastik qapı-pəncərə blokları 9,1%; klaviatura, printerlər, rezin borular, pambıq, parça istehsalı dayan-

dırılmış, elektrik naqillərinin miqdarı 42,6 dəfə azalmışdır [21,s. 266,267].

**Aran iqtisadi rayonunda istehsal edilən sənaye məhsulunun həcmi *(min.man)**

*Cədvəl 6.3.*

| Rayonlar | İ L L Ə R | | | | |
|---|---|---|---|---|---|
| | **2005** | **2010** | **2014** | **2015** | **2016** |
| Aran iqtisadi rayonu üzrə o cümlədən: | 373500 | 629300 | 963000 | 881900 | 1146000 |
| Göyçay | 5304 | 15844 | 31966 | 21026 | 34321 |
| Beyləqan | 2648 | 4634 | 8682 | 5535 | 9895 |
| Ağcabədi | 1256 | 6174 | 11179 | 9475 | 15202 |
| Bərdə | 3240 | 6952 | 12789 | 11617 | 13156 |
| Neftçala | 12968 | 24472 | 25150 | 23189 | 24872 |
| Biləsuvar | 1252 | 6294 | 16199 | 21075 | 28374 |
| Salyan | 20484 | 22782 | 48582 | 38727 | 67115 |
| Yevlax | 2945 | 11300 | 21414 | 13398 | 10608 |
| Mingəçevir şəhəri | 159800 | 120600 | 226900 | 266600 | 214400 |
| Ağdaş | 4457 | 6129 | 8015 | 7660 | 8376 |
| Ucar | 3417 | 2354 | 3186 | 3064 | 4243 |
| Zərdab | 2280 | 1297 | 1754 | 1879 | 1843 |
| Kürdəmir | 12342 | 37300 | 24905 | 55111 | 69963 |
| İmişli | 8949 | 116169 | 160240 | 126455 | 338589 |
| Saatlı | 10294 | 5268 | 11006 | 9970 | 12847 |
| Sabirabad | 3020 | 4455 | 6891 | 8389 | 9322 |
| Hacıqabul | 1251 | 2343 | 4041 | 4154 | 4388 |
| Şirvan şəhəri | 117300 | 234900 | 336000 | 254500 | 278100 |
| **) Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, "DSK", 2014, s. 238-276, 2017 – 241-280* | | | | | |

**Aran iqtisadi rayonunda emal sənayesi sahələri üzrə məhsul buraxılışının həcmi (min manatla)**

*Cədvəl 6.4.*

| Göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 2010 | 2014 | 2015 | 2016 | 2010-2014-cü illərdə artım tempi (%-lə) |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Cəmi: o cümlədən | 227807 | 346151 | 292820 | 571268 | 2,5 dəfə |
| Qida məhsullarının istehsalı | 151071 | 191186 | 193145 | 419884 | 2,8 dəfə |
| İçki istehsalı | 5769 | 11154 | 6580 | 19615 | 3,3 dəfə |
| Toxuculuq sənayesi | 11328 | 20281 | 7324 | 28160 | 2,5 dəfə |
| Geyim istehsalı | 587,9 | 699,2 | 882,3 | 458,1 | 77,9 |
| Dəri və dəri məmulatlarının, ayaqqabılarının istehsalı | 5598 | 13947 | 6317 | 3030 | 54,1 |
| Ağac emalı və ağacdan məmulatların istehsalı | 1127 | 1946 | 1866 | 1126 | 99,9 |
| Kağız və karton istehsalı | - | 136,9 | - | - | x |
| Poliqrafiya fəaliyyəti | 406,7 | 260,7 | 153,3 | 274,3 | 67,5 |
| Kimya sənayesi | 3506 | 5618 | 5596 | 6689 | 190,8 |
| Əczaçılıq məhsullarının istehsalı | 398,5 | 2226 | 2743 | 739,6 | 185,6 |
| Rezin və plastmas məmulatlarının istehsalı | 4097 | 6455 | 5796 | 6193 | 151,2 |
| Tikinti materiallarının istehsalı | 17441 | 44823 | 17012 | 13753 | 78,7 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| Metallurgiya sənayesi | 1,0 | 1,6 | 2,0 | - | x |
| Maşın və avadanlıqlarının başqa hazır metal məmulatlarının istehsalı | 535,6 | 1177 | 1014 | 1005 | 187,6 |
| Kompüter və digər elektron avadanlıqların istehsalı | 12328 | 13201 | 12475 | 24860 | 2 dəfə |
| Elektrik avadanlıqlarının istehsalı | 121,4 | 225,1 | 147,2 | 182,1 | 149,9 |
| Maşın və avadanlıqların istehsalı | 11892 | 27376 | 22705 | 35828 | 3 dəfə |
| Avomobil və qoşquların istehsalı | 21,0 | - | - | - | x |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 715,9 | 2681 | 1730 | 2132 | 2,9 dəfə |
| Mebellərin istehsalı | 191,9 | 493,0 | 340,5 | 696,9 | 3,6 dəfə |
| Zərgərlik, musiqi, idman və tibb avadanlıqlarının istehsalı | 7,8 | 72,0 | 39,6 | 48,1 | 6,2 dəfə |
| Maşın və avadanlıqlarının quraşdırılması və təmiri | 665,6 | 2191 | 6952 | 6594 | 9,9 dəfə |
| Elektrik enerjisi, qaz buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 195099 | 383824 | 425938 | 390394 | 199,8 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 8950 | 13640 | 13843 | 16820 | 188,8 |
| *Azərbaycanın regionları. Statistik məcmuə. Bakı "Disk", 2014-s.239,240; 2017-s. 242-243* | | | | | |

Qeyd edilən illərdə Şirvan şəhərində saflaşdırılmış pambıq yağının miqdarı 34%; plastik qapı və pəncərə blokları 18%; tikinti kərpici 27,4 dəfə; pambıq çiyidi 4,8%; pambıq mahlıcı 4 dəfə azalmış, neft hasilatı 110,4%, qaz hasilatı 105,4%, paltar sabunu 143,2%, elektrik enerjisi isə 2 dəfə artmışdır [17, s.255].

İqtisadi rayonun İmişli bölgəsində 2010-2016-cı illərdə qənd-rafinad istehsalı 853 min ton artmış, qeyri-filiz tikinti materialları 42,6%; asfalt istehsalı 79%, neft hasilatı 2,2 dəfə; çörək və çörək məmulatları istehsalı 2,6 dəfə azalmış, pambıq mahlıcı, pambıq lifi və un istehsalı dayandırılmışdır [21, s.262].

Tədqiq edilən rayonun Göyçay bölgəsində qeyd edilən illər ərzində natural formada istehsal edilən ərzaq və qeyri ərzaq məhsullarının istehsal həcmi xeyli azalmışdır.

İqtisadi rayonun iri sənaye qovşağı sayılan Salyan bölgəsində 2010-2016-cı illərdə təbii qaz istehsalı 197,5%; pambıq mahlıcı 4,2 dəfə; bərk polipropilen borular və şlanqlar 149,8%; elektrik enerjisinin bölüşdürülməsi və satışı 112,4% artmış, lakin eyni zamanda xam neft hasilatının həcmi 25,0%; pambıq lifi və çiyid istehsalı 32%; qazabənzər yanacağın bölüşdürülməsi və satışı 21,0%, tikinti kərpici 2,2 dəfə; plastik qapı və pəncərə blokları 8,4% azalmış; bərkimiş propilen hazırlanan süni örtüklərin istehsalı dayandırılmışdır [21, s.274].

AİR-də bütünlükdə sənaye məhsullarının və yüklənmiş malların təhlilin əhatə etdiyi dövrdə artmasına baxmayaraq, sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatının (qalığının) həcmi 5,4 dəfə artmışdır (cədvəl 6.5).

**Aran iqtisadi rayonunun sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatının (qalığının) həcmi (min.man)**

*Cədvəl 6.5.*

| Rayonlar | İ L L Ə R | | | | |
|---|---|---|---|---|---|
| | **2005** | **2010** | **2014** | **2015** | **2016** |
| Arar iqtisadi rayonu üzrə o cümlədən: | 10364 | 14437 | 30009 | 29850 | 55660 |
| Göyçay | 1000 | 3594 | 9351 | 4776 | 4770 |
| Beyləqan | - | 526.3 | - | - | - |
| Ağcabədi | - | 1103 | 2327 | 1519 | 2128 |
| Bərdə | 7.1 | 0.5 | 1568 | 1568 | 1010 |
| Neftçala | 0.6 | 807.8 | 174,7 | 216,8 | 204,4 |
| Biləsuvar | 4.7 | 480.5 | 1896 | 3267 | 3065 |
| Salyan | 54.3 | 330.1 | 1188 | 1394 | 1024 |
| Yevlax | 150 | 987.2 | 939,5 | 193,7 | 185,6 |
| Mingəçevir şəhəri | 2.8 | 1.5 | 1400 | 1200 | 1300 |
| Ağdaş | 200.2 | - | - | - | - |
| Ucar | - | 12.0 | 158,6 | 165,5 | 300,4 |
| Zərdab | 854 | 109 | 77,0 | - | - |
| Kürdəmir | 813.7 | 35.5 | 80,5 | 127,5 | 112,8 |
| İmişli | 1920 | 869.1 | 2776 | 8872 | 28893 |
| Saatlı | 2187 | 1407 | 4148 | 4513 | 5232 |
| Sabirabad | - | 1164 | - | - | - |
| Hacıqabul | - | 20.7 | - | - | - |
| Şirvan şəhəri | - | 20.7 | 3966 | 2043 | 7419 |
| **) Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, "DSK", 2014, s. 238-276, 2017 – 241-281* | | | | | |

Cədvəldən göründüyü kimi, Mingəçevir, Ağdaş, Zərdab, Beyləqan, Kürdəmir, Sabirabad və Hacıqabul rayonları istisna olmaqla, bütün digər bölgələrdə hazır məhsul qalığının həcmi yüksək templə çoxalmışdır. Bu ən çox Bərdə (142,3 dəfə); Biləsuvar (652 dəfə); Salyan (18,9 dəfə); Yevlax (123,7%); İmişli ( 15 dəfə); Saatlı (2,4 dəfə) bölgələrində müşahidə edilir. Fikrimizcə, bunun başlıca səbəbi istehsal edilən məhsullar üzrə satış bazarlarının öyrənilməməsi və marketinq fəaliyyətinin qeyri-qənaətbəxş təşkilidir. Digər tərəfdən, həmin bölgələrdə marketinq və menecment ixtisaslarına uyğun səriştəli kadrların olmamasıdır. Ən başlıca səbəb isə məhsulların beynəlxalq standartlara cavab verməməsidir.

Nəzərə alaq ki, tədqiq edilən iqtisadi rayonun sənaye sahələrinin mütləq əksəriyyəti qeyri-neft sektoruna daxildir, onda onun innovativ inkişafı üçün aşağıdakı kompleks tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət yetirilməlidir:

- Emal sənayenin bütün alt sahələrində restrukturizasiya prosesinin genişləndirilməsi;
- Satış bazarı olan və yenidən təşkili iqtisadi baxımdan məqsədəuyğun olan sənaye müəssisələrinin fəaliyyətinin bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;
- Müasir texnologiyalara əsaslanan sənaye müəssisələrində beynəlxalq standartların tətbiqinə keçidin sürətləndirilməsi;
- Azad rəqabət mühitinin inkişaf etdirilməsi;
- İnvestisiyaların təşviqi ilə bağlı tədbirlərin həyata keçirilməsinin sürətləndirilməsi;
- Ənənəvi milli sənətkarlıq sahələrinin inkişafı;
- Elm tutumlu istehsalın inkişaf etdirilməsi məqsədilə tətbiqi elmlərin və müasir şəraitdə bazar konyunkturunun tələblərinə uyğun

elmi-tədqiqat institutularının maddi-texniki bazasının gücləndirilməsi.

Həmin tədbirlərin uğurlu icrası iqtisadi rayonda və onun ayrı-ayrı bölgələrində istehsal və kommersiya sahibkarlığının genişləndirilməsinə təkan vermiş olacaqdır.

### *6.2. Aqrar sənaye sferası*

Aqrar sənaye kompleksi (ASK) ölkə iqtisadiyyatının bir çox istehsal və xidmət sahələrini özündə birləşdirən mürəkkəb sosial-iqtisadi sistem olmaqla əsas məqsədi kənd təsərüffatı üzrə xammal istehsalı, onların emal edilməsi nəticəsində əldə edilən çoxçeşidli ərzaq məhsullarının istehlakçılara çatdırlmasından ibarətdir. ASK-nin tərkibində kənd təsərrüfatı aparıcı rol oynayır.

Azərbaycanda kənd təsərrüfatını inkişaf etdirmək üçün əlverişli torpaq-iqlim şəraiti mövcuddur. Ölkədə adambaşına 0,2 hektar torpaq sahəsi düşür. Araşdırmalar göstərir ki, 10 il əvvəl Azərbaycanın kənd təsərrüfatında bitkiçilik heyvandarlıqdan üstün inkişaf edib. Kənd təsərrüfatı məhsulunun 61%-ni bitkiçilik, 39%-ni isə heyvandarlıq verib, lakin son illərdə bu nisbət dəyişmiş və 2016-cı ildə heyvandarlıq məhsullarının xüsusi çəkisi 54,2%, bitkiçilik məhsulları isə 45,8% təşkil etmişdir. Göründüyü kimi həmin sahələr ölkənin kənd təsərrüfatının əsasını təşkil edir.

Azərbaycanın əlverişli iqlim şəraiti və torpaq örtüyü əkin sahələrində müxtəlif növ bitkilərin becərilməsinə imkan verir. Xüsusilə pambıqçılıq, tərəvəzçilik, tütünçülük Azərbaycanın kənd təsərrüfatının ixtisaslaşmış sahələri hesab olunur. ASK-ya adətən aşağıdakı 4 müstəqil sahəni aid edirlər:

- Kənd təsərrüfatı;

- Kənd təsərrüfatını maddi-texniki baza ilə təmin edən istehsal sahələri;
- Kənd təsərrüfatı üzrə xammalın emalı sahəsi;
- İnfrastruktur bloku: kənd təsərrüfatı məhsullarının daşınması, tədarükü və ticarəti, sahənin kadrlarla təmin edilməsi, kənd təsərrüfatı yönümlü infrastruktur və tikinti sahələri.

ASK-si onun maddi-texniki bazasını təmin edən bir çox iqtisadi fəaliyyət sahələri ilə sıx əlaqədədir. Onlara: neft və qaz emalı, kimya və neft-kimya, maşınqayırma və elktrotexnika, yüngül və yeyinti sənayesi, tikinti, nəqliyyat, ticarət və iaşə, ali və orta ixtisas məktəbləri, logistika və s. daxildir.

Tarixən Azərbaycanda ixtisaslaşdırlmış heyvandarlıq, quşçuluq, pambıqçılıq, taxılçılıq, baramaçılıq, arıçılıq, meyvəçilik və tərəvəzçilik son dövrlərdə isə tütünçülük, üzümçülük sahələri inkişaf etdirilmişdir. ASK-nin xammal bazası ölkə əhalisinin tələbatını və ərzaq təhlükəsizliyini təmin edən çoxçeşidli məhsul istehsalına imkan yaratmışdır. Aran iqtisadi rayonunun timsalında ASK-nin tərkibi və quruluşunun prinsipal sxemi 6.1 saylı şəkildə əks etdirilmişdir.

Heyvandarlıq Azərbaycanda kənd təsərrüfatının ən mühüm sahəsi olsa da, əhalinin ət və süd məhsullarına olan tələbatının yalnız yarıya qədərini ödəyir. Otlaqların geniş yayılması və əkinə yararlı torpaqların azlığı Azərbaycanın dağlıq ərazilərində heyvandarlığın əkinçiliyə nisbətən daha yaxşı inkişaf etməsinə səbəb olmuşdur.

| | | | | |
|---|---|---|---|---|
| Kimya və neft kimya | Maddi-texniki bazanı təmin edən iqtisadi fəaliyyət sahələri | AQRAR SƏNAYE KOMPLEKSİ | İxtisaslaşan sahələr | Heyvandarlıq (maldarlıq və qoyunçuluq) |
| Qaz emalı | | | | Quşçuluq |
| Neft emalı | | | | Pambıqçılıq |
| Maşınqayırma | | | | Taxılçılıq |
| Elektrotexnika | | | | Üzümçülük |
| Yüngül və yeyinti sənayesi | | | | Baramaçılıq |
| Tikinti | | | | Arıçılıq |
| Nəqliyyat | | | | Tütünçülük |
| Ticarət və iaşə | | | | Meyvəçilik və tərəvəzçilik |
| Ali və orta ixtisas məktəbləri | | | | Ət məhsulları |
| Logistika | | | | Süd məhsulları |
| Pambıq | Xammal bazası | | Hazır məhsul istehsalı sahələri | Çörək və bulka məmulatları |
| Kəsilmiş ət | | | | Qənnadı məmulatları |
| Yetişdirlən pambıq | | | | Spirtli içkilər |
| Şəkər çuğunduru | | | | Alkoqolsuz içkilər |
| Buğda qarğıdalı və digər dənli bitkilər | | | | Meyvə-tərəvəz konservləri |
| Spirt | | | | Digər məhsulları |
| Brend | | | | |
| Digər xammallar | | | | |

**Şəkil 6.1.** Aran iqtisadi rayonunda aqrar sənaye kompleksinin tərkibi və quruluşunun prinsipial sxemi

**Maldarlıq** – Azərbaycanda istehsal olunan heyvandarlıq məhsulunun ümumi dəyərinin yarıdan çoxunu, ət istehsalının 45%-ni verir. Maldarlıqda əsas yeri qara mal tutur. Azərbaycanın Aran və Şəki, Zaqatala zonasında camışçılıq, Lerik və Yardımlı rayonlarında isə ətlik-südlük zebu heyvanı saxlanılır. Azərbaycanın bütün rayonlarında maldarlıq inkişaf edib. Azərbaycanda mal-qaranın 70%-ni inək və camışlar təşkil edir [50].

Son illər ölkənin dağlıq və dağətəyi zonası ilə yanaşı Aran iqtisadi rayonunda (Ağcabədi, Beyləqan, Bərdə və s.) qoyunçuluq inkişaf etməyə başlamışdır. Ölkədə dağ merinosu, Qala, Qarabağ, Balbas qoyun cinsləri bəslənilir. Qoyunların ətindən, dərisindən və yunundan istifadə olunur. Qoyunların sayının tez artması, az əmək tutumlu olması və yemə tələbatının az olması qoyunçuluğu Azərbaycanda əhalinin ətə olan tələbatını daha tez ödəmək üçün sərfəli

olan heyvandarlıq sahəsinə çevirmişdir. Azərbaycanda qoyunçuluğun inkişafı üçün kifayət qədər təbii yem bazası, yaylaq və qışlaq mövcuddur. Son illərdə yaylaqların çoxunun işğal olunması Azərbaycanda qoyunçuluğun inkişafına mane olur.

Ölkə təsərrüfatının tam ixtisaslaşmış sahələri pambıqçılıq, meyvəçilik, üzümçülük, tərəvəzçilik və tütnçülükdür.

Pambıq Azərbaycanın ən çox gəlir gətirən, strateji bitkisi olub, həm yüngül, həm də yeyinti sənayesi üçün xammaldır. Qafqazda, xüsusilə Azərbaycanda pambıq Qədim Şərq ölkələri, əsasən İran vasitəsilə yayılmışdır. Mingəçevirdə arxeoloji qazıntılar zamanı V-VI əsrlərə aid yanmış pambıq kələfləri və çiyidi tapılmışdır. Bərdə, Naxçıvan, Gəncə, Şəmkir və sairə kimi şəhərlərdə pambıqdan parça hazırlanıb xaricə ixrac edilməsi, XV əsrdə Şamaxıdan Rusiyaya pambıq mallar aparıldığı göstərilir. Pambıq, Kür-Araz ovalığının boz, boz-qonur və boz-çəmən torpaqlarında əkilir. Azərbaycanda pambıq parça istehsal edən müəssisələr az olduğundan pambığın çox hissəsi xaricə göndərilir. Xammal istehsalı bu ərazidə yerləşdiyindən Azərbaycanın bütün pambıqtəmizləmə zavodları Kür-Araz zonasında yerləşir [50].

Bu gün ümumillikdə, ölkə üzrə pambıq tədarükü 2009-cu ildə 31,9 min ton, 2010-cu ildə 37,3 min tona çatıb. 2009-cu ildə 21 min hektar olan pambıq əkini sahələri, 2010-cu ildə 30 min hektara çatıb. Artıq 2016-cı ildən başlayaraq pambıqçılığın inkişafına verilən dəstək əsaslı şəkildə formalaşmış və onun inkişafı üzrə "intensiv inkişaf" strategiyası formalaşmışdır.

Kənd təsərrüfatı bitkiləri arasında taxıl (buğda, qarğıdalı, çəltik, arpa və s.) istehsalı birinci yer tutur. Bu Azərbaycanın ən qədim bitkiçilik sahəsidir. Azərbaycanın dağlıq və dağ ətəyi rayonlarında dəmyə, aran rayonlarında isə suvarılan taxılçılıq inkişaf etmişdir.

Azərbaycanda sarıbuğda, gurgəni, qaraqçılıq, xırdabuğda, gülüsər, kərə, Qarabağ buğdası, ağ buğda, səkiləbuğda, qaragiləbuğda, topbaşbuğda, ağ arpa, qara arpa, şeşəri arpa, qılıcı arpa növləri əkilib becərilir.

Hazırda ölkədə əkinə yararlı torpaqların 60%-də dənli taxıl bitkiləri əkilib. Məqsəd ölkənin taxıla olan tələbatını ödəmək, eyni zamanda çörəyin qiymətinin artmasının qarşısını almaqdır. Bu məqsədlə 2010-cu illə müqayisədə 2014-cü ildə 33 min hektardan artıq sahədə dənli taxıl bitkiləri əkilib.

Azərbaycanda üzümçülük hələ qədim zamanlardan bəri kənd təsərrüfatı sahələri arasında xüsusi çəkiyə malik olmaqla geniş sənaye xarakteri daşımışdır. Bu gün də ölkə iqtiadiyyatının yüksəldilməsi nöqteyi-nəzərindən üzümçülük prioritet sahələrdən biri sayılır. Son illər Göygöl, Samux, Tovuz, Qəbələ, Yevlax, Cəlilabad və digər rayonlarda geniş sahədə üzüm plantasiyaları salınmışdır.

İndi respublikanın müxtəlif bölgələrində Fransa, İtaliya, İspaniya, İran, Gürcüstan, Moldova, Ukrayna, Özbəkistan və s. ölkələrdən gətirilmiş 80-ə yaxın yüksək üzüm sortu əkilir [36].

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində qədim ənənələrə söykənən baramaçılığın və ipəkçiliyin bərpası kənd təsərrüfatının prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Əvvəlcə onu qeyd edək ki, Azərbaycanda baramaçılığın və ipəkçiliyin inkişafında əsaslı dönüş keçən əsrin 70-ci illərinin əvvəllərinə təsadüf edir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul olunmuş “Azərbaycan Respublikasında ipəkçiliyin gələcək inkişafına dair tədbirlər haqqında” Azərbaycan Respublikası Nazirlər Sovetinin 1971-ci il 3 mart tarixli 106 nömrəli qərarı baramaçılığın və ipəkçiliyin inkişafına böyük təkan

vermiş, görülən tədbirlər nəticəsində bu sahənin maddi-texniki bazası, sənaye potensialı gücləndirilmiş, barama tədarükü xeyli artmışdı. Müvafiq torpaq sahələrində, yol kənarlarında, şəhər və qəsəbələrdə tut tinglərinin əkilib becərilməsi baramaçılığın yem bazasını möhkəmləndirmişdir. Tut ipəkqurdunun bəslənməsi üçün təsərrüfatların ictimai binalarında, anbar və digər tikililərdə kümçülərə mövsümi yerlərin ayrılması və yaş baramanın tədarük qiymətinin yüksəldilməsi istehsalçılarda baramaçılığa marağı ilbəil artırırdı. Belə ki, yaş barama istehsalı 1970-ci ildə 3,7 min, 1975-ci ildə 4,4 min, 1980-ci ildə 5,0 min, 1985-ci ildə isə 5,5 min ton olmuşdu. Sonrakı 70–80-ci illərdə Azərbaycan Elmi Tədqiqat İpəkçilik İnstitutu, damazlıq stansiyaları, barama toxumu zavodları, rayon barama qurutmaxanaları, ipəkçilik idarələri, tingçilik təsərrüfatları və emal müəssisələri vahid kompleks şəklində fəaliyyət göstərirdi və respublikanın 60 rayonunda baramaçılıq şəbəkəsi yaradılmışdı. Həmin dövrdə ipəkçiliyin inkişafı sahəsində görülmüş geniş miqyaslı işlərin nəticəsi olaraq, artıq 1991-ci ildə ölkədə yaş barama istehsalı 5,9 min tona çatdırılmışdı. Eyni zamanda, ipəkçiliyin elmi əsasları işlənilmiş, tut ağaclarının və ipəkqurdunun seleksiyasına dair geniş tədqiqatlar aparılmış, yeni yaradılan tut ipəkqurdu cinslərindən elit toxumların əldə edilməsi üçün superelit toxumlar hazırlanmışdır. Lakin baramaçılıqda baş verən geriləmə nəticəsində 1992-ci ildən etibarən yaş barama istehsalı (5200 ton) tədricən azalmışdır.

Qeyd etmək vacibdir ki, dünyada ipəkçiliyin inkişaf meylində son onillklərdə canlanma baş verməkdədir.

Dünya bazarında ipək məhsullarına tələbatın artması nəticəsində onun qiymətində yüksəlmə meyli müşahidə olunur. Hazırda dünya bazarında 1 ton xam ipəyin qiyməti təqribən 20 ton pambıq

mahlıcının qiymətinə bərabərdir. Bu səbəbdən son illərdə xam ipək istehsalında davamlı artım müşahidə olunur. İpəyin dünya toxuculuq sənayesi malları bazarının yalnız 0,2 faizini təşkil etməsinə baxmayaraq, ipəkçilik dünyanın 30-dan çox ölkəsində yayılmışdır. Hazırda dünyada ən böyük ipək istehsalçısı olan ölkələr Çin, Hindistan, Özbəkistan və Braziliyadır.

Dünya üzrə xam ipək istehsalının 84 faizi, ixracın isə 54,1 faizi Çin Xalq Respublikasının payına düşür və dünya bazarında ipək parça məmulatların qiymətlərini, əsasən Çin istehsalçıları müəyyən edir. Dünyada ipək istehsalının həcminə görə Hindistan ikinci yerdə olsa da, yerli əhali arasında ipək parçalara yüksək tələbat nəticəsində ölkə beynəlxalq bazarlarda ipəyin qiymətinə təsir edə bilmir. Özbəkistan Respublikası ipək istehsalının həcminə görə dünyada 3-cü yeri tutsa da, istehsal olunan ipək keyfiyyət baxımından Çin ipəyindən aşağı olduğu üçün beynəlxalq bazarlarda onun bir kiloqramının qiyməti mövcud bazar qiymətindən 1-1,5 ABŞ dolları aşağı müəyyən edilir. İpəkçiliyi inkişaf etdirmək istəyən ölkələrdə barama istehsalına dəstək dövlətin iqtisadi siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən olunur. Avropa İttifaqında yaş barama istehsalçılarına dəstək olaraq, barama toxumları kümçü ailələrinə pulsuz verilir. İstehsalçılar yaş barama məhsulunun satışında tam sərbəstdirlər. Özbəkistan Respublikasında dövlət tərəfindən pulsuz verilən bir qutu barama toxumu müqabilində dövlətə 50 kq yaş barama təhvil verilməsi planı tətbiq edilir və normadan artıq təhvil verilmiş məhsula görə mükafat müəyyən olunur. Bu sahədə fəaliyyət göstərən müəssisələr üçün vergi güzəştləri vardır, idxal edilən xammal və materiallar isə gömrük rüsumlarından azaddır. İran İslam Respublikasında dövlət yaş baramanı tədarük edib yerli emal müəssisələrinə daha ucuz

satmaqla bu sahənin inkişafını təşviq edir. Nəticədə İranda ipək istehsalının həcmi ilbəil artır [16].

Türkiyə Respublikasında yaş baramanı kümçülərdən xüsusi yaradılmış kooperativlər birliyi, keyfiyyətindən asılı olaraq satın alır. Bundan əlavə, birlik fermerlərə pulsuz ipəkqurdu toxumları paylayır, təlim kursları keçirir, yemləmə məntəqələrində dezinfeksiya işləri aparır. Qeyd edilən tədbirlər son illərdə kümçülərin bu sahəyə marağını daha da artırmışdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramları çərçivəsində ölkədə ipək məhsullarının istehsalı, tədarükü və emalı sahələrində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, ənənəvi baramaçılıq rayonlarında barama istehsalının və emalının dəstəklənməsi üçün zəruri tədbirlər görülsədə 2015-ci ildə cəmi 236 kiloqram yaş barama istehsal edilmişdir.

Baramaçılığın və ipəkçiliyin inkişafı üzrə nəzərdə tutulan işlərin vahid proqram əsasında həyata keçirilməsi məqsədilə hazırlanmış "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" (bundan sonra Dövlət Proqramı) bu sahəyə dövlət dəstəyinin gücləndirilməsinə, ixrac potensialının artırılmasına və kənd yerlərində məşğulluğun təmin edilməsinə yönəldilmişdir.

Dövlət Proqramının məqsədi ipəkçiliyin dayanıqlı əsaslarla inkişafına nail olmaq, ipək emalı sənayesinin xammal təminatını yüksəltmək, istehsal edilən məhsulun keyfiyyətini və həcmini artırmaq, yeni təsərrüfat subyektləri yaratmaq, ipək məhsullarının ixrac potensialını gücləndirmək və məşğulluğu artırmaqdan ibarətdir.

Həmin məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- baramaçılığa və ipəkçilik sənayesinə investisiyaların cəlb olunmasının təşviqi;
- barama istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinə səmərəli iqtisadi dəstək mexanizminin formalaşdırılması;
- baramaçılığın və ipəkçiliyin inkişafı üçün əlverişli ərazilərdə ixtisaslaşmanın dərinləşdirilməsi;
- mövcud bağlarda bərpa və yenidənqurma işləri aparmaqla tut (çəkil) ağaclarının məhsuldarlığının artırılması;
- barama toxumçuluğunun inkişafı;
- yeni məhsuldar ipəkqurdu cinsləri və hibridlərinin yaradılması;
- baramaçılığın və ipəkçilik sənayesinin müasir texnologiyalar əsasında təşkili;
- ipək məhsulları ixracının dəstəklənməsi və təşviqi.

Azərbaycanda baramaçılığın və ipəkçiliyin inkişafı sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıdakı istiqamətlərdə innovasiya yönümlü işlərin yerinə yetirilməsi vacibdir:

* baramaçılığın və ipəkçiliyin inkişafı üzrə institusional tədbirlərin həyata keçirilməsi;
* baramaçılıq və ipəkçilik sahəsində elmi təminatın və kadr potensialının daha da gücləndirilməsi;
* baramaçılığın və ipəkçiliyin infrastruktur təminatının yaxşılaşdırılması;
* baramaçılığın və ipəkçiliyin emal potensialının gücləndirilməsi;
* ipəkçilik klasterlərinin inkişafının dəstəklənməsi;
* bu sahədə marketinq fəaliyyətinin gücləndirilməsi [16].

Son illərdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafı yeni keyfiyyət mərhələsinə yüksəlmişdir. Ölkədə ipəkçiliyin inkişaf etdirilməsi üçün böyük potensialın mövcudluğu nəzərə alınaraq, 2016-cı ildən ipək istehsalının müasir infrastrukturunun yaradılmasına başlanılmışdır. Görülən tədbirlər nəticəsində 2016-cı ildə 70,7 ton, 2017-ci ildə isə fərdi sahibkarlarla bağlanan 3516 müqavilə nəticədə 245,2 ton yaş barama istehsal edilmişdir [16]. Barama istehsalı sahəsində Füzuli, Beyləqan, Ağdam, Ağcəbədi, Zaqatala, Zərdab, Şəki rayonları öncül mövqeydə olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında" 2016-cı il 15 sentyabr tarixli 2337 nömrəli və "İpəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 16 noyabr tarixli 2442 nömrəli sərəncamları bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsinə, barama istehsalı ilə bağlı əhalinin məşğulluğunun artırılmasına və sosial rifahının daha da yaxşılaşdırılmasına şərait yaratmışdır.

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 19 may tarixli 2893 nömrəli və "İpəkçiliyin inkişafına dövlət dəstəyinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" 2017-ci il 6 oktyabr tarixli 3286 nömrəli sərəncamlarına uyğun olaraq, Qax Damazlıq İpəkçilik Stansiyasının bərpası, əlavə istehsal sahələrinin yaradılması və müasir avadanlıqlarla təchiz olunması, habelə tut (çəkil) tinglərinin və barama toxumlarının tədarük edilməsi və məhsul istehsalçılarına əvəzsiz verilməsi məqsədilə maliyyə vəsaiti ayrılmışdır.

Barama istehsalı ilə məşğul olan şəxslərə emal müəssisələrinə təhvil verdikləri baramanın hər kiloqramına görə 5 manat məbləğində subsidiyanın verilməsi bu sahəyə marağı artırmışdır. Baramaçılığın və ipəkçiliyin stimullaşdırılması ilə bağlı tədbirlər istehsalın artırılmasına, yüksək keyfiyyətli ipək məhsullarının ixracına, yeni iş yerlərinin açılmasına və kənd əhalisinin məşğulluğunun təmin olunmasına imkan yaradan sosial-iqtisadi məsələ kimi xüsusi əhəmiyyətə malikdir [16].

Adı çəkilən Dövlət Proqramlarında baramaçılığın və ipəkçiliyin inkişafı üzrə innovasiya və institusional tədbirlər içərisində: mövcud normativ-hüququ bazanın təkmilləşdirilməsi; beynəlxalq tələblərə uyğun milli standartların tətbiqi; klasterlərin yaradılması; emal müəssisələri arasında sıx kooperasiya əlaqələrinin yaradılması; ipəkqurdunun seleksiyası laboratoriyasının maddi-texniki bazasının gücləndirilməsi; yeni məhsuldar ipəkqurdu cinsləri və hibridlərinin yaradılması; bir çox rayonlarda barama qəbulu və emalı məntəqələrinin yaradılması; qabaqcıl təcrübənin yeni üsul və texnologiyaların dəstəklənməsi; fermerlərə ödənişsiz məsləhət xidmətinin təşkili; İKT-nin imkanlarından geniş istifadə; ipək istehsalçılarının beynəlxalq bazarlarda marketinq fəaliyyətinin dəstəklənməsi; qabaqcıl barama istehsalçılarının naliyyətlərinin təşviqi; ipək istehsalı və ixracı üzrə vahid məlumat bazasının yaradılması və müvafiq portalda yerləşdirilməsi və sairə bu kimi tədbirlər nəzərdə tutulmuşdur.

Son 14 il ərzində kənd təsərrüfatının inkişafı üzrə böyük meliorativ tədbirlər görülmüş, Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay nəhəng su anbarları tikilmişdir. Heyvandarlıq və bitkiçilik sahəsində icra edilən məqsədli layihələr öz müsbət nəticəsini vermişdir. Bütün bunların nəticəsində ölkədə təsərrüfat kateqori-

yaları üzrə kənd təsərrüfatında ümumi məhsul buraxılışının həcmi yüksələn xəttlə artmışdır (cədvəl 6.6).

**Təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatında ümumi məhsul buraxılışı (mlyn.man)**

*Cədvəl 6.6.*

| Kateqoriyalar | İLLƏR | | | | Artım tempi %-lə | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2015 | 2016 | 2005-2010 | 2010-2016 |
| Bütün kateqoriyaları, cəmi | 1844,8 | 3877,7 | 5635,3 | 5632,4 | 2,1 dəfə | 1453 |
| O cümlədən: bitkiçilik | 988,2 | 1999,2 | 2761,1 | 2577,2 | 2,0 dəfə | 128,9 |
| heyvandarlıq | 856,6 | 1878,5 | 2874,2 | 3055,2 | 2,2 dəfə | 162,6 |
| Kənd təsərrüfatı müəssisələrində və s. təşkilatlarda, cəmi | 68,8 | 192,6 | 410,1 | 449,2 | 2,8 dəfə | 2,3 dəfə |
| O cümlədən: bitkiçilik | 13,9 | 60,0 | 132,5 | 145,8 | 4,3 dəfə | 2,43 dəfə |
| heyvandarlıq | 54,9 | 132,6 | 277,6 | 303,4 | 2,4 dəfə | 2,3 dəfə |
| Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatı, cəmi | 1776 | 3685,1 | 5225,2 | 5183,2 | 2,1 dəfə | 140,7 |
| O cümlədən: bitkiçilik | 974,3 | 1939,2 | 2628,6 | 2431,5 | 199,0 | 125,4 |
| heyvandarlıq | 801,7 | 1745,9 | 2596,6 | 2751,8 | 2,2 dəfə | 157,6 |
| *Cədvəl ARDSK-nın "Azərbaycanın statistik göstəriciləri" statistik məcmuəsinin məlumatları əsasında tərtib edilmiş və hesablanmışdır. Bakı, DSK, 2015, s. 493: 2017, s. 499* | | | | | | |

Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının məqsəd və vəzifələrinə uyğun olaraq 2005-2016-cı illərdə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi respublika üzrə 122,6% artmış və bunun nəticəsində taxıl istehsalı 144,1%, tərəvəz istehsalı 112,7% artmış, lakin kartof istehsalı 16,7% azalmışdır [19, s. 522-528].

Buna baxmayaraq ölkə üzrə kənd təsərrüfatı məhsulunun həcmi həmin dövrdə 3 dəfə, o cümlədən bitkiçilik məhsulları 2,5 dəfə, heyvandarlıq məhsulları 3,6 dəfə artmışdır. Həmin göstəricilər Aran iqtisadi rayonu üzrə uyğun olaraq: 3,1 dəfə; 2,3 dəfə və 4,0 dəfə təşkil etmişdir (cədvəl 6.7).

Azərbaycanda aqrar (qida, içki və tütün) sənaye istehsal edən məhsulların həcminə görə emal sənayesi digər sahələr arasında 1-ci yeri tutur. Onu da qeyd etmək olar ki, kənd təsərrüfatı məhsullarının həcminin 2005-2016-cı illərdə son 10 ildə 3,3 dəfə artmışdır.

Həmin illərdə ölkədə ərzaq təhlükəsizliyinin gücləndirilməsinə yönəldilmiş, tədbirlər nəticəsində kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artması təmin edilmişdir. Buna paralel olaraq yeyinti sənayesi məhsulları üzrə özünütəminetmə səviyyəsi ciddi şəkildə yüksəlib (cədvəl 6.8).

### Azərbaycanda kənd təsərrüfatı məhsullarının təsərrüfat kateqoriyaları və regional səpkidə buraxılışı

*Cədvəl 6.7.*

| Kateqoriyalar | 2005 | | 2010 | | 2014 | | 2016 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Məbləği mlyn man | Xüsusi çəkisi, faizlə | Məbləği, mlyn man | Xüsusi çəkisi, faizlə | Məbləği, mlyn man | Xüsusi çəkisi, faizlə | Məbləğin mlyn.man | Xüsusi çəkisi faizlə |
| Azərbaycan Respublikası üzrə kənd təsərrüfatı məhsullarının həcmi | 1730,1 | 100,0 | 3877,7 | 100,0 | 5225,8 | 100,0 | 5632,4 | 100,0 |
| O cümlədən: bitkiçilik məhsulları | 988,2 | 57,1 | 1999,2 | 51,6 | 2449,4 | 46,9 | 2577,2 | 45,8 |
| Heyvandarlıq məhsulları | 743,9 | 42,9 | 1878,5 | 48,4 | 2763,4 | 53,1 | 3055,2 | 54,2 |
| Aran iqtisadi rayon üzrə kənd təsərrüfatı məhsulları | 559,9 | 100,0 | 1124,4 | 100,0 | 1645,1 | 100,0 | 1742,2 | 100,0 |
| O cümlədən: bitkiçilik məhsulları | 302,5 | 54,0 | 532,4 | 47,3 | 717,0 | 43,6 | 706,4 | 40,6 |
| Heyvandarlıq məhsulları | 257,4 | 46,0 | 592,1 | 52,7 | 928,1 | 56,4 | 1035,5 | 59,4 |

*Cədvəl ARDSK-nın "Azərbaycanın regionları" statistik məcmuələrinin məlumatları əsasında tərtib edilib heablanmışdır. Bakı, "DSK", 2006, s.36,36; 2011-s. 41,42; 2015 – s. 42,43.*

**Ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi (2015-ci il*)**

*Cədvəl 6.8.*

| Məhsullar | Özünütəminetmə səviyyəsi, faizlə |
|---|---|
| Mal əti | 92,0 |
| Qoyun əti | 99,0 |
| Quş əti | 98,6 |
| Yumurta | 99,0 |
| Süd və süd məhsulları | 80,0 |
| Taxıl | 60,0 |
| Tərəvəz | 103,0 |
| Kartof | 90,0 |
| Bostan məhsulları | 100,0 |
| Meyvə və giləmeyvə | 120,0 |
| Üzüm | 98,0 |
| Şəkər və şəkərdən hazırlanan məhsullar | 170,0 |
| Bitki yağları və marqarin | 77,0 |
| Kərə yağı | 60,0 |
| **) Mənbə: [15, s. 17]* | |

Cədvəldən göründüyü kimi, artıq mal, qoyun və quş əti, yumurta, üzüm məhsulları ilə özünütəminat 100%-zə yaxınlaşmış, tərəvəz, meyvə və giləmeyvə, şəkər və şəkərdən hazırlanan məhsullar üzrə özünütəminetmə daha yüksək səviyyəyə çatmışdır. Bu sahədə əldə edilən nailiyyətlər müasir texnologiyalara əsaslanan aqrar emal müəssisələr şəbəkəsinin genişləndirilməsi hesabına mümkün olmuşdur. Onların içərisində Qafqaz konserv zavodu; Gilan Qəbələ konserv zavodu; İmişli şəkər zavodu və başqaları diqqəti cəlb edir.

SKMF vəsaiti hesabına yeni texnologiyalara əsaslanan investisiya layihələrinin güzəştli qaydada maliyyələşdirilməsi sahəsində 2014-cü ildə 57-si ərzaq istehsalı layihələri olmaqla 70 layihə həyata keçirilmişdir. Onların içərisində:

- Tutumu 152 min ton olan 6 logistik mərkəz;
- 3 ixtisaslaşdırlmış yaşıl market (o cümlədən 9 min tonluq 3 logistik mərkəz, 500 ədəd fermer mağazası);
- İllik istehsalı gücü 3,1 min ton quş əti, 11 milyon ədəd damazlıq və 26,4 milyon ədəd əmtəəlik yumurta, 2,8 milyon ədədlik inkubator olan 5 quşçuluq təsərrüfatı;
- 2700 başlıq 6 cins heyvandarlıq kompleksi;
- 13,5 min ha ərazidə 6 iri fermer təsərrüfatı;
- 45,4 ha ərazidə 9 istixana kompleksi;
- Gündəlik istehsal gücü 97 ton olan 6 çörək zavodu;
- İllik emal gücü min ton olan 1 meyvə-tərəvəz emalı zavodu;
- İllik emal gücü 25 min ton olan 2 süd zavodu;
- İllik istehsal gücü 22 min ton olan 1 un istehsalı müəssisəsi;
- 388 ha ərazidə 5 intensiv bağçılıq təsərrüfatı;
- 100 ha ərazidə bir üzümçülük təsərrüfatı və başqaları öz müasirliyi ilə seçilmişdir.

Təhlil göstərir ki, son illər ərzində 19 rayonda 40 quşçuluq təsərrüfatına, 13 rayonda 20 heyvandarlıq və 8 rayonda südçülük komplekslərinə, 6 rayonda 7 ət kəsimi və emalı müəssisəsinə 240 milyon manat güzəştli kredit verilmiş, bu da istehsalın artmasına, ət və ət məhsullarının idxalının əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur [16].

Bundan əlavə, 20 rayonda 33 intensiv bağçılıq və üzümçülük təsərrüfatlarına, 9 rayonda 37 istixana kompleksinə və 11 rayonda 16 meyvə-tərəvəz emalı müəssisələrinə 171 milyon manat güzəştli

kreditlərin verilməsi daxili tələbatın yerli istehsal hesabına ödənilməsi ilə yanaşı, bu məhsulların ixracına da imkan yaratmışdır.

Bununla belə, süd və süd məhsulları, kartof, bitki yağları və marqarin, kərə yağı, taxıl, tütün məmulatı, təbii çay, kolbasa və sairə üzrə respublikada daxili tələbat ödənilmir. Deməli, həmin məhsullar üzrə özünütəminat səviyyəsinin yüksəldilməsi həm cari, həm də perspektiv tələbat baxımından aktualdır. Yerli istehsal hesabına özünütəminetmə səviyyəsinin yüksəldilməsinə xüsusilə ehtiyac olan məhsullar 6.2 saylı şəkildə verilmişdir.




**Şəkil 6.2.** Yerli istehsal hesabına özünütəminetmə səviyyəsinin yüksəldilməsinə xüsusilə ehtiyac olan məhsullar [15, s. 18]

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Starateji Yol Xəritəsində nəzərdə tutulan prioritetlərin icrası idxal edilən kənd təsərrüfatı məhsullarının

kəskin azalmasına və onun yerli müəssisələrdə istehsalına təminat yaradılması şübhəsizdir.

ARDSK-nın məlumatlarına görə, yalnız 2015-ci ildə kənd təsərrüfatında istehsal edilən ümumi məhsulun faktiki qiymətlərlə dəyəri 5635,3 milyon manat təşkil etmişdir ki, onun da 2874,2 milyon manatı heyvandarlıq, 2761,1 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür. Onun son üç ildəki strukturu 6.3 saylı şəkildə göstərilmişdir.




**Şəkil 6.3.** Kənd təsərrüfatının ümumi məhsulunun strukturu [25, s 52]

2014-cü illə müqayisədə 2015-ci ildə kənd təsərrüfatının istehsal indeksi 6,6 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 11,3 faiz, heyvandarlıq məhsulları üzrə isə 2,5 faiz artmışdır.

2015-ci il ərzində sahələrdən 839,8 min ton kartof, 1273,3 min ton tərəvəz, 484,5 min ton bostan məhsulları toplanmış və nəticədə

2014-cü ilə nisbətən kartof istehsalı 2,5 faiz, tərəvəz istehsalı 7,2 faiz, bostan məhsulları istehsalı isə 9,9 faiz artmışdır. Hektarın orta məhsuldarlığı kartof üzrə 3 sentner, tərəvəz üzrə 6 sentner, bostan məhsulları üzrə 17 sentner artaraq müvafiq olaraq 136, 158 və 174 sentner olmuşdur [25, s.54].

Qeyd edildiyi kimi, heyvandarlıq respublikanın kənd təsərrüfatının əsas sahələrindən biridir və son illərdə dövlətin dəstəyi ilə ölkəyə cins mal-qaranın gətirilməsi və təsərrüfatlarda süni mayalanmaya üstünlük verilməsi mal-qaranın baş sayının sabitləşdirilməsinə səbəb olmaqla yanaşı, məhsul istehsalına da öz müsbət təsirini göstərmişdir. Belə ki, 2015-ci ildə diri çəkidə 515,6 min ton ət, 1924,4 min ton süd, 1538,6 milyon ədəd yumurta və 17,0 min ton yun istehsal edilmişdir. Ət istehsalı 2014-cü illə müqayisədə10,1 min ton və ya 2,0 faiz, süd istehsalı 68,6 min ton və ya 1,4 faiz artmışdır [21, s 56].

Respublika üzrə istehsal edilən bütün kənd təsərrüfatı məhsullarının 2005-ci ildə 32,3%-i, 2014-cü ildə isə 31,0%-i Aran iqtisadi rayonunun payına düşümüşdür (şəkil 6.4).




**Şəkil 6.4.** Aran İqtisadi Rayonunda kənd təsərrüfatı məhsullarının respublika üzrə eyni adlı bütün məhsullardakı xüsusi çəkisi, faizlə

Həmin illərdə regionun payının aşağı düşməsinin başlıca səbəbi orada kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin azalmasıdır.

**Aran iqtisadi rayonunda kənd təsərrüfatının inkişafını xarakterizə edən göstəricilər**

*Cədvəl 6.9.*

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 | 2015-2016 |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| **Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi (bütün təsərrüfat kateqoriyaları üzrə), ha** | | | | | | |
| Dənli və dənli paxlalılar | 275337 | 306587 | 339337 | 318588 | 341040 | 123,9 |
| o cümlədən buğda | 192927 | 185607 | 172.180 | 144249 | 164257 | 85,2 |
| Pambıq | 99078 | 27750 | 21176 | 17515 | 45521 | 45,9 |
| Şəkər çuğunduru | 1248 | 5618 | 2766 | 2307 | 2950 | 2.4 dəfə |
| Dən üçün günəbaxan | 5184 | 3143 | 2255 | 1360 | 1163 | 22,4 |
| Kartof | 7454 | 7055 | 6418 | 6435 | 5937 | 79,6 |
| Tərəvəz | 27400 | 27185 | 23713 | 24454 | 20972 | 76,3 |
| Bostan bitkiləri | 20481 | 21126 | 18994 | 19193 | 17543 | 85,4 |
| Meyvə və giləmeyvə | 18454 | 2524 | 27891 | 28581 | 30289 | 164,7 |
| Üzüm | 1226 | 2489 | 2419 | 2306 | 2369 | 193,2 |
| **Əsas bitkiçilik məhsullarının istehsalı (bütün təsərrüfat kateqoriyaları üzrə), ton** | | | | | | |
| Dənli və dənli paxlalılar | 812070 | 696206 | 945360 | 1083030 | 1099963 | 135,5 |
| o cümlədən buğda | 602382 | 422355 | 516157 | 514716 | 573340 | 89,2 |
| Pambıq | 173302 | 34327 | 37551 | 33790 | 79671 | 46,0 |
| Şəkər çuğunduru | 11641 | 187369 | 106221 | 95481 | 153261 | 13,2 dəfə |
| Dən üçün günəbaxan | 7544 | 5317 | 4279 | 2785 | 2640 | 35,0 |
| Kartof | 71558 | 76141 | 77484 | 84200 | 79599 | 111,1 |
| Tərəvəz | 286594 | 321681 | 352578 | 394654 | 353530 | 123,3 |
| Bostan məhsulları | 241967 | 300067 | 330068 | 373366 | 347871 | 143,8 |
| Meyvə və giləmeyvə | 157550 | 197156 | 230128 | 236408 | 216465 | 137,4 |
| Üzüm | 16856 | 24653 | 26787 | 27206 | 17455 | 103,6 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| **Məhsuldarlıq (bütün təsərrüfat kateqoriyaları üzrə), sentner/ha** | | | | | | |
| Taxıl | 29.5 | 22.7 | 27.9 | 34,0 | 32,1 | 108,5 |
| o cümlədən buğda | 31.2 | 22.8 | 30.0 | 35,7 | 34,9 | 111,8 |
| Pambıq | 17.5 | 12.4 | 17.7 | 19,3 | 17,4 | 99,4 |
| Şəkər çuğunduru | 100 | 343 | 388 | 418 | 57,1 | 5,7 dəfə |
| Dən üçün günəbaxan | 14.8 | 17.1 | 19.1 | 20,7 | 22,5 | 152,0 |
| Kartof | 96 | 108 | 121 | 125 | 123 | 128,1 |
| Tərəvəz | 103 | 116 | 145 | 148 | 154 | 149,5 |
| Bostan bitkiləri | 118 | 143 | 174 | 195 | 198 | 167,8 |
| Meyvə və giləmeyvə | 94.5 | 95.9 | 97.3 | 97,7 | 84,5 | 89,4 |
| Üzüm | 69.3 | 71.2 | 72.3 | 68,9 | 35,2 | 50,8 |
| **Mal-qaranın sayı ( bütün təsərrüfat kateqoriyaları üzrə) baş** | | | | | | |
| İri buynuzlu mal-qara | 917309 | 1025875 | 1073240 | 1077905 | 1073160 | 117,0 |
| o cümlədən inək və camışlar | 446386 | 492180 | 513655 | 515370 | 512729 | 114,9 |
| Qoyunlar və keçilər | 2229138 | 2473970 | 2588400 | 2611774 | 2605359 | 116,9 |
| Donuzlar | 430 | 187 | 260 | 252 | 221 | 51,4 |
| Quşlar | 6663584 | 7859048 | 11559865 | 12964866 | 11317557 | 169,8 |
| **Heyvandarlıq məhsullarının istehsalı, ton[x)]** | | | | | | |
| Ət (kəsilmiş çəkidə) | 50344 | 72584 | 96351 | 98431 | 98059 | 194,8 |
| Süd | 450464 | 564994 | 682202 | 717598 | 760853 | 168,9 |
| Yumurta, min ədəd | 247532 | 354369 | 677434 | 694039 | 692405 | 2,8 dəfə |
| Yun (fiziki çəkidə) | 3920 | 4777 | 5279 | 5350 | 5349 | 136,5 |
| **) Azərbaycanın regionları. Statistik məcmuə Bakı, "DSK", 2014 - s. 436; 2015 - s. 461; s. 437, 438* | | | | | | |

Belə ki, 2005-2016-cı illərdə AİR üzrə buğda əkini sahəsi 14,8%, pambıq sahəsin 54,1%, dən üçün günəbaxan sahəsi isə 77,6 %, kartof sahəsi 20,4%, tərəvəz sahəsi 23,7%, bostan bitkiləri üçün sahə isə 14,6% azalmışdır.

Eyni zamanda həmin dövrdə iqtisadi rayonda dənli və dənli paxlalılar üçün ayrılmış əkin sahəsi 23,9%; şəkər çuğunduru sahəsi 2,4 dəfə; meyvə və giləmeyvə bağlarının ərazisi 164,7%, üzüm plantasiyaların sahəsi 193,2% artmışdır. Nəticədə təhlilin əhatə etdiyi dövrdə iqtisadi rayonda buğda istehsalı 10,8%, dən üçün

günəbaxan istehsalı 65%, pambıq 54% azalmış, lakin bütün digər məhsulların həcmi yüksələn xətlə artmışdır.

Bütün bu nailiyyətlər AİR-in ayrı-ayrı bölgələrində uğurla həyata keçirilən investisiya-innovasiya layihələrinin və sahibkarlara ayrılan güzəştli kreditlərdən səmərəli istifadənin nəticəsində mümkün olmuşdur. Bu baxımdan AİR-in ayrı-ayrı bölgələrində keçirilən tədbirlər ürəkaçandır. Həmin bölgələrdən biri-Ağcabədi rayonudur. Tədqiq edilən iqtisadi region üzrə ümumi məhsul buraxılışının 5,5%-i, o cümlədən kənd təsərrüfatı məhsullarının 8,9%-i həmin rayonun payına düşür. Bu rayonda özəl sektor sürətlə inkişaf edir.

Rayonda özəl sektorun və sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsində genişmiqyaslı güzəştli kreditlərin verilməsi mühüm rol oyanır.

Sahibkarlığa göstərilən dövlət qayğısının nəticəsidir ki, son illərdə Ağcabədi rayonunun Ağabəyli kəndində 250 ton sutkalıq istehsal gücünə malik "Atena" süd emalı kombinatı, 5 min ton tutumu olan taxıl anbarı, 3 min başlıq "Aqat-aqro" iribuynuzlu heyvandarlıq kompleksi, "Gilan Holdinq" şirkətinə məxsus, sutkalıq istehsal gücü 20 ton olan süd zavodu, xocavənd kəndində illik istehsal gücü 18 min tonodan çox olan ət kəsimi kombinatı, Aşağı Avşar kəndində tutumu min ton olan soyuducu anbar kompleksi kimi iri həcmli müəssisələr istifadəyə verilmiş və iki özəl iri pilot taxılçılıq təsərrüfatı yaradılmışdır.

Hazırda Rəncbərlər kəndində tutumu 5 min ton olan soyuducu anbarın, Ağcabədi şəhərində illik 7,3 min ton istehsal gücünə malik çörək zavodunun tikintisi davam etdirilir, Cəfərbəyli kəndində ölkədə ilk böyük keçi təsərrüfatı formalaşdırılır. Bundan əlavə, rayonda sahibkarlar tərəfindən dekorativ plitə istehsalı, plastik və

alüminium materiallardan qapı və pəncərə sexləri, mebel, beton istehsalı müəssisələri, qum-çınqıl karxanaları da yaradılmışdır.

Respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə atılan mühüm addımlardan biri Ağcabədi və Beyləqan rayonları ərazisində 4800 hektar sahədə ölkədə ilk özəl iri pilot taxılçılıq təsərrüfatının yaradılmasıdır. "Qarabağ-Taxıl" MMC tərfindən yaradılan təsərrüfatın fəaliyyətinin təmin edilməsi üçün dövlət tərəfindən ərazidə lazımi infrastruktur yaradılmış, meliorasiya-irriqasiya işləri, yolların çəkilməsi və enerji təminatı həyata keçirilmişdir. Burada süni yağışyağdırma sistemi quraşdırılmış, təsərrüfatdaxili hərəkət yolları, yeraltı su və elektrik xətləri çəkilmişdir. Əksinə hazırlıq, səpin, becərmə və itkisiz məhsul yığımının təmin edilməsi üçün əraziyə xaricdən müasir texnika və aqreqatlar, taxılbiçən kombaynlar gətirilmişdir. Əraziyə müasir texnika və aqreqatlar vasitəsilə mineral və üzvi gübrələr verilmiş, yüksək reproduksiyalı toxum gətirilərək buğda, qarğıdalı, günəbaxan və soya becərilmiş, istehsalda yüksək məhsuldarlığa nail olunmuşdur [51].

Ağcabədi rayonuna əkinlərin suvarma suyu ilə təminatının yaxşılaşdırlması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Rayonun 65 min hektardan artıq əkin sahəsi 2261 kilometr kanal, 2709 kilometr kollektor-drenaj şəbəkəsi, 62 ədəd nasos stansiyası, 863 ədəd subartezian quyusu vasitəsilə suvarma suyu ilə təmin edilir. Son illərdə rayonun Nəcəfqulubəyli kəndi ərazisində min hektardan artıq əkin sahəsini suvarma suyu ilə təmin etmək üçün Qarqar çayı üzərində nasos stansiyası, 18 kilometr uzunluğunda beton üzlüklü suvarma kanalı, 9,71 kilometr uzunluğunda dren və drenaj nasos stansiyası tikilib, 17 kilometr uzunluğunda açıq suyığıcılar və drenlər yenidən qurulub. Salmanbəyli kəndində 1100 hektar əkin sahəsinin suvarılması üçün Yuxarı Qarabağ kanalı üzə-

rində bir ədəd 3 aqreqatlı nasos stansiyası, uzunluğu 30,2 metr olan ikiaşırımlı körpü, həmçinin 6163 metr uzunluğunda 720 millimetr diametrli su borusu, hovuz inşa edilib, 2109 metr uzunluğunda beton kanal yenidən qurulmuşdur.

Rayonda yaradılan "Atena" süd emalı kombinatında süd texnologiyasında istifadə olunan ən yüksək standartlar tətbiq edilmiş və mükəmməl laboratoriya sistemi qurulmuşdur ki, burada 108 növ laborator təhlil və analiz aparmaq mümkündür. Müəssisə süd istehsalında tamamilə yeni "ESL" adlanan texnologiya ilə işləyir. Yaxın vaxtlarda burada üzvü süd məhsullarının istehsalı da nəzərdə tutulur. Hazırda kombinatda "Atena" markası ilə 50-dən çox çeşiddə süd məhsulları istehsal olunur. Həmin məhsullar yüksək keyfiyyəti ilə əhalinin rəğbətini qazanmış və qonşu dövlətlərdən gətirilən tanınmış süd brendlərinin mövqelərini zəiflətmişdir.

"Atena" süd kombinatının fəaliyyətə başlanması Ağcabədi rayonunda kəndli təsərrüfatının da inkişafına təkan vermişdir. Təsadüfi deyildir ki, öz məhsullarını maneəsiz və əlverişli qiymətə satmaqda marağı olan kiçik fermerlər təsərrüfatlarını genişləndirmişlər ki, bu da əhalinin rifahının yaxşılaşdırılması üçün mühüm amillərdən birinə çevrilmişdir. Ağcabədidə və qonşu rayonların kəndlərində yaradılmış süd qəbulu məntəqələrində hər gün 2 mindən çox ailə-kəndli təsərrüfatından 30 tondan artıq süd qəbul edilir [51].

"Atena" süd kombinatını fasiləsiz olaraq xammalla təmin etmək üçün Ağcəbədi rayonunun Ağabəyli kəndində 3 min başlıq heyvandarlıq kompleksi yaradılmışdır. İribuynuzlu heyvandarlıq kompleksi avadanlığı avtomatik yönləndirmə və yemləmə sistemləri, birdəfəyə 40 baş inəyin sağılmasına imkan verən karusel tipli avadanlıq, soyutma sistemi və s. ilə təchiz edilmişdir. Ağcabədi rayonunda sahibkarlar tərəfindən həyata keçirilən ən iri layihələrdən

biri də Cəfərbəyli kəndində yaradılan ölkə üzrə ilk böyük keçi təsrrüfatıdır. Tikintisi üçün SKMF tərəfindən güzəştli kredit ayrılan müəssisə "BMS Aqro" MMC tərəfindən yaradılmışdır. Təsərrüfatda 4 min baş keçi saxlamaq üçün 8 ferma, sağım və yem sahələri, ofis binası istifadəyə verilmiş, həmin təsərrüfat dünyada mövcud olan ən müasir ferma avadanlığı avtomatik yönləndirmə və yemləmə sistemləri, birdəfəyə 72 baş keçinin sağılmasına imkan verən paralel tipli sağım sistemi və s. ilə təchiz edilmiş, işçilərin çalışmaları və istirahəti üçün hər cür şərait yaradılmışdır. Hollandiya və Fransadan gətirilən məhsuldarlığı və südünün keyfiyyətinə görə ən yüksək göstəricilərə malik "SAANEN" və "Alpin" cinslərindən olan 1330 baş keçi saxlanılır [51].

Ağcabədi rayonunda heyvandarlıq məhsulları istehsalının intensiv artmasına zəmin yaradan cins maldarlığın inkişafı üçün heyvanların süni mayalanması da uğurla həyata keçirilir. Kəndlərdə aparılan geniş maarifləndirmə tədbirləri və əldə edilən yüksək nəticələr heyvandarlıqla məşğul olan fermerlərin süni mayalanma tədbirlərinə marağını artırmışdır. Təkcə 2016-cı ildə rayon ərazisində fəaliyyət göstərən 8 süni mayalanma texniki tərəfindən 2248 baş inək və düyə süni yolla mayalandırılıb, 1322 baş sağlam cins buzov alınıb. Bundan başqa rayona sahibkarlar tərəfindən lizinq yolu ilə 66 baş südlük istiqamətli cins iribuynuzlu heyvan gətirilmişdir. Rayonun Təzəkənd adlı kəndində kiçik ailə fermer cins heyvandarlıq təsərrüfatlarının yaradılması layihəsi nəzərdə tutulmuşdur. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Ağcabədi rayonunda mal-qaranın cins tərkibi əsaslı şəkildə yaxşılaşmış, onların baş sayı və heyvandarlıq məhsullarının istehsalı xeyli artmışdır. Belə ki, 2005-2016-cı illərdə rayonda iribuynuzlu mal-qaranın sayı

8,3%, qoyun və keçilərin sayı 3,8%, ət istehsalı 121,5%, süd istehsalı 2,1 dəfə, yun istehsalı 122,2% çoxalmışdır [52, s. 468, 469].

Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının aqrar sahə üzrə prioritetlərinin Beyləqan rayonunda icrası nəticəsində 2005-2016-cı illərdə dənli bitkilərinin əkin sahəsi 112,2%, o cümlədən buğda sahəsi 106,0% tərəvəz sahəsi 126,9%, üzüm sahəsi 171,6% genişlənmiş və bunun nəticəsində dənli və dənli paxlalılar istehsalı 119,3%, şəkər çuğunduru 3,5 dəfə, tərəvəz istehsalı 2,35 dəfə, üzüm istehsalı 105,8% artmışdır. Həmin dövrdə bütün təsərrüfat kateqoriyaları üzrə mal qaranın sayının 125,7%-nin artması ət istehsalının 173,3%, süd istehsalının 174,0%, yun istehsalının 150%, yumurta tədarükünün 2,6 dəfə artmasına təminat yaratmışdır [23, s. 458,459].

Adı çəkilən dövlət proqramının Bərdə rayonunda icrası nəticəsində 2005-2016-cı illərdə şəkər çuğunduru istehsalı 32,1 dəfə, meyvə və giləmeyvə 119,1%, mal-qaranın sayı 139,0%, ət istehsalının həcmi 2,5 dəfə, süd istehsalı 2,1 dəfə yumurta 159%; yun tədarükü 191,8% çoxalmışdır [23, s. 478,479].

Kənd təsərrüfatının inkişafı sahəsində Biləsuvar rayonunda həyata keçirilən tədbirlər nəticəsində 2005-2016-cı illərdə əkin sahəsi 600 hektara yaxın genişlənmiş, nəticədə dənli bitkilərin həcmi 174,6%, şəkər çuğunduru 54,1dəfə, kartof istehsalı 2,7 dəfə, tərəvəz 63,0 dəfə, meyvə və giləmeyvə 135,6%, üzüm 3,1 dəfə artmış, mal-qaranın sayının 4132 baş çoxalması ət istehsalının 190%, südün 193%, yun tədarükünün 183,3% çoxalmasına imkan vermişdir [23, s. 500-501].

İmişli AİR-in aparıcı bölgələrindən biridir, 127 min nəfərdən çox əhalisi olan rayonda kənd təsərrüfatı sürətlə inkişaf edir. Orada Respublikanı şəkər məhsulları ilə təmin edən müasir şəkər zavodu

fəaliyyət göstərir. İmişlidə bitki yağları, spirt emalı, qarışıq yem zavodları tikilmiş, Bəhrəmtəpə qəsəbəsində 50 min tonluq taxıl anbarı, Qaravəlli kəndində "Araz" damazlıq quşçuluq müəssisəsi istifadəyə verilmişdir. Kənd təsərrüfatı sahəsində əkin sahələrinin genişlənməsi və aqrotexniki tədbirlər nəticədə 2005-2016-cı illər ərzində şəkər çuğunduru tədarükü 3,2 dəfə artmış, mal-qaranın sayının 24,7 min baş çoxaldılması isə ət istehsalının 2,4 dəfə, süd istehsalının 174,3%, quşçuluğun inkişafı isə yumurta tədarükünün 7,8 dəfə, qoyunçuluğun inkişafı isə yun tədarükünün 116,7% artmasına təminat yaratmışdır [23, s. 585-586].

AİR üzrə 2016-cı ildə istehsal edilən 5031,5 mlyn. manat regional ümumi məhsulun 239 mlyn.man. yaxud 4,8%-i, kənd təsərrüfatı məhsulunun isə 4,4%-i Yevlax rayonunun payına düşmüşdür. Bu rayonda fiziki şəxs statusunda olan 9 mindən çox təsərrüfat subyekti mövcuddur. Orada 10,2 min hektar dənli bitki sahəsi, 1435 hektar pambıq, 340 hektar üzüm, 964 hektar meyvə bağları, 245 hektar kartof və 554 hektar tərəvəz sahəsi becərilir. Həmin sahələrdən 2016-cı ildə 18,1 min ton buğda, 3,68 min ton pambıq, 2,4 min ton kartof, 7,2 min ton tərəvəz, 9,6 min ton meyvə, 3,98 min ton bostan məhsulları və 2,29 min ton üzüm yığılmışdır.

Yevlax rayonunda müqayisə edilən dövrdə iribuynuzlu mal-qaranın sayı 4,1%, qoyun və keçilərin sayı 8,6% azalmış, quşların sayı 17,9% artmış, ət tədarükü 126,5%, süd istehsalı 137,3%, yumurta tədarükü 109,0%, yun tədarükü isə 113,0% artmışdır [23, s. 522-529].

AİR-in Kürdəmir bölgəsində 2014-cü ildə 332,0 mlyn.man. regional ümumi məhsul istehsal edilmişdir ki, onun da 125,9 mlyn.man və yaxud 37,9%-i kənd təsərrüfatı məhsuludur. Onun 53,7%-i bitkiçilik, 46,3%-i isə heyvandarlıq məhsulları təşkil edir.

Rayonda 8 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Rayon ərazisində “Aqrolizinq” ASC-nin aqroservis mərkəzi mövcuddur və onun mexaniki dəstələrində 45 traktor, 16 kombayn, ot biçən, taxıl səpən, ümumillikdə 60-dan çox traktor və digər kənd təsərrüfatı maşınları avadanlıqlarından istifadə olunur. “Avrolizinq” ASC tərəfindən rayon servisinə əlavə kombaynlar və traktorların verilməsi nəzərdə tutulmuşdur. Pambıq istehsalı ilə əlaqədar lazımi texnikaların alınması istiqamətində işlər aparılır. Aqrotexservis Mərkəzi və digər şirkətlər tərəfindən istehsalçılara 1300 tondan çox güzəştli qiymətlərlə mineral gübrələr satılmışdır. Bundan əlavə 5 özəl aqrotexservis mərkəzi yaradılmış və burada da 120-dən çox traktor, kombayn və digər kənd təsərrüfatı texnikalarından istifadə olunur. Fiziki və hüquqi şəxslər tərəfindən 250 ədəd tarktor və digər kənd təsərrüfatı texnikası lizinqə götürülmüşdür. Bunun nəticəsidir ki, rayonda kənd təsərrüfatı işlərinin optimal müddətlərdə görülməsi mümkün olur. Bütün bunlar kənd təsərrüfatı məhsullarının istehsalının artmasına imkan yaratmışdır. Rayonda 53,4 min hektar əkin sahəsindən 2016-cı ildə 36,6 min ton buğda; 14,1 min ton kartof; 22,5 min ton tərəvəz; 69,6 min ton bostan məhsulları; 2,8 min ton üzüm yığılmışdır.

Kürdəmirdə heyvandarlığın və quşçuluğun inkişaf etdirilməsi sahəsində məqsədyönlü işlər həyata keçirilir. Belə ki, 2005-2016-cı illərdə iribuynuzlu mal-qaranın sayı 7593 baş, qoyun və keçilərin sayı 19,8 min baş, quşların sayı 72,5 min baş artmış, nəticədə ət istehsalı 2,1 dəfə, süd istehsalı 185%, yumurta tədarükü 139,1%; yun tədarükü isə 119,4% artmışdır [19, s. 574-575].

Rayondakı “Kürdəmir Broyler” ASC-nın fəaliyyəti genişləndirilmiş, damazlıq ana quşların sayı 18 min başa çatdırılmış, quş əti

və yumurta istehsalı artırılmış və 327 min yumurta istehsal olunmuşdur.

Rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırlması sahəsində məqsədyönlü işlər aparılır, lizinq yolu ilə alınmış 217 baş cins düyə artırılaraq 580 başa çatdırılmış və onların yüksək texnologiya ilə saxlanılması təmin edilmişdir [53].

Respublikada həyata keçirilən aqrar islahatlar kontekstində iri fermer təsərrüfatlarının yaradılması intensivləşmişdir. Artıq 2015-ci ilin sonunda ölkənin 19 rayonunda (Ağcabədi, Beyləqan, Kürdəmir, Ağsu, İmişli, Hacıqabul, Cəlilabad, Salyan, Xaçmaz, Füzuli, Saatlı, Şamaxı, Yevlax, Ağdaş, Şəmkir, Siyəzən, İsmayıllı, Samux və Şəmkir) 40 min hektardan artıq sahədə 22 sahibkarlıq subyekti tərəfindən 30 iri fermer təsərrüfatı formalaşmışdır. Ümumi dəyəri 162,4 mlyn. manat olan bu təsərrüfatların yaradılmasına SKMF tərəfindən 61,6 mlyn.man. güzəştli kredit verilmişdir. Hazırda fəaliyyətdə olan təsərrüfatlarda müasir suvarma sistemləri qurulmuş, hər hektardan 58-60 sentner arpa və buğda, 120 sentnerədək dənlik qarğıdalı istehsal edilmişdir [54].

Tədqiq edilən iqtisadi rayonun ayrı-ayrı bölgələrində həyata keçirilən tədbirlərin əhəmiyyətini azaltmadan onu da qeyd etmək lazımdir ki, orada istifadə olunmayan çoxsaylı ehtiyat imkanları mövcuddur. Bu imkanlar əhalinin yerli və ekoloji təmiz kənd təsərüffatı məhsulları ilə təlabatının ödənilməsinə yönəldilməlidir ki, idxal məhsullarından asılılıq azalsın. Araşdırmalar göstərir ki, hazırda idxalın əmtəə strukturunda diri heyvanlar, heyvan və bitki mənşəli məhsulların, piylərin və yağların, hazır ərzaq məhsulları, spirtli və alkoqolsuz içkilərin, sirkə və digər məhsulların xüsusi çəkisi təkcə 2010-2016-cı illər ərzində cəmi 4,2% azalmış və 2016-cı ildə

185% təşkil etmişdir ki, bu da pul ifadəsilə 579,5 mlyn.man təşkil etmişdir [24, s. 44-52].

Fikrimizcə bu gün Azərbaycanda istehsalı mümkün olan kənd təsərrüfatı məhsullarının xaricdən alınması, əlverişli iqlim şəraiti, məhsuldar torpağı, iqtisadi və kadr potensialı olan ölkə üçün yolverilməzdir. Son illər kənd təsərrüfatı sferasında aparılan önəmli iqtisadi, təşkilati-texniki tədbirlərin həyata keçirilməsinə baxmayaraq, 2012-ci ildə bu sferada 27,9 mlyn.man, 2013-cü ildə 28,2 mlyn. man, 2014-cü ildə 23,3 mlyn.man, 2015-ci ildə 23,0 mlyn.man. mənfəət əldə edilmiş, elə həmin illərdə zərərin məbləği uyğun olaraq: 10,8; 12,3; 17,5 və 19,1 mlyn.man. təşkil etmişdir [19, s. 398-405].

Qeyd edildiyi kimi, Aran İqtisadi Rayonunda 2016-cı ildə mövcud olan 155,2 min vahid təsərrüfat subyektlərinin 90,6%-i fiziki şəxslər, yeni fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarından ibarətdir.

Aydın məsələdir ki, xırda fermer təsərrüfatlarının həm iqtisadi baxımdan, həm də ki, belə təsərrüfatlarda istehsal olunan məhsulların keyfiyyəti və təhlükəsizliyi baxımından müasir zamanda rəqabətə davamlılıq imkanları olduqca məhduddur. Bu səbəbdən də onların davamlı inkişaf prespektivləri və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi işindəki rolu yetərincə deyildir. Bütün bunları nəzərə alan Respublika Prezidenti aqrar sahədə modernləşdirmənin labüdlüyünü ön plana çəkilmiş və xüsusən də kənd təsərrüfatı istehsalının müasir texnologiyalar əsasında qurulmasının və aqrar sahədə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin vacibliyini bildirmiş, ərzaq və kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyini yüksəltməyi, eyni zamanda respublikanın ərzaq təhlü-

kəsizliyini daxili imkanlar və yerli resurslar vasitəsi ilə təmin etməyi ən ümdə vəzifə kimi qarşıya qoymuşdur.

Hesab edirik ki, müasir texnologiyaların və informasiya-kommunikasiya texnologiyalarının kənd təsərrüfatına gətirilməsi istehsal münasibətlərinin modernləşdirilməsi üçün hazırda sahədə mövcud olan fərdiçilik meyllərinin aradan qaldırlması, beləliklə də xırda ailə-kəndli təsərrüfatlarının təmərküzləşməsi yolları araşdırmalı, habelə fermerlərin kooperasiya əlaqələrinin genişləndirilməsi, əmək bölgüsü, regionlar üzrə ixtisaslaşma prinsiplərinin yer almasına və bu prosesləri stimullaşdıran normativ hüquqi baza yaradılmalıdır. Bunun üçün ərzağa dair qanunvericilik təkmilləşdirilərək Avropa İttifaqının qanunvericliyinə, standartlar isə beynəlxalq tələblərə uyğunlaşdırılmalı, ərzaq məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin idarə edilməsi, ərzağa dövlət nəzarəti qaydaları müasirləşdirilməlidir.

Azərbaycanın aqroiqlim şəraiti respublika ərazilərində ekoloji cəhətdən təmiz, təbii üsullarla, gen mühəndisliyindən və ya geni dəyişdirilmiş orqanizmlərdən istifadə edilən texnologiyalara əl atmadan yüksək keyfiyyətli və insan sağlamlığı üçün zərərsiz olan ərzaq məhsullarının istehsalına geniş imkanlar açır. Cənab Prezidentin qarşıya qoyduğu vacib tapşırıqlarından biri də belə məhsullarının xarici bazarlarda yer alması üçün zəruri fəaliyyətlərin həyata keçirilməsidir.

Fərəhlə qeyd edilməlidir ki, xarici mütəxəssislər və ekspertlər Azərbaycanda istehsal olunan ərzaq məhsullarının, xüsusən də tərəvəzçilik, bostanşılıq, bağçılıq məhsullarının keyfiyyətindən daim razı qalmışlar. Onlar təəssüf hissi ilə belə keyfiyyətli və dadlı məhsullarımıza Avropa bazarlarında çox təsadüfi hallarda rast gəlindiyini bildirmişlər.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının ekspertlərinin bilavasitə iştirakı ilə ölkəmizdə aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, yerli məhsularımızın dünya bazarlarına ixracına mane olan əsas səbəblər normativ-hüquqi bazanın, ərzağa dair standartların və qaydaların beynəlxalq tələblərə uyğun olmamasıdır. Odur ki, bu məsələlərin həlli: a) kənd təsərrüfatında müasir texnologiyaların tətbiqini; b) fərdiçiliyin aradan qaldırlmasını; d) rəqabət qabiliyyətli təsərrüfat subyektlərinin formalaşmasını; q) idxal yönümlü məhsul istehsalını şərtləndirəcəkdir. Bunlarla yanaşı, ölkə başçısı tərəfindən verilmiş tapşırıqlara əsasən iri təsərrüfat subyektlərinin yaradılması istiqamətində iş aparılır. Belə təsərrüfatların yaranması, yəqin ki, kənd təsərrüfatında kooperasiya hərəkatının genişlənməsinə, kiçik təsərrüfatların təmərküzləşməsinə, beləliklə də kənd təsərrüfatında yeni texnika və texnologiyaların, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə, kənd təsərrüfatına müasir biliklərə malik mütəxəssis-kadr heyətinin cəlb olunmasına stimul olacaqdır.

Beynəlxalq təcrübədə illər boyu sınaqdan çıxmış fəaliyyət göstərir ki, kənd təsərrüfatının inkişafında aqrar emal sənayesi mühüm əhəmiyyət kəsb etməklə lokomotiv rolunu oynayır. Belə ki, kənd təsərrüfatı məhsullarına olan tələbatın formalaşmasında və istehsala müasir texnologiya və texnikaların tətbiq olunmasında emal sənayesi həlledici əhəmiyyət daşıyır. Xammal istehsalı ilə emal sənayesinin vəhdəti daxili imkanlar və yerli resurslar vasitəsi ilə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və ixrac yönümlü məhsul istehsalının artırılması üçün böyük perspektivlər vəd edir. İstehsalla emalın kooperasiyası müxtəlif formalarda: kooperativlər, birgə müəssisələr, səhmdar cəmiyyətlər, məhdud məsuliyyətli cəmiyyətlər və s. yolu ilə həyata keçirilə bilər. Burada əsas məqsəd

istehsal-emal zəncirinin vahid istehsal məkanında birləşdirilməsi, ortaq istehsal potensialı və resursları vasitəsi ilə sahənin qarşlıqlı inkişafının təmin edilməsindən ibarətdir. Müasir dövrdə bu istiqamətdə uğur qazanmağın səmərəli yollarından biri aqrar sahədə aqroparkların yaradılması və inkişafı konsepsiyasının işlənilərək həyata keçirilməsidir.

Bununla yanaşı sahə üzrə Starateji Yol Xəritəsinin prioritetləri kontekstində aqrobiznesin inkişafına dəstək infrastrukturunun formalaşdırılması, aqrar sənaye klasterlərinin və aqrobiznes inkubatorlarının yaradılmasını qeyd edə bilərik. Heyvandarlığın intensiv metodları əsasında müasir elmi-texnolji tələblər səviyyəsində inkişaf etdirilməsi – ixtisaslaşdırılmış yemçilik təsərrüfatlarının yaradılması, təsərrüfatda yem bitkiləri əkininin genişləndirilməsi və inkişaf etdirilməsi, heyvandarlığın möhkəm yem bazasının yaradılması və yaxşılaşdırlması ilə yanaşı, bitkiçilikdə növbəti əkin sisteminin tətbiqini təmin etmiş olar.

Hesab edirik ki, ölkədə aqrar bölmənin inkişaf istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- Torpaq və su ehtiyatlarından səmərəli istifadənin təmini;
- Kənd təsərrüfatında suvarma və meliorasiya təminatının bərpası;
- Aqrar bölmənin maddi-texniki bazasının möhkəmləndirilməsi;
- Aqrar bölmənin xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafının dəstəklənməsi;
- Rəqabət qabiliyyətli məhsul istehsalının stimullaşdırılması;
- Aqrar bölmənin maliyyə vəziyyətinin yaxşılaşdırlması;
- Aqrar bölmənin hüquqi-normativ bazasının təkmilləşdirilməsi;
- Aqrar bölmənin elmi-metodiki təminatının və kadr hazırlığı sisteminin təkmilləşdirilməsi.

Həmin istiqamətlər üzrə həyata keçiriləcək məqsədyönlü tədbirlər və layihələr ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə öz tövhəsini vermiş olacaqdır.

### *6.3. Tikinti sferası*

Azərbaycanda qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, tarazlı regional, davamlı sosial-iqtisadi inkişafa nail olmaq üçün regionlarda infrastrukturun bərpası və yeniləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş və bu məqsədlə böyük məbləğdə vəsait xərclənmişdir. Artıq 10 ildən çoxdur ki, Azərbaycanın regionları sanki tikinti meydançasına çevrilmiş əhalinin elektrik enerjisi, qaz və su təchizatını yaxşılaşdırmaq, səhiyyə xidmətinin keyfiyyətini yüksəltmək, təhsil müəssisələrinin maddi-texniki bazasını əsaslı şəkildə qurmaq məqsədilə çoxsaylı layihələr tətbiq olunmuşdur. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrasına həsr olunmuş konfranslarda Ölkə Prezidentinin, İcra orqanlarının rəhbərlərinin çıxışlarında qeyd edildiyi kimi, əhalinin elektrik enerjisinə olan tələbatını təmin etmək istiqamətində son 14 ildə regionlarda ümumi gücü 2500 meqavatta yaxın 30 elektrik stansiyası tikilmiş, 12 min km-dən çox elektrik verilişi xətləri və 1600-ə yaxın yarımstansiya tikilmiş və ya yenidən qurulmuş, təbii qazla təchizatın yaxşılaşdırılması sahəsində isə 50 min kilometrədək qaz xətləri çəkilmiş və ya təmir edilmiş, yaşayış evlərinin qazlaşma səviyyəsi 34%-dən 93,0%-ə çatmışdır.

Son 14 il ərzində əhalinin su təminatının yaxşılaşdırılması üçün yeni su və kanalizasiya xətləri çəkilmiş, yeni su anbarları istifadəyə verilmiş, əhəmiyyətli meliorasiya tədbirləri həyata keçirilmişdir. Nəticədə ölkə üzrə əhalinin içməli su təminatı şəhərlərdə 81, böl-

gələrdə isə 43%-ə çatmışdır. Bu dövrdə regionlarda 3,8 min kilometrdən çox su, 1,5 min kilometrdən çox kanalizasiya xətti çəkilmiş, 96 su anbarı tikilmişdir.

Regionların inkişafında sosial məsələlərin həlli ilə bağlı zəruri tədbirlər davam etdirilmiş, insan amili daim diqqət mərkəzində saxlanılmış, bu sahəyə xidmət edən sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüşdür. Heydər Əliyev Fondunun təhsil, səhiyyə, mədəniyyət və digər sosial layihələrin reallaşdırılmasında mühüm rolu olmuşdur [23, s.18].

Qeyd edilən müddətdə təhsilin infrastrukturunun inkişafı sahəsində 3 min məktəb tikilmiş və ya əsaslı təmir olunmuş, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində 520-dən çox səhiyyə müəssisəsi istifadəyə verilmişdir.

Ölkə vətəndaşlarının rifah halını yaxşılaşdırmaq, aztəminatlı əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə 2007-ci ildən başlayaraq hər il yaşa görə əmək pensiyasının baza hissəsi və sosial müavinətlərin məbləği artırılmışdır.

Hələ 2016-cı ildə qəbul edilmiş qanuna görə, 2017-ci il üçün yaşayış minimumu ölkə üzrə 155 manat, əmək qabiliyyətli əhali üçün 164,5 manat, pensiyaçılar üçün 130,2 manat, uşaqlar üçün 136,6 manat məbləğində müəyyən edilmişdir.

Son 12 ildə bütün çadır düşərgələri ləğv olunmuş, 2001-2017-ci illərdə qaçqın və məcburi köçkünlər üçün respublikanın 30-dan artıq şəhər və rayonlarında 3,3 mlyn. kv m. sahəsi olan bütün sosial-texniki infrastruktura malik 97 qəsəbə və coxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınmış və orada 153 məktəb, 59 mədəniyyət mərkəzi, 60 səhiyyə müəssisəsi, 61 uşaq bağçası, 2 Olimpiya İdman Kompleksi tikilmiş, 745 km yol, 985 km su, 1720 km hava-elektrik, 487 km qaz, 77 km rabitə; 49 km istilik; 93 km kana-

lizasiya xətti və 170 km drenaj şəbəkəsi çəkilmişdir. Nəticədə, indiyədək 53 min ailənin və yaxud 265 min nəfər, qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşmışdır.

Cəbrayıl rayonunun işğaldan azad olunan Cocuq Mərcanlı kəndində 2017-ci il ərzində 50 fərdi yaşayış evinin və 96 yerlik məktəbin tikintisi başa çatdırılmış, Şuşa məsçidinin bənzəri olan məsçid orada istifadəyə verilmişdir. Bunlarla yanaşı Abşeron rayonunun Masazır qəsəbəsində "Yeni Bakı" yaşayış massivində 214 məcburi köçkün ailəsi mənzillə təmin edilmişdir. Eyni zamanda əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi işləri davam etdirilmiş, regionlarda 2200 mənzilli yaşayış binaları və 500-ə yaxın fərdi ev tikilmişdir.

İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi üçün 2018-ci ilədək ölkənin müxtəlif bölgələrində 43 olimpiya idman kompleksi istifadəyə verilmiş, ümumilikdə 300 yaxın idman və gənclər obyekti tikilmiş və ya yenidən qurulmuşdur [23, s.18]. Bu məqsədlə 2005-2017-ci illər ərzində regionların inkişafına bütün maliyyə mənbələri hesabına 70 mlrd. manatdan çox vəsait xərclənmişdir. Tikilib istifadəyə verilən sənaye və sosial təyinatlı müəssisələrdə (sosial obyektlərdə) yeni texnika və avadanlıq quraşdırılmış, innovasiya xarakterli texnologiyaların tətbiqi davam etdirilmişdir. Bu kimi tədbirlər və əsaslı dəyişiklik Aran iqtisadi rayonunda da öz əksini tapmışdır. Əlbəttə, bütün bunlar ölkənin regionlarında daimi yeniləşən, müasir maşın və avadanlıqları ilə təmin edilən tikinti müəssisələri tərəfindən həyata keçirilmişdir. İlk növbədə onu qeyd edək ki, 2005-2016-cı illərdə respublika ərazisində fəaliyyət göstərən tikinti müəssisələrinin sayı 93 vahid artaraq, 2015-ci ilin əvvəlində 1498 vahidə çatmışdır [19, s.559]. Həmin müəssisələrin 2010-cu ildə 18,1%-i, 2011 ci ildə 16,1%-i və

2014-cü ildə 13,2%-i Aran iqtisadi rayonunun ərazisində fəaliyyətini davam etdirmişdir.

Təhlil zamanı müəyyən edilmişdir ki, 2005-2016-cı illərdə AİR-də tikinti təşkilatlarının sayı artıb azalan xətlə dəyişmişdir. Belə ki, 2005-ci ildə iqtisadi rayonda 182 tikinti təşkilatı mövcud olduğu halda, 2011-ci ildə onların sayı 252-yə çatmış, sonrakı 5 ildə isə 66 vahid azalmışdır. Həmin iqtisadi rayonda fəaliyyət göstərən iri və orta tikinti təşkilatlar haqqında məlumat 6.10 saylı cədvəldə verilmişdir.

Müqayisə edilən dövrdə tikinti təşkilatlarının öz gücü ilə yerinə yetirdikləri işin həcmi 5,3 dəfə, tikinti-quraşdırma işlərinin həcmi 10,2 dəfə artmışdır [23, s.438-462].

Tədqiq edilən regionda tikinti təşkilatlarının fəaliyyətini xarakterizə edən məlumatlar 6.11. saylı cədvəldə əks etdirilmişdir.

**Aran iqtisadi rayonunda tikinti sahəsində fəaliyyət göstərən orta və iri sahibkarlıq subyektləri haqqında məlumat *)**

*Cədvəl 6.10.*

| s/s | Adı | Əsas fəaliyyəti |
|---|---|---|
| 1 | “Şirvan Quraşdırma” ASC | Tikinti-quraşdırma |
| 2 | “Şirvan Yol Tikinti-3” | Yol tikintisi |
| 3 | “Kərpic” firması | Kərpic istehsalı |
| 4 | “Mingəçevir Qum-Çınqıl” ASC | Tikinti materialları istehsalı |
| 5 | Mingəçevir Hidromexanikləşdirmə ASC | Qum-çınqıl istehsalı |
| 6 | “Mingəçevir Ağac emalı” ASC | Taxta, qapı-pəncərə istehsalı |
| 7 | “Mingəçevir Şüşə lifi” ASC | Şüşədən parça və lent istehsalı |
| 8 | “Sabirabad Su Təchizat Tikinti” ASC | Su təchizat tikinti |
| 9 | “Bəhrəmtəpə Çınqıl” ASC | Qum-çınqıl, kənd təsərrüfatı məhsullarının istehsalı |
| 10 | “Bəhrəmtəpə Tikinti Materialları” ASC “Həbibli LTD” MMC | Tikinti materialları istehsalı |
| 11 | “İmişli Yol Tikinti-6” ASC | Yol tikintisi |
| 12 | “KƏRPİCSAN” Göyçay Kərpic Zavodu | Kərpic və kirəmit malları istehsalı |
| 13 | “Bərdə qum-çınqıl” ASC | Qum-çınqıl istehsalı |
| 14 | “Bərdə İnşaat Sənaye” ASC | Dəmir beton məmulatları istehsalı |
| 15 | “Neftçala Kəndtikinti” ASC | Tikinti |
| 16 | “Ağdaş Tikinti 18” ASC | Daş, qum-çınqıl istehsalı |
| 17 | “Holdinq-MMC” | Kərpic istehsalı |

**) Cədvəl “Azərbaycanda tikinti” statistik məcmuəsinin məlumatları əsasında sistemləşdirilmiş və tərtib edilmişdir. Bakı, “DSK”, 2015, s.11-15.*

## Aran iqtisadi rayonunda tikinti təşkilatlarının fəaliyyətini xarakterizə edən əsas göstəricilər *)

*Cədvəl 6.11.*

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 | 2005-2014-cü illərdə artım tempi, faizlə |
| Tikinti müəssisələrinin sayı, vahid | 182 | 247 | 197 | 178 | 186 | 102,2 |
| Öz gücləri ilə yerinə yetirilmiş tikinti işlərinin həcmi, mln. man. | 37,6 | 143,7 | 247,5 | 177,8 | 197,4 | 5,3 dəfə |
| Məşğul olan işçilərin sayı, nəfər | 4698 | 4049 | 4544 | 3963 | 5149 | 109,6 |
| Bir işçiyə düşən tikinti işlərinin həcmi, min man. | 8,0 | 35,2 | 54,5 | 44,9 | 38,4 | 4,8 dəfə |
| Orta aylıq əmək haqqı, manat | 61,2 | 203,3 | 236,2 | 259,6 | 283 | 4,6 |
| *) *Azərbaycanda tikinti. Statistik məcmuə. Bakı, "DSK", 2010 – s.297; 2015 – s. 336-345; 2017, s. 438* | | | | | | |

Hesablamalar göstərir ki, AİR-da tikinti təşkilatları tərəfindən yerinə yetirilən işlərə 2005-ci ildə 7251,1 mln.man, 2009-cu ildə 434,1 mln.man, 2010-2016-cı illərdə 5336,2 mln.man. investisiya yönəldilmişdir. Onların uyğun olaraq: 60,8%-i; 82,4%-i və 80,8%-ni tikinti-quraşdırma işləri təşkil etmişdir. Nəticədə, iqtisadi rayon üzrə 2005-ci ildə 73,5 mln.man; 2009-cu ildə 207,2 mln.man; 2010-cu ildə 294,3 mln.man; 2011-ci ildə 510,8 mln.man; 2012-ci ildə 490,5 mln.man; 2013-cü ildə 767,1 mln.man; 2014-cü ildə 600,5 mln.man; 2015-ci ildə 736,9 mlyn.man və 2016-cı ildə 684,0 mlyn.man. əsas istehsal fondları istifadəyə verilmişdir. Təhlilin

əhatə etdiyi dövrdə bir işçiyə düşən tikinti işlərinin həcmi 4,8 dəfə; işçilərin orta aylıq əmək haqqı 4,6 dəfə artmışdır.

AİR-də tikinti təşkilatlarının bölgələr üzrə göstəricilərini təhlil edərkən aydın olur ki, təkcə 2010-2016-cı illərdə 18 rayon və şəhərdən 72,2%-də tikinti təşkilatlarının sayı 30-40% azalmış, üç rayonda sabit qalmış, yalnız iki rayonda artım müşahidə edilmişdir. Belə dəyişiklik bir çox hallarda yerinə yetirilən tikinti-quraşdırma işlərinin həcminə öz mənfi təsirini göstərmişdir. Müqayisə edilən dövrdə AİR-də fəaliyyətdə olan tikinti təşkilatlarında işçilərin sayı 112,2%, o cümlədən Göyçayda 124,2%; Ağcabədidə 2,1 dəfə; Bərdədə 3,4 dəfə; Ucarda 110%; Kürdəmirdə 126,6%; Sabirabadda 122,3%; Mingəçevir şəhərində 125,4%; Şirvan şəhərində isə 2,5 dəfə artmışdır. Bununla yanaşı, Beyləqan, Neftçala, Salyan, Ağdaş, Saatlı, Hacıqabul rayonlarında işçilərin sayında kəskin azalma müşahidə edilir.

İqtisadi rayonun bölgələri içərisində 2010-cu ildə tikinti təşkilatlarında ən yüksək əmək haqqı Ağdaş rayonunda, ən aşağı əmək haqqı Beyləqan rayonunda müşahidə edilir. Sonrakı illərdə AİR-in tikinti təşkilatları üzrə işçilərin orta aylıq əmək haqqı 116,1% artsa da, Ağcabədi rayonunda onun həddi 7,4%; Ağdaşda 2,4 dəfə azalmış və nəticədə, 2014-cü ildə həmin sferada ən yüksək əmək haqqı Mingəçevir şəhər tikinti təşkilatlarında omuşdur.

AİR-də aparılan intensiv tikinti işləri nəticəsində 2005-2016-cı illərdə: 3972,9 min kv metr yaşayış evləri, 94,1 min şagird yerlik ümumtəhsil məktəbi, 1015 çarpayılıq xəstəxana, 178,5 min nömrə avtomat telefon stansiyaları, 10 Olimpiya İdman Kompleksi, hər biri 2 vahid olmaqla avtovağzal binası, Müalicə-Diaqnostika Mərkəzi, süd məhsulları və konserv zavodları, bir çörək məmulatları istehsalı zavodu, dörd şahmat məktəbi istifadəyə verilmişdir (cədvəl 6.12).

## Aran iqtisadi rayonunda tikilib istifadəyə verilən istehsal və sosial təyinatlı obyektlər *

*Cədvəl 6.12.*

| Sosial obyetklər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005-2009 | 2010 | 2014 | 2015 | 2016 | 2005-2016 |
| Yaşayış evlərinin istifadəyə verilməsi, minkv.m. | 1148 | 360,8 | 401,5 | 387,8 | 302,6 | 3972,9 |
| Ümumtəhsil məktəbləri, min şagird yeri | 48,8 | 5,0 | 5,0 | 4,4 | 2,4 | 94,1 |
| Məktəbəqədər təhsil müəssisələri, yer | 525 | 100 | 385 | 750 | 886 | 3401 |
| Xəstəxanalar, çarpayı | 330 | --- | 150 | - | 100 | 1015 |
| Ambulator-poliklinika müəssisələri növbədə qəbul | 1089 | 20 | 45 | 135 | - | 1499 |
| Avtomat telefon stansiyaları, min nömrə | 121,6 | 45,7 | 2,2 | 1,8 | 0,7 | 178,5 |
| Olimpiya İdman Kompleksi, obyekt | 4 | 2 | 1 | - | - | 10 |
| Avtovağzal binası, obyekt | 1 | --- | --- | - | - | 2 |
| Şahmat binası, obyekt | --- | 1 | 1 | - | - | 4 |
| Müalicə-Diaqnostika Mərkəzi, obyekt | 2 | --- | --- | - | - | 2 |
| Süd məhsulları zavodu, obyekt | 1 | --- | --- | - | - | 2 |
| Çörək məmulatları istehsalı zavodu, obyekt | --- | --- | --- | - | - | 1 |
| Konserv zavodu, obyekt | 1 | 1 | --- | - | - | 2 |

** Cədvəl “Azərbaycanda tikinti”statistik məcmuələrinin məlumatları əsasında tərtib edilib hesablanmışdır. Bakı, “DSK”, 2010 – s.223, 224, 241-256; 2017 –, 260-285;288*

Həmin sosial obyektləri ayrı-ayrı rayonlar üzrə nəzərdən keçirdikdə aydın olur ki, təhlilin əhatə etdiyi dövrdə Göyçay şəhərində dördmərtəbəli, 170 çarpayılıq xəstəxana, konsultativ poliklinika əsaslı şəkildə yenidən qurulmuşdur. Ümumi sahəsi 12 min kv metrə yaxın xəstəxana əsas, yoluxucu xəstəliklər və digər ixtisaslaşmış binalardan ibarətdir. Xəstəxananın müalicə üçün nəzərdə tutulan binasında qəbul, diaqnostika, rentgen, kompüter-tomoqrafiya, ginekologiya, urologiya, travmatologiya, terapiya, anesteziologiya-reanimasiya şöbələri, cərrahi əməliyyat bloku və s. şöbələr fəaliyyət göstərir.

Rayon Mərkəzi Xəstəxanası ən müasir tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuşdur və poliklinikada 102 həkim və 223 tibb işçisi çalışır. Laboratoriya bütün zəruri avadanlıqlarla təchiz edilib.

Artıq Azərbaycan modern texnologiyaların tətbiq edildiyi bir məkana çevrilib. İlk dəfə olaraq açıq ürək əməliyyatı və qaraciyər köçürmələri kimi mürəkkəb əməliyyatların regionlarda da həyata keçirilməsi mümkün olmuşdur. Elə həmin rayonda gücü 3,1 meqa-vatt olan "Göyçay" Elektrik Stansiyası istismara verilmiş, icrasına 2008-ci ildən başlanan içməli su və kanalizasiya layihəsi çərçi-vəsində Göyçay şəhərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə üç subartezian quyusu qazılmış, hər birinin tutumu 2 min kubmetr olan iki anbar inşa edilmiş, eyni zamanda, Göyçay Su Kanal İdarəsi üçün yeni ofis binası və istehsalat bazası tikilib istifadəyə verilmişdir. Layihə çərçivəsində 147 kilometr uzunluğunda içməli su şəbəkəsinin tikintisi başa çatdırılmış, 9761 ünvana su xətti çəkilmiş və smart tipli sayğacla təmin olunmuşdur. Hazırda Göyçay şəhərinin bütün əhalisi fasiləsiz içməli su ilə təmin olunur. Şəhərin kanalizasiya sisteminin yenidən qurulması layihəsi çərçi-

vəsində layihələndirilmiş 123 kilometr uzunluğunda kanalizasiya şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Göyçay şəhərinin tullantı sularından təmizlənməsi üçün sutkada məhsuldarlığı 20 min kubmetr olan qurğu tikilmişdir.

Son illər iqtisadi rayonun Ucar bölgəsində də sosial obyektlərin tikintisi xeyli intensivləşmişdir. Onların içərisində səhiyyə ocaqları diqqəti cəlb edir. Ucar rayonunun yeni xəstəxana binası üçün 4,4 hektar torpaq sahəsi ayrılmış və orada 4 korpusdan ibarət 2 mərtəbəli kompleks tikilmişdir. Orada 118 çarpayılıq xəstəxana və konsultativ poliklinikada bütün şöbələr yaradılmış və ən müasir avadanlıq və cihazlarla təchiz olunmuşdur. Həmin kompleksdə 84 nəfəri həkim olmaqla 341 nəfər tibbi personal çalışacaqdır.

Təhlilin əhatə etdiyi dövrdə Biləsuvar rayonunda əsas kapitala yönəldilən investisiyalar 5,4 dəfə artaraq 58,6 milyon manata çatmışdır. Rayonda tikinti-quraşdırma işlərinin həcmi 5,7 dəfə artaraq 57,9 milyon manat təşkil etmişdir. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 340 sahibkara 35,3 milyon manat kredit ayrılmış, kənd təsərrüfatı məhsulları istehsalçılarına 6,6 milyon manat subsidiya verilmişdir.

İmişli rayonunda əsaslı təmirdən sonra Mərkəzi xəstəxana, Araz Damazlıq-quşçuluq MMC-nin 50 min tonluq taxıl anbarı, Şahmat məktəbi, su anbarları kompleksi, Baş Mil-Muğan Kollektorunun rayon ərazisindən keçən hissəsi, Muradxanlı və Ağaməmmədli kəndləri ərazisində suvarma və drenaj kanalları tikilmiş və yaxud yenidən qurulmuşdur. Şəhərin görkəmli yerində Gənclər Mərkəzi istifadəyə verilmişdir.

İmişli rayonunda su və kanalizasiya xətlərinin yenidən qurulması nəticəsində 630 millimetrlik polietilen borularla 29,5 kilometrlik Beyləqan-İmişli su kəmərinin, bu istiqamətdə bütün quyu-

ların və suqəbuledici kameraların, su anbarının, şəhər daxilində 167 kilometrlik su xətlərinin, yanğın hidrantlarının inşası başa çatdırılmış, 5100 abonentə SMART tipli sayğaclar quraşdırılmışdır. Bu kəmərdən rayonun Şahverdili, Göbəktala, Məhəmmədli, Rəsullu kəndlərinin sakinləri də istifadə edirlər. Bununla yanaşı, İmişli rayonunun Bəcirəvan, Mirili, Otuziki, Yuxarı Qaralar, Soltanmuradlı, Nurulu, Muradxanlı, Sarıxanlı, Əliqulular, Ağamalılar, Ağaməmmədli, Oruclu, Hacırüstəmli, Aranlı, Qızılkənd, Qaragüvəndikli, Xəlfəli, Telişli, Məmmədli kəndlərində modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır.

Rayonun yaşayış məntəqələrinin elektrik enerjisi, təbii qaz ilə təminatının yaxşılaşdırılması məqsədilə xeyli iş görülmüşdür. İmişli şəhərində SMART tipli kabellər çəkilmiş və 8500 sayğac qoyulmuş, rayon ərazisində 2941 metr məsafəyə SİP kabeli, 20986 metr məsafəyə naqil xətləri çəkilmişdir. Bir sıra sənaye obyektlərinin, yeni ictimai binaların qazlaşdırılmasına başlanılmışdır. Rəsullu kəndində və Bəhrəmtəpə qəsəbəsində məskunlaşmış məcburi köçkün ailələrini mavi yanacaqla təmin etmək üçün polietilen boru kəmərləri çəkilmiş, Yalavac, Cəfərli, Ağaməmmədli, Muradxanlı kəndlərində daşıyıcı qaz xətləri inşa olunmuş, Bəhrəmtəpə qəsəbəsində, Qızılkənd, Qaravəlli, Qaraqaşlı, Qaradonlu, Muradxanlı, Xoşçobanlı kəndlərində yeni telefon rabitəsi obyektləri istismara verilmiş, genişzolaqlı internet istifadəçilərinin sayı 2015-ə çatmışdır. Şəhərin bir sıra küçələrində müxtəlif tutumlu kabellər dəyişdirilmişdir. Qaralar kəndinə əlavə telefon xətti çəkilmiş, Xoşçobanlı və Hacalmuradlı kəndlərində xətt şəbəkəsi genişləndirilmişdir. Qızılkənd, Məzrəli və Məmmədli kəndlərində yeni poçt binaları tikilib istifadəyə verilmişdir.

Rayonun təhsil sferasında mövcud məktəblərin maddi-texniki bazası ildən-ilə təzələnir. Belə ki, təhlilin əhatə etdiyi dövrdə Hacıbabalı, Cavadxanlı, Buludlu, Cəfərli, Sarıxanlı məktəb binaları tikilib istifadəyə verilmiş, yaxud təmir olunmuş, 25 məktəbdə istilik sistemi quraşdırılmışdır. Rayonun əksər məktəbləri tələb olunan sayda şagird masaları, oturacaqları, kompüter avadanlıqları və müasir tədris vəsaitləri ilə təmin edilmişdir. Rayonun 136 çarpayılıq Mərkəzi Xəstəxanasında dializ şöbəsi fəaliyyətə başlamış, bu tibb ocağında ən müasir ultrasəs, rentgen, dializ, digər cihazlar quraşdırılmışdır. Axıcanlı həkim məntəqəsi üçün yeni bina tikilmişdir. Rayonda 121 idman qurğusu, 3 sağlamlıq mərkəzi, 8500 yerlik stadion və Olimpiya idman kompleksi fəaliyyət göstərir. Təkcə 2006-2016-cı illərdə İmişli rayonunda 10,7 min nömrədən ibarət avtomat-telefon stansiyası inşa edilmişdir.

AİR-in digər bölgələrində də sosial struktur obyektlərinin tikintisi gerçəkləşmişdir. ARDSK-nın məlumatlarına görə, 2015-ci ildə Bərdə rayonunda Mollaisalar-Vəliuşağı-Mollaəhmədli-Sərkarlar; Kürdəmir rayonunda Mollakənd-Axtaçı-Öyləqulu; Ağsu-Kürdəmir-İmişli avtomobil yolları tikilib istismara verilmişdir.

### *6.4. Nəqliyyat sferası*

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının icrası nəticəsində ölkə ərazisində infrastruktur şəbəkələri əsaslı şəkildə yenilənmişdir. İnkişaf edən infrastruktur sahələrindən biri də nəqliyyat sektorudur. Son illər bu sahəyə davamlı və iri həcmli daxili və xarici investisiyaların yönəlməsi nəticəsində nəqliyyatın hərəkət hissəsinin yenilənməsi, tunel, körpü və yolötürücülərinin tikilməsi, yeni avtomobil yolla-

rının çəkilişi, yenidən qurulması və s. işlər davam etdirilmiş, strateji əhəmiyyətli layihələrin səmərəli fəaliyyəti sahənin inkişafına öz müsbət təsirini göstərmişdir. Belə ki, 2005-2016-cı illərdə, boru kəmərləri istisna olmaqla, nəqliyyat vasitələrinin yük daşıması həcmi 148,4% artmış və 2016-cı ildə 222,5 mln.ton təşkil etmişdir. Nəqliyyat sektorunda fəaliyyət göstərən bütün təsərrüfat subyektləri tərəfindən 2016-cı il ərzində 245,4 milyon ton yük daşınmış və 2015-cü ilin müvafiq dövrünə nisbətən 0,1% artım müşahidə olunmuşdur. Son təhlil ilində yüklərin 2,6%-i dəniz, 6,9%-i dəmir yolu, 63,6%-i avtomobil nəqliyyatı, 26,8%-i isə boru kəməri ilə daşınmışdır. Qeyri-neft yüklərinin həcmi 1,9% artaraq 162,9 milyon tona çatmışdır ki, bu da yük daşınmasının 81,9%-ni təşkil etmişdir. Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu 6.5 saylı şəkildə göstərilmişdir [25,s.57].




**Şəkil 6.5.** Azərbaycanda yük daşınmasının nəqliyyat növləri üzrə strukturu (yekuna görə faizlə)

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhfələr vermişdir. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz 2" layihəsi üzrə yekun investisiya qərarının imzalanması ölkə iqtisadiyyatının inkişafında səmərəli olmaqla əhalinin sosial rifahının və ölkəmizin sosil-iqtisadi inkişafının daha da yaxşılaşmasında xüsusi əhəmiyyət kəsb edir.

Bununla yanaşı, ölkənin tranzit potensialının reallaşdırılması istiqamətində tədbirlər, o cümlədən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyəti, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, istifadəyə verilmiş, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrası çərçivəsində son 10 il ərzində 8,3 min kilometr respublika və yerli əhəmiyyətli avtomobil yolları tikilmiş və ya təmir olunmuş, regionlarda 307 yeni körpü və yol ötürücüsü tikilmiş və ya təmir edilmiş, Naxçıvan, Gəncə, Lənkəran, Zaqatala, Qəbələ və Yevlax şəhərlərində hava limanları istifadəyə verilmişdir. Nəqliyyatın hərəkətinin tənzimlənməsi və idarə olunması məqsədilə Bakı şəhərində Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi yaradılmışdır [23, s.16,17].

ARDSK-nın məlumatlarına görə, 2017-ci ilin əvvəlində ölkə ərazisində 2,1 min km dəmir yolu; 5,4 min km magistral boru kəməri; 19 min km şosse yolları mövcuddur [15, s.609].

Həmin mənbəyə görə, ölkədə 1,33 mln. ədəd avtomobil istismar edilir, hər min nəfərə 138 ədəd avtomobil düşür. Bununla belə, hər

100 ailəyə düşən şəxsi minik avtomobillərin sayı 52 vahid təşkil edir ki, bu da 2005-ci illə müqayisədə - 2,1 dəfə çoxdur. Bütünlükdə 2005-2016-cı illərdə ölkə üzrə nəqliyyat vasitələrinin sayı 719 min ədəd çoxalmışdır. Həmin avtomobillərin 150,2 min vahidi və yaxud 11,3%-i Aran iqtisadi rayonunun payına düşür. Araşdırmalar göstərir ki, 2005-2016-cı illərdə adı çəkilən iqtisadi rayonda bütün növ avtomobillərin sayı 185,0%, o cümlədən yük avtomobillərinin sayı 114,0%, sərnişin minik maşınlarının sayı 2,1 dəfə, şəxsi avtomobillərin sayı 2,2 dəfə artmış, lakin digər növ avtomobillərin sayı 28,5% azalmışdır. Həmin dövrdə AİR-də hər 100 ailəyə düşən şəxsi minik avtomobillərinin sayı 14 vahid artmışdır (cədvəl 6.13).

Cədvəldən göründüyü ki, həmin göstərici iqtisadi rayonun bütün bölgələrində öz dinamikliyi ilə diqqəti cəlb edir. Bölgələr içərisində hər 100 ailəyə düşən şəxsi minik avtomobillərinin sayına görə Ağcabədi rayonu 1-ci; Göyçay və Bərdə rayonları 2-ci; Yevlax rayonu 3-cü, və İmişli rayonları 4-cü; Beyləqan, Hacıqabul rayonları və Şirvan şəhəri 5-ci; Ucar və Ağdaş rayonları 6-cı; Salyan və Saatlı rayonları 7-ci yerdə qərarlaşmış; Neftçala rayonu siyahını tamamlamışlar.

Təhlil göstərir ki, 2005-2016-cı illər ərzində Aran iqtisadi rayonunda avtomobil nəqliyyatı ilə yükdaşınmasının miqdarı 191,1%; yük dövriyyəsi 192,7%; avtomobil nəqliyyatı ilə sərnişin daşınması 2,3 dəfə; sərnişin dövriyyəsi isə 181,1% çoxalmışdır (cədvəl 6.14).

**Aran iqtisadi rayonunda hər 100 ailəyə düşən şəxsi minik avtomobillərinin sayı (ədəd)*)**

*Cədvəl 6.13.*

| | **2005** | **2010** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|
| İqtisadi rayon üzrə:<br>o cümlədən | 18 | 20 | 28 | 30 | 32 |
| Göyçay | 21 | 25 | 33 | 37 | 39 |
| Beyləqan | 18 | 18 | 27 | 29 | 33 |
| Ağcabədi | 20 | 26 | 37 | 41 | 44 |
| Bərdə | 22 | 22 | 32 | 37 | 39 |
| Neftçala | 11 | 11 | 17 | 18 | 20 |
| Biləsuvar | 17 | 18 | 24 | 26 | 27 |
| Salyan | 20 | 20 | 26 | 27 | 28 |
| Yevlax | 18 | 24 | 32 | 35 | 37 |
| Mingəçevir şəhəri | 16 | 21 | 31 | 34 | 35 |
| Ağdaş | 14 | 18 | 26 | 28 | 30 |
| Ucar | 19 | 19 | 26 | 28 | 30 |
| Zərdab | 11 | 12 | 20 | 20 | 25 |
| Kürdəmir | 11 | 13 | 21 | 24 | 26 |
| İmişli | 16 | 22 | 30 | 33 | 36 |
| Saatlı | 17 | 17 | 23 | 26 | 28 |
| Sabirabad | 16 | 19 | 24 | 25 | 27 |
| Hacıqabul | 21 | 27 | 31 | 32 | 33 |
| Şirvan şəhəri | 21 | 21 | 31 | 35 | 33 |

**) Azərbaycanın statistik göstəriciləri. Bakı, "DSK" 2012, s. 590, 591; 2015, s. 590, 591; 2017, s. 611*

**Aran iqtisadi rayonunda nəqliyyat sferasının fəaliyyətini xarakterizə edən göstəricilər *)**

*Cədvəl 6.14.*

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | **2005** | **2010** | **2014** | **2015** | **2016** | **2005-2016-cı illərdə artım tempi (%-lə)** |
| Avtomobil nəqliyyatı ilə yük daşınması, min ton | 10531 | 14868 | 18582 | 19430 | 20125 | 191,4 |
| Yük dövriyyəsi, mln.ton km | 1146,0 | 1530,5 | 2044,1 | 2136,2 | 2208,6 | 192,7 |
| Avtomobil nəqliyyatı ilə sərnişin daşınması, min nəfər | 114668 | 165940 | 236497 | 250562 | 261158 | 2,3 dəfə |
| Sərnişin dövriyyəsi, mln. sərnişin km | 712,9 | 913,4 | 1169,0 | 1238,6 | 1291,2 | 181,1 |
| Avtomobillərin sayı-cəmi ədəd o cümlədən: | 81163 | 95404 | 127900 | 140149 | 150177 | 185,0 |
| Yük avtomobilləri | 16166 | 17206 | 17598 | 18047 | 18767 | 116,1 |
| Avtobuslar | 2616 | 2326 | 2359 | 2497 | 2683 | 102,6 |
| Sərnişin minik | 60273 | 73616 | 106385 | 117994 | 127063 | 2,1 dəfə |
| Şəxsi minik | 58946 | 71979 | 104966 | 116603 | 125647 | 2,2 dəfə |
| Xüsusi təyinatlı avtomobillər | 1265 | 1461 | 1046 | 1027 | 1061 | 83,9 |
| Digər avtomobillər | 843 | 795 | 512 | 584 | 603 | 71,1 |

**) Azərbaycanın regionları. Statistik məcmuə. Bakı, "DSK", 2014 – s. 437; 2015 – s.463; 2017, s. 439*

Son illər ərzində ölkə Prezidentinin çoxsaylı sərəncamları ilə kəndlərarası və qəsəbələrarası avtomobil yollarının tikintisi və yenidən qurulması məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitin məbləği əsaslı şəkildə artırılmışdır. Məsələn, həmin məqsədlə, 2012-ci ildə Biləsuvar rayonuna 5,2 mln.man, sonrakı illərdə Prezidentin ehtiyat Fondundan 3 mln.man. vəsait ayrılmış və nəticədə Biləsuvar şəhərinin mərkəzini rayonun Əsgərabad, Ağalıkənd, Aman kənd, Aşağı Cürəli, Yuxarı Cürəli və Ovçubərə kəndləri ilə birləşdirən 21 kilometr, eləcə də 4 mənəqəni birləşdirən Əsgərabad-Muğan, 13 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Günəşli-Ağayrı-İsmətli-Aranlı-Çinarlı-Əliabad avtomobil yollarının tikintisi başa çatdırılmışdır. İmişli rayonunun ərazisində kəndlərarası və magistral yolların təmiri, yenidən qurulması istiqamətində önəmli tədbirlər həyata keçirilmişdir. Nəticədə, Ağsu-Kürdəmir-Bəhrəmtəpə, İmişliyə giriş və Hacıqabul-Bəhrəmtəpə-Mincivan, İmişli-Biləsuvar avtomobil yolları beynəlxalq standartlara uyğun yenidən qurulmuşdur.

Aran iqtisadi rayonunda daxili iqtisadi əlaqələrin inkişaf etdirilməsində təbii və əmək resurslarının istehsal dövriyyəsində cəlb olunmasında avtomobil nəqliyyatı mühüm əhəmiyyət kəsb edir. İqtisadi rayon üzrə ümumi avtomobil yollarının uzunluğu 6593 km təşkil edir ki, bu da respublikada olan ümumi avtomobil yollarının 26,3%-i deməkdir. İqtisadi rayon üzrə hər 100 $km^2$ əraziyə orta hesabda 30,1 km, hər min nəfər isə 5,8 km avtomobil yolu düşür. İqtisadi rayon daxilində fəaliyyət göstərən ümumi avtomobil yollarının 45,6%-i respublika, 54,4%-i yerli əhəmiyyətlidir.

Respublika əhəmiyyətli avtomobil yollarının 6,2%-i Yevlax, 6,6%-i Ağdaş, 9,5%-i Ucar, 12,7%-i Göyçay, 9,1%-i Salyan, 8,6%-i Sabirabad, 6,9%-i Bərdə, 7,3%-i Kürdəmir, 6,1%-i Neftçala, qalan

faizi Ağcabədi, Beyləqan, İmişli, Saatlı, Biləsuvar rayonlarının payına düşür.

Tədqiq edilən iqtisadi rayonun daxilində dəmir yolu nəqliyyatı da inkişaf etmişdir. Şərqdən-qərbə Bakı-Ağstafa, Bakı-Yevlax-Balakən, Yevlax-Ağdam magistral dəmir yollarının keçməsi rayonun sosial-iqtisadi inkişafında mühüm rol oynamışdır.

İqtisadi rayon üzrə hər min nəfərə 0,5 km dəmir yolu düşür. İnzibati bölgələrə gəldikdə isə Sabirabad rayonunda 0,9 km, Saatlıda 0,3 km, Neftçalada 0,7 km, Salyanda 0,6 km, İmişli və Beyləqanda 0,6 km, Kürdəmir, Göyçay, Ucarda hər min nəfərə 0,5 km dəmir yolu düşür.

İqtisadi rayon daxilində bir sıra mühüm dəmir yolu stansiyaları fəaliyyət göstərir. Daşburun, İmişli, Saatlı, Sarıcalar, Hacıqabul, Salyan, Mingəçevir, Yevlax, Bərdə və s. stansiyalar yük və sərnişin daşınmasında xüsusi əhəmiyyət kəsb edir. Son ildə bu stansiyalardan 1,7 mln. tondan artıq yükdaşıma əməliyyatları yerinə yetirilmişdir. Şirvan, Yevlax dəmir yolu stansiyaları həmçinin qovşaq rolunu yerinə yetirir.

Yevlax dəmiryolu stansiyası Mingəçevir-Yevlax sənaye qovşağının inkişaf etdirilməsində xüsusi əhəmiyyət kəsb edir. Aparılan iqtisadi təhlil göstərir ki, iqtisadi rayon daxilində dəmir yolu ilə daşınan ümumi yükün 30%-i Yevlax stansiyasının payına düşür.

Coğrafi cəhətdən əlverişli mövqedə yerləşən Hacıqabul stansiyası, Bakı-Ağstafa, Bakı-İmişli dəmiryoluna çıxış yolu yaradır və iqtisadi rayona daşınan yüklərin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir. Hacıqabul stansiyasına daxil olan yüklərin əsasını neft, neft məhsulları, tikinti materialları təşkil edir.

İqtisadi rayon daxilində fəaliyyət göstərən dəmir yolu stansiyalarının və qovşaqların yükdaşıma qabiliyyətini artırmaq üçün bütün

iş proseslərinin avtomatlaşdırılması və mexanikləşdirilməsi, onların beynəlxalq normalara uyğunlaşdırılması mühüm məsələlərdən biridir. Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat sisteminə qoşulması yaxın gələcəkdə ərazidə fəaliyyət göstərən stansiyadaxili yolların artırılması vacib məsələ kimi qarşıda durur.

Ölkə ərazisində nəqliyyat sisteminin təşkili, idarə edilməsi, yol infrastrukturunun təzələnməsi istiqamətində həyata keçirilən tədbirlərə baxmayaraq, ayrı-ayrı bölgələrdə həllini gözləyən böyük həcmdə işlər qalmaqdadır. Onların içərisində: Salyan-Sabirabad; İmişli-Beyləqan-Ağcabədi; Beyləqan-Füzuli avtomobil yollarının beynəlxalq standartlara uyğunlaşdırılması və AİR-in ayrı-ayrı yaşayış məntəqələri arasında yolların əsaslı təmiri növbəti illərdə həyata keçirilməlidir. Nəqliyyat sferasında mövcud olan çatışmazlığın aradan qaldırılması üçün regionların sosial-iqtisadi inkişafı III Dövlət Proqramında nəzərdə tutulan tədbirlər içərisində tranzit və nəqliyyat xidmətlərinin inkişafı, yerli və beynəlxalq daşımaların idarə olunması mexanizminin təkmilləşdirilməsi, əhaliyə göstərilən nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması qarşıda duran vəzifələr sırasındadır.

Bununla əlaqədar proqramda aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- regionlarda nəqliyyat sisteminin davamlı inkişaf etdirilməsi, nəqliyyat sektorunun, o cümlədən nəqliyyat xidmətləri bazarında rəqabət mühitinin daha da təkmilləşdirilməsi;
- ölkənin regionlararası, şəhər və rayondaxili yol-nəqliyyat infrastrukturunun daha da inkişafı;
- regionlarda magistral yolların tikintisi və yenidən qurulması, xüsusi ilə kənd yollarının tikintisi, əsaslı təmiri ilə bağlı tədbirlərin davam etdirilməsi.

Heç şübhə yoxdur ki, həmin tədbirlərin Aran iqtisadi rayonunda da həyata keçirilməsi təmin ediləcəkdir.

### *6.5. Rabitə və İKT sferası*

XXI əsrdə Azərbaycanda informasiya cəmiyyətinə keçid və onun qurulması, mövcud informasiya-rabitə sahələrinin intensiv və yüksək səviyyədə inkişafı, yeni xidmət növlərinin, o cümlədən mobil telefon rabitəsinin, internetin ölkəmizdə inkişafı, elektron hökumətin formalaşdırılması, eləcə də intellektual potensialın inkişafı sayəsində neft sektorundan sonra prioritet sahələrdən biri hesab olunan informasiya və kommunikasiya texnologiyaları sahəsi ölkənin sosial-iqtisadi həyatına son illər daha ciddi nüfuz etmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları çərçivəsində regionlarda 1400-dək ATS, minə yaxın poçt binası tikilmiş və ya əsaslı təmir edilmişdir [23, s.17].

İKT-nin inkişafı üçün hüquqi bazanın yaradılmasında böyük rol oynayan "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" ölkəmizdə informasiya cəmiyyətinə keçid prosesinin sürətlənməsinə təkan vermişdi.

2003-2015-ci illəri əhatə edən Milli Strategiya informasiya cəmiyyətinin əsas xüsusiyyətləri olan qlobal informasiya mühitinin yaradılması, informasiya və kommunikasiya texnologiyalarından kütləvi istifadə edilməsi, sosial-iqtisadi fəaliyyətin yeni formalarının yaranması, informasiyanın əmtəəyə çevrilməsi, informasiya və bilik bazarının inkişafı, təhsil sisteminin təkmilləşdirilməsi, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsi hesabına peşə səviyyəsinin artması,

vətəndaşların məlumat almaq, onu yaymaq, istifadə etmək kimi hüquqlarını təmin edən mühitin diqqət mərkəzində saxlanılması və inkişafı baxımından ciddi hüquqi baza rolunu oynamışdır. Başqa sözlə son 20 il ərzində İKT-nin inkişafı istiqamətində atılmış ardıcıl addımlar nəticəsində bu gün Azərbaycan informasiya cəmiyyətinin quruculuğu prosesini keyfiyyətcə yeni mərhələyə çıxarmış və innovasiyalar sahəsində ölkəmizin regional mərkəz statusunu gücləndirmişdir [56].

Hazırda Avropa İttifaqı ölkələrində vətəndaş cəmiyyətinə və biznes sektoruna göstərilən 20 əsas elektron xidmət növünün bir çoxu, o cümlədən rəsmi sənədlərin verilməsi, vergi və gömrük bəyannamələrinin, statistik hesabatların təqdim olunması, məşğulluq orqanları vasitəsilə iş axtarışı, ali məktəblərə və dövlət qulluğuna qəbul üzrə test imtahanlarında iştirak etmək üçün elektron ərizələrin qəbulu və s. ölkəmizdə də tətbiq edilməkdədir. Dövlət idarəçiliyinin müasir prinsipləri əsasında həyata keçirilməsi dövlət orqanlarının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınmasında elektron xidmətlərin təşkili bu istiqamətdə işlərin sürətləndirilməsinə ciddi təkan vermişdir. Dövlət orqanları tərəfindən, xüsusən əhali ilə bilavasitə təmasda həyata keçirilən xidmətlərin, o cümlədən fərdi sahibkarların və yerli investisiyalı MMC-in qeydiyyatı, daşınmaz əmlaka dair çıxarışların və arayışların verilməsi, məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim olunması, ünvanlı sosial yardım və pensiya təminatı üçün ərizələrin və sairə elektron formada göstərilməsi təmin edilmişdir. Dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsinin təşkilinə və vətəndaşların dövlət orqanlarının göstərdiyi elektron xidmətlərdən "bir pəncərə" prinsipi əsasında istifadəsinə şərait yaratmaq məq-

sədilə “elektron hökumət” (www.e-gov.az) portalı istafədəyə verilmişdir. Artıq bütün sosial təbəqələr bu texnologiyalardan istifadə etməklə hakimiyyət orqanları ilə interaktiv münasibət qurmağa başlayırlar. “E-hökumət” həllərinin tətbiqinin genişləndirilməsi üzrə aparılan intensiv fəaliyyətə görə hazırda BMT-nin “Elektron hökumət”in inkişaf səviyyəsinə görə reytinqində Azərbaycan 193 ölkə arasında 28 pillə irəliləyərək, 68-ci yerdə qərarlaşıb. Hazırda “Elektron hökumət” portalına ölkənin 50-yə yaxın mərkəzi icra hakimiyyəti orqanı qoşulub, portalda təqdim edilən xidmətlərin sayı 450-yə çatıb.

Dünya İqtisadi Formunun “Qlobal İnformasiya Texnologiyaları 2014” hesabatında Azərbaycan “Şəbəkələşmə Hazırlığı İndeksi”nə görə əvvəlki mövqeyindən 7 pillə irəliləyərək dünyanın 148 ölkəsi arasında 49-cu yerə yüksəlib [55].

“Elektron hökumət” portalının geniş tətbiqi ilə əlaqədar iqtisadi və sosial sahələr üzrə təsdiq edilmiş 25-dək dövlət proqramı çərçivəsində “elektron hökumət” layihələri həyata keçirilməkdədir. “Elektron hökumət”in fəaliyyəti üçün zəruri olan normativ-hüquqi bazanın və infrastrukturların formalaşdırlması, elektron ödəmə sistemlərinin tətbiqi əhalinin dövlət orqanları ilə təmaslarının sadələşdirilməsinə, daha münasib və çevik formada həyata keçirilməsinə, yüksək keyfiyyətli xidmətlərin göstərilməsinə və biznes fəaliyyətinin müasir tələblərə uyğun qurulmasına əlverişli imkanlar yaranmışdır. Ölkədə elektron imzadan istifadənin təşkili üçün Açıq Açar İnfrasturukturu və Milli Sertifikat Xidmətləri Mərkəzi yaradılmış və 2011-ci ilin sentyabrından dövlət orqanlarına, vətəndaşlar və sahibkarlıq fəaliyyəti subyektlərinə elektron imzaların verilməsinə başlanılmışdır. Elektron imzanın tətbiqi əhalinin elektron xidmətlərdən istifadə imkanlarının genişləndirilməsinə, onlara daha keyfiy-

yətli və təhlükəsiz xidmətlərin göstərilməsinə, habelə elektron ticarətin geniş yayılmasına xidmət etməkdədir [55].

Azərbaycanda İKT korrupsiyaya qarşı mübarizədə artıq kəsərli silaha çevrilmişdir. KİV-də deyildiyi kimi, İKT eləcə də internet ölkə iqtisadiyyatının ənənəvi sahələrinin inkişafında mühüm rol oynayır. O, məhsuldarlığın artırılmasına, rəqiblər üzərində strateji üstünlüyün əldə olunmasına, tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsinə, informasiya resurslarından optimal istifadəyə və bütövlükdə cəmiyyətin rifahının yaxşılaşdırlmasına şərait yaradır. Bütün bu məqsədlərə çatmaq və nəzərdə tutulan işləri sistemli şəkildə həyata keçirmək üçün “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya” hazırlanmışdır. Ölkədə rəqabətədavamlı və yüksək ixrac potensiallı, innovativ İKT sənayesinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanları ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və Yüksək Texnologiyalar Parkı yaradılmışdır. Bu yeni qurumlar ölkə iqtisadiyyatının güclənməsinə, xarici investisiyaların cəlb edilməsinə və İKT məhsullarının istehsalının artırılmasına şərait yaratmaqla yanaşı innovativ təşəbüsslərə təşkilati-maliyyə dəstəyini təmin edir. Bir sözlə, bu gün İKT sektoru iqtisadiyyatın aparıcı və dinamik inkişaf edən, vətəndaşların sosial rifah halına müsbət təsir göstərən sahəyə çevirilmişdir.

Azərbaycanda rabitənin və İKT-nin təşkili, idarə edilməsinin mövcud vəziyyətinə qiymət verərkən, birmənalı şəkildə etriaf etmək olar ki, respublikamız İKT sahəsində artıq sürətlə inkişaf edən ölkələr sırasına daxil olmuş, ümumdünya elektron məkanına inteqrasiya edilərək, sosial və iqtisadi fəaliyyətin yeni formalarının (e-

hökumət, e-ticarət, distant təhsil və s.) geniş tətbiqi təmin edilmiş, İKT məhsulu və xidmətlərinin keyfiyyətinin yüksəldilməsi istiqamətində önəmli addımlar atılmışdır.

MDB ölkələri arasında ilk dəfə məhz Azərbaycanda telefon şəbəkəsi tam elektronlaşmış və ölkənin bütün yaşayış məntəqələri telfonlaşdırılmışdır. Respublikanın bütün rayon mərkəzləri magistral fiber-optik telekommunikasiya şəbəkəsinə qoşulmuşdur. Mobil şəbəkənin genişləndirilməsi nəticəsində ölkədə mövcud olan üç mobil operator tərəfindən müasir 3G xidmətləri göstərilir. 2012-ci ildən ölkəmizdə 4G texnologiyasının da tətbiqinə başlanılmışdır. Ölkədə hər min nəfərə 1057 mobil abunəçi düşür.

Statistik məlumatlara görə azərbaycan əhalisinin 78%-i internet, onların 72%-i isə genişzolaqlı internet istifadəçisidir. İnternet qiymətləri ildən-ilə azalır, belə ki, 2004-cü illə müqayisədə 1 Mbit\s sürətli internetə qoşulmanın qiyməti 1200 manatdan 10 manata enmişdir. Ölkə üzrə genişzolaqlı xidmətlərə qoşulmanın orta qiyməti orta aylıq əmək haqqının 3%-ni təşkil edir və bu da Beynəlxalq Telekommunikasiya İttifaqının inkişaf etməkdə olan ölkələrdə bu nisbətin 2015-ci illədək 5%-dən az olması hədəfinə artıq nail olunması deməkdir. Son beş ildə beynəlxalq internet kanalının tutumu 12,9 dəfə artaraq 200 Gbit/s-yə çatmış, internet xidmətləri bazarının həcmi təxminən 4 dəfə artmışdır [55].

Ölkəmizdə yaradılmış İcazələr Elektron İnformasiya Portalı bu sahədə sahibkarları ətraflı məlumatlandırmaqla yanaşı, sahibkarlıq fəaliyyətinə başlayanlara və öz fəaliyyətini genişləndirmək istəyənlərə tələb olunan icazə xarakterli sənədlər, onların alınması prosedurları, təqdim edilməli sənədlər, icazələrin verilmə və qüvvədə olma müddətlərinə dair bütün məlumatları vahid mənbədən əldə etməyə imkan verir [23, s.16].

Ölkəmizdə rabitə və İKT sahəsində həyata keçirilən geniş-miqyaslı islahatlar təşkilati-iqtisadi və hüquqi xarakterli tədbirlər nəticəsində sahənin maddi-texniki bazası əsaslı şəkildə yenilənmiş, əhalinin poçt, rabitə, internet xidmətinin keyfiyyəti xeyli yaxşılaşmışdır.

ARDSK-nın məlumatlarına görə, 2005-2016-cı illərdə ölkə ərazisində poçt şəbəkələrinin sayı 120,9%, o cümlədən şəhər yerlərində 120,6%; kənd yerlərində isə 122,6% artmışdır (şəkil 6.6).




**Şəkil 6.6.** Azərbaycan ərazisində fəaliyyət göstərən poçt şəbəkələrinin sayı

Qeyd edilən illər əzində ölkədə rabitənin əsas infrastruktur göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Belə ki, hər 100 ailəyə düşən sabit şəbəkə telefonlarının sayı 114,5%, mobil telefon abunəçilərinin sayı 4,54 dəfə, əhalinin hər yüz nəfərinə düşən kompüterlərin sayı 2,6 dəfə; internet istifadəçilərinin sayı 170%;

geniş zolaqlı internet istifadəçilərin sayı 4,8 dəfə; hər nəfərə beynəlxalq internet kanallarının həcmi 14,8 dəfə artmışdır. Ölkə əhalisinin 100%-i mobil rabitə ilə əhatə olunmuşdur. Təkcə 2010-2016-cı illərdə ay ərzində internetdən 20 saatlıq istfadə üçün orta tarif 37,0%, 100 dəqiqə mobil rabitə ilə danışıq tarifi 23,0% azalmışdır. Əgər 2005-ci ildə Azərbaycanda İKT-nin inkişaf indeksi 2,58 olunmuşdursa, 2016-cı ildə həmin göstərici 4,24 punkt artaraq 6,82 səviyyəsinə çatmışdır (cədvəl 6.15).

## Azərbaycanda rabitənin əsas infrastruktur göstəriciləri

*Cədvəl 6.15.*

| Göstəricilərin adı | İllər | | | | | 2005-2016-cı illərdə artım tempi, faizlə |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 | |
| Əhalinin hər 100 nəfərinə düşən əsas telefon aparatlarının sayı, ədəd | 13 | 16 | 16 | 15 | 15 | 115,4 |
| Əhalinin hər 100 nəfərinə düşən mobil telefon abunəçilərinin sayı, abunəçi | 27 | 99 | 107 | 112 | 106 | 3,9 dəfə |
| Əhalinin hər 100 nəfərinə düşən kompüterlərin sayı, ədəd | 2,3 | 9,4 | 23,0 | 25,0 | 24,0 | 10,4 dəfə |
| Əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin sayı, nəfər | 8 | 46 | 75 | 77 | 78 | 9,75 dəfə |
| Əhalinin hər 100 nəfərinə düşən genişzolaqlı internet istifadəçilərinin sayı, nəfər | 0,02 | 15 | 65 | 72 | 72 | 3600 dəfə |
| Hər nəfərə beynəlxalq kanallarının həcmi, kbit\s | 0,04 | 4,6 | 35,1 | 54,0 | 68,0 | 1700 dəfə |
| Mobil rabitə ilə əhatə olunmuş ərazidə yaşayan əhalinin ölkə əhalisində xüsusi çəkisi, faizlə | 99,0 | 99,8 | 99,8 | 99,9 | 100,0 | +1,0 |
| Ay ərzində internetdən 20 saatlıq istifadə üçün orta tarif, manat | 5,0 | 1,9 | 1,3 | 1,3 | 1,3 | 26,0 |
| İnternetdən istifadə tarifinin hər nəfərə düşən orta aylıq ümumi gəlirə nisbəti, faizlə | 4,5 | 0,6 | 0,3 | 0,3 | 0,3 | 6,7 |
| Ay ərzində 100 dəq mobil rabitə ilə danışıq üçün orta tarif, manat | 18,0 | 7,7 | 6,9 | 6,9 | 6,7 | 37,2 |
| Mobil danışıq tarifinin hər nəfərə düşən orta aylıq ümumi gəlirə nisbəti, faizlə | 16,1 | 2,0 | 1,4 | 1,5 | 1,5 | 9,3 |
| İKT-nin inkişaf indeksi | 2,58 | 4,89 | 5,95 | 7,74 | 6,82 | +4,24 |
| *Azərbaycanın statistik göstəriciləri Bakı, "DSK" 2011, s.628 ; 2015, s. 602; 2017, s. 624* | | | | | | |




**Şəkil 6.7.** Azərbaycanda əhalinin hər 100 nəfərinə düşən internet və genişzolaqlı internet istifadəçilərin, kompyuter, telefon və mobil telefon (aparatların, abunəçilərin), sayı

**Ev təsərrüfatlarında İKT sistemlərinin mövcudluğu və onlardan istifadə olunması**

*Cədvəl 6.16.*

| Göstəricilərin adı | İllər | | | | | 2005-2016-cı illərdə kənar-laşma + - |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 | |
| Kompyuteri olan ev təsərrüfatlarının ölkə üzrə bütün ev təsərrüfatlarında payı, faizlə | 7,3 | 30,3 | 58,3 | 62,4 | 63,1 | +55,8 |
| Kompyuterlərdən istifadə etmiş əhalinin ölkə üzrə bütün əhalinin sayında xüsusi çəkisi, faizlə | 15,0 | 38,0 | 67,8 | 69,9 | 70,8 | +55,8 |
| Evdə internetə çıxışı olmuş ev təsərrüfatlarının ölkə üzrə bütün ev təsərrüfatlarında payı, faizlə | 16,6 | 45,1 | 75,2 | 76,7 | 77,2 | +60,6 |
| İnternet istifadəçilərinin internetdən istifadə məqsədlərinə görə bölgüsü (son 3 ay ərzində), faizlə | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | x |
| Informasiya axtarmaq | 46,2 | 33,6 | 29,0 | 29,4 | 30,4 | -15,8 |
| əlaqə yaratmaq | 38,3 | 31,6 | 29,7 | 29,8 | 29,1 | -9,1 |
| Təlim və təhsil | 7,0 | 5,8 | 6,9 | 6,7 | 6,8 | -0,2 |
| Oyun, şəkil yükləmək və musiqiyə qulaq asmaq | 6,0 | 19,4 | 18,7 | 18,1 | 18,3 | +12,3 |
| əmtəə və xidmətlərin sifarişi və satışı | 1,3 | 1,2 | 1,4 | 1,5 | 1,3 | - |
| Hakimiyyət orqaları ilə əlaqə (informasiyanın əldə edilməsi, sənədlərin yüklənməsi və göndərilməsi) | 1,2 | 8,4 | 14,3 | 14,5 | 14,1 | +12,9 |
| *Azərbaycanın statistik göstəriciləri Bakı, "DSK" 2011, s.629 ; 2015, s. 603; 2017, s. 625* | | | | | | |

Aran iqtisadi rayonu üzrə rabitə sferasının fəaliyyətini xarakterizə edən göstəricilərin təhlili zamanı 2005-2016-cı illərdə poçt şəbəkələrinin sayı 74 vahid və yaxud 120,9% artımı diqqəti cəlb edir. Əgər 2005-ci ildə iqtisadi rayonda hər 100 ailəyə düşən telefon aparatlarının sayı 35 ədəd o cümlədən şəhərdə 62 ədəd və kənd yerlərində 18 ədəd olmuşdursa, 2016-cı ildə onların sayı uyğun olaraq 36, 59 əd və 21 ədədə çatmış, artım tempi 102,9%; 95,2% və 116,7% təşkil etmişdir (cədvəl 6.17).

**Aran iqtisadi rayonunda rabitə sferasının faəliyyətini xarakterizə edən göstəricilər**

*Cədvəl 6.17.*

| İllər | Poçt şəbəkələrinin sayı, vahid | Hər 100 ailəyə düşən telefon aparatlarının sayı ədəd | Onlardan | |
|---|---|---|---|---|
| | | | Şəhərdə | Kənd yerləri ndə |
| 2005 | 354 | 35 | 62 | 18 |
| 2010 | 425 | 45 | 69 | 29 |
| 2011 | 425 | 44 | 67 | 29 |
| 2012 | 428 | 43 | 68 | 28 |
| 2013 | 428 | 43 | 67 | 27 |
| 2014 | 427 | 42 | 66 | 27 |
| 2015 | 427 | 39 | 63 | 23 |
| 2016 | 428 | 36 | 59 | 21 |
| 2005-2016-cı illərdə artım tempi, faizlə | 120,9 | 102,9 | 95,2 | 116,7 |
| *Azərbaycanın regionları statistik məcmuə Bakı "DSK", 2014, s. 437; 2015, s.463; 2017, s. 439* | | | | |

İqtisadi rayonun ayrı-ayrı bölgələrində 2016-cı ildə hər 100 ailəyə düşən telefon aparatlarının sayı Mingəçevir şəhərində 79 ədəd, Yevlaxda 63 ədəd, Beyləqanda 43 ədəd; Şirvan şəhərində 54 ədəd, Ağcəbədidə 32 ədəd, Bərdədə 41 ədəd, Neftçalada 42 ədəd, Göyçayda 39 ədəd, Hacıqabulda 41 ədəd, Zərdabda 40 ədəd, digər bölgələrdə isə 19-30 ədəd arasında dəyişmiş və ən aşağı göstərici Salyan və Sabirabad rayonları üçün xarakterik olmuşdur (cədvəl 6.18).

### Aran iqtisadi rayonunda hər 100 ailəyə düşən telefon aparatlarının sayı (ədəd)

*Cədvəl 6.18.*

| | 2005 | 2010 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| İqtisadi rayon üzrə o cümlədən | 35 | 45 | 42 | 39 | 36 |
| Göyçay | 39 | 42 | 42 | 40 | 39 |
| Beyləqan | 41 | 59 | 55 | 46 | 43 |
| Ağcabədi | 24 | 55 | 50 | 37 | 32 |
| Bərdə | 39 | 50 | 49 | 41 | 41 |
| Neftçala | 31 | 45 | 48 | 46 | 42 |
| Biləsuvar | 32 | 35 | 33 | 33 | 30 |
| Salyan | 28 | 29 | 21 | 19 | 19 |
| Yevlax | 55 | 65 | 65 | 64 | 63 |
| Mingəçevir şəhəri | 79 | 77 | 88 | 83 | 79 |
| Ağdaş | 23 | 27 | 25 | 24 | 23 |
| Ucar | 30 | 32 | 28 | 25 | 25 |
| Zərdab | 37 | 41 | 41 | 40 | 40 |
| Kürdəmir | 26 | 30 | 26 | 24 | 23 |
| İmişli | 26 | 46 | 44 | 39 | 21 |
| Saatlı | 29 | 29 | 25 | 24 | 23 |
| Sabirabad | 21 | 28 | 26 | 24 | 19 |
| Hacıqabul | 26 | 38 | 41 | 42 | 41 |
| Şirvan şəhəri | 55 | 58 | 55 | 53 | 54 |
| *Azərbaycanın statistik göstəriciləri. Statistik göstəriciləri. Bakı "DSK" 2012, s. 606,607; 2015, s.600,601; 2017, s. 623* | | | | | |

Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının, “Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya”, eləcə də “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya”-nın müddəalarının icrasına uyğun olaraq 2004-2016-cı illər ərzində AİR-də 177,8 min-dən çox nömrəsi olan avtomat telefon stansiyaları istifadəyə verilmişdir. Onların 10,0%-i Göyçay; 8,5%-i Ağcabədi; 7,6%-i Saatlı; 7,8%-i Şirvan şəhəri; 7,2%-i Kürdəmir; hər biri 6,3% olmaqla İmişli və Bərdə, hər biri 6,2% olmaqla Salyan, Yevlax, Ağdaş; hər biri 4,4% olmaqla Biləsuvar, Sabirabad, Hacıqabul; 3,7%, Beyləqan; 2,0% Ucar və Zərdab rayonlarının payına düşmüşdür (cədvəl 6.19).

AİR-in bölgələrində əhaliyə 45-dən çox adda poçt xidməti göstərilir. Bütün əməliyyatlar kolvir sistemi üzrə kompüterlə həyata keçirilir. Poçt şəbəkələrində göstərilən “Western Union”, “Contact”, “Zolotaya korona”, “Caspian Money Transfer” beynəlxalq pul baratları, KOMİS sistemi üzrə qəbil edilən kommunal xidmətlər müasir xidmət növlərinə aiddir. Müasir texnologiyalar vasitəsilə qəbul edilən beynəlxalq pul baratları 15 dəqiqə ərzində təyin yerinə çatdırılır. Bölgələrdə texniki cəhətdən müasir tələblərə cavab verməyən ATS-lər elektron tipli çoxsaylı nömrə tutumuna malik EATS ilə əvəz olunmuşdur. Bu istiqamətdə Zərdab rayonunda yerinə yetirilən işlər diqqəti cəlb edir.

Belə ki, adı çəkilən Dövlət Proqramlarının və strategiyasının icrasına uyğun rayonda 19 kənd ATS-i elektron tipli EATS-lərlə əvəz olunmuş, bir ədəd yeni EATS istifadəyə verilmişdir. ATS-lər üzrə 4332 nömrə tutumu 49,2 % artırılaraq 6464 nömrə tutuma çatdırılmışdır.

**Aran-iqtisadi rayonunda istifadəyə verilən avtomat-telefon stansiyaları(nömrə)**

*Cədvəl 6.19.*

| Rayon və şəhərlərin adı | 2004-2009 | 2010-2014 | 2015 | 2016 | 2014-2016 cəmi |
|---|---|---|---|---|---|
| Cəmi, o cümlədən | 121570 | 54385 | 1808 | 70 | 177833 |
| Göyçay | 3748 | 14048 | - | - | 17796 |
| Beyləqan | 6266 | 272 | - | - | 6538 |
| Ağcabədi | 14580 | 640 | - | - | 15220 |
| Bərdə | 7332 | 3944 | 1312 | - | 12588 |
| Neftçala | 8266 | - | 80 | - | 8706 |
| Biləsuvar | 2354 | 5472 | 128 | - | 7954 |
| Salyan | 3628 | 7364 | - | - | 10992 |
| Yevlax | 9936 | 624 | - | - | 10560 |
| Mingəçevir şəhəri | 2836 | 1504 | -- | 700 | 5040 |
| Ağdaş | 3998 | 6144 | - | - | 10142 |
| Ucar | 2070 | 1520 | - | - | 3590 |
| Zərdab | 1536 | 2052 | - | - | 3588 |
| Kürdəmir | 4722 | 7872 | 160 | - | 12754 |
| İmişli | 9972 | 1088 | - | - | 11060 |
| Saatlı | 13540 | - | -- | - | 13540 |
| Sabirabad | 6868 | 592 | -- | - | 7460 |
| Hacıqabul | 6126 | 1312 | 128 | - | 7566 |
| Şirvan şəhəri | 13792 | - | - | - | 13792 |
| Azərbaycanda tikinti. Bakı, "DSK" 2013, s. 77,78; 2017, s. 94-95 | | | | | |

Qovşağın mərkəzi EAST-lər arasında 130 km müasir tipli birləşdirici FO kabeli çəkilmişdir. Kənd ATS-ləri istiqamətində kanalların sayı 58% artırılaraq, 360 kanaldan 570 kanala çatdırılmışdır. Bütün 19 ədəd kənd EATS-lərdə 16 E1/4 ETN avadanlıqları quraşdırılmış və telefon istifadəçilərinə internetə qoşulmaq imkanı yaradılmışdır.

Rayon ərazisində əhalinin telefona olan tələbatını ödəmək məqsədilə 9 km xətt şəbəkəsi tikintisi aparılmış, 19 kənddə EATS binaları əsaslı təmir olunmuşdur. Nəticədə, rayon üzrə elekrtonlaşma tam başa çatdırılmış, 2012-ci ildə kənd telefon xətt şəbəkəsinin genişləndirilməsi hesabına 116 ədəd telefon çəkilişi təmin olunmuşdur. İl ərzində 6 kənddə Məmmədqasımlı, Qaravəli, Gəlmə, Şəftəhal, Çallı və Pərvanlı kəndlərinin hər birində 24 yerlik DSLAM avadanlığı quraşdırılaraq intenetə çıxış təmin edilmişdir. Hazırda Zərdab şəhərində 600 ədəd, kənddə isə 460 ədəd olmaqla mindən çox telefon internet şəbəkəsinə qoşulmuşdur. Araşdırmalar göstərir ki, AİR-in bölgələrində rabitə müəssisələri tərəfindən yerinə yetirilən xidmətlərin həcmi hər il orta hesabla 3-5% artır.

Kürdəmir rayonunda təkcə 2016-cı ilin I rübü ərzində Muradxan, Köhünlü, Şilyan və Sığırlı kəndində EATS yenidən qurulmuş, rayonun dəmiryol adlanan ərazisində 270 m uzunluğunda kabel-kanalizasiya qurğusu tikilib istifadəyə verilmişdir. Bu rayonda multimedia xidmətlərinin inkişaf layihəsi üzrə Mərkəz EATS-dən ayrı-ayrı kəndlər istiqamətində optik kabellərin çəkilişi ilə əlaqədar hərbi hissədən Sor-Sor, Köhünlü, Ərəbxana, Çöl-Ərəb, Qaramahmudlu, Şüşün, Sovla, Söyüdlər, Mollakənd və Carlı kəndlərinə ümumillikdə 45 km optik kabeli çıkilmişdir.

Hacıqabul rayonunda əhaliyə göstərilən telefon xidmətini təmin etmək üçün 6,2 min nömrə tutumuna malik 16 ATS fəaliyyət

göstərir. Təkcə 2014-cü ildə rayonda telefon nömrələrinin sayı 450 nömrə artmışdır. 2015-ci ildə Qızılburun kəndində 128 nömrə tutumlu EATS istifadəyə verilmişdir. Muğan qəsəbəsində EATS binası əsaslı təmir olunmaqla stansiyanın tutumu 208 nömrə artırılaraq 464 nömrəyə çatdırlmışdır. Navahı qəsəbəsi, Abdulabad və Udullu kəndlərində telefonlaşdırma işi başa çatdırılmışdır.

Tədqiq edilən iqtisadi rayonun digər bölgələrində də rabitə sisteminin maddi-texniki bazasının yeniləşdirilməsi, yeni növ rabitə xidmətinin göstərilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Bütünlükdə, respublika üzrə 2016-cı il ərzində informasiya və rabitə müəssisələri hüquqi və fiziki şəxslərə 1603,2 milyon manatlıq xidmət göstərmişdir ki, onun da 75 faizi əhali sektoruna aid olmuşdur. 2005-ci il ilə 2016-cı ilin müqayisəsində informasiya və rabitə xidmətlərinin həcmi 3,3 dəfə artmış, bu sahədə əldə edilmiş gəlirin 81,0 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Xidmətlərin əldə olunmuş gəlirlərin 53,0 faizi və ya 870,2 milyon manatı mobil telefon rabitəsindən yaranmışdır [25, s.64].

Rabitə və İKT sferasında həyata keçirilən tədbirlərin növbəti illərdə də icrası təmin ediləcəkdir. Belə ki, İKT-nin infrastrukturu inkişaf etdiriləcək, regionlarda əhaliyə müasir elektron xidmətlərin göstərilməsi imkanları daha da genişləndiriləcək, kənd yaşayış məntəqələri də daxil olmaqla ölkə ərazisində genişzolaqlı, ucuz və keyfiyyətli intenetə çıxış təmin olunacaqdır. Bu sahədə qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı istiqamətlərdə müvafiq tədbirlərin həyata keçirilməsi vacibdir:

- regionlarda inkişaf etmiş informasiya və kommunikasiya infrastrukturunun yaradılması, informasiya və kommunikasiya xidmətlərinin daha da genişləndirilməsi;

- regionlarda əhalinin İKT sahəsində bilik və kadr hazırlığı səviyyəsinin yüksəldilməsi;
- regionlarda televiziya yayımı keyfiyyətinin daha da yaxşılaşdırılması;

Bütün bunlar isə, nəticə etibarı ilə tədqiq edilən iqtisadi regionda rabitə və İKT-nin səmərəli təşkilinə təminat yaradacaqdır.

### *6.6. Təhsil, səhiyyə və pul xidmətləri sferası.*

Azərbaycanda təhsilin təşkili və idarə edilməsi “Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu”, “Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları”, “Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası – “Milli Kurikulum”, “Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları”, 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalşdırılması üzrə Dövlət Proqramı”nın; Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” nın icrasına uyğun həyata keçirilir. Ölkəmizin təhsil sistemi milli-mənəvi və ümumbəşəri dəyərlərə əsaslanaraq, Boloniya prosesində qoşulmaqla ümumdünya təhsil sisteminə inteqrasiya yolu ilə inkişaf etməkdədir. Bu gün 15 və yuxarı yaşlı əhalinin hər min nəfərindən 972-i ali, orta ixtisas və orta təhsilə malikdir. ARDSK-nın məlumatlarına görə, 2017-ci ilin əvvəlində ölkədə fəaliyyət göstərən 1663 dövlət və 87 qeyri dövlət məktəbəqədər təhsil müəssisəsində 118,7 min uşaq tərbiyə alır, 4452 dövlət və qeyri-dövlət ümumi təhsil müəssisələrində 1,462 milyon şagird təhsil alıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud olan 5,8 min uşağın təhsil aldığı 16 xüsusi məktəb və internat məktəbləri

fəaliyyət göstərmişdir. Son illər 2-ci və 3-cü növbədə təhsil alan şagirdlərin xüsusi çəkisi xeyli azalaraq 14,7%-ə enmişdir. 2016-2017-ci tədris ilinin əvvəlinə əyani ümumtəhsil müəssisələrinin quruluşu 6.7. saylı şəkildə əks etdirilmişdir.




**Şəkil 6.8.** Azərbaycanda əyani ümumtəhsil müəssisələrinin quruluşu

Həmin tədris ilinin əvvəlində 69 min nəfər şagird 101 dövlət litseyi və gimnaziyada təhsil almışlar. Dövlət Statistika Komitəsi tərəfindən 2015-ci ilin sentyabr ayında dövlət əyani ümumi təhsil müəssisələrində keçirilmiş statistik araşdırmanın nəticələrinə görə, məktəblərin 93,9 faizi, o cümlədən şəhər yerlərində 99,1 faizi, kənd yerlərində isə 92,1 faizi kompyüterlərlə təmin olunmuş və əvvəlki illə müqayisədə kompyuterlərin sayı 5,3 min ədəd və ya 9,2 faiz artaraq, 63,3 minə çatmışdır. 2016-cı ildə orta hesabla 101 şagirdə

bir kompyuter düşdüyü halda hazırda hər 21 şagirdə bir kompyuter düşür.

Cari tədris ilinin əvvəlinə ümumtəhsil məktəblərinin 48,7 faizinin (şəhər yerləri üzrə 84,2, kənd yerləri üzrə 36,1 faizinin), kompyuterlə təchiz edilmiş məktəblərin isə 51,8 faizinin (şəhər yerləri üzrə 84,9, kənd yerləri üzrə 39,2 faizinin) internetə çıxışı vardır. Ümumtəhsil məktəblərinin 22,2 faizinin (şəhər yerləri üzrə 51,6, kənd yerləri üzrə isə 11,8 faizinin), internetə çıxışı olan məktəblərin isə 45,6 faizinin (şəhər yerləri üzrə 61,3, kənd yerləri üzrə isə 32,8 faizinin) eletktron poçt ünvanı mövcuddur [20].

2016-2017-ci tədris ilinin əvvəlinə ölkədə fəaliyyət göstərən 53 orta ixtisas təhsil müəssisəsində 46,8 min nəfər tələbə təhsil almış, onların üçdə iki hissəsini qadınlar təşkil etmişdir.

Azərbaycanda bakalavr və magistrlərin hazırlanmasını həyata keçirən 38 dövlət və 13 qeyri-dövlət ali təhsil müəssisəsində təhsil alanların sayı 163,8 min nəfər olmuşdur ki, onların da 48,8 faizini qadınlar təşkil edir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş 2015-ci il 6 oktyabr tarixli dəyişikliyə müvafıq olaraq 7 elmi təşkilatda magistraturaya tələbə qəbulu həyata keçirilmişdir.

2016-2017-ci il tədris ilində ölkənin ali təhsil müəssisələrinə 36,1 min nəfər tələbə qəbul olunmuş və qəbul geniş profilli ixtisas siyahısına uyğun olaraq həyata keçirilmişdir. Boloniya Deklarasiyasının tələblərinə tam cavab verən bu yeni siyahının təsdiq olunması Azərbaycan ali təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası yolunda atılan mühüm addımlardan biridir.

Ölkənin ali təhsil müəssisələrində Azərbaycan vətəndaşları ilə birgə 60 xarici ölkənin 3932 nəfər vətəndaşı da təhsil alır. Əcnəbi tələbələrin sırasında Türkiyə, İran, Rusiya, Gürcüstan, Türkmənis-

tan, İraq və Çin Xalq Respublikası vətəndaşları üstünlük təşkil edirlər.

2016-2017-ci tədris ilinin əvvəlinə xarici ölkələrdə dövlət xətti ilə təhsil alan tələbələrin sayı 3370 nəfər təşkil etmişdir. Xaricdə təhsil alan gənclərin 64,2 faizi Bakı, 35,8 faizi isə Azərbaycanın müxtəlif regionalarında yerləşən məktəblərin məzunlarıdır. Tələbələrin əksəriyyəti Türkiyə, Birləşmiş Krallıq, Almaniya, Rusiya və Kanadanın ali təhsil müəssisələrində təhsil alır [20, s. 249, 250].

ARDSK-nın məlumatlarına görə, ölkə üzrə məktəbəqədər təhsil müəssisələrinin 21,6%-i; əyani təhsil müəssisələrinin 20,7%-i; peşə verən təhsil müəssisələrinin 14,5%-i; dövlət və qeyri-dövlət orta ixtisas təhsili müəssisələrinin 13,8%-i; eyni statusa malik ali təhsil müəssisələrinin 2,0%-i; əyani tam orta ümumtəhsil məktəblərini bitirmiş və attestat alan şagirdlərin 13,8%-i; xarici ölkələrdə ali təhsil alan tələbələrin 6,6%-i Aran iqtisadi rayonun payına düşür.

Təhlil zamanı müəyyən edilmişdir ki, 2005-2016-cı illərdə AİR üzrə məktəbəqədər təhsil müəssisələrinin sayı dəyişməmiş lakin, oradakı uşaqların sayı 918 nəfər artmışdır. Həmin dövrdə əyani ümumtəhsil müəssiələrin sayı 11 vahid artsa da, orada təhsil alan şagirdlərin sayı 55,5 min nəfər azalmışdır.

Şagirdlərin dünya görüşünün genişlənməsində, onların müvafiq bədii kitablarla təmin edilməsində kitabxanaların, muzeylərin və klubların fəaliyyəti danılmazdır. Təhlilin əhatə etdiyi dövrdə AİR-də kitabxanaların və kulubların sayı xeyli azalmış, lakin muzeylərin sayı 180% artmışdır.

AİR üzrə 2017-ci ilin əvvəlində 729 kütləvi kitabxana, 602 klub müəssisəsi və 46 muzey fəaliyyət göstərmişdir. Orada hər min nəfər sakinə 3017 nüsxə kitab düşmüşdür (cədvəl 6.20).

**Aran iqtisadi rayonunun təhsil müəssisələrinin əsas göstəriciləri**

*Cədvəl 6.20.*

| Göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 |
| Məktəbəqədər təhsil müəssisələrinin sayı | 373 | 364 | 368 | 369 | 373 |
| Onlarda uşaqların sayı, nəfər | 19491 | 19587 | 20093 | 20169 | 20409 |
| Məktəbəqədər təhsil müəssisələri ilə (100 yerə düşən uşaq hesabı ilə) təminatı | 86 | 92 | 92 | 92 | 91 |
| Əyani ümumi təhsil müəssiələrinin sayı-cəmi | 919 | 929 | 932 | 930 | 930 |
| Onlarda şagirdlərin sayı, nəfər | 337143 | 271144 | 258130 | 260320 | 281649 |
| II və III növbədə oxu-yanların xüsusi faizlə | 27,0 | 17,9 | 11,2 | 10,8 | 11,4 |
| Kütləvi kitabxanaların sayı | 1044 | 983 | 785 | 772 | 729 |
| Onlarda kitab fondu, min nüsxə | 7020,6 | 6739,8 | 6040,4 | 6021,4 | 5990,2 |
| Orta hesabla hər 1000 sakinə, nüsxə | 4079 | 3675 | 3120 | 3070 | 3017 |
| Klub müəssisələrinin sayı | 660 | 649 | 643 | 620 | 602 |
| Muzeylərin sayı | 26 | 46 | 46 | 46 | 46 |
| Onlara gələnlərin sayı, min nəfər | 328,4 | 555,9 | 645,1 | 592,6 | 589,8 |
| Əhalinin hər 1000 nəfərinə | 190,8 | 305 | 340 | 304 | 299 |
| *Azərbaycanın regionları. Statistik məcmuə Bakı, "DSK" 2014, s. 432,433; 2015- s. 458-459, 2017, s. 434-435* | | | | | |

Son illər AİR üzrə xarici ölkə universitetlərində təhsil alan tələbələrin sayı xeyli artmışdır. Həmin tələbələr ABŞ, Avstraliya, Almaniya, Belarus, Böyük Britaniya, Çin, Fransa, İrlandiya və İsveçrə kimi dövlətlərin universitetlərində təhsil alırlar.

AİR-in ayrı-ayrı bölgələrində təhsilin təşkili, gənclərin intellektual səviyyəsinin artırılması, asudə vaxtının səmərəli təşkilinin vəziyyəti ilə tanış olduqda aydın olur ki, son illər həmin istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Araşdırmalar göstərir ki, Biləsuvar rayonunda əhalinin üçdə bir hissəsini gənclər təşkil edir. Onların asudə vaxtının səmərəli təşkili üçün rayonun 35 klub və mədəniyyət evi, 38 kitabxana, 2 uşaq incəsənət məktəbi, Heydər Əliyev, Tarix-Diyarşünaslıq muzeyi və rəsm qalereyasında il boyu keçirilən tədbirlər, görüş və konsertlər maraqla qarşılanıb.

Rayonda 150 sadə idman qurğusu var. Müasir tələblərə cavab verən 3 min yerlik stadion idmançıların istifadəsindədir. Olimpiya İdman Kompleksində on növ üzrə məşqlər keçirilir ki, onların da yeddisi olimpiya təsnifatına daxildir.

Biləsuvarda 6 min nəfərdən çox əhali idmanla məşğul olur. Son illərdə idmançılar müxtəlif mötəbər yarışlarda 9 qızıl, 12 gümüş və 74 bürünc medal qazanmışlar. İki nəfər idman ustası, 3 nəfər isə ustalığa namizəd adını almışdır.

Gənclərin intellektual inkişafı da diqqət mərkəzindədir. Hazırda məktəb kompyuterlərinin sayı 385-ə çatmışdır və hər 35 şagirdə bir kompyuter düşür.

Zərdab rayonunda 45 ümumtəhsil məktəbi, o cümlədən 29 tam orta; 10 ümumi orta; 6 ibtidai; 22 məktəbəqədər, 5 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. 2016-2017-ci il tədris ilində 43 ümumtəhsil məktəbində 11,7 min nəfər şagird təhsilə cəlb olunmuş

və onların təlim-tərbiyəsi ilə 950 nəfər müəllim məşğul olmuşdur. Məktəbəqədər müəssisələrdə 800 nəfərdən çox uşaq təlim-tərbiyə ilə əhatə olunmuş, 5 məktəbdənkənar müəssisədə 950 şagirdə xüsusi istedad və bacarıqlarını inkişaf etdirmək üçün lazımi şərait yaradılmışdır. Rayonun ümumtəhsil məktəblərində 640 nəfər ali təhsilli pedaqoji işçi çalışır. Rayonda 25 klub, 40 kitabxana və 2 muzey fəaliyyət göstərir. Orada müasir dəbdə tikilmiş Heydər Əliyev Mərkəzində şahmat, kompüter, xalçaçılıq, rəsm, linqafon və foto-studiya gənclərin istifadəsinə verilmişdir. Orada Zərdabi Muzeyi, Tarix Diyarşünaslıq Muzeyi, Yaradıcılıq evi, Gənclər Mərkəzi fəaliyyət göstərir.

Göyçay rayonun 34 məktəbəqədər təhsil müəssisəsində 1420 uşaq tərbiyə edilir. Rayonun 57 əyani ümumtəhsil müəssisələrində 17,0 min nəfər şagird təhsil alır. Orada 37 kitabxana, 30 klub və 3 muzey əhalinin intellektual səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Beyləqan rayonunda 30 məktbəqədər və 54 əyani ümumtəhsil müəssisələri faəliyyət göstərir. Orada mədəni-kütləvi tədbirlərin həyata keçirilməsində 38 kitabxananın, 35 klubun və 2 muzeyin xidmətindən istifadə edilir.

Ağcabədi rayonunda 62 əyani ümümtəhsil müəssisələrində 21,8 min nəfər şagird təhsil alır ki, onların da 11,1%-i II və III növbədə oxuyurlar. Həmin göstəricinin xüsusi çəkisi 2005-ci illə müqayisədə 16,8% azalmışdır. Son 10 ildə rayonda kütləvi kitabxanaların sayı 32 vahid, klubların sayı 2 vahid azalmış, iki yeni muzey yaradılmışdır.

Bərdə rayonunda fəaliyyətdə olan 32 məktəbəqədər təhsil müəssisəsində 1600 uşaq tərbiyə alır, 75 ümütəhsil müəssisələrində isə 22,8 min nəfər şagird oxuyur. Rayonda 2005-2014-cü illərdə

təhsil olan şagirdlərin sayı 23,6%; II və III növbədə oxuyanların xüsusi çəkisi isə 22,5% azalmışdır. Bu rayonda fəaliyyətdə olan 54 kitabxanada 531,2 min nüsxə kitab vardır. Digər bölgələrlə müqayisədə bu rayonda klubların və muzeylərin sayı daha çoxdur.

Təhlilin əhatə etdiyi dövrdə Yevlax rayonunda məktəbəqədər və əyani ümumtəhsil məktəblərin sayı dəyişməmiş, kitabxanaların sayı 13 vahid azalmışdır.

Əhalisinin sayı 73,6 min nəfərdən çox olan Hacıqabul rayonunda təhlilin əhatə etdiyi dövrdə ümumtəhsil müəssisələrinin sayı 3 vahid artmışdır. Belə ki, Heydər Əliyev fondu hesabına şəhərdə 440 şagird yerlik, Navahı qəsəbəsində 220 şagird yerlik, həmçinin dövlət hesabına 220 şagird yerlik, 80 şagird yerlik Ağacanlı kənd tam orta məktəbləri üçün binalar tikilib istifadəyə verilmişdir. Heydər Əliyev fondunun hesabına şəhərdə inşa olunan 100 yerlik uşaq bağçasının tikintisi başa çatdırılmışdır.

Göründüyü kimi, AİR-in ayrı-ayrı bölgələrində təhsil müəssisələrinin sayında xeyli dəyişiklik baş vermiş, lakin şagirdlərin sayı ildən-ilə azalmaqdadır. Onun başlıca səbəbi doğulanların sayının azalması və əhalinin nisbi miqyasıdır.

Ölkənin təhsil sistemində mövcud çatışmazlığın aradan qaldırılması və təhsilin inkişafı üzrə mövcud Dövlət Strategiyasına uyğun olaraq dünya ölkələri sırasında keyfiyyət nəticələri və əhatəliliyinə görə, aparıcı mövqe tutan qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün genişmiqyaslı tədbirlər nəzərdə tutulur. İqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun təhsil sistemi ölkədə kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə eləcə də Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına

imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın davamlı inkişafını təmin edəcəkdir.

Bu məqsədlərə nail olmaq üçün qarşıdakı illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- regionlarda təhsil müəssisələrinin tikintisi və əsaslı təmir işlərinin davam etdirilməsi;
- təhsil şəbəkəsində rasionallaşdırma tədbirləri həyata keçirməklə, regionlar arasında təhsilin keyfiyyətini bərabərləşdirmək üçün müvafiq tədbirlərin görülməsi;
- regionlarda əmək bazarının mütəmadi öyrənilməsi sisteminin yaradılması;
- distant təhsil, istedadlı, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin yaradılması.

Bizim fikrimizcə, tədqiq edilən iqtisadi rayonun ayrı-ayrı bölgələrində təhsil sistemində mövcud olan boşluqların aradan qaldırılması kontekstində Dövlət Proqramında nəzərdə tutulan həmin tədbirlərin icrası daha vacibdir.

Regionlann sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun olaraq son 14 ildə səhiyyə sisteminin yenidən təşkili, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturlarının yaradılması müstəqil Azərbaycanda həyata keçirilən genişmiqyaslı, sosialyönümlü siyasətin mühüm tərkib hissəsinə çevrilmişdir. Bu sosial sahədə ardıcıl və sistemli reallaşan islahatların nəticəsi kimi, son illərdə ölkədə səhiyyənin maddi-texniki bazası əsaslı şəkildə yeniləşir, ən müasir tibb texnika və texnologiyanın tətbiqi, yeni müalicə-diaqnostik mərkəzlərinin istifadəyə verilməsi, mövcud səhiyyə ocaqlarının yenidən qurulması, özəl tibb

müəssisələrinin yaradılması və s. ölkə vətəndaşlarına göstərilən tibbi xidmətin səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsinə təminat yaratmışdır. Tibb xidmətinin beynəlxalq tələblər səviyyəsində təşkili üçün dövlətin qayğısı ildən-ilə artmaqdadır. Bu məqsədlə son illər tibbin ən vacib sahələri üzrə bir sıra proqramlar qəbul edilmiş və icrasma başlanılmışdır. Dövlət büdcəsindən həmin sosial sahəyə ayrılan vəsaitin məbləği ildən ilə artırılmış, rayonlarda yeni diaqnostik mərkəzlər tikilib istifadəyə verilmiş, mövcud tibb müəssisələri əsaslı təmir edilərək dünya standartlarına cavab verən innovasiya meyilli tibbi texnika və avadanlıqların, səyyar ambulatoriyalarla, müasir təchizatlı təcili yardım maşınları ilə təmin edilmişlər. Artıq respublikamızda səhiyyənin təşkilinə dair hüquqi baza təmin edilmiş, "şəkərli diabet", "xroniki böyrək çatışmazlığı", "Qanın, qan komponentlərinin, donorluğun və qan xidmətinin inkişafına dair", "Hemofiliya və talassemiya irsi qan xəstəliyi üzrə", "Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair", "Onkoloji xəstələrin həyatı üçün vacib olan şiş əleyhinə preparatlarla təminat üzrə", eləcə də "Dövlət tibb müəssisələrində əhaliyə pulsuz xidmətin göstərilməsi haqqında" ölkə Prezidenti müvafiq sərəncamlar imzalamış, müvafiq Dövlət proqramları qəbul edilmişdir. Həmin proqramlara uyğun olaraq, xəstələr dövlət hesabına pulsuz müalicə alır, ölçmə aparatları ilə təmin edilir və dərmanlarla təchiz olunurlar.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında nəzərdə tutulan prioritetlərdən biri əhalinin sağlamlığının qorunması və səhiyyə sahəsində islahatların davam etdirilməsidir. Məlumdur ki, səhiyyə sistemi dövlət büdcəsindən böyük xərclər tələb edən sosial sahə olduğuna görə bu sahədə irimiqyaslı islahatların aparılması, xəstəxanaların yenidən qurulması, onların ən müasir

tibb avadanlıqları ilə təchiz olunması, yeni müalicə-diaqnostika mərkəzlərinin tikintisi zəruri idi. Bu baxımdan Azərbaycanda səhiyyə islahatları ölkə iqtisadiyyatında sürətli inkişafın başlaması ilə paralel olaraq 2004-cü ildən etibarən daha da genişlənib. Səhiyyə sistemində həyata keçirilən islahatların uğurla nəticələnməsi üçün inkişaf etmiş ölkələrin təcrübəsi ilə tanışlıq, Azərbaycanın səhiyyə idarə və müəssisələrinin müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən Azərbaycan hökuməti ÜST(WHO), UNİCEF, USAİD-nin İlkin Səhiyyə Xidmətlərinin Gucləndirilməsi Layihəsi, Açıq Cəmiyyət İnstitutu Yardım Fondu, Blumberq Təşəbbüsü Fondu Dünya Bank, Avropa Komissiyası, BMT-nin müvafiq strukturları və digərləri ilə fəal əməkdaşlığa başlayıb. Səhiyyə sistemində islahatlar layihəsi çərçivəsində Azərbaycan hökuməti 2006-cı ilin sentyabırında Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyası ilə maliyyələşmə sazişi imzalayıb. Bu saziş 6 il ərzində səhiyyədə struktur və idarəetmə islahatlarına dair layihənin həyata keçirilməsini nəzərdə tutur. Layihə Səhiyyə Nazirliyinin idarəetmə potensialının gücləndirilməsini, səhiyyə xidmətlərinin çatdırılmasının yaxşılaşdırılmasını, kadr resurslarının inkişaf etdirilməsini və s. əhatə edir.

İslahatların gedişi Dünya Bankının xüsusi missiyası tərəfindən izlənilir və nəticələrlə bağlı müsbət rəylər verilir. Həmçinin səhiyyə sistemində aparılan islahatlar Avropa Komissiyasının Azərbaycana dair Yaxın Qonşuluq Sıyasəti təşəbbüsü çərçivəsində hazırlanan tərəqqi hesabatlarında son bir neçə ildir ki, davamlı olaraq müsbət rəylə qiymətləndirilir.

Rəsmi statistik məlumatlara görə, son 14 il ərzində səhiyyəyə ayrılan büdcə vəsaitinin məbləği 12 dəfədən çox artmışdır. Bu dövrdə böyük əksəriyyəti respublikanın bölgələrində olan 550-dən

artıq tibb müəssisəsinin tikintisi və ya əsaslı təmiri həyata keçirilib, tibb müəssisələrinin hamısı müasir texnika və avadanlıqla təchiz olunmuşdur.

Yolxucu xəstəliklərlə mübarizə işində əhəmiyyətli nəticələr əldə olunmuş və bu sahə praktik səhiyyənin prioritet istiqaməti kimi daim diqqət mərkəzində saxlanılmaqdadır. Həyata keşirilən tədbirlər sayəsində Azərbaycanda uşaq ölmü kəskin şəkildə aşağı düşümüş, həmçinin ana və uşaq ölmünün səviyyəsi bir neçə dəfə azalmışdır.

Azərbaycanda özəl səhiyyə xidməti özünün dinamik inkişaf mərhələsindədir. Səhiyyə sistemində aparılan islahatların mühüm istiqamətlərindən biri də Azərbaycanda əhali arasında məcburi tibbi sığortanın tətbiq edilməsi yönündə aparılan işlərdir. Bu məqsədlə son illərdə beynəlxalq təcrübə öyrənilir, qanunvericilik bazası hazırlanır. Məcburi tibbi sığorta sisteminə əsasən pensiyaçılar üçün tibbi sığorta haqqını Dövlət Sosial Müdafiə Fondu, işləməyən vətəndaşlar və sosial yardım alanlar üçün isə dövlət ödəyəcək. Nəticədə ölkə əhalisinin bütün təbəqələrini tibbi sığorta xidmətləri şəbəkəsinə cəlb etmək mümkün olacaqdır.

Ölkəmizin ayrı-ayrı bölgələrində Mərkəzi xəstəxanaların əsaslı təmiri başa çatdırılmış, rayon səhiyyə şöbələri müasir maşın və avadanlıqlarla təchiz edilmişdir. Bir çox xəstəxanalar “Mersedes-Vito” markalı təcili yardım avtomobilləri ilə təmin edilmişlər. Onlar xəstəni nəmlənmiş oksigenlə təmin etmək üçün “Babrov” aparatı, kəskin ürək çatmazlığı zamanı Elektroşok aparatı, termiki-kimyəvi yanıqlar zamanı ilk yardım dəstı, süni tənəffüs aparatı, müxtəlif travmalar zamanı istifadə olunan xərəklər, “Elektrokardeoqraf” aparatları ilə təchiz edilmişdir.

Hazırda Azərbaycanda 569 xəstəxana, 1758 ambulatoriya-poliklinika müəssisəsi, 387 qadın məsləhətxanası fəaliyyət göstərir və orada 32,2 min nəfər həkim, 54,5 min nəfər orta tibb işçiləri çalışır. Əhalinin hər 10 min nəfərinə 33,2 nəfər həkim və 56,2 nəfər orta tibb işçisi düşür. Lakin 2005-2016-cı illər ərzində həmin göstəricilərin səviyyəsi azalmışdır (cədvəl 6.21).

Buna baxmayaraq 2015-ci ildə əvvəlki illə müqayisədə səhiyyə üçün ayrılan büdcə vəsaiti 16,9 faiz artaraq 777,7 milyon manat təşkıl etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü ıl 27 fevral tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, ölkədə aparıcı texnologiyalar və müasir tibbi avadanlıqlarla təchiz olunmuş yeni tibb mərkəzlərinin yaradılması işi davam etdirilmişdir. Belə ki, təkcə 2015-ci il ərzində 4-ü Bakı şəhərində, 55-i isə regionlarda olmaqla 59 səhiyyə müəssisəsində təmir-tikinti işləri aparılmışdır.

Səhiyyənin prioritet sahələri olan ana və uşaqların sağlamlığı, şəkərli diabet, irsi qan xəstəlikləri, qan xidməti, xroniki böyrək çatışmazlığı, vərəm, yoluxucu xəstəliklərin immunoprofilaktikası üzrə həyata keçırılən tədbırlər nəticəsində xəstələrə göstərilən tibbi xidmətin səviyyəsi yüksəlmiş, bu xəstəliklər üzrə müayinələrin həcmi artırılmışdır.

Ana və uşaqların sağlamlığının qorunması sahəsində qəbul olunmuş dövlət proqramları uşaqlar arasında xəstələnmə, sağlamlıq imkanlarının məhdudluğunun və ölümün səviyyəsinin azaldılmasına, perinatal yardım islahatlarının davam etdirilməsinə, gənclərə göstərilən reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinin yaxşılaşdırılmasına yönəldilmişdir.

**Azərbaycanda səhiyyənin əsas göstəriciləri *)**

*Cədvəl 6.21.*

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 | 2005-2016-cı illərdə artım tempi %-lə |
| Bütün ixtisaslardan olan həkimlərin sayı, min nəfər | 30,6 | 33,1 | 32,8 | 32,5 | 32,2 | 105,2 |
| əhalinin hər 10000 nəfərinə | 36,3 | 36,8 | 34,6 | 33,9 | 33,2 | 91,5 |
| Orta tibb işçilərinin sayı, min nəfər | 60,8 | 60,1 | 56,1 | 54,9 | 54,5 | 89,6 |
| əhalinin hər 10000 nəfərinə | 72,1 | 66,8 | 59,3 | 57,3 | 56,2 | 77,9 |
| Xəstəxana müəssisələrinin sayı | 729 | 516 | 566 | 559 | 569 | 78,1 |
| Xəstəxana çarpayılarının sayı, min | 68,9 | 45,8 | 46,4 | 44,9 | 45,3 | 65,7 |
| əhalinin hər 10000 nəfərinə | 81,7 | 50,9 | 49,0 | 46,9 | 46,7 | 57,2 |
| Xəstə uşaqlar üçün çarpayıların sayı, min | 11,7 | 7,0 | 6,4 | 6,1 | 6,1 | 52,1 |
| Əhaliyə ambulatoriya-poliklinika yardımı göstərən müalicə | 1595 | 1688 | 1746 | 1750 | 1758 | 110,2 |
| Qadın məsləhətxanalarının, uşaq poliklinikalarının və ambulatoriyalarının sayı (müstəqil və başqa müəssisələrin tərkibinə daxil olanlar) | 923 | 472 | 389 | 387 | 387 | 42,0 |
| Hamilə və zahı qadınlar üçün çarpayıların sayı, min | 7,4 | 4,6 | 4,7 | 4,6 | 4,6 | 62,2 |

** Azərbaycanın Statistik Göstəriciləri, Bakı, "DSK", 2017, s. 279*

Araşdırmalar göstərir ki, 2015-ci ildə qeydə alınmış xəstəliklər arasında tənəffus, əsəb sistemi və hissiyyat orqanlarının, həzm orqanlarının, qan dövranı sisteminin xəstəlikləri, eləcə də yoluxucu və parazitar xəstəliklər üstünlük təşkil etmişdir.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, 2015-ci ildə, əvvəlki ilə nisbətən, ölkədə epidemik parotit ilə (44,4 faiz), hepatit virusu ilə (42,8 faiz), qoturluq ilə (35,0 faiz), quduzluq ilə (33,3 faiz), skarlatina ilə (31,7 faiz), qarayara ilə (20,0 faiz) xəstələnmə halları azalmışdır.

Kəskin poliomielit, tulyaremiya, məxmərək, anadangəlmə məxmərək sindromu, difteriya, yeni doğulmuşlarda tetanus, qızılca, göyöskürək və malyariya xəstəlikləri qeydə alınmamışdır [25, s.130,131].

Təhlil göstərir ki, 2017-ci ilin əvvəlində respublika ərazisində mövcud olan bütün xəstəxanaların 16,2%-i, ambulator-poliklinika müəssisələrinin 20,8%-i; həkimlərin 9,6%-i; orta tibb işçilərinin 16,9%-i Aran iqtisadi rayonunun payına düşür. İqtisadi rayon üzrə əhalinin hər on min nəfərinə düşən həkimlərin sayı 15,4 nəfər, orta tibb işçilərinin sayı isə 46,4 nəfər təşkil edir ki, bu da orta respublika göstəricisindən xeyli fərqlənir. Əhalinin hər on min nəfərinə düşən həkimlərin sayı Ağcabədi rayonunda 10,7; Beyləqan 12,8; Hacıqabulda, Saatlıda və İmişlidə 9,8; Kürdəmirdə 10,4; Yevlaxda 16,1 nəfər təşkil edir. Bu göstəricinin iqtisadi regionda nisbətən yüksək həddi Bərdə rayonunda 23,3 nəfər, Göyçayda 15,7 nəfər; Salyanda 20,3 nəfər, Mingəçevir şəhərində 43,3 nəfər; Şirvan şəhərində isə 33,7 nəfər həkim düşür ki, bu da orta respublika göstəricisindən xeyli yüksəkdir.

Əhalinin hər on min nəfərinə düşən orta tibb işçilərinin sayı Mingəçevirdə 98,8 nəfər; Şirvanda 73,3 nəfər; Ağcabədidə 39,2

nəfər; Beyləqanda 41 nəfər; Göyçayda 45,4 nəfər; Salyanda 58,3 nəfər; Yevlaxda 38,6 nəfər; Zərdabda 41,6 nəfər təşkil etmiş və bu göstəricinin ən aşağı həddi Sabirabad rayonunda (23,9 nəfər) müşahidə edilmişdir [20].

Təhlil göstərir ki, 2005-2016-cı illərdə AİR-də xəstəxanaların sayı 2 dəfə; xətəxana çarpayıların sayı 2,4 dəfə; ambulator-poliklinika müəssisələrin gücü 6,2%; orta tibb işçilərin sayı 6,1%, həkimlərin sayı isə 1,7% azalmışdır (cədvəl 6.22).

Bu faktlar onu göstərir ki, tədqiq edilən iqtisadi rayonda səhiyyənin maddi-texniki bazasının yaxşılaşdırılması, onların ixtisaslı tibb kadrları ilə, dərman ləvazimatları ilə təmin edilməsi sahəsində təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir.

Görünür, elə buna görə də regionların sosial-iqtisadi inkişafı üzrə III Dövlət Proqramında 2018-ci ilədək regionlarda ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi ilə yanaşı səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi üçün tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların müasir tibbi avadanlıqla təchiz edilməsi işləri davam etdiriləcəkdir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün səhiyyə sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

**Aran iqtisadi rayonunun səhiyyə müəssisələrinin əsas göstəriciləri**

*Cədvəl 6.22.*

| Göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 |
| Həkimlərin sayı | 3110 | 3537 | 3221 | 3181 | 3058 |
| Orta tibb işçilərinin sayı | 9819 | 10156 | 9427 | 9255 | 9219 |
| Xəstəxanaların sayı | 187 | 96 | 95 | 92 | 92 |
| Xəstəxana çarpayılarının sayı | 13260 | 6279 | 6197 | 5996 | 5619 |
| Əhaliyə ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı | 389 | 368 | 363 | 361 | 360 |
| Ambulator-poliklinika müəssisələrinin gücü (növbədə gəlişlərin sayı) | 19759 | 19421 | 18613 | 18279 | 18527 |
| Əhalinin hər 10000 nəfərinə düşən həkimlər | 18,0 | 19,3 | 16,6 | 16,2 | 15,4 |
| Orta tibb heyyəti | 56,7 | 55,4 | 48,7 | 47,2 | 46,4 |
| Xəstəxana çarpayıları | 76,5 | 34,2 | 31,9 | 29,6 | 28,3 |
| Ambulator-poliklinika müəssisələrinin gücü (növbədə gəlişlərin sayı) | 114,0 | 105,9 | 96,1 | 93,2 | 93,3 |
| *Azərbaycanın regionları. Statistik məcmuə. Bakı, "DSK" 2014, s. 432,433; 2015 s.458,459; 2017, s.34* | | | | | |

- regionlarda əhalinin sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin dah da yaxşılaşdırılması, mütəxəssislərin bilik və bacarıqlarının daim artırılması sahəsində müvafiq tədbirlərin davam etdirilməsi;
- regionlarda əhalinin sosial cəhətdən aztəminatlı təbəqələrinə tibbi yardımın göstərilməsi, tibbi-profilaktika tədbirlərinin əhatəliliyinin və keyfiyyətinin yüksəldilməsi;
- səhiyyə müəssisələrinin dərman və avadanlıq təminatının yaxşılaşdırılması məqsədilə tibb sənayesi müəssisələrinin yaradılmasının dəstəklənməsi;
- rayonlarda yeni səhiyyə müəssisələrinin tikintisi və əsaslı təmiri, yenidən qurulması və onların infrastruktur təminatının yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının Aran iqtisadi rayonunda icrası iqtisadiyyatın ayrı-ayrı sahələrinin dinamik inkişafına təminat yaratmış, əhalinin gəlirləri, orta aylıq əmək haqqı və adambaşına düşən pullu xidmətin həcmi yüksələn xəttlə artmışdır. Təkcə 2005-2016-cı illərdə AİR-də muzdla işləyənlərin orta aylıq əmək haqqı 3,1 dəfə artmışdır. Təhlil göstərir ki, əgər 2010-cu ildə iqtisadi rayonda əhalinin gəlirləri 3393,1 mlyn.man, əmək haqqı 213,5 man təşkil etmişdirsə, 2016-cı ildə həmin göstəricilər uyğun olaraq: 5877 mlyn.man və 271 man təşkil etmişdir ki, bu da 173,1% və 127,0% artım deməkdir.

ARDSK-nın digər məlumatlarına görə, 2016-cı ildə əhalinin hər nəfərinə düşən gəlir Mingəçevir şəhəri 3980 man; Şirvan şəhərində 3737 man; Ağcabədi rayonunda 2243 man; Ağdaşda 3562 man; Biləsuvarda 3041 man; Bərdədə 3497 man; Göyçayda 3642 man; Hacıqabulda 3848 man, Kürdəmirdə 4026 man; Yevlaxda 3836 man. təşkil etmiş, ən aşağı göstərici Zərdab rayonunda 1736 man

olmuşdur. Bununla yanaşı iqtisadi rayonda dövlət qulluqçularının orta aylıq nominal əmək haqqı 2005-ci ildə 128,5 manatdan 2016-cı ildə 577,5 man çatmış və yaxud 4,5 dəfə artmışdır [24].

Əlbəttə, bütün bunlar tədqiq edilən iqtisadi rayonda əhaliyə göstərilən pullu xidmətin, ticarət və iaşə dövriyyəsinin əsaslı şəkildə artmasına imkan vermişdir. Qeyd edilən illər ərzində əhaliyə göstərilən pullu xidmətin həcmi 7,8 dəfə, o cümlədən məişət xidmətinin həcmi 5,1 dəfə çoxalmış və 2016-cı ilin yekunlarına görə həmin göstəricilərin məbləği uyğun olaraq 795,5 və 111,1 mln. man. çatmışdır.

Nəticədə əgər 2005-ci ildə iqtisadi rayonda hər nəfərə düşən pullu xidmətinin həcmi 48,5 man, o cümlədən məişət xidmətinin həcmi 11,2 man olmuşdursa, 2016-cı ildə həmin göstəricilərin səviyyəsi uyğun olaraq: 376,3 man. və 52,5 man. təşkil etmiş və yaxud 7,8 və 4.7 dəfə çoxalmışdır. 2005-2016-cı illərdə rayonda pərakəndə ticarət dövriyyəsinin həcmi 6,4 dəfə çoxalmış, onun orta illik artım tempi orta hesabla 107,6% təşkil etmişdir. Bu illər ərzində AİR üzrə iaşə dövriyyəsinin həcmi 11,8 dəfə, onun hər nəfərə düşən məbləği 10,6 dəfə artmışdır (cədvəl 6.23).

Əldə edilən uğurlara baxmayaraq, iqtisadi rayonda məişət xidməti obyektlərin sayı kəskin azalmışdır. Bu ən çox kənd yerlərində özünü biruzə verir. Mövcud məişət xidməti obyektlərinin maddi-texniki bazasının müasirləşməsinə zəruri ehtiyac duyulur. Həllini gözləyən problemlərdən bir də kadr çatışmazlığıdır. Xidmət sferaları üçün peşə təhsili sistemində kadr hazırlığının bərpası toxunulan problemin həllinə kömək göstərə bilər.

**Aran iqtisadi rayonunda ticarət, pullu xidmətlər və iaşənin inkişafını xarakterizə edən əsas göstəricilər**

*Cədvəl 6.23.*

| Göstəricilər | İLLƏR | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 | 2005-2016 artım tempi, % |
| **Aran iqtisadi rayonunda ticarətin əsas göstəriciləri** | | | | | | |
| Pərakəndə ticarət dövriyyəsi milyon manat | 641,8 | 1943 | 3118,1 | 3501 | 4102,3 | 6,4 dəfə |
| Ölkə üzrə ümumi pərakəndə ticarət dövriyyəsində xüsusi çəkisi | 14,11 | 14,64 | 14,2 | 13,6 | 13,6 | x |
| Əvvəlki ilin müvafiq dövrünə nisbətən fiziki həcm indeksi | 112,9 | 108,3 | 109,3 | 106,3 | 101,3 | x |
| **Aran iqtisadi rayonunda pullu xidmətlər və iaşənin əsas göstəriciləri** | | | | | | |
| Pullu xidmətin dəyəri mlyn.man | 101,5 | 439,6 | 684,2 | 736,8 | 795,5 | 7,8 dəfə |
| əvvəliki ilə nisbətən, faizlə | 127,5 | 111,1 | 110,1 | 106,4 | 102,0 | x |
| Hər nəfərə düşən, manat | 48,49 | 221,92 | 329,7 | 351 | 376,3 | 7,8 dəfə |
| Pullu xidmətlərin ümumi həcmində məişət xidməti, mlyn. manat | 21,6 | 62,5 | 96,1 | 103,5 | 111,1 | 5,1 dəfə |
| əvvəlki ilə nisbətən, faizlə | 125,0 | 112,3 | 106,7 | 107,5 | 103,1 | x |
| Hər nəfərə düşən, manat | 11,24 | 31,57 | 46,3 | 49,3 | 52,5 | 4,7 dəfə |
| İaşə dövriyyəsi, mlyn. manat | 9,7 | 56,3 | 93,8 | 102 | 114 | 11,8 dəfə |
| əvvəlki ilə nisbətən, faizlə | 127,4 | 117,6 | 108,3 | 106,5 | 102,3 | x |
| Hər nəfərə düşən, manat | 5,09 | 28,41 | 45,2 | 48,6 | 54 | 10,6 dəfə |
| *Azərbaycan regionları. Statistik məcmuə. Bakı, "DSK" 2014, s. 434; 2015-s.460; 2017, s. 436* | | | | | | |

## 7. İqtisadi rayonda sahibkarlığın innovativ inkişafının başlıca istiqamətləri

Qloballaşan dünyada elm və texnikanın intensiv inkişafı, cəmiyyətin bu yeniliklərə artmaqda olan tələbatı ilə əlaqədar olaraq innovasiya getdikcə daha çox sahibkarlıq fəaliyyətinin ayılmaz hissəsinə çevrilməkdədir. Azərbaycan iqtisadiyyatı üçün formalaşan yeni çağırışlar fonunda qeyri-neft iqtisadiyyatının inkişaf etdirilməsi, bu sahədə müqayisəli üstünlüyə malik sahələrin üzə çıxarılması, yerli sahibkarların prosesdə fəal iştirakçılığının təmin edilməsi ölkənin gələcəyi üçün mühüm əhəmiyyət daşımaqdadır. Artıq beynəlxalq təcrübədə iqtisadiyyatın ayrı-ayrı sferaları arasında daha təkmil koordinasiya təmin edəcək modellərdən istifadə olunur. Bu məqsədlə son illər ölkəmizdə uğurlu addımlar atılmış, sənaye məhəllələri, texnoparklar yaradılmış, aqroparkların təşkili məsələsi aktual xarakter almışdır. Keçən əsrin 90-cı illərindən başlayaraq yeni sahibkarlıq subyektlərinin formalaşması, sahibkarlıq fəaliyyətinin hüquqi bazasının təkmilləşdirilməsi, kiçik və orta sahibkarlığın inkişafı iqtisadiyyatın qeyri-neft sektorunun dinamikliyinə təkan vermişdir. Həyata keçirilən hüquqi, təşkilati-iqtisadi, maliyyə, sosial və ekoloji tədbirləri yüksək qiymətləndirərkən tədqiq edilən Aran iqtisadi rayonunda, onun ayrı-ayrı bölgələrində sahibkarlığın innovativ inkişafı istiqamətində çoxsaylı ehtiyat imkanlarının mövcudluğu apardığımız təhlil və qiymətləndirmə nəticəsində aşkar edilmişdir. Qeyd edək ki, tədqiq edilən iqtisadi rayonda kiçik və orta sahibkarlığın qeyri-bərabər formalaşması, onların innovasiya aktivliyinin aşağı olması, çoxlu sayda subyektlərin zərərlə işləməsi, maddi-texniki eləcə də maliyyə təminatının zəifliyi aşkar edilmişdir. İqtisadi rayonda innovasiya infrastrukturlarının kifayət qədər yaradılmaması

sahibkarlığın innovativ inkişafına mənfi təsir göstərir. AİR-da fərdi sahibkarların fəaliyyətini koordinasiya edən qurumlar yaradılmamışdır. Sahibkarların istehsal etdikləri məhsulların (işlərin, xidmətlərin) mütləq həcmi daxili bazara hədəflənmiş, onların xarici bazarlara sərbəst çıxışı lazımınca təşkil edilməmişdir. Kiçik müəssisələrin əhatə sferasının darlığı, fermer təsərrüfatlarının kiçik torpaq sahələrinə mülkiyyətçi kimi nəzarəti bütünlükdə sənaye və aqrar sahələrin inkişafına mənfi təsir göstərir. Aran iqtisadi rayonunda xarici və müştərək müəssisələrin təşkili qeyri-qənaətbəxşdir. Orada kənd təsərrüfatı məhsullarının tədarükünün səmərəsiz təşkili, bu sahədə təkmil mexanizmin olmaması fermerlərin istehsal prosesinə cəlb edilməsinə mənfi təsir göstərir və hazır məhsulların itkisiz bazara çıxarılması prosesini ləngidir. Bölgələrdə hazır kənd təsərrüfatı məhsullarının emal müəssisələri tərəfindən satın alınması prosesində də bir çox əngəllər mövcuddur. Yerlərdə sahibkarlar üçün informasiya-məsləhət mərkəzlərinin yaradılmaması da onların innovasiya fəaliyyətinə mənfi təsir göstərir. Bölgədə işgüzar sahibkar sinfi formalaşmamışdır.

Qeyd edilən boşluqların aradan qaldırılması üçün tədqiq edilən rayonda təsirli tədbirlərin, təklif və tövsiyələrin işlənilməsi və həyata keçirilməsi zəruridir. Fikrimizcə, bu zəmanət aşağıdakılarla şərtləşməlidir.

### *7.1. Mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi və inkişaf konsepsiyasının formalaşdırılması*

Suverenlik illərində Azərbaycanda sahibkarlıq fəaliyyətinin təşkili, idarə edilməsi və inkişafı istiqamətində 140-dan çox normativ-hüquqi akt (qanunlar, dövlət proqramları, fərmanlar, sərəncamlar, qərarlar, beynəlxalq sazişlər, əsasnamələr və s.) qəbul edilmişdir. Onların içərisində "Sahibkarlğın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" ölkə prezidentinin 03 mart 2014-cü il tarixli Fərmanı özəl bölməyə dövlət dəstəyi tədbirlərinin ardıcıllığının göstəricisi, sahibkarlığın inkişafının yeni mərhələsinin hüquqi əsaslarını özündə əks etdirən mühüm konseptual sənəddir. Həmin hüquqi sənəddə aidiyyatı üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin "bir pəncərə" prinsipinə uyğun olaraq elektron qeydiyyatı, kreditlərin verilməsi prosesinin təkmilləşdirilməsi, idxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin müddət və xərclərin azaldılması və s. bu kimi mühüm həllini gözləyən məsələlər öz əksini tapmış və bununla da sahibkarlara əlverişli şərait yaradılmışdır. Sahibkarlıq subyektlərinin xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi məqsədi ilə yaradılmış Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu, Sahibkarlığa Kömək Milli Fondunun rolu danılmazdır. Onlar ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara dəstək verir. Lakin həmin təşkilatların həyata keçirdiyi tədbirlər bəzən epizodik xarakter daşıyır və sahibkarların aktiv innovativ fəaliyyətinə əsaslı təkan vermir.

Ədalət naminə qeyd edilməlidir ki, innovasiya fəaliyyətinin genişləndirilməsi məqsədilə ölkə Prezidentinin müvafiq Fərmanı ilə

hələ 2009-cu ilin may ayında “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya” və “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı” təsdiq edilmiş və sonrakı dövrlərdə onların əsas müddəalarının icrası təmin olunmuşdur. Bununla yanaşı 2016-cı ildə qəbul edilmiş “Elm haqqında Azərbaycan Respublikasının Qanun”-da bütünlükdə elmi nailiyyətlərin istehsalata tətbiqi prosesinin hüquqi bazası formalaşmışdır. Lakin bu vaxtadək bilavasitə innovasiya fəaliyyətinin tənzimlənməsi haqqında qanunun qəbul edilməməsi bu sahədə hüquqi boşluqdan xəbər verir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Qazaxıstan Respublikasında 2000-ci ildən başlayaraq innovasiya fəaliyyəti ilə əlaqədar 7 normativ-hüquqi akt; Moldova Respublikasında 9 qanun; Belarusda 15-ə yaxın normativ-hüquqi akt; Polşada 10 qanun; Rusiyada təkcə texnoparklar üzrə 6 qanun və qərar; Ukraynada 14 qanun və qərar qəbul edilmişdir. Hesab edirik ki, yaxın dövrlərdə “İnnovasiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilməlidir. Bununla yanaşı “Ven-çur” fəaliyyəti haqqında Qanunun qəbul edilməsi, “Milli innovasiya Fondunun”, “İnnovasiya Sahibkarlığı Assosiasiyasının” yaradılması innovasiya fəaliyyətinin hüquqi bazasının formalaşmasına təminat yaratmış olacaqdır.

Həmin normativ aktların qəbul edilməsi və hüquqi bazanın işlək olması üçün Regional İnnovasiya konsepsiyasını formalaşdırmaq lazımdır. Bu zaman əvvəlcə konsepsiyanın meyarları, onun dövlət tərəfindən tənzimlənməsinin metodları, eləcə də tam həcmdə həyata keçirilməsinin mexanizmləri müəyyən edilməlidir. Bu məqsədlə tərəfimizdən MDB ölkələrinin müvafiq təcrübələri öyrənilib ümumiləşdirilmiş, ölkəmizin regional innovasiya durumu və spesifik xü-

susiyyətləri nəzərə alınmaqla adı çəkilən konsepsiyanın prinsipial strukturu tərtib edilmişdir (şəkil 7.1).

Hesab edirik ki, təklif edilən metodoloji yanaşma innovasiya üzrə regional inkişaf konsepsiyasının işləməsi arzusunda olan hər bir elmi təşkilat, innovasiya infrastrukturu, icra orqanı (nazirlik, komitə, fond, cəmiyyət və s.) üçün faydalı ola bilər.

Adı çəkilən konsepsiya işlənib hazırlanarkən hər bir regionun iqtisadi-coğrafi xüsusiyyəti, iqtisadi potensiallardan istifadə səviyyəsi nəzərə alınmaqla onun məqsədi formalaşdırılmalı, konsepsiyanın həyata keçirilməsi üzrə prioritet prinsiplər müəyyən edilməli və regiona uyğun inkişaf modeli seçilməlidir. İnnovasiya fəaliyyəti ilə məşğul olan subyektlər üçün konsepsiyanın qeyd edilən istiqamətlərinin məzmununu özündə əks etdirən və beynəlxalq təcrübəyə əsaslanan sxem təklif edilmişdir (şəkil 7.2).

Fikrimizcə, təklif edilən sxemin müddəalarına riayət olunduğu təqdirdə seçilmiş regionun innovasiya aktivliyini təmin etmək mümkün olacaqdır.




**Şəkil 7.1.** Regional innovasiya konsepsiyasının meyarları, dövlət tənzimlənmə metodları və həyata keçirilməsinin təsir mexanizmləri [33, s.82]




**Şəkil 7.2.** Regional innovasiyanın inkişafı konsepsiyasının məqsədi, prinsipləri və modelləri [33,s.83]

### *7.2. Sahibkarlığın regional məqsədli innovasiya proqramı əsasında inkişafı*

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının hazırlanması və həyata keçirilməsi kontekstində innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması və onun regionun məqsədli innovasiya proqramları əsasında inkişaf etdirilməsi öz iqtisadi-sosial əhəmiyyətilə diqqəti cəlb edir və yeni nailiyyətlərin əldə olunması baxımından çox önəmlidir. Formalaşmasını zəruri hesab etdiyimiz Milli İnnovasiya Sisteminin (MİS) üzvü tərkib hissəsi və alt sistemi hesab edilən regional innovasiya proqramının metodoloji bazası 2012-ci ildə metodiki tövsiyələr formasında işlənib hazırlanmışdır [29]. Artıq həmin metodiki yanaşmanın tələblərinə uyğun Respublikamızda ilk dəfə tərəfimizdən “Zərdab rayonu: regional innovasiya proqramı (2014-2018-ci illər)” və “Abşeron rayonu: regional innovasiya proqramı (2015-2020-ci illər)” tərtib edilmiş və hazırda həmin rayonların icra orqanları tərəfindən masaüstü sənəd kimi istifadə edilir. Həmin proqramların məqsədi rayonların iqtisadi potensiallarından səmərəli istifadə etməklə mövcud infrastrukturu yeniləşdirmək, müasir tipli müəssisələr və yeni iş yerləri yaratmaq, innovasiya xarakterli texniki-texnoloji, təşkilati-iqtisadi tədbirlərin həyata keçirilməsi yolu ilə innovasiyalı iqtisadiyyatın regionda mərhələlərlə həllinə nail olmaqdan ibarətdir.

Həmin məqsədə uyğun adı çəkilən proqramlarda qarşıya qoyulan başlıca vəzifələr aşağıdakılardan ibarət olmuşdur:

- Regionların mövcud iqtisadi potensiallarından səmərəli istifadə olunması səylərinin innovasiyanın prioritet istiqamətlərinin inkişafına yönəldilməsi;

- Regional infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində innovasiya xarakterli kompleks tədbirlərin işlənilməsi və həyata keçirilməsi;
- Sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində innovasiya meylli layihələrin, biznes-planların həyata keçirilməsi;
- Regionların emal müəssisələrində yüksək texnologiyalı və elmtutumlu məhsulların istehsalı üçün innovasiyanın inkişafının təmin edilməsi;
- Regionlarda mütərəqqi texnoloji sistemin və cəlbedici innovasiya mühitinin formalaşması üçün müvafiq infrastrukturların (regional texnoparkların; biznes-inkubatorların və s.) yaradılması;
- Respublikanın elmi-texniki və intellektual potensiallarının regionların innovasiya prosesinə cəlb edilməsi;

Sığortalanma mühafizəsi mexanizminin cəlb edilməsi hesabına regionlarında həyata keçirilən innovasiya layihələrində riskin azaldılması.

Regional innovasiya proqramının prinsipial quruluşu 7.3. saylı şəkildə verilmişdir.

Aran iqtisadi rayonu və onun bölgələri üçün adı çəkilən proqramın məzmununu nümunə üçün aşağıdakı yarımbölməyə daxil etmişik (şəkil 7.4).




**Şəkil 7.3.** Regional innovasiya proqramının quruluşu [33, s.236]

**Ümumi müddəalar**

**1.** Rayonun coğrafi-iqtisadi və sosial xarakteristikası
**2.** Rayonun sosial-iqtisadi inkişafının mövcud durumu
2.1. Sənayenin inkişafı
2.2. Kənd təsərrüfatının inkişafı
2.3. Nəqliyyat və rabitənin inkişafı
2.4. Ticarət, iaşə və pullu xidmətlər sferasının inkişafı
2.5. Təhsil və elm sferalarının inkişafı
2.6. Səhiyyə sferasının inkişafı
2.7. Mədəniyyət və turizm sferalarının inkişafı
2.8. İdmanın inkişafı
**3.** Rayonda daxili və xarici investisiyalardan istifadə və onun nəticələri
**4.** Rayonda mövcud innovasiya infrastrukturunun fəaliyyətinin qiymətləndirilməsi
**5.** Rayonda yeni iş yerlərinin yaradılması və məşğulluğun təmin edilməsi
**6.** Rayonun sosial-iqtisadi sisteminə daxil olan sahələrin innovasiya fəaliyyətinin genişləndirilməsi
6.1. Müasir tipli innovasiya infrastrukturunun yaradılması
6.2. Yeni sənaye və kənd təsərrüfatı müəssisələrinin yaradılması və mövcud müəssisələrin innovativ inkişafı
6.3. Rayonun ərazisinin abadlaşdırılması və əhalinin sağlamlığının və ekoloji təhlükəsizliyinin təmin edilməsində innovasiya tədbirlərinin həyata keçirilməsi
6.4. Rayonun səhiyyə sferasında innovasiya xarakterli tədbirlər
6.5. Rayonda müasir təhsil ocaqlarının yaradılması və sistemin innovasiya təminatının yaxşılaşdırılması tədbirləri
6.6. Rayon gənclərinin potensialının innovativ sosial-iqtisadi inkişafın tələblərinə uyğunlaşdırılması tədbirləri
6.7. Mədəniyyət, turizm və idman müəssisələrinin innovasiya tədbirləri əsasında yenidən qurulması
Rayonun sosial-iqtisadi və innovativ inkişafını xarakterizə edən göstəricilər

**Şəkil 7.4.** Regional-innovasiya proqramının faktiki quruluşu

Aran iqtisadi rayonunun bölgələrində innovasiya siyasətinin uğurlu icrasına nail olmaq və bu istiqamətdə qarşıya qoyulan məqsəd və vəzifələri həyata keçirmək üçün: regional yanaşma, prioritetlik, kompleksliik, ekoloji təhlükəsizlik və səmərəlilik prinsiplərinin tələblərinə riayət olunmalıdır.

## *7.3. İqtisadi rayonda innovasiya infrastrukturunun genişləndirilməsi*

Aran iqtisadi rayonunda innovasiya sahibkarlığının təşkilinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi nəticəsində birmənalı şəkildə belə qənaətə gəlmək olar ki, Mingəçevir şəhəri və Neftçala rayonu istisna olmaqla, digər bölgələrdə innovasiya infrastrukturu təşkil edilməmişdir. İqtisadi rayonun Ağcabədi, Beyləqan, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Saatlı, Sabirabad, Salyan, Yevlax bölgələrində və Şirvan şəhərində innovasiyayönümlü müştərək müəssisələr fəaliyyət göstərir. Lakin aqroparkların, klasterlərin, informasiya məsləhət mərkəzlərinin, fərdi sahibkarlar və elmi-istehsalat assosiasiyalarının, texnoloji transfer mərkəzinin, elmi-texniki koordinasiya mərkəzinin və s. infrastrukturların ölkənin iqtisadi regionları içərisində öz əhatə dairəsinə və iqtisadi potensialına görə seçilən Aran iqtisadi rayonunda gələcəkdə təşkilini istisna etmək olmaz. Odur ki, beynəlxalq təcrübə nəzərə alınmaqla həmin infrastrukturların təşkili və inkişafının metodoloji və praktiki aspektlərini açıqlamaqla regionun sahibkarlarına köməklik göstərmiş olacağıq. İlk növbədə kiçik və orta sahibkarlığa dəstək infrastrukturlarının təsnifatını göstərmək vacibdir (şəkil 7.5).

Şəkildəki infrastrukturların texnopark və sənaye məhəlləsi istisna olmaqla heç biri hələlik AİR-də yaradılmamışdır. İqtisadiyyatını əsasən aqrar sfera təşkil edən iqtisadi rayonda müasir innovasiya və informasiya-kommunikasiya texnologiyalarının kənd təsərrüfatına gətirilməsi yüksək iqtisadi səmərə verə bilər.

**İlk növbədə aqroparklar haqqında.** Hazırda beynəlxalq miqyasda aqroparkların yaradılması və inkişafı üzrə müvafiq təcrübə formalaşmışdır. Onların içərisində Niderland və Yamayka təcrübəsi öz mahiyyəti ilə fərqlənir (cədvəl 7.1).




**Şəkil 7.5.** Regionda kiçik və orta sahibkarlığa dəstək innovasiya infrastrukturları

Aqroparklar öz fəaliyyət istiqamətləri üzrə və qarşıya qoyulan məqsədə görə də fərqlənirlər.

Aqroparklar (aqrar-sənaye kompleksi) öz xarakteristikası və üstünlükləri ilə innovasiya infrastrukturları içərisində fərqlənirlər. Onlar 7.6 saylı şəkildə əks etdirilmişdir.

## Aqroparkların yaradılması və inkişafı üzrə beynəlxalq təcrübə *)

*Cədvəl 7.1.*

| | |
|---|---|
| Niderland | Aqropark konsepsiyasının vətəni hesab edilir (1998-ci ildə). Bu ölkədə "aqro-qida" (kənd təsərrüfatı qidası) sektoru və aqrobiznesin inkişafı yenidən yönləndirilməsi üçün əsas strategiyaya çevrilmişdir. O zaman Kənd Təsərrüfatının Tədqiqatı üzrə Milli Şura (NRLO) kənd təsərrüfatı fəaliyyətlərinin klasterləşməsinin sənayenin üzləşdiyi çoxlu sayda problemləri həll edə biləcəyini təklif edilmişdi. Bu ölkədə formalaşdırılan aqropark layihəsinin əsas strategiyaları arasında Bilik Mərkəzlərinin, Sahibkarların, qeyri-hökumət və hökumət təşkilatlarının iştirak etdiyi KENGİ model strategiyası əsas yer tutur. Eyni zamanda "qızıl dairə" və ya "qızıl üçbucaq" adlanan bu modellər də bütün tərəfləri aqrobiznes mühitinə cəlb etməyə və davamlı və uzunmüddətli strategiyaya yardım etməyə imkan verir. Həmin ölkədə aqropark nümunələri daha çox "İstixana" istehsalı və qarşılıqlı asılılığı olan digər müəssisələrin şaquli və üfuqi inteqrasiyası yolu ilə formalaşır. |
| Yamayka | Ölkə daxilində icra olunan aqropark layihələri aşağıdakıların asanlaşdırılması məqsədilə tikilmişdi:<br>• dövlət-özəl sektorun əməkdaşlığı əsasında investisiyalarının təqdimatı;<br>• resurs bölgüsü və istifadəsinin səmərəliliyinin nümayişi;<br>• miqyaslı iqtisadiyyatın təkmilləşdirilməsi;<br>• bazara girişin yaxşılaşdırılması;<br>• davamlılığın təmini və stimullaşdırılması;<br>• uzunmüddətli və mövsumi məşğulluğun yaradılması. |
| Azərbaycan | Azərbaycanda, "Aqropark"ın inkişaf konsepsiyası əsasən ixrac potensialının artırılması, milli brendlərin yaradılması, kiçik və orta fermerlərin innovativ təcrübəsinin artırılması, kənd təsərrüfatı sektoru ilə emal müəssisələrin arasında sıx koordinasiyalı sistemin yaradılması,istehsalçı, işçi və istehlakçı arasında inteqrasiyanın təmin olunması, yüksək məhsuldarlığın əldə olunması, aqrar sahədə yüksək ixtisaslı mütəxəssisləri təkmilləşdirilməsi və yeni iş yerlərinin açılmasından ibarətdir. |
| * *Cədvəl İqtisadi və Sosial İnkişaf Mərkəzinin (İSİM) tədqiqatları əsasında seçmə və sistemləşdirmə üsulundan istifadə etməklə tərtib edilmişdir və məlumat xarakteri daşıyır.* | |




**Şəkil 7.6.** Aqroparkların xarakteristikası və əsas üstünlükləri (iqtisadi və sosial inkişaf mərkəzinin icmal əsasında tərtib edilmişdir)

Yaxın gələcəkdə respublikanın 28 rayonunda 43 böyük aqroparkın yaradılması nəzərdə tutlur ki, onlarında beşi 2018-ci ildə təşkil ediləcəkdir. Onların içərisində: Şəmkir, Xaçmaz, Ağsu, Qax, Kürdəmir, Füzuli, Ağcəbədi, Beyləqan, İmişli, Ağdaş, Şamaxı, Saatlı, Yevlax və Xızı rayonlarında eləcə də Yalamada yaradılan aqroparklar özünün əhatə dairəsinə görə fərqlənirlər. Yaradılan aqroparklarda müasir texnologiyaların tətbiqi ilə istehsal, emal, logistika (məhsulları saxlama, çeşidləmə, qablaşdırma, markalama, daşınma) eləcə də yaşıl marketlər və fermer mağazaları üzrə fəaliyyətlərin vahid ərazidə cəmləşməsi, rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalına şərait yaradacaqdır.

Belarus respublikasında aqroparklar əhalisi 200 nəfərdən min nəfərə qədər olan kənd və qəsəbələrdə yaradılır. Bu zaman orada mövcud olan kənd təsərrüfatı obyektlərinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla qarışıq və yaxud ixtisaslaşdırılmış aqropark təşkil edilir. Bu təcrübədən yaxın gələcəkdə Azərbaycan reallığında da istifadə edilməsi, bütünlükdə regional ümumi məhsulun həcminin artmasına və yeni iş yerlərinin yaradılmasına əsaslı təkan vermiş olacaqdır.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsində ölkədə 2020-ci ilə kimi bir aqroparkın real ÜDM-ə birbaşa təsirinin 135 milyon manat, dolayı təsirinin isə 220 milyon manat olmaqla, ümumilikdə 355 milyon manat olacağı proqnozlaşdırılır. Aqroparkın 2018-ci ilə kimi fəaliyyətə başlaması əsas indikator hesab edilir. Bu müəssisələrdə 7725 nəfər üçün birbaşa və dolayı məşğulluq imkanının yaranacağı proqnozlaşdırılır [16, s. 81]. Məsələn, Şəmkir rayonunda 543 hektar ərazidə yaradılan aqroparkda müasir istixana kompleksi, şitillik, tinglik və intensiv bağçılıq təsərrüfatları, meyvə

və tərəvəz emalı zavodları, tara istehsalı fabriki, logistika və aqroservis mərkəzi, soyuducu anbar, satış mərkəzləri, avtopark, elmi aradırma və innovasiyalar mərkəzi, otel və müxtəlif infrastruktur obyektləri mövcuddur.

Zərdab rayonu üzrə tərtib edilən regional-innovasiya proqramında ixtisaslaşdırılmış və qarışıq tipli aqroparkların yaradılması planlaşdırılmışdır. Rayonun kənd təsərrüfatının quruluşu və spesifik xüsusiyyəti nəzərə alınmaqla təşkili mümkün olacaq iki aqroparkın prinsipial sxemləri verilmiş və ümid edirik ki, onlar AİR-in bölgələri üçün də metodiki baxımdan yararlı ola bilər.

Odur ki, həmin aqroparkların təklif edilən strukturunu bu yarımbölmədə əks etdirməyə üstünlük veririk (şəkil 7.7-7.11).




**Şəkil 7.7.** Aqroparkların fəaliyyət istiqamətləri və başlıca məqsədləri




**Şəkil 7.8.** Aqroparkın təklif edilən təşkilati strukturu




**Şəkil 7.9.** Abşeron rayonunda ixtisaslaşdırılmış "Aqropark-Zeytun"nun strukturu




**Şəkil 7.10.** Abşeron rayonunda qarışıq tipli "Aqropark" ("AzFP GO LDT"MMC)-nin strukturu




**Şəkil 7.11.** Abşeron rayonunda ixtisaslaşdırılmış "Aqropark-Quşçuluq"un strukturu

Beynəlxalq miqyasda innovasiya infrastrukturu içərisində ən geniş yayılmış modellərdən biri – klasterlərdir. Klaster modeli keçən əsrin 60-70-ci illərindən başlayaraq tətbiq edilən mütərəqqi mexanizmdir. Araşdırmalar göstərir ki, klasterlərin tətbiq edildiyi ölkələrin əksəriyyəti iqtisadi cəhətdən önəmli mövqeyə malikdirlər.

**Klasterlər** – eyni və ya bənzər sektorda fəaliyyət göstərən, əlaqəli və bir-birini tamamlayıcı fəaliyyət sahələrinin müəyyən coğrafi bölgədə yerləşməsi ilə meydana gələn, ümumi infrastruktur, texnologiya, vahid bazar, işçi qüvvəsi və xidmətləri paylaşaraq qarşılıqlı ticarət əlaqələrinin qurulması, kommunikasiya və qarşılıqlı dialoq imkanlarına malik olan sahibkarlıq subyektlərindən ibarət sistemlərdir.

Eyni zamanda, klasterlərdə kiçik və orta sahibkarlıq subyektləri arasında həm rəqabət, həm də əməkdaşlığın eyni anda təmin edilməsi nəzərdə tutulur.

Klasterlər regionda mal və xidmətlərin ixracı vasitəsilə əhalinin maddi rifahının artmasına xidmət edən və bir biri ilə əlaqəli olan sənaye sahələrinin qrup şəklində yerləşməsidir. Klasterlərin tədarük zəncirinin bütün həlqəsini əhatə etməsi və dəstək xidmətləri, həmçinin xüsusi infrastruktur təminatını özündə birləşdirməsi onları ənənəvi istehsal sahələrindən fərqləndirir. Coğrafi olaraq mal və xidmətlərin axınının yüksək olduğu ərazilərdə cəmlənən klasterlər ölkə iqtisadiyyatı üçün əlavə dəyər yaradırlar və bu zaman istehsal maya dəyəri xeyli aşağı düşür.

Klasterə daxil olan sahibkarlıq subyektləri öz müstəqilliklərini itirmədən fəaliyyət göstərə, ümumi istifadə üçün infrastruktur layihələri (ortaq araşdırma mərkəzi, laboratoriya, anbar və s.) həyata keçirə bilərlər. Burada xammal tədarükündən, məhsulun bazara çıxarılması mərhələsinə qədər olan bütün iş prosesində ortaq hərəkət

etmə imkanı əldə edilir ki, bu da daha ucuz xammal təminatı, məhsulların daha geniş kütlələrə təqdim olunması, beynəlxalq sərgilərdə iştirak edilməsi və ixrac imkanlarının genişlənməsi ilə nəticələnir.

Beynəlxalq təcrübədə klasterlərin aşağıdakı dörd növünü fərqləndirirlər: coğrafi, sahəvi, üfüqi və şaquli. Onların əsas fəaliyyəti 7.12 saylı şəkildə əks etdirilmişdir.




**Şəkil 7.12.** Klasterlərin növləri və əsas fəaliyyəti

Klasterin formalaşdırılmasında əsas iştirakçılar kimi aşağıdakılar çıxış edə bilər:

- Kiçik və orta sahibkarlıq subyektləri;
- Xidmət tədarükçüləri (özəl və dövlət);
- Təhsil və araşdırma mərkəzləri;
- Sahibkarlıq qrupları (assosiasiyaları);
- Böyük sahibkarlıq subyektləri;
- Maliyyə qurumları və banklar;
- Dövlət;
- Qeyri-hökumət təşkilatları və s.

Qeyd etmək lazımdır ki, ökəmizdə şaquli klaster modelinə bənzər sahələr (polad istehsalı, neft kimya sənayesi və s.) artıq mövcuddur, lakin onlar rəsmi olaraq formalaşmamışdır. Sahibkarlıq fəaliyyətinin təşkili prosesində yuxarıda sadalanan boşluqları aradan qaldırmaq və mövcud institusional mexanizmlərdən istifadə etməklə respublikada klaster idarəetmə sisteminin tətbiqinə başlamaq mümkündür. Hesab edirik ki, belə idarəetmə mexanizmini aqrar sənaye kompleksi çərçivəsində, yüngül sənayedə (mebel, dəri məmulatları, geyim-trikotaj, iplik) tətbiq etmək mümkündür. Fikrimizcə, belə klasterləri Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Bərdə, Ağcabədi, İmişli, Beyləqan və digər əlverişli mövqeyə malik rayonlarda yaratmaq iqtisadi cəhətdən əlverişli ola bilər.

Regionların daxili potensialı və təcrübələr də nəzərə alınaraq, hər bir regiona uyğun xüsusi klasterlərin qurulması, diversifikasiya olunması, yeni məhsul və xidmətlərin daxili və xarici bazarlarda ən yaxşı şəkildə təqdim edilməsi, bununla da qeyri-neft sektorunda istehsalın və ixracın artırılması istiqamətində mühüm addımlar atılmalıdır.

Klasterlərin seçilməsi, regional iqtisadiyyatda rəqabət gücü nisbətən yüksək olan və dövlət dəstəyi ilə qısa müddətdə maksimum nəticənin əldə edilə biləcəyi sahələrin müəyyənləşdirilməsi əhəmiyyətlidir. Bununla yanaşı, dəstəklənəcək klasterlərdə dövlət və özəl sektor əməkdaşlığı vacib əhəmiyyət daşıyır. Bunun üçün, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu, "Azərbaycan İnvestisiya Şirkəti" ASC, eləcə də ölkədə fəaliyyət göstərən iri şirkətlərin bu prosesdə fəal iştirakı müsbət nəticə verə bilər.

Klasterlərin təşəkkülü və inkişafı prosesində kiçik müəssisələr daha çox fayda əldə etmiş olacaqlar. Nəticədə onlar digər iri müəssisələrin iş təcrübəsindən istifadə etməklə, təcrübəli mütəxəssis mübadiləsini həyata keçirə biləcəklər.

Sahibkarlığın innovativ inkişafına təkan verən mütərəqqi forma və mexanizmlərdən biri **texnoparklardır**. Onların yaradılması təcrübəsi ölkəmizdə formalaşmış və öz müsbət nəticəsini verməkdədir. Bu baxımdan Sumqayıt və Mingəçevir şəhərində, eləcə də Balaxanı qəsəbəsində yaradılan texnoparklar qeyri-neft sektorunun inkişafına təkan verir və ekoloji təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayırlar. Məlumdur ki, beynəlxalq miqyasda ilk texnopark 1947-ci ildə ABŞ-ın Boston şəhərindəki ali məktəbin nəzdində yaradılmışdır. Hüquqi şəxs statusuna malik texnoparkların yaradılmasında **əsas məqsəd** yüksək texnologiyalarla əlaqədar olan elmi, konstruktor və texnoloji işləri həyata keçirməkdir.

Texnoparkın mahiyyətinə ümumi şəkildə nəzər yetirsək, o kiçik və orta elmtutumlu innovasiya şirkətlərinin inkişafı üçün maksimum əlverişli mühitin formalaşdığı elmi-istehsalat kompleksi, elmi fəaliyyətin nəticələrinin məhsula çevrilməsi və bazara çıxarılması ilə məşğul olan mütərəqqi idarəetmə formasıdır. Lakin ölkəmizdə qüvvədə olan "Texnologiyalar parkı haqqında" əsasnamədə göstəri-

lir ki, texnopark innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədi ilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi (kommersiyalaşdırılması) üçün zəruri infrastrukturu, maddi-texniki bazası və idarəetmə qurumları olan ərazidir [9].

Həmin əsasnamədə qeyd edilir ki, texnoparkların yaradılması məqsədləri aşağıdakılardır:

- iqtisadiyyatın davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması;
- müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiyalar sahələrinin genişləndirilməsi;
- elmi tədqiqatların aparılması və yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılması.

Texnoparklar ixtisaslaşmış və qarışıq profilli olmaqla dövlət, elm və təhsil müəssisələrinin yanında, eləcə də müstəqil yaradıla bilər. Lakin Aran iqtisadi rayonunun inkişaf edən digər bölgələrində **birgə texnoparkların** yaradılması daha əlverişlidir. Belə ki, dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlarda birgə texnoparkların yaradılması mümkündür.

Birgə texnoparkların fəaliyyətinin təşkili və idarə olunması xərcləri dövlətin, bələdiyyənin və xüsusi mülkiyyətiçinin iştirak payına uyğun müəyyən edilməlidir [9]. Hesab edirik ki, tədqiq edilən iqtisadi rayonda birgə texnoparkların yaradılması ilk növbədə bələdiyyələrin və xüsusi mülkiyyətçilərin iqtisadi fəaliyyətinin genişləndirilməsinə təminat yaratmaqla yanaşı yerlərdə məhsul və xidmətlərin həcminin artmasına, yeni iş yerlərinin yaradılmasına, əlavə mənfəətin əldə edilməsinə imkan vermiş olacaqdır.

Bizim fikrimizcə, respublikamızda təkcə texno-aqroparkların yaradılması ilə kifayətlənmək lazım deyildir. Ölkə ərazisində, o cümlədən tədqiq edilən Aran iqtisadi rayonunda daha mütərəqqi innovasiya infrastrukturunun yaradılmasına hədəflənmək lazımdır. Onların içərisində komplekslilik prinsipinə söykənən **texnopolisləri** xüsusi qeyd etmək olar. Onlar bir şəhərin ərazisində fasiləsiz iqtisadi fəaliyyəti təmin edən texnoparkların, inkubatorların və müxtəlif təyinatlı kompleks subyektlərin məcmusudur.

Texnopolislər yerləşən regionda onun aşağıdakı istiqamətlər üzrə inkişafına təminat yaradır:

- innovasiya aktivliyinin yüksəldilməsi;
- innovasiya infrastrukturunun formalaşması;
- yeniliklərin kommersiyalaşmasının sürətlənməsi;
- sənayedə struktur dəyişikliklərinin aparılması;
- yeni iş yerlərinin yaradıması;
- innovasiya fəaliyyəti mexanizminin təkmilləşdirilməsi;
- elmtutumlu sənayenin inkişafının gücləndirilməsi;
- dövlətin innovasiya siyasətinin təkmilləşdirilməsi;
- iqtisadiyyatın innovasiya qabiliyyətinin yüksəldilməsi [29].

Regionların sosial-iqtisadi inkişafının növbəti mərhələsində Mingəçevir və Şirvan şəhərlərində, Yevlax və Salyan rayonlarında texnopolislərin yaradılması qaçılmaz ola bilər.

Aran iqtisadi rayonunda innovasiya sahibkarlığını inkişaf etdirmək üçün **biznes inkubatorların** yaradılması da həllini gözləyən məsələlərdəndir. Biznes inkubatorlar yeni innovasiya müəssisələrinin formalaşması, informasiya, məsləhət xidmətləri, avadanlığın icarəyə verilməsi və digər xidmətlər üzrə onların inkişafına başlanğıcdan` yardım göstərilməsi üçün nəzərdə tutulmuşdur.

Biznes inkubator bir sıra funksiyaları yerinə yetirir:

- istehsal prosesini güzəştli şərtlərlə avadanlıqla təmin etmək, məsləhət xidməti göstərmək, tanınmamış biznes dairəsinə daxil etmək, hüquq və informasiya sferasında kömək göstərmək sahəsində firmaları dəstəkləmək;

- riskli texnologiyaların təcrübədə tətbiqinə nail olmaq strategiyasının həyata keçirilməsi;

- təşkilati funksiyaların həyata keçirilməsinə kömək etmək.

Fikrimizcə, yerlərdə belə innovasiya infrastrukturunun yaradılması müxtəlif növ xidmətlər göstərən kiçik müəssisələrin və fərdi sahibkarların dayanıqlı və mənfəətlə işləməsinə imkan yaratmış olacaqdır.

Azərbaycanda həyata keçirilən genişmiqyaslı islahatlara baxmayaraq, hələ də elmi-tədqiqat təşkilatları, ali məktəblərin elmi qurumları ilə istehsalçılar arasında sıx üzvi əlaqə yaradılmamışdır. Elmi tədqiqatların böyük hissəsi uzun müddət istifadə edilmədiyindən innovativ əhəmiyyətini itirmişdir. Belə bir şəraitdə texnopark tipli Elmi-istehsalat Assosiasiyalarının yaradılması məsələsi aktuallaşır. Onlar qeyri-kommersiya korporativ təşkilat kimi çıxış edir, sahibkarlara innovasiya layihələrinin elmi ideyadan məhsulun kütləvi istehlakınadək tətbiqinə köməklik göstərir, onlara dəstək verir.

Bu tipli texnoparkların işinin başlıca istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- Elmi-texniki sferada kompleks xarakterli innovasiya proqramlarının və layihələrin formalaşdırılması, onların icrasına dəstək vermək;
- Ali məktəblərdə innovasiya infrastrukturunun yaradılması və inkişafı;
- Texnoloji biznesə dəstək və onun inkişaf etdirilməsi;

- Alimlərin işləmələrinin əsasında kiçik elmtutumlu biznes inkubatorların yaradılması;
- Texnologiyaların transferi sisteminin inkişaf etdirilməsi;
- İnnovasiya yönümlü kiçik müəssisələrin fəaliyyətini dəstəkləmək;
- Elmi-tədqiqatların istehsalatla inteqrasiya edilməsi yolu ilə universitetlərin intellektual və iqtisadi bazasının möhkəmləndirilməsi;
- Müasir texnologiyaların və innovasiya məhsulunun ixracının yayılmasının stimullaşdırılması;
- Biznes-inkubator xidmətinin göstərilməsi;
- İstehsal injenirinqinin genişləndirilməsi.

Elmi-istehsalat assosiasiyaları eyni zamanda elmi-texniki koordinasiya və informasiya-məsləhət mərkəzləri kimi çıxış edə bilərlər.

Dövlət Statsitika Komitəsinin məlumatlarına görə, 01.01.2017-ci il vəziyyətinə ölkə ərazisində qeydiyyatdan keçmiş 86,5 min vahid kiçik müəssisələrin və təşkilatların 11,2 min vahidi və yaxud 13,0%-i Aran iqtisadi rayonunun payına düşür. Onların innovasiya aktivliyini artırmaq üçün Vençur firmalarının yaradılması da öz aktuallığını saxlamaqdadır. Vençur kapitalının uğurlu qoyuluşu investorlara 30-40% mənfəət gətirir.

Araşdırmalar göstərir ki, AİR-də 140,1 min nəfər fərdi sahibkar iqtisadiyyatın müxtəlif sahələrində məhsul istehsal edir, xidmətlər göstərirlər. Orada sənaye fəaliyyəti ilə 2044 nəfər fərdi sahibkar məşğul olur. Lakin belə bir sahibkar ordusunun fəaliyyətini tənzimləyən innovasiya infrastrukturu yoxdur. Odur ki, AİR-də coğrafi cəhətdən əlverişli olan şəhər (rayon) mərkəzlərinin birində - Fərdi Sahibkarların Assosiasiyasının (FSA) yaradılması bütün

sahibkarlara müxtəlif istiqamətlərdə köməklik göstərə bilər. Məlumat üçün qeyd etmək lazımdır ki, hələ 2012-ci ilin fevral ayında Azərbaycan "Gənc Sahibkarlar Şəbəkəsi" İctimai Birliyi yaradılmış və onun məqsədi sahibkarlar arasında əməkdaşlığın genişləndirilməsi, onların nəzəri əməli biliklərinin təkmilləşdirilməsi və investisiyaların cəlb olunmasıdır. Lakin belə ictimai birliyin əhatə dairəsi hələlik məhduddur, odur ki, SKMF və Azərbaycan Sahibkarlar Konfederasiyasının dəstəyi ilə tədqiq edilən rayon ərazisində FSA-nın yaradılması yerli fərdi sahibkarlara ölkə hüdudlarından kənarda da tərəfdaşlar tapmaqda və investisiya qoyuluşunda köməklik göstərmiş olacaqdır.

Hazırda iqtisadi cəhətdən inkişaf etmiş bir çox ölkələrdə innovasiya fəaliyyətinin stimullaşdırılması tələb olunan innovasiya məqsədləri və prioritetləri problemlərinin işlənilməsi, ekspert qruplarının yaradılması, onların müxtəlif idarə orqanları ilə qarşılıqlı əlaqələri vasitəsilə həll edilir. Tövsiyələri ilə razı olduğumuz A.H.Tağıyevin fikrincə, bizim respublikamızda həmin məsələ regional innovasiya infrastrukturu kimi "Elmi-texniki koordinasiya mərkəzi" tərəfindən həll edilə bilər. Həmin mərkəzin tərkibində müxtəlif iqtisadi fəaliyyət sahələrinin yüksək ixtisaslı, çoxillik istehsalat təcrübəsinə malik mütəxəssisləri, tədqiqatçı və alimləri cəlb etməklə ekspert şurası yaradılmalıdır. Yaradılacaq mərkəz şura üzvlərinin fəal iştirakı ilə aşağıdakı funksiyaları icra edə bilərlər:

- Regionun innovasiya inkişafının konsepsiyasının işlənilməsi;
- Regionun sosial-iqtisadi (elmi-texniki və innovasiya tədbirləri daxil olmaqla) inkişafının uzunmüddətli proqramının işlənilməsi;
- Regionun innovasiya layihələrinin formalaşması və onların resurs təminatı üzrə təkliflərin hazırlanması;

• İnnovasiya layihələrinin ekspertizası və icrada olan proqramların monitorinqinin keçirilməsi;

• İnnovasiya fəaliyyətinin inkişafı üzrə mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsinə dair əməli tövsiyələrin işlənilməsi;

• Regionda innovasiya fəaliyyətinin informasiya təminatının inkişafına köməklik göstərmək;

• Yerli büdcə vəsaitləri hesabına prioritet layihələrin güzəştli şərtlərlə maliyyələşdirilməsi;

• Regionun müəssisə və təşkilatları üçün perspektiv innovasiya layihələri paketinin formalaşdırılması, onların regional innovasiya inkişafı proqramına daxil edilməsi üçün ekspertizanın keçirilməsi;

• Regionun innovasiya inkişafının konsepsiyası və strategiyasının işlənilməsi, müəssisə və təşkilatların pasportunun formalaşdırılması, onların inkişaf prioritetlərinin seçilməsi;

• İnnovasiya texnologiyaları mübadiləsinin vahid informasiya mühitinin yaradılması;

• Regionun elmi-texniki və innovasiya inkişafının əsas göstəricilərinin monitorinqinin həyata keçirilməsi;

• İnnovasiya sferası üçün kadrlar hazırlanmasının təşkili;

• Elmi-texniki və innovasiya fəaliyyəti məsələləri üzrə yerli və beynəlxalq təşkilatlarla əməkdaşlıq;

• Elmi-texniki innovasiya fəaliyyətinin saxlanılması fondarı ilə qarşılıqlı əlaqə, regionda vençur investləşdirilmə fondunun yaradılması [31, s.57,58].

Xarici investisiyaların ölkəyə cəlb edilməsinin səmərəli formalarından biri müştərək müəssisələrin yaradılmasıdır. Milli iqtisadiyyatın formalaşması və inkişafı beynəlxalq iqtisadi əməkdaşlığın, onun mühüm forması olan müştərək sahibkarlığın genişləndirilməsini obyektiv zərurətə çevirmişdir.

**Müştərək müəssisə** beynəlxalq əməkdaşlığın çoxcəhətli formalara daxil olmaqla istehsal fəaliyyətinin təşkilinin xüsusi hüquqi forması kimi səciyyələndirilir. Müştərək müəssisə (MM) – istehsal, elmi-istehsal, elmi-texniki və başqa təsərrüfat fəaliyyəti məqsədilə yerli və əcnəbi bir və ya bir neçə hüquqi şəxs tərəfindən müqavilə əsasında yaradılır. Xarici və müştərək müəssisələrin yaradılması yolu ilə birbaşa investisiyaların ölkə iqtisadiyyatına cəlb olunması təmin edilir, xarici iqtisadi əlaqələr genişlənir və yeni istehsal modellərinin mənimsənilməsinə şərait yaranır.

Azərbaycanda fəaliyyət göstərən xarici və müştərək müəssisələr ölkənin innovativ iqtisadi inkişafı prosesində fəal iştirak edirlər. Belə iştirak aşağıdakılarla təzahür olunur:

- Ölkəyə investisiya axını təmin edilir;
- Yeni və yüksək ödənişli iş yerləri yaradılır;
- İstehsalın texniki-texnoloji səviyyəsinin yeniləşməsi hesabına məhsulun keyfiyyət göstəriciləri yaxşılaşır;
- Yeni məhsulların mənimsənilməsi və mövcud məhsulların modernləşdirilməsi prosesi sürətləndirilir;
- Müəssisələrin innovasiya aktivliyi artır, innovasiya məhsulunun xüsusi çəkisi yüksəlir;
- Fərdi və kreativ yaradıcılıq təşəbbüsü dəstəklənir və səlahiyyətli menecer komandası formalaşır;
- Məqsədli investisiya-innovasiya layihələri uğurla icra edilir;
- Tullantısız və ya az tullantılı texnologiyaların tətbiqi hesabına ekoloji təhlükəsizliyə təminat yaradılır;
- İstehsalın diversifikasiyasının genişləndirilməsi hesabına idxalı əvəz edən və ixrac yönümlü məhsulların çeşidi, eləcə də həcmi çoxalır, yeni, geniş çeşidli xalq istehlakı mallarının istehsalı genişlənir;

➢ Beynəlxalq standartların tətbiqinə imkan yaranır;

➢ Mülkiyyət forması dəyişir, yeni innovasiya infrastrukturu yaradılır, institusional dəyişiklik baş verir;

➢ Strateji planlaşdırmaya və idarəetməyə üstünlük verilərək uğurlu idarəetmə qərarları qəbul edilir;

➢ Ölkənin iqtisadi fəaliyyət sahələri üzrə məhsulun (işin, xidmətin) həcmi daha yüksək templə artır;

➢ Az inkişaf etmiş ərazilərin sosial-iqtisadi dirçəlişinə imkan yaranır;

➢ Daxili bazarın tələbatını və ölkənin istehsal potensialını artırmaq üçün yeni faydalı qazıntı yataqları mənimsənilir;

➢ Konsaltinq və marketinq üzrə kadrların hazırlanması sahəsində xarici təcrübədən istifadə edilir və s.

Lakin təəssüflə qeyd edilməlidir ki, sadalanan çoxsaylı üstünlüklərə malik xarici və müştərək müəssisələr Aran iqtisadi rayonunun ərazisində lazımi səviyyədə təşkil edilməmişdir. ARDSK-nın məlumatlarına görə, 2017-ci ilin əvvəlində orada cəmi 23 adı çəkilən təyinatlı müəssisələr fəaliyyət göstərmişdir. Onların istehsal etdiyi məhsulun (işin, xidmətin) həcmi 395,6 mln.man. təşkil etmişdir ki, bu da AİR üzrə ümumi məhsul buraxılışının cəmi 7,9%-ni təşkil etmişdir. Yerinə yetirilən işin 52,3%-i Şirvan şəhəri və Neftçala rayonunda fəaliyyət göstərən müştərək neftqazçıxarma idarələrinin payına düşmüşdür. Deməli, tədqiq edilən iqtisadi rayonun qeyri-neft sektorunda xarici və müştərək müəssisələrin yaradılması və inkişafı yaxın dövr üçün həllini gözləyən mühüm iqtisadi məsələlərdən biridir.

Hesab edirik ki, yuxarıda qeyd edilən innovasiya infrastrukturları ilə yanaşı Aran iqtisadi rayonunun əlverişli bölgələrində digər alternativ strukturların yaradılması mümkündür. Onlara:

- Regional maliyyə-sənaye assosiasiyasını;
- Sənaye və xidmət məhəllələrini;
- Ərazi istehsal klasterlərini;
- İnzibati-biznes assosiasiyasını və digərlərini aid etmək olar.

İqtisadi rayonda sahibkar firmaların səmərəli idarə edilməsi üçün müstəqil audit, konsaltinq və injeniring xidmətlərindən geniş istifadə edilməsi müasir dövrün tələbindən irəli gəlir.

İnnovasiya sahibkarlığının üzvi tərkib hissəsi kimi çıxış edən İKT-dən iqtisadi rayonda geniş istifadə edilməsi üçün aşağıdakıların yaradılması məqsədəuyğun hesab edilir:

- İqtisadi rayon və onun ayrı-ayrı bölgələri üzrə elektron kənd təsərrüfatı informasiya sistemi;
- Kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı sistemi;
- Elektrik şəbəkələrinin intellektual sayğacla idarəetmə sistemi;
- Kənd təsərrüfatının sahələri üzrə internet portalının və elektron kataloqun təşkili;
- Şəhər və qəsəbələrin təsərrüfat subyektlərinin, bələdiyyələrin texniki-iqtisadi və sosial pasportunun işlənilməsi;
- İqtisadi rayonun əhalisinin bütün təbəqələrinə "Elektron-sağlamlıq-kartı" sisteminin şamil edilməsi;
- Turizm fəaliyyətinin İKT vasitəsi ilə təşviq edilməsi.

## İstifadə edilmiş ədəbiyyatlar

*Normativ-hüquqi sənədlər*


1. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Biznesmenin Bülleteni (BB) №43 Bakı, 2001, 12 s.
2. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. BB №26 Bakı, 2001, 21 s.
3. "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. BB №37, Bakı – 2002.
4. Kiçik və orta sahibkarlığın inkişaf proqramı (2002-2005). BB №40, Bakı – 2002.
5. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı, "Xalq" qəzeti, 15 aprel, 2009-cu il.
6. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 2012, 40 s.
7. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Respublika" qəzeti 23 oktyabr 2013-cü il, səh. 4-5.
8. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya. "Respublika" qəzeti 3 aprel 2014, səh. 5-6.
9. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı, "Respublika" qəzeti, 18 yanvar, 2014-cü il.
10. "Texnologiyalar parkı haqqında əsasnamə"nin təsdiq edilməsi üzrə Azərbaycan Respublikası Prezidentinin sərəncamı "Respublika" qəzeti, 16 may 2014-cü il.

11. “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, “Respublika” qəzeti, 9 oktyabr 2014-cü il.
12. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Bakı, “Respublika” qəzeti, 27 dekabr 2014-cü il.
13. Mingəçevir Yüksək Texnologiyalar Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. “Respublika” qəzeti, 27 fevral, 2015.
14. Mingəçevir sənaye parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. “Respublika” qəzeti, 28 fevral, 2015.
15. “Neftçala sənaye Məhəlləsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, “Respublika” qəzeti, 3 fevral 2015-ci il.
16. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”
17. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”
18. “Sabirabad sənaye məhəlləsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, “Xalq” qəzeti, 28 noyabr 2017-ci il
19. “Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı.

*Statistik məcmuələr, bülletenlər, hesabatlar*

20. Azərbaycanın Statistik Göstəriciləri. Bakı, "Səda" , 2014, 812 s.; 2015 – 814 s; 2017-812 s.
21. Azərbaycan rəqəmlərdə. Qısa Statistik Məcmuə. Bakı, "DSK", 2015, 274 s; 2017-286 s.
22. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, "DSK", 2014, 338 s.; 2015 – 344 s; 2017-344 s.
23. Azərbaycanda tikinti. Statistik məcmuə. Bakı, "DSK", 2014, 388s ; 2015 – 368 s; 2017-372 s.
24. Azərbaycanın regionları. İllik statistik məcmuə. Bakı, "Səda", 2009, 660 s.; 2010 – 652 s.; 2011 – 768 s.; 2012 – 772 s.; 2013 – 777 s.; 2014 – 778 s.; 2015 – 834 s.
25. Azərbaycanın xarici ticarəti. Bakı, "DSK", 2015, 258 s; 2017-228 s.
26. ARDSK-nın "Sosial, iqtisadi inkişaf" Aylıq statistik məcmuə. № 12. Bakı, "DSK", 2014, 210 s.; 2015, 203 s; 2016.
27. ARDSK-nın "2010-2015-ci illərdə xarici və müştərək müəssisələrin işinin əsas göstəriciləri" illik statistik məcmuələr. Bakı, 2010, s. 37-40; 2010 - s. 36-38; 2015 – s. 25-28.
28. Böyük İqtisadi Ensiklopediya. IV cild, Bakı, "Şərq-Qərb", 2012, 592 s.

*Azərbaycan dilində ədəbiyyatlar*

29. Qasımov F.H., Əliyev T.N., Nəcəfov Z.M. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı, "Elm və Təhsil", 2013, 680 s.
30. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı, "Zaman", 2002, 618 s.

31. Əliyev T.N. Zərdab rayonu: regional innovasiya proqramı (2014-2018-ci illər). Bakı, “APOSTROFF”, 2014, 112 s.
32. Əliyev T.N. Abşeron rayonu: regional innovasiya proqramı. (2015-2020-ci illər). Bakı, 2015, 160 s.
33. Əliyev T.N., Həsənov Ə.H., Əsədov X.Ə. İnnovasiya sahibkarlığının əsas xüsusiyyətləri və təşkilinin səmərəliliyi. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. №2 Bakı, Elm, 2010, s.5-12.
34. Əliyev T.N., Babayev L.B. Regional innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı, “Elm və Təhsil”, 2013, 272 s.
35. Əliyev T.N., Babayev L.B. Regional İnnovasiya Proqramının tərtibatı üzrə metodiki tövsiyələr. Bakı, “APOSTROFF”, 2012, 72 s.
36. Tağıyev A.H. İnnovasiya. III broşura. Bakı, “Təknur”, 2012, 64 s.

*Rus dilində ədəbiyyatlar*

37. Андреев А.В., Борисова Л.М., Плучевская Э.В. Основы региональной экономики. М., «КНОРУС», 2015, 334 с.
38. Бирман Л.А., Кочурова Т.Б. Стратегия управления инновационными процессами. М., «Дело», 2014, 144 с.
39. Вдовин С.М. Стратегия и механизмы устойчивого развития региона. М., ИНФРА – М., 2015, 154 с.
40. Вилисов В.Я., Вилисова А.В. Инфраструктура инноваций и малые предприятия: состояние, оценки, моделирование. М., ИНФРА – М., 2015, 228 с.
41. Наумов В.Н. Организация предпринимательства. СПб. «Питер», 2010, 384 с.
42. Наумов В.Н. Основы предпринимательской деятельности. М., ИНФРА – М., 2014, 313 с.

43. Попов Р.А. Региональное управление и территориальное планирование. М., «ИНФРА - М», 2015, 288 с.

*İnternet mənbələri*

44. http://www.anspress.com/iqtisadiyyat/24-06-2015/
45. http://www.index.php/az/ictimai-m-lumat/
46. http://az.trend.az/business/economy/2450025.html
47. http://president.az/articles/21140
48. http://www.azerbaijan.az/portal/Economy/region
49. http://www.budget.azbudget/upload/files/dovlet_maliyye_glossary.pdf
50. http://salyanplastmas.ucoz.com/index/ana_s_hif/0-15
51. http://www.agcabedi-ih.gov.az/172html
52. http://www.azerbaijans.com/content_717_az.html
53. http://azertac.az/xeber-863182
54. http://www.kurdemir_ih.gov.az/429html
55. https://www.president.az/articles/11312
56. http://olaylar.az/news/sosial/116749
57. http://www.iccia.com/sites/default/files/library/files/tehsil_elm_medeniyyet.pdf

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

Çapa imzalanmışdır: 05.07.2018.

Kağız formatı: 60x84 1/16.

Fiziki çap vərəqi: 14.

Tiraj: 1000.

“MSV NƏŞR” mətbəəsində çap olunmuşdur.

Ünvan: Bakı ş, Yasamal r, Mətbuat pr, 18/7.

Tel:. 012 539 54 69.

Mob:. +99455 640 00 94.

E-mail: mb.valeh@gmail.com.